Azərbaycanın görkəmli adamları

**ŞƏMİSTAN NƏZİRLİ**

# AZƏRBAYCAN GENERALLARI

**BAKI**
**GƏNCLİK**
**1991**

**Rəyçi**: Azərbaycan SSR Elmlər Akademiyasının müxbir
üzvü Qaraş Mədətov

**Redaktoru:** Tahirə Muxtarova

**Nəzirli Ş.Ə.**

**N 50** Azərbaycan generalları. B.; Gənclik, 1991, 208 səh.

Yazıçı-jurnalist Şəmistan Nəzirlinin oxuculara təqdim olunan "Azərbaycan generalları" kitabı uzun illər aparılan axtarışların və gərgin zəhmətin bəhrəsidir. Tarixi sənədlərin şahidliyi ilə yazılan bu əsərdə indiyədək adı heç yerdə çəkilməyən inqilabdan əvvəlki general oğullarımızın əvəzsiz xidmətləri qələmə alınıb. Kitabda ilk dəfə ötən əsrdə döyüşkənliyi ilə ad-san qazanmış Kəngərli, Qazax, Gəncə, Qarabağ və Borçalı süvari alaylarının, həmçinin Sovet dövründə fəaliyyət göstərən azərbaycanlı generalların qəhrəmanlığından söhbət açılır. Azərbaycan Demokratik Hökumətinin hərb tarixinə parlaq səhifələr yazmış S.Mehmandarovun, Ə.Şıxlinskinin, İ.Vəkilovun, İ.Usubovun misilsiz xidmətlərindən bəhs olunur.

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz **4**

**Tarixdə ad qoyub qəhrəmanlarım**

General Naxçıvanskilər **10**
Kəlbəli xan Naxçıvanski **10**
Hüseyn xan Naxçıvanski **12**
Cəmşid xan Naxçıvanski **14**
General Fərəc bəy Ağayev **17**
General-leytenant Ərəblinski **19**
General Bakıxanovlar **21**
Şair, alim, general Bakıxanov **22**
General Həsən ağa Bakıxanov **28**
General Abdulla ağa Bakıxanov **28**
General Həsən bəy Ağalarov **30**
Yadigarov qardaşları **31**
General Mirkazım bəy Talışxanaov **37**
General Əsəd bəy Talışxanaov **39**
Qəribə tale **40**
Uzun ömrün səhifələri **46**
Yaralı söhbət **51**
Solmayan şöhrət **54**
General Səməd bəy Mehmandarov **78**
Şamaxı tərlanı **89**
General Hacıbaba Zeynalov **91**
General Heybət Heybətov **94**
General Əjdər Xaspoladov **100**
General Kamil Məmmədov **103**

**Düşdü qılınc kimi ortadan Araz..**

General Cəfər Məmmədzadə **107**

**İgidi qılınc yox, qeyrət yaşadar**

İki sərkərdə **111**
Port-Artur qəhrəmanları **113**
İlk səma şahinimiz **115**
İkinci Azərbaycan təyyarəçisi **119**
İntizarın sonu **121**
Yanlış da bir naxışdır **126**

# ÖN SÖZ

Mənim də əlimdən, bu gəlir ancaq,
Səni keçmişinlə eləyim tanış.
Başuca yaşamaq istəsən əgər,
Bax, gör babaların necə yaşamış.

**Bulud Qaraçorlu Səhənd**

**GƏNC OXUCU!** XIX əsrin ortalarından bəri Azərbaycan hərb tarixinin bir hissəsini özündə əks etdirən "Azərbaycan generalları" kitabı sənin üçün yazılıb. Burda ulu sərkərdələrimiz Cavanşirin, Babəkin, Koroğlunun, Şah İsmayıl Xətainin, Səttarxan və Bağır xanın döyüş ənənələrini davam etdirən, silahını paslanmağa qoymayan general oğullarımızın həyat yolu ilk dəfə toplu halında sənə təqdim olunur.

Hələ qədimdən Azərbaycanda elə nəsillər, elə qəbilələr olub ki, onlar öz döyüşkənliyi ilə təkcə Qafqazda yox, hətta Avropada da tanınıblar. Naxçıvanda Kəngərlilər, Bakıda Bakıxanovlar, Qazaxda Şıxlinski və Vəkilovlar, Borçalıda Yadigarovlar, Şəkidə Çələbilər, Gəncədə Cavadxanlar, Qarabağda Cavanşirlər, Lənkəranda Talışinskilər və başqaları kimi el qeyrəti çəkən, ana torpağın, başı üstünü təhlükə alanda birləşib ayağa qalxan, onun hər qarışı uğrunda canlarından keçən oğullar yetişib.

Tarixi sənədlər şahiddir ki, onların arasında yüksək rütbəli hərbçilər - generallar da olub. O vaxtkı tarixi şəraitə görə, onların bəziləri hərbçi kimi, döyüşkən igid kimi ad - san qazansalar da yüksək hərbi rütbə ala bilməmişlər. Bu isə çarizmin qatı müstəmləkəçilik siyasətindən və türkdilli xalqlara inamsızlığından irəli gəlirdi.

Qafqaz Əlahiddə Ordusunun komandanı general-feldmarşal İ.F.Paskeviç 1826-cı ildə Peterburqa göndərdiyi raportda birinci və üçüncü Azərbaycan alaylarının igidliyini, döyüşlərdə qeyri-adi şimşək sürətilə fərqlənən Qarabağ və Qazax suvarilərinin mərdliyinə valeh olduğunu qeyd edirdi.

"Onlar bütün döyüşlərdə çox böyük cəsarətlə vuruşurlar. Hücumlarda isə irəlidə gedirlər... bayraqların, topların və əsirlərin çoxunu onlar zəbt etmişlər".

Azərbaycan alaylarının igid döyüşçüləri yerli xanların, bəylərin övladlarından təşkil olunmuşdu. 1829-cu ildə torpağımızı yadellilərdən qoruyan dörd süvari alayı yaradılmışdı. Birinci alay qarabağlardan, ikinci alay şirvanlılardan və şəkililərdən, üçüncü alay Gəncə, Qazax, Şəmşəddin və borçalılardan dördüncü alay isə İrəvan azərbaycanlılarından və naxçıvanlılardan təşkil olunmuşdu. Naxçıvandakı, qədim, Kəngərli qəbiləsinin igidlərindən isə xüsusi-beşinci alay yaradılmışdı. Onlar öz döyüşkənliyi ilə daha çox fərqlənirdilər. "Kavkaz" qəzeti 1890-cı il 6 noyabr tarixli nömrəsnndə bu barədə yazırdı:

"Döyüşkənliyi ilə bütün Qafqazda məhşur olan Kəngərlilər Zaqafqaziya sakinlərindən geri qalmaq istəməzdilər. Onlar ağa və bəylərinin rəhbərliyi ilə xüsusi süvari dəstələri təşkil edib, bütün döyüşlərdə bizim qoşunlarla çiyin-çiyinə mərdliklə vuruşdular".

Yeri gəlmişkən, 1913-cü ildə çap olunmuş "Qafqaz hərbi-tarix muzeyinin sorğu kitabı"ndakı bir qeyd igid Kəngərlilərin təkcə Qafqazda deyil, bütün Şərqdə şöhrət tapmasından xəbər verir:

"Kəngərli süvarilərinin bayrağı yaşıl olub. Əfsanəyə görə ilk Naxçıvan xanı xəlifə Murad özünün Kəngərli qəbiləsi ilə Ərəbistandan köçüb gəlmişdir. Bu qəbilə Araz çayının sahilinə gələrək Naxçıvanda xanlığın əsasını qoymuşdur. Kəngərli suvariləri bütün Şərqdə cəsurluğu ilə

şöhrət qazanmışdılar. Onlar döyüşə girərək ölümə nifrət əlaməti olaraq atlarının boynuna qırmızı kaporlar taxardılar ki, düşmən tərəfindən tez gözə çarpsınlar”

Başqa bir mənbə isə Kəngərlilərin Ərəbistandan gəlməsini inkar edir. Rus tarixçisi Viktor Qriqoryev Sankt-Peterburqda çap etdirdiyi “Naxçıvan əyalətinin statistik təsviri” kitabında yazır ki, Kəngərli tayfaları Türkiyə ərazisindəki Diyarbəkirdən Naxçıvana gəliblər. Onlar doqquz yüz iyirmi ev olublar. Kəngərlilər döyüşkən, işgüzar, uzun müddət aclığa dözən adamlardılar, hərbçidirlər. Qonaqpərvər, dostluqda möhkəm, lakin çox məğrur və qürurludurlar.

Hələ 1806-10-cu illərdə Zaqafqaziya Rusiya ilə birləşəndə Qarabağ hakimi İbrahimxəlil xana general-leytenant, oğlu Məmmədhəsən ağaya, Mehdiqulu xana və Cəfərqulu ağaya isə general-mayor rütbəsi verilmişdir. Şəki hakimi Cəfərqulu xan Şəkinski də general-leytenant idi. Bunlar xanlıqlara başçılıq edən əsil-nəcabətli şəxsiyyətlər idi.. Çar üsul-idarəsi yerli hakimlərə ona görə ali rütbə vermişdi ki, məhz onların vasitəsilə yerli əhalini özlərinə tabe etsinlər.

Gənc oxucu, əgər sən akademik M.V.Neçkinanın “Qriboyedov və dekabristlər” kitabını mütaliə etsən, onun iki yüz qırx dördüncü səhifəsinə diqqət yetir. Orada oxuyacaqsan ki, qarabağlı Rüstəm bəy Fransa imperatoru Napoleon Bonapartın şəxsi yavərlərindən biri olub. Napoleonla birgə İspaniya, Misir yürüşlərində iştirak edib. Qeyri-adi igidliyinə görə Vaqram döyüşlərində şəxsən imperatorun özü onu Fransanın ali hərbi Legion ordeni ilə təltif edib.
Napoleon Bonapart Moskvaya hücum edəndə qarabağlı Rüstəm bəy əsir alınıb. Az sonra Qarabağa qayıdıb. Sonralar onu general Aleksey Yermolov Qafqaz canşinliyində öz yanına işə dəvət edib. Ömrünün axırına kimi general Yermolovun yanında işləyib.

Bizə belə gəlir ki, Rüstəm bəyin ən aşağı rütbəsi polkovnik olub. Fransa imperatoru Napoleonun şəxsi yavəri kimi məsul vəzifə daşıyan, general Aleksey Yermolov kimi iliyinə qədər hərbçi olan adamın dəvəti ilə canişinliyə hərbi işə cəlb edilən Rüstəm bəyin aşağı rütbəsi ola bilməzdi.

Bu, Azərbaycan hərb tarixində açılmamış maraqlı səhifələrdən biridir. Görəsən, igid azərbaycanlı bəyi yüz yetmiş il bundan əvvəl Avropaya hansı yollarla gedib çıxıb? Bu igid eloğlumuzun müəmmalı, indiydək naməlum hərbi həyatı nə vaxt öyrəniləcək? Axı, Napoleon kimi sərkərdə hər yoldan ötənə belə bir fəxri ordeni verməzdi.

Vaxtilə onlar necə yaşamışlarsa, bu gün bizim borcumuz onları elə də xatırlamaqdır. Həyatın qəribə çalın-çarpaz cığırları var. Bu cığırlar yola qovuşana qədər min bir çətinliklərdən keçir. Hər oğul bu çətin cığırlardan keçib hamar yola çıxa bilmir. Biz bu yola çıxıb xalqımızın inkişafı uğrunda sidq-ürəklə çalışanları, torpağımızın hər qarışı uğrunda can qoyanları alqışlayırıq.

Bir sərkərdə oğlumuzun açılmamış həyat səhifəsinə mən qədim Gəncədəki İmamzadə məscidinin həyətində rast gəldim. Məzarın mərmər başdaşında solmaqda olan yazını oxuyanda unudulmuş igidin xatirəsi qəlbimi göynətdi. Orda yazılmışdı: “İkinci Qafqaz istehkamçı, batalyonunun komandiri polkovnik İlyas bəy Ağalarov. Təvəllüdü: yeddi iyun 1860-cı il. On səkkiz mart 1913-cu ildə həlak olub”. İllərin tufanı mərmər qəbir daşından onun sonuncu izini də silib aparır.

“Hər bir insanın içərisində onunla birgə doğulan və ölən kainat var. Hər bir başdaşı altında bütöv bir dunya tarixi yatır”.

Qax rayonundakı mərkəzi qəbiristanlıqda general Həsən xanın başdaşındakı yazıları oxuyarkən Henrix Heynenin bu müdrik sözlərini xatırladım.

General-mayor Həsən xan burda dəfn olunub. Kimdi Həsən xan, daha hansı döyüşlərdə iştirak edib, hansı xidmətlərinə görə general-mayor rütbəsinə layiq görülüb? Qəbir daşındakı qısaca yazıdan başqa yerli əhali də heç nə bilmir. Təəssüf ki, biz “başdaşı altındakı bütöv bir dünya tarixindən” bu günə kimi xəbərsizik.

Bakıda İçərişəhərdəki Mirzə Şəfi küçəsində bir ağbirçək ana yaşayır. Gövhər xanım Usubova ömrünün səksən ilini çoxdan arxada qoyub. Onunla tez-tez görüşürəm. Hər dəfə də inqilabdan əvvəl yaşayıb-yaratmış, xalqımıza misilsiz xidmət göstərən ziyalı babaları haqqında iftixarla söhbət açır:

- Mənim əmilərim, dayım, babalarım təkcə həkim, müəllim, din xadimi olmayıblar. Onların arasında hərbçi də olub, - deyir Gövhər xanım. 1858-ci ildə poruçik Paşa ağa Əmiraslan ağa oğlunun adına verilmiş bir sənədin əslini mənə bağışlayır.

Sənəddə göstərilir ki, 1856-cı il avqustun iyirmi altısında imperator II Aleksandr müsəlman süvari alayının döyüşçüsü Paşa ağa Əmiraslan ağa oğluna poruçik rütbəsi verilməsi şəxsən özü imzalamışdır. Bu fakt ona görə qeyri-adidir ki, milyonlarla əsgər və zabit heyəti içərisində eloğlumuz öz qəhrəmanlığı ilə necə seçilirdisə, ona verilən rütbəni imperiyanın birinci şəxsi - imperator II Aleksandr imzalamışdır.

İnqilabdan əvvəl Tiflisdə "Kavkazskiy kalendar" adlı illik bir məcmuə çap olunurdu. Onun səhifələrində o dövrün görkəmli ziyalılarının, hərbçilərin ünvanı və rütbəsi göstərilirdi. 1873-74 cü illərin "Kalendar"ında Qafqaz Əlahiddə Ordusunda xidmət edən müxtəlif rütbəli oğullarımızın da adları çəkilir. Əksəriyyətinin adına ilk dəfə rast gəldiyimiz üçün onları sizə təqdim edirik. General-mayor Yusif bəy Həsən bəy oğlu Ağalarov, Nikolay Nikolayeviç Ağayev (şuşalı general Fərəc bəy Ağayev), İsrafil bəy Yadigarov, Cəfər ağa Şəmşəddin ağa oğlu, polkovnik Ağa xan Şirvanlı, İsmayıl xan İsgəndər xan oğlu Xoyski, Həsən xan Mirzəağa bəy oğlu, Səlim bəy Yusif bəy oğlu, Həsən ağa Cəfərqulu ağa oğlu Bakıxanov, Əhməd ağa Cəfərqulu ağa oqlu Bakıxanov, Cavad xan Şirvanlı, Mirzə İbrahim bəy, Kəlbalı xan Ehsan xan oğlu, Rəşid xan Mehdili, mayor Mirzə Xudadat bəy Vəkilov, kazak leyb-qvardiyasının kornetləri Şahrux Mirzə, Xanbaba xan,[1] Məmmədəli Mirzə, Əbdülsəməd Mirzə və Nəsrulla Mirzə. (Bəhmən Mirzə Qacarın oğlanlarıdır. Onun yeddi oğlu rus ordusunda xidmət etmişdir).

Xalqımızın tarixi nə qədər zəngin olsa da, lakin hələ də qaranlıq səhifələr çoxdur. Bu "qaranlıqlar"a işıq salmağın, hər şeyi olduğu kimi yazmağın vaxtı çoxdan çatıb. Axı, bugünkü tarix, dünənkinin üzərində dayanır və təbiidir ki, dunənki "qaranlıqlar" bu gün açılmasa sabah daha yeni "qaranlıqlar"a körpü olacaq.

Otuzuncu illərin tuthatutları, qansızlıqları bizi elə vahiməyə salıb ki, ilan vuran ala çatıdan qorxan kimi, türk kəlməsindən qorxmuşuq. Dil və din qardaşlarımıza arxa çevirmişik, ona görə ki, milli bütövluyümüz olmayıb. Əsrlərin, illərin dolanbaclarında görkəmli oğullarımızı itirə-itirə gəlmişik. Azərbaycan Rusiyaya birləşdirildikdən sonra türklərə dostluğumuzu, qardaşlığımızı danmışıq. Hətta iş o yerə çatıb ki, məcburən dədə-baba familimizi də dəyişmişik. Səbəbi də o olub ki, ad-famillərimiz türk ad-famillərinə oxşayır. Pasportlarımızda "milliyyəti" sözünün qarşısında "türk" yazılardı. Sonra bu kiminsə xoşuna gəlmədi. Yuxarıdan gələn hansısa gizli tapşırığa əsasən pasportlarımız dəyişdirildi.

... Bütün bunlara baxmayaraq nə yaxşı ki, Türkiyə ilə Azərbaycanı bir-birinə bağlayan qan birliyi qırılmadı.

... Klassik şairimiz S.Ə.Şirvaninin "Təzxirə"sində "Osman bəy və Ömərbəy" adlı kiçik bir fəsil var. Şair burda iki şirvanlı, qardaşın igidlikdə, sərkərdəlikdə tayı-bərabəri olmadığını iftixarla yazır:

"Osman bəy şəhri Şamaxının xanzadələrindəndir. Qardaşı Ömər bəy ilə o cənab dövləti-əliyyeyi-Rusiyyədə sahibmənsəb və sahibvəzifə kimsənələrdən olmuşlar. Onlar kimi əhlikəmal və sahibcəmal və sahibzövq kimsənələr daireyi-Şirvanə gəlməmişdir. Hər ikisinin təbi olmağı məşhurdur və zikrixeyr ilə adları hər dildə məzxurdur. Cənab Ömər bəyi qayətdə xoşəhval və xoşməzaq deyirlər.

... Əlhəq bu iki qardaş kimi, yeganə daireyi-cahana gəlməmişdir. Tarixi hicrətin... də və tarixi məsihiyyənin... sənəsində Sultan - Rumun Fransa imdadıyla Rusiyyə ilə davaları olduqda Ömər bəy ləşkəri-Rusda sərləşkər idi. Ləşkəri-rus mülki-Karsda olan zamanlar Ömər bəy dövləti-Rusiyyədən rugərdan (incik düşən, üz döndərən - Ş.N.) olub, əsgəri-Rumə mülhəqq oldu. Dövləti-Rum Ömər bəy məzkuru həman öz mənsəbi və nişanı ilə qəbul edir və məvacib qərar qılıb, özlərinə sərəsgər etmşidir. Əlan məaliki-Rumda "Yaranan Ömər paşa" ismiylə məşhurdur.

---

1 Xanbaba xan M.F.Axundovun qızı Nisə xanımın həyat yoldaşı idi. (- Ş.N.).

Ömər bəy fərar edəndən sonra dövləti-Rusiyyə Osman bəyi tutub Sibirə göndərmişdi. Cənab Osman bəy də Sibirdən fərar edib, İstambulda qardaşına mülhəqq olmuşdur. Əlan Osman bəy döləti - Rumda sahibməvacib kimsənələrdəndir. Və Qustəntəniyyədə mərtəbeyi-muhəndislik ilə məşhurdur. Amma Ömər bəyin mərtəbəsi Osman bəydən əladır".

Burda adamın yadına müdrik babalarımızdan qalmış bir hikmət düşür: "Ağıllı adamların vücudu saf qızıl kimidir, hara getsələr, qiymətləri bilinər".

* * *

Hər bir xalq özünün tarixi abidələri, görkəmli şəxsiyyətləri ilə ölməzdir. Onlar millətin və xalqın qədimliyindən, qəhrəmanlığından soraq verir. Fəxrlə demək olar ki, tarixi şəxsiyyətlərdə xalqımızın bəxti gətirib. Xüsusilə, qəhrəmanlarımız və şairlərimiz qibtə ediləcək dərəcədə çoxdur. Başqa millətin, başqa xalqın tarixi şəxsiyyətini özününküləşdirmək üçün heç kəsin qapısına getməmişik və heç bir millətin oğlunu öz adımıza çıxmaq iddiasında da deyilik.

Bizdə Vəkilov familiyası hər yerdə fəxrlə çəkilir. Çünki bu familiya sevimli şairimiz Səməd Vurğuna məxsusdur. Hələ ötən əsrin əvvələrində bu familiyanı daşıyan görkəmli şair, dövlət xadimi, hərbçilər olub. Onlardan biri də Krım muharibəsinin (1853-55-ci illər) qəhrəmanı kapitan Mənsur ağa Vəkilov idi. 1855-ci il sentyabrın 12-də Qafqaz Əlahiddə Ordusu komandanın verdiyi əmrdə oxuyuruq:

"Üçüncü süvari-musəlman (Azərbaycan - Ş.N.) alayındakı qazaxlılardan ibarət sotniyanın komandiri, kapitan Mənsur ağa Vəkilova "İgidliyə görə" və üstü yazılı dördüncü dərəcəli "Müqəddəs Anna ordeni", Qazax - bəy polusotniyasından olan milis praporşiki Mir Mirzə Məhəmməd Şərif oğluna podporuçik rütbəsi, Borçalı bəy polusotniyasının vəkili Məmmədşah bəy Ağasultanova gümüş temlyak gəzdirmək hüququ və yunker rutbəsi, Qazax bəy polusotniyasından Mustafa ağa Eyyub ağa oğluna "İgidliyə görə" və üstü yazılı gümüş medal, Qazax sotniyasından Mustafa ağa Mirzəli ağa oğlu Vəkilova gumuş temlyak gəzdirmək hüququnda yunkerlik rutbəsi verilsin" (Bax. "Kavkaz" qəzeti, № 85, 24 sentyabr 1855-çi il).

Professor Satur Arayan özünün 1978-çi ildə nəşr etdirdiyi "Erməni xalqının tarixi taleyində Rusiyanın rolu" monoqrafiyasında (səh. 210-211-də) kapitan Mənsur ağa Vəkilovu oxucuya erməni "Martiros Vekilev" kimi təqdim edir. Hələ 1826-cı ildə Şamxor və Gəncə, Lori-Pənbək rayonunda, Dilican dərəsindəki döyüşlərdə Qazax süvari dəstəsinin iranlılara qarşı göstərdiyi qəhrəmanlıqlar xalqımıza yaxşı məlumdur. Raport və əmrlərdə kapitan Mənsur ağa Vəkilovdan danışılanda "M.Vekilov" yazılırdı. Görünür professor Ağayanın əlinə girəvə də buradan düşüb. Yuxarıda gətirilən sitat da onun əsassız olduğunu sübut edir.

Əgər professor Ağayan Alahiddə Qafqaz korpusunun baş komandanı general N.N.Muravyovun "Kavkaz" qəzetində dərc olunmuş əmrini oxusaydı, görərdi ki, genaral N.N.Muravyov kapitan Mənsur ağa Vəkilovun başçılıq etdiyi Qazax süvari dəstəsinin hərbi əməliyyatlardakı qəhrəmanlığını bir neçə dəfə neçə yüksək qiymətləndirir. Yəqin ki, oxuyub, amma onu Mənsur ağa Vəkilovun qəhrəmanlığından çox ad-familiyasını dəyişdirib "Martiros Vekilev", bəzən də "Vəkilyan" eləmək düşündürüb. Bu isə erməni xəstəliyinə tutulanlardan birinin xalqımıza qarşı növbəti "hücumlarından"dır.

Borçalının Təkli kəndindəki nüfuzlu Yadigarovlar nəsli də adlı-sanlı generallar və hərbçilər yetişdirib. Təəssüf ki, bizim qəflət yuxusuna getməyimizdən istifadə edən ermənilər onları öz adlarına çıxaraq "Ediqaryan", gürcülər isə "Ediqaraşvili" kimi yazırlar.

Diqqətlə axtarsaq belə faktlardan lap çox tapmaq olar.

* * *

Generallarımız təkcə hərb sahəsində deyil, xalqın maariflənməsi sahəsində də fəal iştirak etmişlər. 1849-cu ildə Şamaxıda məktəb açmağa cəhd edən yerli əhalinin köməyinə general İsmayıl bəy Qutqaşınlı, kapitan Şirəli bəy, poruçik Mehdi bəy gəlmişdilər. Bu xeyirxah işdə hərbçi oğullarımız maddi cəhətdən maarifçilərə yaxından kömək etmişlər. 1883-cü ildə

Lənkəran məktəbinə mebel əldə etmək üçün polkovnik Miribrahim xan Talışinski iki yüz üç manat məbləğində ianə vermişdir. Naxçıvanda general Ehsan xan Kəngərlinin oğlu kapitan İsmayıl xan və general Kəlbalı xan dədə-baba mülkünü pulsuz istifadə üçün məktəbə vermişlər.

General-leytenant İsmayıl xan 1896-cı ildə Naxçıvandakı "Tərbiyə" məktəbinin həyatində öz hesabına hovuz və fəvvarə düzəltdirmişdir.

Belə hərbçi oğullarımızın həyatına gur işıq tutan məşhur ədəbiyyatşünasımız Firidun bəy Köçərli qazaxlı şair Mustafa ağa Nasirin (1824-1883) əsil-nəcabətindən danışanda yazır:

"Mustafa ağanın padəri - valları podpolkovnik Həsən ağadır ki, o da nəcabətü şücaətdə məşhur namdar və öz əsrində sahibi-hökumətü iqtidar bir bəy imiş. Cümlə övladü ənsabı cəddibüzürgüvarları Qiyas bəy nisbətlə "Qiyasbəyzadələr" deməklə beynələnam müştəhir və bənamdırlar.

Mustafa ağa Dağıstan davasında çox sədaqət və hünərlər göstərib çin almışdı və iki il Varşavada qalıb rus və firəng dillərini kifayətincə öyrənmşidi. Lakin necə ki, dəfəat ilə təçrübə olunubdur, Mustafa ağanın hünər və sədaqətləri dövlət nəzərində qədrü-qiymətsiz qalıb və hətta onun haqqında aşkarən ədalətsizlik vüqua gəlməyə görə, Mustafa ağa öz vətəninə müraciət edib və üzlətü fərağət guşəsini ixtiyar qılıb, vaxtlarını ibadətdə və təhsili-ülumu maarifdə keçiribdir."

Xalqımızın taleyində müəyyən xidmətləri olmuş general oğullarımızın haqqını dana bilmərik. Kimə daha çox xidmət etmələrindən asılı olmayaraq bu generallar, bu hərbçilər bizim xalqın, oğullarıdır. Mövcud tarixi şəraiti, inamı, hərbi andı yada salmaqla biz onları haradasa buraxdıqları səhvə görə bağışlamalıyıq. Tariximizin zənginliyi naminə güzəştə getmək borcumuzdur. Bunların arasında elələri də olub ki, adını, atasının adını dəyişsə belə (bunlar cəmisi iki nəfərdir - şuşalı Fərəc bəy Ağayev və bakılı Heybət Heybətov) xalqımıza xidmətdə dönük çıxmayıblar. Bunların haqqında ruslar ona görə yazmırlar ki, Azərbaycan xalqının oğludurlar. Biz də yazmırıq ki, "dönük" çıxıblar. Bəs onda necə olsun? Bu general oğullarımızın həyat yolu öyrənilməsin? Bax, elə burda xalq yazıçımız İsmayıl Şıxlının sözlərin xatırlamamaq olmur.

"Hər fərdin bioqrafiyası olduğu kimi, hər nəslin də özünə məxsus bioqrafiyası var. Bu bioqrafiyalar müxtəlif şəraitdən, müxtəlif tarixi dövrlərdən keçdiyi üçün müxtəlifdir. İnsanların taleyi olduğu kimi, nəsillərin də taleyi var. Bu taleləri sonradan pisləmək, yaxud dəyişdirmək olmaz. Onların üstündən xətt də çəkmək olmaz. Onları necə varsa, eləcə də qəbul etmək lazımdır. Əgər sonradan gələnlər özlərindən əvvəlkiləri inkar etsələr, onu yoxa çıxartmağa çalışsalar, tarixin mərhələlərində bir boşluq əmələ gəlir" ("Bakı" qəzeti, 29 sentyabr 1987-ci il).

Siz bu kitabda hər bir azərbaycanlı generalın başqa təltifatlarla yanaşı Müqəddəs Anna ordeni ilə təltif olunduğuna mütləq rast gələcəksiniz. Şübhəsiz ki, təəccüb edəcəksiniz. Bunun da səbəbi var. 1815-ci ildə təsis olunmuş bu ordenlə rus ordusunda ilk dəfə qəhrəmanlıq göstərən qeyri-xristianlar təltif olunurdu. Bu da müsəlmanlara inamsızlığın birforması idi.

Rus-yapon müharibəsi hələ yenicə başlayanda batareya komandiri kapitan Əliağa Şıxlinski göstərdiyi rəşadətə görə Peterburq Georgi Dumasının qərarına əsasən dördüncü dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilir. Lakin təkcə Şıxlinskinin özü yox, hətta onun rus zabit dostları və komandiri belə bir təltifatın Şıxlinski kimi cəsur zabitə verilməsini təhqir hesab edirlər. Haqsızlığa bax ki, Şıxlinskinin tabeliyində olanlar belə ondan yüksək ordenlə təltif olunmuşdular.

"Yaponların böyük bir hüçumu dəf edildikdən sonra, bir neçə gün sakitlik oldu. Qərb cəbhəsinin rəisi, briqada komandiri polkovnik Vladimir Aleksandroviç İrman şərq cəbhəsi ilə tanış olmaq üçün yanımıza gəldi. Bir qədər bizimlə bir yerdə olduqdan sonra, birdən gözü papağımdakı Anna qırmızı qotazına və "İgidliyə görə" sözləri yazılmış dördüncü dərəcəli "Müqəddəs Anna" ordeninə sataşdı. Bu orden kiçik döyüş mükafatı idi.

Vladimir Aleksandroviç dedi:

- Lap xəcalət çəkməlidir. Əliağa kimi igid bir zabiti bu vaxta qədər başqa bir şeylə mükafatlandırmamışıq. Halbuki, qala komendantı özü onu təltif edə bilərdi. - Sonra polkovnik İrman ayağa qalxdı və məni qucaqlayaraq əlavə etdi:

- Belə adamı təltif etmək nə qədər xoşdur.

Türkiyə ilə müharibədə Anna xaçı alan bir kapitan, bundan pərt olaraq, onu itin boynundan asmışdı”[2]

Gənc oxucu, bizim keçmiş generallarımızın taleyi müxtəlif arxiv sənədlərində, Rusiyanın ayrı-ayrı şəhər arxivlərində toz basa-basa yatıb qalır. Vaxt gələcək, onların döyüş yolu yazılmış sənədlər çürüyüb məhv olacaq, itib-batacaq. Onda gələcək nəslə onların şan-şöhrətindən, Vətənə, xalqa xidmətlərindən heç nə gedib çatmayacaq. Onların izi belə qalmayanda, o nəsil bizi lənətləyəcək və gələn yeni nəsil bunu bağışlamayaçaq. Məhz ona görə də xidmətləri xalqımıza hələ - yaxşı, məlum olmayan şöhrətli generallarımızın, hərbçilərimizin tozlu qovluqlarına əl uzadıb onları açmalı, yazmalıyıq. Yazmalıyıq ki, Azərbaycanımızın hərb tarixindəki qaranlıq səhifələr üzə çıxsın.

Əziz oxucu! Bir vacib məsələni də nəzərinizə çatdırmaq istərdim. Əgər sən bu kitabda “müzəffər Sovet Ordusu”, “azadlıq gətirən Qızıl Ordu”, “xilaskar rus ordusu” kimi ifadə və sözlərə rast gəlsən bil ki, bunlar ayrı-ayrı kitablardan və arxiv sənədlərindən götürülmüş sitatlardandır. O ki qaldı rus ordusunun, ümumiyyətlə sovet ordusunun “müzəffər yürüşünə” və son vaxtlar ona qarşı azalan inam hissinə, qoy buna milyonlarla xalqın taleyi ilə oynayan tək-tək adamlar, xalqların azadlıq uğrunda mübarizəsini silah gücünə yatızdıranlar, bir sözlə, ordunu xalqa qarşı qaldıranlar cavab versinlər. Tarix qarşısında, insanlıq qarşısında!

Hər bir generalın həyat yolu ilə bağlı sənədlərlə işləyəndə böyuk qazax yazıçısı Muxtar Auezovun bir cümləsini istər-istəməz xatırlayıram:

“Gecikmiş yolçu çoxdan ötüb keçən karvanın tərk etdiyi ocaq külü içindən közərən bir kömür parçası taparaq, onu ehtiyat və qayğı ilə üfləyib, öz nəfəsilə od əmələ gətirdiyi kimi, mən də bu xatirələrə ehtiyat və qayğı ilə yanaşmalı olurdum”.

Bu cümlə qarşıma çıxan çətinlikləri sanki unutdururdu. Mən daha böyük həvəslə, məsuliyyətlə onların ömür yolunu öyrənmək istəyirdim. Buna nə dərəcədə nail olmuşam, harda səhvlərim, büdrəmələrim olubsa, onlar sizinlə görüşdə üzə çıxacaq. Çəkdiyim zəhmətə də siz qiymət verəcəksiniz.

Uzun illərlə apardığım axtarışlardan sonra müəyyən etmişəm ki, inqilabdan əvvəl və sonra səksəndən çox generalımız olub. Hələlik onların bir neçəsi haqqında yazılarımı sizə təqdim edirəm.

---

2 Ə.Şıxlinski “Xatirələrim”, Bakı, 1984-cü il, səh. 69—70).

# TARİXDƏ AD QOYUB QƏHRƏMANLARIM

> Azərbaycan xalqının hər sahədə böyük nümayəndələri var. Ordu sıralarında, hərbi aləmdə bizim böyük mütəxəssislərimiz - generallarımız çox olmalıdır... Xalqımız üçün hərbi dühalar yetirin! Bu da yalnız uzun müddətordu sıralarında xidmət etməklə və hərbi elmlərə sahib olmaqla mümkün olacaqdır!
>
> **Səməd Vurğun**

## GENERAL NAXÇIVANSKİLƏR

### KƏLBALI XAN NAXÇIVANSKİ

Nə Azərbaycan, nə də rus hərb tarixi general-mayor Kəlbalı xan Naxçıvanskinin anadan olduğu ili saxlamayıb. Ümid verən arxivlərdə, inqilabdan əvvəlki hərbi-tarixi mənbələrdə nə qədər axtardıqsa, onun təvəllüdünü dəqiqləşdirə bilmədik. İnqilabdan əvvəlki ədəbiyyatlarda general Kəlbalı xan Naxçıvanskinin bir neçə yerdə səthi də olsa, adı çəkilir və hərbi fəaliyyəti qeyd olunur.

Kəlbalı xan, Naxçıvanın sonuncu hakimi Ehsan xanın oğludur. Zaqafqaziya Rusiya ilə birləşəndən sonra generallıq rütbəsi alan Ehsan xan, 1828-ci il fevralın onunda Rusiya ilə İran arasında Türkmənçay sülh müqaviləsini imzalayanlardan biri olmuşdur. O, burada İrəvan və Naxçıvan xanlığının, Ordubad dairəsinin səlahiyyətli nümayədəsi kimi iştirak etmişdi.

Hərbi tarixçilər V.Potto, İ.Zinovyev, general V.Zubov, İ.Paskeviç və yazıçı A.Qriboyedovun yol qeydlərindən məlum olur ki, rus-İran müharibəsi zamanı Ehsan xan on min nəfərlik naxçıvanlılardan və ruslardan ibarət olan qoşuna başçılıq etmişdir. Bu müharibədə ad-san qazanan general Ehsan xan sonralar Krım müharibəsində də şücaətlə vuruşmuş, ali hərbi ordenlərlə təltif olunmuşdur. Görkəmli sərkərdə kimi Ehsan xanın adı Kremlin Georgi salonunda qızıl hərflərlə yazılmışdır.

Tarix öz səhifələrində bir maraqlı faktı da saxlayıb: Aleksandr Qriboyedov və Abbasqulu ağa Bakıxanov İrana gedəndə Ehsan xanın Xandikindəki evində qonaq olmuşlar. Bu barədə A.Qriboyedovun "İrəvan yürüşü" yol qeydlərində maraqlı sətirlər var:

"Sübh tezdən oyandıq: bərk isti idi. Abbasqulu ağa nəql elədi ki, Yelizavetpol döyüşü şair Nizaminin məqbərəsi yanında baş verib.

Naxçıvandan səkkiz mil aralıda dayanmışıq. Araz kənarından Abbasabadın geniş mənzərəsi açılır. Şimal-şərqdən Qarabağ dağlarının, Naxçıvan düzənliyinin möcüzəli gözəlliyi açılır. Arazın arxası Yaylandağla və ona oxşar iki başqa dağla əhatə olunub. Qərbə doğru baxanda isə Ağrıdağı ucalır. Naxçıvan özü isə Qarabar dağlarının davamı olan düzəngahda yerləşir.

Naxçıvana daxil oluruq. Xan evinin qülləsi mənim otağımın pəncərəsindən daha aydın görünür".

1826-cı ildə Fətəli şahın vəliəhdi Abbas Mirzə altmış minlik qoşunla Arazı keçib Azərbaycana hücum etdi. Bu vaxt Ehsan xan Abbasabad qarnizonunun rəisi idi. Ehsan xanın, qalanı iranlılara təslim etmək istəmədiyini görən Abbas Mirzə şah qoşununun qırx minini İrəvan və Naxçıvana yeridir. Həmin döyüşlərin şahidi olan məşhur tarixçi Mirzə Adıgözəlbəy yazırdı:

“O vaxt naxçıvanlı Ehsan xan Abbasabad qalasının mühafizi idi. Orada olduğumu bilib yanıma qasid göndərdi. O, mənə xəbər verdi: “Knyaza (komandan İ.F.Paskeviç nəzərdə tutulur.- Ş.N.) bildirin ki, bu tərəfə hərəkət etsin.”

“Qafqaz hərbi-tarix muzeyi”nin 1913-cü ildə nəşr etdiyi altı yüz otuz bir nömrəli “Soraq kitabçası”nda general Kəlbalı xan Naxçıvanskinin məşhur xan nəslindən olduğu qeyd olunur. O, on dörd yaşında ikən Peterburqdakı zadəgan balalarına məxsus paj korpusuna daxil olur. Əla oxuyan Kəlbalı xana məktəbdə tam təhsil almaq qismət olmur. Qəfil xəstələndiyinə görə vətəni Naxçıvana qayıdır. Bir müddət müalicə olunduqdan sonra yenidən hərbi işə səfərbər edilir. 1849-cu ildə könüllü olaraq Dağıstan yürüşündə iştirak edir. Gergebel döyüşlərində göstərdiyi igidliyə görə üçüncü dərəcəli müqəddəs Stanislav ordeni ilə təltif olunur və zabit rütbəsinə layiq görülür.

1853-cü ildə Krım müharibəsi başlananda yerli bəylərdən ibarət süvari alayı təşkil edir. Bir il sonra, iyunun 19-da Kəlbalı xan Naxçıvanski Çınqıl döyüşündə fərqləndiyinə görə dördüncü dərəcəli müqəddəs Georgi ordeni ilə təltif olunur. Həmin il iyulun otuzunda rus ordusunun general-leytenantı, İrəvan süvari polkunun rəisi Vrangel Qafqaz ordusunun baş komandanına məlumat göndərmişdi. General təkcə Kəlbalı xan haqqında deyil, həmçinin döyüşdə igidliklə vuruşan oğullarımız barədə fəxrlə yazırdı:

“Qoşunlarımızın hədsiz igidliyi barədə əlahəzrət cənabınızın qarşısında təkrarən şəhadət verməyi özümə borc bilirəm ki, zabit və əsgərlər döyüşə həvəslə gedirlər: yüngül yaralananlar cəbhəni tərk etmir, ağır yaralılar isə döyüş meydanında qalırdılar. Tibb işçiləri elə oradaca onlara yardım göstərirdilər. 18 iyul tarixli ilk məlumatımda adları çəkilən kapitan İsmayıl xandan (Kəlbalı xanın qardaşıdır - Ş.N). və podporuçik Kəlbalı xandan başqa müsəlmanlardan ibarət bəy drujinasından praporşiklər Əlixan və Paşa xanın, dörd nömrəli müsəlman (Azərbaycan) polkundan kapitan Hüseyn Sultanın adlarını da çəkməliyəm. İsmayıl xanla Kəlbalı xan hücum zamanı öz hissələrinin önündə gedərək igidlik nümunəsi göstərirdilər.

...Yanımda volonter[3] işləyən Xancan xan Məmmədqulu oğlunu da həmçinin müəyyən göstərişlərlə döyüşə göndərirdim... Onlar yaralanır, ancaq döyüş meydanını tərk etmirdilər”.

1855-ci ildə imperator II Aleksandrın tacqoyma mərasimi günü Kəlbalı xan leyb-qvardiya qusar polkuna komandir təyin olunur. Bundan sonra Qafqaz canişinliyinin sərəncamında xidmət edir. Müxtəlif batalyon və polkların komandiri olur. Nizami ordudakı nümunəvi xidmətinə və əla komandirlik fəaliyyətinə görə 1874-cü ildə general-mayor kimi yüksək rütbəyə layiq görülür.

1877-78-ci illərdə rus-türk müharibəsində general Kəlbalı nur. Bütün döyüşlərdə şücaətlə vuruşan, azərbaycanlılardan ibarət İrəvan süvari briqadasının komandiri Kəlbalı xan hərbi əməliyyatlarda böyük şücaət göstərmişdir. Bu müharibədə onun qəhrəmanlığı brilyantla bəzədilmiş qılıncla və müqəddəs Georgi ordeni ilə qeyd edilmişdir. General-mayor Kəlbalı xan Ehsan oğlu Naxçıvanski 1883-cü ildə vəfat etmişdir.

Sənədləri araşdırarkən məlum oldu ki, Ehsan xan oğluna Kəlbalı xanın adını qoymuşdur. Ona görə də mənbələrdə iki Kəlbalı xan adına rast gəldik. Baba Kəlbalı xan Naxçıvanski haqqında Azərbaycan Sovet Ensiklopediyasının yeddinci cildində qısa da olsa məlumat verilir.

“Kəlbalı xan Naxçıvanski (? - 1823, Təbriz) - Naxçıvan xanı. Rusiyadan hərbi yardım istədiyi üçün altı il Tehranda həbsdə saxlanmış, gözünün biri çıxartdırılmışdı. Fətəli şah hakimiyyət başına gəldikdən sonra İrəvan xanlığında yaşamışdır. Abbas Mirzə tərəfindən Naxçıvana vali təyin olunan Naxçıvanski İran hökumətinə xidmət etmək istəmədiyindən Məkkəyə ziyarət bəhanəsilə, yerinə oğlu Ehsan xanı təyin edib hakimiyyətdən uzaqlaşmışdı”.

Bir maraqlı faktı da oxucuların nəzərinə çatdırmaq istərdim: XIX əsrin ortalarında Naxçıvanda “Qönçeyi-Ülfət” adlı ədəbi məclis fəaliyyət göstərirdi. Bu məclisə, o vaxtlar Naxçıvan şəhər rəisinin müavini işləyən məşhur gürcü şairi Nikolaz Barataşvili də tez-tez gələrdi. O, burada on səkkiz yaşlı Qönçəbəyim adlı çox istedadlı bir qızla tanış olub dostlaşır. Lirik qoşmaları ilə bu gün Azərbaycan ədəbiyyatında yaşayan həmin Qönçəbəyim general-mayor Kəlbalı xan Naxçıvanskinin bacısıdır.

---

3 Fədai, könüllü əsgər

Nikolaz Barataşvili, Maiko Orbelianiyə yazdığı məktubunda Qönçəbəyimlə tanışlığını belə təsvir edir: “İndi Naxçıvanda yeni bir şer var. Bu, on səkkiz yaşlı Qönçəbəyimin şerləridir. Xan qızıdır. Olduqca gözəl və vüqarlı görkəmi var. Təsəvvür edin, gözəllikdə lap Orlovun arvadına oxşayır. Ərindən çox yanıqlıdır. İndi ərindən ayrılıb, çalışır ki, boşansın. Yazıq qızın on iki yaşı olanda zorla ərə veriblər. Onların əhvalatı bir romandır. Şerlərində öz halına ağlayır. Yazılarından birində deyir ki, mənim gözəl bağçam, istəyirəm gəlib sənin fəvvarən və güllərinlə söhbət edəm. Ancaq qorxuram ərim orada olsun.

Bu şeri tərcümə edib göndərəcəm. Mənə belə gəlir ki, Səttar bu mahnını bilir. Yenə bir mahnı var. Çox xoşagələndir. Belə düşünürəm ki, bunu Cəfər də bilir, Səttar da. Onlara rast gələndə deyərsən ki, bu mahnıları oxusunlar”.

Ey mənim məzar çiçəkli bağçam,
Gülüstan qoynunda fəvvarə vuran.
Sularla həmsöhbət olmaq istərəm,
Qorxuram ki, ərim çıxa o yandan.

Gözəl və fitri istedada malik olan Qönçəbəyim 1837-ci il martın on beşində atası Ehsan xanın Naxçıvanda açdığı qəza məktəbində oxumuşdur. İki yüzə qədər azərbaycanlı uşağın təhsil aldığı bu məktəbin hamisi, əvvəlcə general-mayor Ehsan xanın özü, sonralar isə onun iki oğlu-kapitan İsmayıl xan və general-mayor Kəlbalı xan olmuşlar. Bu vətənpərvər, ziyalı oğullar ata-baba mülkünü on iki il müddətinə məktəb üçün pulsuz istifadəyə verməklə yanaşı, hər il Naxçıvan qəza məktəbinin nəfinə gümüş pulla iki yüz manat ianə də hədiyyə etmişlər.

Təəssüf ki, ailə səadətində Qönçəbəyimin bəxti üzünə gülməmişdir. Onu 1844-cü ildə sevmədiyi Şamil xana ərə vermişlər. Ömrünü sərxoşluqla keçirən Şamil xana könül verməmiş, ondan boşanmışdır. Könül verib sevdiyi, lakin qovuşa bilmədiyi mayor İbrahim xanın həsrətilə yaşamışdır.

Bizə sək rəqiblər deyirlər asi[4],
Mövlayə bağladıq yəni ixlası,
Mən Bəyiməm İbrahimin butası,
Gizlin deyil aşkarə, de gəlsin.

Fərəhləndirici haldır ki, təkcə naxçıvanskilər nəsli Azərbaycan hərb tarixinə beş general bəxş etmişdir. Nəvə Kəlbalı xanın oğlu Hüseyn xan Naxçıvanski də general-leytenant olmuşdur. O, rus ordusunda tam artilleriya generalı rütbəsinəcən yüksəlmişdir.

## HÜSEYN XAN NAXÇIVANSKİ

Hüseyn xana qədər bu nəsildə üç general olmuşdur. - Ehsan xan, Kəlbalı xan və İsmayıl xan. Sonuncu haqqında əlimizdə çox az məlumat var. O, 1819-cu ildə anadan olub, 1908-ci ildə səksən doqquz yaşında doğma vətəni Naxçıvanda vəfat edib. Kəngərli tayfasındandır.

Onun haqqında daha bir qısa məlumata hərbi Sovet Ensiklopediyasının birinci cildində rast gəldik. Orada yazılır ki, Bəyazid şəhəri 1877-78-ci illərdə rus qoşunları tərəfindən mühasirəyə alınanda, iyirmi üç gün ağır döyüşlər getdi. Bu döyüşlərə rəhbərliyi polkovnik İsmayıl xan Naxçıvanski edirdi. Onun köməkçiləri kapitan Ştokviç və poruçik Tomaşevski idi.

Ordudan general-leytenant rütbəsində tərxis olunan İsmayıl xan Ehsan xan oğlu Naxçıvanski vətənində quruculuq, abadlıq işləri ilə məşğul olmuşdur. O, Naxçıvan şəhərinə su

4 A s i - üsyan edən, itaət etməyən

çəkdirmiş, kəhrizlər qazdırmış və bu gün tarixi abidə kimi qorunan günbəzli hamamı tikdirmişdir. Oğlu Əman xana məşhur şairə Xurşidbanu Natəvanın qızı Xanbikə xanımı alıb Qarabağ xanlığı ilə qohum olmuşdur.

Bizdə olan bu qısa məlumatlardan burda ona görə istifadə etdik ki, bəzi tədqiqatçılar Hüseyn xanla İsmayıl xanı qarışıq salırlar. Bu səhv ordan irəli gəlir ki, bir çox mənbələrdə hər ikisinin adı "Xan Naxçıvanski" yazılır. Zadəgan nəslindən olduqlarına görə sağlıqlarında da onlara hörmət əlaməti olaraq "xan" deyə müraciət edirmişlər. Hətta Əliağa Şıxlinski "Xatirələrim"in yüz əlli beşinci səhifəsində Hüseyn xanın birinci dünya müharibəsindəki fəaliyyətindən danışanda yazır: "General Xan Naxçıvanskinin komandası altında olan bizim süvarilərimiz alman süvarilərini darmadağın etmişdilər".

İsmayıl xan Hüseyn xanın doğma əmisidir. Rus ordusunda əvəzedilməz xidmətləri olan Hüseyn xana, sonralar Cəmşid xan Naxçıvanskiyə hərb sənəti, yüksək sərkərdəlik bacarığı irsən keçmişdir.

Hüseyn xan Kəlbalı xan oğlu Naxçıvanskini müasirləri sərt, nüfuzlu bir general kimi təsvir edirlər. İlk dəfə mən onun şəklinə 1916-cı ildə çap olunmuş "Niva" jurnalının yeddinci nömrəsində rast gəldim.

Rus-yapon və birinci dünya müharibəsindəki fəaliyyətini müxtəlif arxiv sənədlərindən öyrəndim. İlk gəncliyi və təhsil illəri haqqında isə Naxçıvanda yaşayan tarix elmləri namizədi İbrahim Bağırov məlumat verdi.

İbrahim müəllimin məlumatına görə general Hüseyn xan Naxçıvanski 1863-cü il iyunun iyirmi səkkizində anadan olub. Atası on beş yaşlı Hüseyn xanı Peterburqdakı Paj korpusu məktəbinə oxumağa göndərir. O vaxtlar Peterburqda çoxlu naxçıvanlı ziyalı yaşayırdı. Onların arasında xan nəslindən olanlar çoxluq təşkil edirdilər. İmperatorun şəxsi himayəsində olan korpus məktəbini Hüseyn xan 1881-ci ildə əla qiymətlərlə bitirir. Çarın xüsusi süvari qoşununda xidmət edən kornet Naxçıvanski beş il keçməmiş podporuçik rütbəsi ilə təltif olunur.

Sonralar Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan Hüseyn xan Naxçıvanski nümunəvi zabit kimi ali orden və medallara layiq görülür. Rus-yapon müharibəsi başlayana qədər o, İranın "Şire-Xorşid" ordeninin ikinci və dördüncü dərəcəsi ilə (bahalı almazla bəzədilmiş), zabitlərə məxsus "Rumın ulduzu" ilə, Avstriyanın "Dəmir xaç", ikinci dərəcəli "Stanislav", dördüncü dərəcəli "Muqəddəs Aleksandr", "Müqəddəs Anna", Bolqarıstanın "Döyüş xidmətlərinə görə" ordenləri ilə təltif olunur. Nizami orduda sərkərdəlik qabiliyyətinə görə, Hüseyn xan 1903-cü il aprelin altısında polkovnik rütbəsi alır.

İnqilabdan əvvəlki qəzetlər, müxtəlif arxiv sənədləri öz səhifələrində Hüseyn xan haqqında az da olsa məlumat verib. Onlarla tanış olanda istər-istəməz belə qənaətə gəlirsən ki, Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov artilleriya sahəsində hansı zirvəni fəth etmişdisə, Hüseyn xan Naxçıvanski də süvari birləşmələrinə komandanlıqda həmin zirvədə dayanırdı.

1904-cü ildə rus-yapon müharibəsi başlananda Naxçıvanski əksəriyyəti qafqazlılardan təşkil olunmuş ikinci Dağıstan süvari alayına komandanlıq edirdi. Polkovnik Hüseyn xanın alayı 1905-ci il yanvarın on dördündə Lan-Lun-Qou kəndi uğrunda ağır döyüşlər aparmışdır. Bir neçə gün kəndi ala bilməyən döyüşçülər mahir komandirin hərbi fəndi ilə dan üzü sürətli hucuma keçərək onları kənddən vurub çıxartmışlar. Bu güclü döyüş səhnəsi məşhur rəssam Mazurovskinin yağlı boya ilə işlədiyi rəsmdə əbədiləşmişdir. Əsərdə alay döyüşçülərinin qızğın həmləsi və polkovnik Hüseyn xan Naxçıvanskinin obrazı ustalıqla işlənmişdir.

İgid həmyerlimiz, polkovnik Hüseyn xan Naxçıvanski yaponlara qarşı göstərdiyi döyüş məharətinə görə üstü yazılı qızıl silah, dördüncü dərəcəli "Müqəddəs Georgi", bantlı "Müqəddəs Vladimir" və "İgidliyə görə" ordenləri ilə təltif olunmuşdur.

Birinci dünya müharibəsinə qədər imperatorun xüsusi qoşununda xidmət edən Hüseyn xan Naxçıvanskiyə 1907-ci il martın otuz birində general-mayor rütbəsi verilmişdir.

Müasir rus hərbi tədqiqatçısı Fyodor Nesterov "İllərin əlaqəsi" (1984-cü il) tarixi-publisistik əsərində əlahəzrətin sadiq generalları sırasında artilleriya generalı N.İ.İvanovun, general qraf Kellerin və general Xan Naxçıvanskinin adlarını fəxrlə çəkir. O yazır ki, çar II Nikolay manifestə qol çəkib hakimiyyətdən imtina edəndə belə, bu əsilzadə generallar əlahəzrətə

teleqramla müraciət edərək bildirdilər ki, biz həmişə sənə sadiq qalacağıq. İmperator uzun illər boyu bu əsilzadə generallara inanmaqda zərrəcə səhv etməmişdi.

Hüseyn xan Naxçıvanski döyüşən ordu generalı idi. O, bütün rütbə və təltifatlara məhz cəbhələrdəki xidmətlərinə görə layiq görülmüşdü. O, buyruq və məiyyət generalı deyildi. Hərbçilər daha yaxşı bilirlər ki, süvari qoşunu üzrə tam ali general rütbəsinə çatmaq nə qədər böyük istedad və sərkərdəlik bacarığı tələb edir. Hüseyn xan Rusiyanın o dövrdəki adlı-sanlı generalları ilə birgə işləyirdi. Şöhrəti bütün Rusiyanı dolaşan, A.Brusilov, Y.Barsukov, M.Draqomirov, Y.Alekseyev kimi generallar, onun ordu heyətindəki, müharibədəki döyüş xidmətlərini yüksək qiymətləndirirdilər. Yəqin ki, Hüseyn xan Naxçıvanskinin birinci dünya müharibəsindəki xidmətlərini Dövlət mükafatı laureatı, hərb elmləri doktoru, professor, general-mayor Yevgeni Barsukovun yüksək qiymətləndirməsindən F.Nesterovun xəbəri olmamış deyil. Müharibənin ilk iyirmi gününü təsvir edən Barsukov, general Naxçıvanskinin müvəffəqiyyətli hücumu haqqında yazır:

"Bir döyüşdə Xan Naxçıvanskinin süvariləri beş batalyonu, iki eskadronu, on iki topu İnster çayının o tərəfinə ataraq, iki top və dörd qutu mərmi ələ keçirmişdilər. İnster çayında, Meşken Kraupişken və Lauqaden yaxınlığındakı bərələr tutulmuşdu.

Naxçıvanski 1914-cü ilin avqustunda Şərqi Prussiyaya yürüşdə iştirak etmişdir. General-leytenant Hüseyn xan rus süvarilərinin ən yaxşı hissələrinə-birinci və ikinci qvardiya süvari diviziyalarına komandanlıq edirdi. Avqustun on beşindən iyirmi birinədək məşhur Qumbien döyüşlərini qələbə ilə başa çatdıran Naxçıvanski süvariləri, həm də birinci ordunun kəşfiyyat əməliyyatını aparmış və döyüşdə onlara kömək etmişlər. Az sonra Hüseyn xanın qvardiya süvariləri Kraupişken şəhəri ətrafında, səkkiz kilometr məsafədə özünə müdafiə mövqeyi tutmuş almanlarla döyüşə girdi. Bu, həlledici döyüş idi. Almanlar bir addım belə geri çəkilmək istəmirdilər. Onlar ilk gündən hücumu şiddətləndirib İnster çayı sahillərini tutmağa çan atırdılar. Düşmən tərəf Naxçıvanski süvarilərinin güclü hücumuna tab gətirmədi. İlk dəfə süvari qvardiya alayının eskadrolları almanların müdafiə xəttini yarıb bir neçə topunu ələ keçirdi... Çoxlu zabit və əsgər itkisi verən düşmən tələsik geri çəkildi.

Sentyabr ayında düşmən cəhd edirdi ki, iki rus korpusunu birləşdiyi yerdə yaxalasın və onlara qəfil zərbə endirsin. Düşmənin bu niyyətini hiss edən general Naxçıvanski Qordauen-Nordenberq dəmir yolu boyunca mövqe tutaraq şiddətli döyüşləri dayandırmadı. Almanların cəbhəni yarmaq cəhdi baş tutmadı.

Birinci dünya müharibəsi cəbhələrində göstərdiyi misilsiz qələbələrə və sərkərdəlik məharətinə görə, Hüseyn xan Naxçıvanskiyə 1916-cı il yanvarın iyirmi üçündə tam süvari qoşun generalı rütbəsi verildi.

Bir çox ali mükafatlara layiq görülən və zabitlərə məxsus "Müqəddəs Georgi" ordeninin dörd dərəcəsi ilə təltif olunan görkəmli hərbi xadim Hüseyn xan Naxçıvanski 1919-cu ildə Petroqradda vəfat etdi. Onun məzarı Aleksandr Nevski monastrının qəbiristanlığındadır.

## CƏMŞİD XAN NAXÇIVANSKİ

O, Kəngərli nəslindən olan axırıncı generaldır. Onun general babalarının hamısı qoca yaşında öz əcəli ilə vəfat edib. Tale Cəmşid xana cəmi qırx üç il ömür qismət elədi. Onun da iyirmi altı ilini hərbi fəaliyyətdə keçirdi. Ömrünün ən qaynar çağında otuzuncu illərin haqsız qurbanlarından biri oldu. Günahı da bu idi ki, qardaşı Davud və Kəlbalı İranda şah qvardiyasında xidmət edir. Guya Cəmşid xan da başçılıq etdiyi "casus-təxribatçı dəstəsi" ilə onlarla sıx əlaqə saxlayır. Azərbaycanda şura hökuməti yarananda hər iki qardaş rəsmi şəkildə icazə alıb İrana getdilər. Tezliklə İran ordusunda ad-san qazanıb yüksək rütbə aldılar. Lakin otuzuncu illərdə şahənşah Davud və Kəlbalı qardaşlarına inamı itirdi. Səbəbi də ondan ibarət idi ki, onların qardaşı Cəmşid xan Naxçıvanski Qızıl orduda briqada komandiridir. Axı vaxtilə onların ata babaları rus qoşunlarını Naxçıvana çağırmışdı, İran ordusuna qarşı vuruşmuşdu. Görünür, şahənşaha bu məlumat da çatdırılıbmış... Ona görə də şahənşah onları güllələtdirir. Bu tayda,

1938-ci ilin mayında Cəmşid xan həbs edilib güllələnəndə artıq dörd il əvvəl qardaşları İranda qətlə yetirilmişdi. Onda C.Naxçıvanski, Moskvada M.Frunze adına Ali Hərbi-Siyasi Akademiyanın ikinci kurs rəisi kimi yüksək vəzifədə işləyirdi.

"Onun dalınca gecə gəldilər. Axtarış aparmaq üçün şahid gərək idi. Dalandar şahidlik etməyə etiraz etdi: "Kim olsaydı gedərdim, bircə Naxçıvanskidən başqa. Mən onun gözünə necə baxaram?". Həbs etmək barədə orderlə qara emkada gələnlərdən biri pillələri tələsik qalxdı. Qapını açan ev sahibəsinə hövlnak dedi: "Lap qiymətli nəyiniz varsa gizləyin". Qızıl ordunun xan nəsilli briqada komandiri Cəmşid Naxçıvanski pula-mala qətiyyən tamah salmayan bir insan idi.

Vidalaşarkən o, qızı Aliyənin yuxulu gözlərindən öpdü, arvadını bağrına basdı: "Özündən və uşaqdan muğayat ol! Mənim heç bir günahım yoxdur. Tezliklə qayıdacağam!.." - dedi.

O, uzun illər keçəndən sonra qayıtdı. Qayıtdı ki, xalqın yaddaşında əbədi qalsın" (Qriqori Akselrod "Xan nəsilli briqada komandiri". "Nedelya" qəzeti № 17, 1988-ci il).

O dövrdə haqsız güllələnən briqada komandiri Cəmşid xan Naxçıvanski, diviziya komandiri Qambay Vəzirov, komissar Heydər Vəzirov, Cabir Əliyev, polkovnik Cəlil Əliyev, Seyfulla Mehdiyev, Qalib Vəkilov və Soltanhəmid Paşayevin sənədləri ilə tanış olanda, sağ qalan müasirlərindən general-mayor Akim Abbasovun, professor Əyyub Əsgərovun və onların ailələrinin xatirələrini dinləyəndə yanıb-yaxılırsan. Adamı yandıran odur ki, bu igid komandirlərin fəaliyyətində yeni quruluşa qarşı hardasa zərrəcə inamsızlıq, səhv və büdrəmələr tapa bilmirsən. Bəs haqsız qan niyə axıdılıb, onların ailələri sürgünlərdə min bir əziyyəti niyə çəkib? Stalinin əshabələri - Beriya, Bağırov belə görkəmli hərbi xadimlərimizi qanlı "təmizləmə" maşınında niyə məhv ediblər? Suallar, suallar... Onlara cavab tapmaq çətindir.

Otuzuncu illərdə bağları doğradılar ki, bəylər salıb, bəhrəsini yemək olmaz. Evləri uçurdular ki, xanlardan qalıb. Məscidləri bağlayıb allahsızlar ittifaqı yaratdılar. Oğulları həbs edib öldürdülər ki, nəsli bəy olub, xan olub.

Bu gün tarix bu səhvləri boynuna aldığına görə otuz-qırxıncı illər dövründə və əllinci illərin əvvəllərində repressiya qurbanlarına bəraət verir. Onların şərəfinə abidələr ucaldır, küçələrə, meydanlara onların adı verilir. Nəhayət, gənc nəsil gec də olsa görkəmli ata-babalarının xatirəsi önündə mənəvi borcunu yerinə yetirir.

Heç bir "casus-təxribatçı dəstəsi" olmayan (əslində belə bir dəstə yox idi), İrandakı qardaşları ilə heç vaxt məktublaşmayan Cəmşid xan da, o vaxt çox adi bir hala çevrilən müdhiş cəzanın qurbanı oldu. Günahı isə xan nəslindən olmağı idi.

Haqqında söhbət açdığımız Kəngərlilərin xan nəsli Azərbaycan hərb tarixinə qızıl səhifələr yazmış Cəmşidi 1895-ci il avqustun iyirmi üçündə dünyaya bəxş etdi. O, yeddi yaşına çatanda anası Fərəntac xanımdan Azərbaycan dilində yazmağı, dayəsi Anna İvanovna Nikolayevnadan isə rus və fransız dillərində danışmağı öyrənmişdi. Səkkiz yaşlı Cəmşidi rus ordusunun zabiti olan atası Cəfər xan Tiflisdəki yunkerlər məktəbinə qoyur. Bir il sonra Qərbi Ukraynadakı Yelizavetqrad (İndiki Kirovqrad şəhəri - Ş.N.) qvardiya məktəbinə göndərilir. 1914-cü ildə podporuçik rütbəsi ilə qvardiya məktəbini bitirir. Birinci dünya müharibəsi başlananda imperiyanın müsəlman əhalisindən təşkil olunmuş tatar süvari eskadronunun komandiri təyin olunur.

Cəmşid Naxçıvanski hərbi məharəti ilə ilk dəfə birinci dünya müharibəsində ad-san qazanmışdı. O, "Brusilov cəbhəsi"nin yarılmasında iştirak etmiş. "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsi ilə təltif olunmuşdu. Avstriya və Rumıniya cəbhələrində üç dəfə yaralanan Naxçıvanski igid bir süvari zabiti kimi gümüş silahla təltif edilmiş və ikinci, üçüncü, dördüncü dərəcəli Anna, ikinci, üçüncü dərəcəli Stanislav ordenləri ilə mükafatlandırılmışdır.

Cənub-qərb cəbhəsi dağıldı. Cəmşid Naxçıvanski başçılıq etdiyi süvari alayı ilə birgə doğma Azərbaycana qayıtdı. Füsunkar Qarabağın Şuşa şəhərində yerləşən alay daşnak tör-töküntülərinə və daxili düşmənlərə qarşı döyüş əməliyyatlarında fəal iştirak etdi.

Azərbaycanda Aprel inqilabından bir neçə gün sonra respublika Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov Şuşaya təcili teleqram göndərdi. O, alay komandiri Cəmşidə təklif edirdi ki, dərhal Bakıya qayıtsın və milli ordu hissələrinin təşkilinə başlasın. Onun

komandirlik etdiyi süvari polku könüllü olaraq sovet ordusu tərəfinə keçdikdən sonra Birinci fəhlə-kəndli polku adlandırılaraq XI Ordunun tərkibinə daxil edilir. Cəmşid Naxçıvanskinin özü isə ilk Azərbaycan birləşmiş komanda məktəbinin müavini, az sonra isə rəisi təyin olunur. Ordu komandiri kimi ilk günlərdən ləyaqətlə xidmət edən C.Naxçıvanskiyə həmişə müsbət xasiyyətnamələr verilmişdir.

İstedadlı sərkərdənin sovet hökumətinə sədaqət və məhəbbəti, yüksək hərbi biliyi XI Ordunun komandanı Levandovski, hərbi İnqilab Şurasının üzvü S.Orconikidze, Azərbaycan hərbi-Dəniz Xalq Komissarı Əliheydər Qarayev tərəfindən yüksək qiymətləndirilmişdir.

1921-ci il martın on dördündə ordu komandanı Levandovskinin Cəmşid Naxçıvanskiyə verdiyi xasiyyətnamədə oxuyuruq:

"Korpus da daxil olmaqla bütün hissələrə operativ, taktiki cəhətdən komandanlıq etməyə tam layiqdir... Sakit, təmkinli, fəal və təşəbbüskardır... Azərbaycan MİK-in və Zaqafqaziya MİK-nin tərkibinə seçilmişdir. Diviziya komandirliyi vəzifəsinə tam uyğundur".

İyirmi birinci il dekabrın on doqquzunda milli diviziya yaratmaq işindəki fəallığına görə Naxçıvanskiyə Azərbaycan hərbi Dəniz Xalq Komissarlığı təşəkkür elan etmiş və mükafat olaraq ona gümüş dəstəkli qılınc hədiyyə verilmişdi. O, yeni yaradılan Azərbaycan dağ-atıcı diviziyasına komandir təyin olundu.

General-mayor Akim Abbasov vaxtilə Naxçıvanskinin komandir olduğu diviziyada xidmət edib.

- Cəmşid Naxçıvanski qətiyyətli komandir idi. Onun gözəl cizgili siması, səliqəylə yana ayrılıb daranmış qara saçları və qalın qaşları altında açıq, aydın baxışları indi də gözümün önündədir. O, yaraşıqlı qaməti, hərbçilərə məxsus dəyanəti ilə müasirlərindən seçilirdi. Biz-Cəmşid Naxçıvanskinin diviziyasında xidmət edənlər, ondan hərbi peşənin sirlərini öyrənmiş komandirlər onu iftixarla xatırlayırıq. Biz bu gün də keçmiş ənənələrə görə onu "Xan Naxçıvanski", döyüş təxəllüsünə görə "Şamo" deyə yad edirik. Xanlar rayonu ərazisindən iki kilometr cənub-şərqdə yerləşən dağı biz komandirlər və qızıl əsgərlər, həmçinin yerli sakinlər komandirimizə ehtiram əlaməti olaraq "Xan Naxçıvanski dağı" adlandırırdıq. Cəmşid komandir məntəqəsini bu dağda qurmuşdu. Buranın relyefi elədir ki, həmin dağdan ətrafın geniş ərazisi, Azərbaycan diviziyasının təlim meydançaları aydın görünürdü.

Cəmşid Naxçıvanski hərtərəfli hərbi mütəxəssis idi. O, siyasi cəhətdən hazırlıqlı və inqilab işinə sədaqətli zabit idi.

Məhz bu yüksək keyfiyyətlərinə görə 1923-cü ildə hərbi İnqilab Şurasının əmri ilə Cəmşid Qızıl Ordunun ali komanda heyəti kursuna dinləyici qəbul olunur. Bu kursu müvəffəqiyyətlə bitirən Naxçıvanski 1931-ci ildən M.V.Frunze adına hərbi Akademiyanın xüsusi qrupunda təhsilini davam etdirir. Buranıda fərqlənmə diplomu ilə başa vuran Cəmşid Naxçıvanski xalq müdafiə komissarının əmri ilə müəllim saxlanılır.

Həmin dövrdə C.Naxçıvanskiyə verilmiş attestasiya sənədində oxuyuruq:

"C.Naxçıvanskiyə əvvəllər verilən müsbət rəylər öz qüvvəsində saxlanılsın. O, hər cəhətdən inkişaf etmişdir. Cəmşid Naxçıvanski hərbi təlimlərdə, operativ taktiki əməliyyatlarda özünü bacarıqlı sərkərdə kimi göstərmişdir. C.Naxçıvanskidən korpus komandiri kimi də istifadə etmək olar... O, təmkinli, sakit təbiətlidir, tükənməz enerjiyə malikdir, təşəbbüskardır, gözəl inzibatçıdır, yaxşı təşkilatçılıq qabiliyyəti vardır...".

Bu da hərbi Akademiyanın kurs rəisi və komissarı, sonralar Sovet İttifaqı marşalı Boris Şapoşnikovun həmin attestasiyanın təsdiqi barədə rəyi:

"Cəmşid Naxçıvanskinin attestasiyası ilə razıyam, atıcı diviziyasının komandiri vəzifəsinə münasibdir".

Vaxtilə süvari qoşunun qızğın pərəstişkarı olan Cəmşid orduda bu qoşun növünə vətəndaş müharibəsinin təəssüratı ilə həddən artıq qızğın münasibət bəsləyənlərin birinci olaraq əleyhinə çıxanlardan idi. O, Akademiyanın dinləyicilərini köhnəlmiş şablonlardan tezliklə azad olmağa çağırırdı; sübut edirdi ki, gələcək müharibədə cinahların dövrələnməsi üstünlük təşkil edəcək; döyüş meydanlarında o kəs qalib gələcək ki, müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyətini

təmin edə biləcək, döyüşün idarə olunmasına yaradıcı şəkildə yanaşmağı öyrənəcək. Toxum münbit zəminə düşmüşdü. Lakin bu toxumun cücərməsi...”[5]

Bəli, nadanlar, şər və iftira düşkünləri bu toxumun cücərməsinə imkan vermədilər. Onun tərbiyə edib yetişdirdiyi müdavimləri S.Biryuzov, A.A.Qreçko, P.F.Batisti marşal rütbəsinə çatdılar. Özü isə günahsız məhv edildi. Onun fəaliyyətinə verilən xasiyyətnamələrlə, rəylərlə tanış olandan sonra Cəmşid Naxçıvanskinin “xalq düşməni” çıxmasına inanmaq çox çətindir. Bu ağa qara demək kimi bir yalandır. Ona görə də polad kimi əyilməyən Cəmşidi sındırdılar. Lakin o, istintaqda heç bir yalanı boynuna almayıb. Özünün günahsız dostlarını satmayıb, nə xalqının, nə də nüfuzlu nəslinin adını ləkələməyib.

İllər keçdi. Başqaları kimi sonralar ona da bəraət verildi. Vaxtilə haqqında ürək dolusu danışa bilmədiyimiz bu görkəmli komandir haqqında gənc nəslə məlumat vermək üçün imkan yarandı. İndi onun adına Bakıda ixtisaslaşdırılmış internat məktəb və küçə var. Boya-başa çatdığı Naxçıvanda isə ev muzeyi açılmışdır.

Bakı Dövlət Universitetinin müəllimi, hüquq elmləri doktoru, professor Əyyub Əsgərov vaxtilə yetmiş yeddinci Azərbaycan atıcı diviziyasının sıralarında zabit kimi xidmət edib.

O, istedadlı sərkərdə Cəmşid Naxçıvanskinin son günlərinin şahidi olub:

1937-ci ilin payızında Leninqradda keçirdiyim məzuniyyətdən geri qayıdırdım. Moskvada hərbi kursda oxuyan yoldaşlarımla görüşmək uçün Frunze adına akademiyaya getdim. Yaxın dostum və akademiyanın müdavimi Hacıbaba Zeynalovun qonağı oldum. Həmyerlilərimiz Cəlil Əliyev, Əhmədəli Əliyev, Bəhram Şıxıyev, Fərhad Şahbazov və başqaları ilə də burada görüşdüm.

Bir gün Hacıbaba Zeynalovun otağında şama toplaşmışdıq. Bu vaxt C.Naxçıvanski otağa girdi. Biz hamımız ayağa qalxıb ehtiramla, rəsmi təzim edərək onu salamladıq. Görkəmli sərkərdə hər birimizlə ayrı-ayrılıqda görüşdü. Üz-gözündə xoş təbəssum cilvələnirdi... O, 77-ci Azərbaycan atıcı diviziyasında xidmət etdiyimi bildikdə mənimlə söhbətə başladı. Azərbaycan xalqının həyatı ilə yaxından maraqlandı, diviziyanın siyasi döyüş hazırlığı sahəsində əldə etdiyi uğurlar barədə yeni məlumatları çox diqqətlə dinlədi və ürəkdən sevindi. O, Vətənin müdafiə qüdrətini daim möhkəmləndirməyin, dövrün tələblərinə uyğun olaraq, yüksək bilikli kadrların hazırlanmasının, xüsusilə yeni texnikaya yiyələnməyin vacib olduğunu bildirdi. Sonra: Oğul, bizim xalqımıza yaxşı hazırlıqlı kadrlar lazımdır, - dedi. Gedərkən hamıya müraciət edərək: - Bu ali hərbi məktəb-akademiya əsl siz gənclərin yeridir, sizin üçündür, əfsus ki, bizim nümayəndələrimiz burada çox azdır. Üzünü mənə döndərib: - Çalışın, qoçaq olun, mən elə sizi də burada görmək istərdim, - deyib xoş arzularla bizdən ayrıldı.

## GENERAL FƏRƏC BƏY AĞAYEV

1958-ci ildə Şamaxıdakı dördsinifli ali ibtidai məktəbdə yüz qırx dörd nəfər buraxılış imtahanı verirdi. Onlardan otuz iki nəfəri azərbaycanlı idi. Burada zadəgan, ruhani, rəiyyət silkinə məxsus uşaqlar təhsil alırdılar. İmtahan verənlər arasında uzun illər çar ordusunda xidmət edən praporşik Səlim bəyin oğlu Həsən bəy Məlikov da vardı. Buraxılış imtahanlarını qeyri-adi bir müvəffəqiyyətlə verən Həsən bəy fitri istedadı ilə hamını heyran qoydu. İmtahanda iştirak edən Qafqaz təhsil dairəsinin müdiri baron Aleksandr Pavloviç Nikolai, Həsən bəy Məlikovun padşahlıq hesabına birinci dərəcəli Tiflis gimnaziyasına qəbul olunmasına məmnuniyyətlə razılıq verdi.

Lakin məktəbin direktoru üzrxahlıq edib:

- Aleksandr Pavloviç, - dedi, - cəsarət edib haqqında hüzurunuza tərif dolu tələbnamələr yazdığım şagird Həsən bəy Məlikov, bax budur. Özünüz onun biliyinin şahidi oldunuz.

[5] Akselrod. Göstərilən oçerk.

- Yadımdadır, səhv etmirəmsə bir ildə iki dəfə yazmışdınız. - Baron Nikolai ani olaraq fikrə gedib, - cənab direktor, - dedi, - bu cılız müsəlman balası sizin yazdığınız təriflərə də layiqdir. Əlbəttə, bu müvəffəqiyyətin qazanılmasında sizin müəllimlərin böyük əməyi var. Mən onun Tiflis gimnaziyasında oxumasına bütün qəlbimlə sevinərdim. O həqiqətən istedadlı uşaqdır.

Məktəb müdiri ona və məktəbinə deyilən tərifdən xoşhal olub, barona hörmətlə təzim etdi.

- Möhtərəm Aleksandr Pavloviç, ancaq bir çətinliyimiz var.

Nədi o çətinlik, nədən ibarətdir?

- İnişil bu uşağın atası Səlim bəy vəfat etdi. İndi ailənin başçısı onun böyük qardaşıdır. O da iki ayağını bir başmağa dirəyib deyir ki, qardaşım Həsən bəyin Tiflisə oxumağa getməsinə razı deyiləm.

- Niyə?

- Deyir ki, uşağı gözümdən uzağa qoya bilmərəm. Hələ çox balacadır.

- Olarmı o cənabla özüm söhbət edəm? Bəlkə, yola gətirdik.

- Olar, amma bir məsələni sizə açım...

Baron şəhadət barmağını dik tutub zarafatla:

- Dayan, dayan, yəqin sünnidir, tərs damarı var. Sən də ondan qorxursan, - deyib başını bulaya-bulaya: - ay müsəlmanlar, ay müsəlmanlar...

- Yox, Aleksandr Pavloviç, sünni olmağına sünni deyil, qorxuram, tərs damarı tutar, daha da acığa düşər, belə istedadlı, uşaq əlimizdən çıxar. Mən bir fənd işlətmişəm. Deyim, qulaq asın. Həsən bəyin atasının dayısı general-leytenant Fərəc bəy Ağayev Tiflisdə yaşayır. Yəqin ki, siz də onu tanıyırsınız. Generalın imzası ilə bir xahişnamə hazırlamışam. Guya o, bizim məktəb müdiriyyətindən təvəqqe edir ki, Həsən bəyi Tiflis gimnaziyasına oxumağa göndərək...

- Qardaşı yenə də razılaşmır?

- Biz hələ generalın məktubu barədə Həsən bəyin böyük qardaşına bir söz deməmişik. İstərdik ki, məktub barədə ona siz deyəsiniz.

- Niyə məhz mən...

- Ona görə ki, siz Qafqaz təhsil dairəsinin hamisisiniz.

Zaqafqaziya Baş İdarəsi Sovetinin üzvüsünüz, həm də həqiqi mülki müşavirsiniz. Sizin - baron Aleksandr Pavloviç Nikolainin sözü daha inandırıcı olar.

- General-leytenant Fərəc bəy Ağayev həzrətlərini mən də yaxşı tanıyıram. Deyirsən, cəsarət edib onun adından danışaq? Mənə belə gəlir ki, bir müsəlman ziyalısının artması üçün işlətdiyimiz fəndə görə cənab general bizi bağışlar. Amma onu da deyim ki, bu fənd heç də bəd deyil. Çox məharətlə tapılıb. Uşağı xilas etməyin başqa yolu yoxdur. General tərəfdən arxayın olun, razılıq mənim boynuma. Bu barədə Tiflisə qayıdan kimi onun özünə də məlumat verərəm.

Baron Aleksandr Pavloviç Nikolai Tiflisə qayıdanda Şamaxı məktəb müdirinin işlətdiyi "fənd" haqqında generala məlumat verdi. General bığaltı gülümsündü və məmnuniyyətlə qohumu Həsən bəy Məlikovu himayəsinə keçirərək, Birinci dərəcəli Tiflis gimnaziyasına qəbul olunmasına kömək etdi.

Bəs, general-leytenant Fərəc bəy Ağayev kimdir? Necə olub ki, tədqiqatçılarımız onun üstündən sükutla keçiblər? Həsən bəy Zərdabi kimi görkəmli maarifpərvəri bizə bəxş edən bu xeyirxah adamın ömür yolu həyatın hansı sınaqlarından çıxıb?

General-leytenant Fərəc bəy Ağayevin haqqında biz ilkin məlumata "Kavkaz" qəzetinin səkkiz dekabr min səkkiz yüz doxsan birinci il tarixli nömrəsində və "Kavkazski kalendar" illik məcmuəsinin 1873-1874-cü illərdəki nömrələrində rast gəldik. Birinci mənbədə haqqında geniş məlumatla "Fərəc bəy" kimi təqdim olunan eloğlumuz, ikincidə Qafqaz Əlahiddə Ordusunun generalları sırasında "Nikolay Nikolayeviç Ağayev" adlandırılır. Ona görə ki, bu yaraşıqlı, igid qafqazlı zabitini 1844-cü ildə imperator birinci Nikolay və onun arvadı Mariya Aleksandrovna xaç suyuna çəkib oğulluğa qəbul etmişdilər.

Uzun müddət Peterburqda xidmət edən padşahın sevimlisi Fərəc bəy Ağayevə Qafqaza qayıtdıqdan sonra yaxın qohumları belə yaxşı münasibət bəsləməmişlər. Hətta Həsən bəy Zərdabi məktublarından birində yazır ki, atam el arasında xəcalət çəkirdi ki, dayısı rus adını

qəbul edib. Ona görə də ondan üz döndərib küsmüşdü. Get-gəlimiz belə yox idi. Ömrünün sonlarında Tiflisdə yaşayan generala hamı "rus Ağayev" deyərmiş. Şübhəsiz ki, sonralar səhvini başa düşən general vəsiyyət etmişdir ki, nekroloqunda ad-familiyası Fərəc bəy Ağayev kimi göstərilsin. Onun bu vəsiyyətinə əməl olunur.

General-leytenant Fərəc bəy Ağayev füsunkar Qarabağın Şuşa şəhərində 1811-ci ildə adlı-sanlı bəy ailəsində dünyaya gəlib. İlk hərbi təhsilini Tiflis kadet korpusunda aldıqdan sonra 1837-ci ildə Qafqaz Əlahiddə Ordusunda müsəlman süvari polkunda xidmətə başlayıb. Xidmətinin yeddinci ilində ən yaxşı qvardiya rotmistri Fərəc bəy eskadron komandiri kimi Peterburqa göndərilir. Peterburqda o, birinci Nikolayın xüsusi qvardiya kazak polkunda leybqvardiya komandiri vəzifəsinə təyin olunur. Elə burda da o, imperatorun və onun arvadı Mariya Aleksandrovnanın sevimlisi olur.

Fərəc bəy Ağayev özünün qeyri-adi hərbi qabiliyyəti və igidliyi sayəsində xidmətinin on ili ərzində polkovnik rütbəsinə kimi yüksəlir. 1850-ci ilə qədər Peterburqda, xüsusi qvardiya kazak polkunda qüsursuz xidmət edən polkovnik F.Ağayev həmin ili Əlahiddə Qafqaz Ordusunun sərəncamına göndərilir.

1853-cü ildə Krım müharibəsi başlananda polkovnik Fərəc bəy Ağayev Qarabağın azərbaycanlı igidlərindən ibarət süvari alayı təşkil edib, özü də onun komandiri olur. Müxtəlif arxiv sənədləri, komandanlığa göndərilən raport və məktublar göstərir ki, Fərəc bəyin şuşalılardan ibarət süvari polku Kürəkdərə uğrunda gedən döyüşlərdə altmış minlik korpusa qarşı dönməz bir iradə ilə vuruşmuşdur. 1854-cü ildə osetinlərdən təşkil olunmuş milis alayı da Fərəc bəyin alayına təhkim edilir. Süvari qoşun dəstəsinin komandiri kimi yüksək vəzifə daşıyan eloğlumuz hərbi xidmətinə və qoşun başçısı kimi göstərdiyi qəhrəmanlığa görə üstündə "Cəsurluğa görə" yazılmış qızıl xəncərlə, çoxlu hərbi ordenlərlə, həmçinin imperator tacı ilə bəzədilmiş birinci dərəcəli "Müqəddəs Anna" ordeni və ikinci dəfə birinci dərəcəli "Müqəddəs Anna" (qılıncla birgə) ordenləri ilə təltif olunmuşdur.

1853-56-cı illərdəki sərkərdəlik fəaliyyətinə görə Fərəc bəy Ağayev general-mayor kimi fəxri rütbəyə layiq görülür.

Müharibə yenicə başlayanda Fərəc bəy Ağayevin başçılığı ilə Qarabağ Azərbaycan süvari dəstəsinin təşkili haqqında Peterburqa məlumat göndərən qraf Vorontsov qeyd edirdi ki, polkovnik Fərəc bəyin sayəsində könüllü dəstələr tezliklə yığıldı. Döyüşçülər yürüşə məşhur Qarabağ kəhərlərində və layiqincə silahlanmış halda başladılar.

Qırx ilə yaxın orduda qüsursuz xidmət edən Fərəc bəy Ağayev 1882-ci ildə general-leytenant rütbəsində istefaya çıxmışdır. Ömrünün sonuna kimi Tiflis Xeyriyyə cəmiyyətində çalışan general-leytenant Fərəc bəy Ağayev min səkkiz yüz doxsan birinci il noyabrın iyirmi altısında səksən yaşında Tiflisdə vəfat etmişdir.

## GENERAL-LEYTENANT ƏRƏBLİNSKİ

Min doqquz yüz ikinci il, yanvarın üçündə Dərbəndin qədim müsəlman qəbiristanlığında istefada olan general-leytenant Balakişi Əlibəy oğlu Ərəblinskini əsgəri şərəflə dəfn etdilər. Bu, Qafqazın müsəlman əhalisindən Rusiyada ilk ali hərbi təhsil alan Azərbaycan oğlu idi.

Həmin gün general-leytenantı Dərbənd əhalisi və Abxaz, Samur, Abşeron, bir də Şirvan süvari alayının əsgərləri şərəflə son mənzilə yola saldılar.

Tam əlli il rus ordusunda nümunəvi xidmət edən general-leytenant Balakişi Ərəblinski 1828-ci ildə Zaqatalanın Tala kəndində anadan olmuşdur. Mahal rəisi Əlibəyin ailəsində böyüyən Balakişi Peterburqdakı birinci dərəcəli kadet korpusunu 1948-ci ildə müvəffəqiyyətlə bitirib kornet rütbəsi almışdır. Müxtəlif hissələrdə qüsursuz xidmət edən Ərəblinski çox gənc yaşlarında, podpolkovnik rütbəsində briqada komandiri kimi məsul vəzifəyə irəli çəkilmişdir. Sonralar diviziya komandiri olan general-leytenant Balakişi Ərəblinski əlli illik xidmətində o vaxt Rusiyada olan bütün yürüş və döyüşlərdə iştirak etmişdir.

Hələ 1848-49-cu illərdə Vilaqoş qalası uğrunda gedən ağır döyüşlərdə həmyerlimiz kapitan Ərəblinski də mərdliklə vuruşaraq birinci dərəcəli müqəddəs Stanislav ordeni ilə təltif olunmuşdur.

Balakişi Ərəblinskinin ikinci böyük yürüşü 1854-cü ildə Rusiyanın Xivə xanı ilə apardığı müharibədə olmuşdur. Bu hərbi səfərdə mayor Ərəblinski general Lazerevin ordusunda vuruşurdu.

Bu illərdə Qarabağ süvari dəstəsinin tərkibində general-leytenant Fərəc bəy Ağayev, Azərbaycan süvari briqadasında general-mayor İsmayılbəy Qutqaşınlı, Mənsurağa Vəkilov, ikinci süvari Azərbaycan alayının komandiri, polkovnik İsrafilbəy Yadigarov, podpolkovnik Cəfərağa Əlibəyağa oğlu, general-mayor Cəfərquluağa Bakıxanov, dördüncü İrəvan süvari batalyonunun komandiri mayor Ağasıbəy Avşarov (1887-ci ildən general-mayor olub. - Ş.N.), mayor Firidunbəy Vəzirov (1877-78-ci illər Rusiya-Türkiyə müharibəsində general-mayor rütbəsi alıb. Ş.N.) və başqa həmyerlilərimiz qorxmaz döyüşçü, bacarıqlı komandir kimi tanınırdılar.

1853-56-cı illərdə Krım müharibəsində dörd süvari alayında mindən çox azərbaycanlı əsgər və zabit vuruşurdu. Onlardan biri də Balakişi Ərəblinski idi. Bu müharibədə podpolkovnik Ərəblinski göstərdiyi igidliyə görə üstü yazılı qılınc və müqəddəs Anna ordeni ilə təltif olunmuşdur.

Balakişi Ərəblinskinin iştirak etdiyi sonuncu müharibə 1877-1878-ci illərdəki Rusiya-Türkiyə müharibəsi idi. Qısa müddətli döyüşdə göstərdiyi qeyri-adi igidliyə və əvəzsiz komandirlik fəaliyyətinə görə həmyerlimiz Balakişi Ərəblinski general-mayor rütbəsinə layiq görülmüşdür.

1896-cı ildə istefaya çıxan general-leytenant Balakişi Ərəblinski Dərbəndə qayıtmış, ömrünün axırına kimi orada yaşamış, imperator tərəfindən ona hədiyyə olunan torpaq sahəsinə başçılıq etmişdir. Yerli əhali arasında gözəl insani keyfiyyətləri ilə hədsiz hörmət qazanmış general-leytenant Balakişi Ərəblinskinin şərəfinə adlandırılan Dərbənd yaxınlığındakı kənd və stansiya indi də onun adını daşıyır.

1902-ci il 20 yanvar tarixli nömrəsində "Kaspi" qəzeti general-leytenant Balakişi Ərəblinskiyə həsr etdiyi nekroloqda yazırdı: "Mərhum təbiətən humanist idi. Rütbəsindən və milliyyətindən asılı olmayaraq çətin anlarda həmişə hamının köməyinə gəlir, həyatda özünü çox sadə aparırdı. Rəis kimi xidməti işdə tələbkar olsa da, ədalətli idi. Tabeliyində olanlara qayğı ilə yanaşırdı. Buna görə də ən aşağı rütbəlilər belə onu ata kimi sevir, hörmət edirdilər. Onun diqqəti cəlb edən keyfiyyətlərindən biri də qonaqpərvərliyi idi.

General-leytenant Balakişi Ərəblinskinin dəfn mərasimində iştirak edənlərin hədsiz çoxluğu ona olan xalq məhəbbətinin əyani təzahürüdür. Onun evindən qəbiristanlığa qədər uzanan yol mərhuma son borcunu vermək məqsədi ilə tabutu müşayiət edənlərlə dolu idi".

General-leytenant Balakişi Ərəblinskinin iştirak etdiyi müharibələr haqqında indiyədək onlarla elmi, bədii əsərlər yazılıb. Ancaq nədənsə general Ərəblinskinin adı bu müharibəyə aid nə elmi, nə də bədii əsərlərdə heç olmasa bir dəfə də çəkilmir. Tədqiqatçı və tarixçilərimiz onun haqqında heç bir məlumat verməyiblər.

İlk dəfə mənə general Ərəblinski haqqında söhbət açan Azərbaycan Dövlət Tarix Muzeyinin elmi işçisi Nərmin xanım Tahirzadə oldu. Onun nəvələrini tapmaqda da Nərmin xanım köməyimə çatdı.

Hazırda general-leytenant Ərəblinskinin iki nəvəsi Bakıda yaşayır. Montin qəsəbəsində yaşayan qız nəvəsi Fatma xanım general babası dünyadan köçəndən iki il sonra anadan olub. Fatma xanımın dediyinə görə babasının mənsub olduğu Ərəblər məhəlləsi Zaqatalada indi də durur.

Fatma xanımda generalın cəmi iki şəkli, bir də generalın qızı Sona xanım Ərəblinskayanın bacısı Nurcahana atasının xəstəliyi və ölümü haqqında yazdığı qısa bir məktubu saxlanılır.

"Noyabrın iyirmisində sarılıq xəstəliyinə tutuldu, az sonra sağaldı və bədbəxtlikdən yenidən çiban çıxartdı. Dekabrın ikisində təşrih edib yaranı kəsdilər. Yaranın yerini qızmar

dəmirlə xlorofomsuz dağladılar. Atamız yaşlı olduğuna görə xlorofomdan istifadə etmək olmazdı. Operasiyadan sonra özünü bir qədər yaxşı hiss etdi. İyirmi gündən sonra əhvalı birdən-birə pisləşdi və keçindi.

Min doqquz yüz ikinci il yanvarın ikisində dəfn olundu. Müxtəlif polklardan zabitlər, deputatlar gəlib anamıza başsağlığı verdilər.

Evimizin qabağı adamla dolu idi. Sonra matəm musiqisi çalındı. Küçələrdə adam əlindən güclə tərpənmək olurdu".

General-leytenant Ərəblinskinin ikinci nəvəsi Həyat xanım Abdullayevadan isə onun çox qısa tərcümeyi-halını öyrənə bildim.

Bir dəfə Azərbaycan Dövlət Tarix Muzeyinin inqilaba qədərki sərgi guşəsində bir portret gördüm. Orda meşin divanda əyləşən Bakı milyoneri Hacı Zeynalabdin Tağıyev öz evində təsvir olunmuşdu. H.Z.Tağıyevin başının üstündən isə general-leytenant Balakişi Ərəblinskinin portreti asılmışdı. Bələdçi qızdan portretdəki generalın kimliyini soruşdum. "Bilmirəm, tanımıram" - dedi. - Bircə H.Z.Tağıyevi tanıyıram...

General Balakişi Ərəblinskinin portreti H.Z.Tağıyevin başı üstündən təsadüfən asılmayıb. Onlar qohum idilər. Generalın kiçik qızı Sona xanım Hacı Zeynalabdin Tağıyevin həyat yoldaşı idi. Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabındakı maraqlı epizod bunu bir daha təsdiq edir. Müəllif yazır ki, Hacı Zeynalabdin öz qızları - Sara və Leylanı Peterburqa, Smolnı qızlar institutuna oxumağa göndərmək qərarına gəlir və sənədləri ora yollayır. Çox keçmir Smolnıdan rədd cavabı gəlir ki, nə bəy, nə xan və nə də zadəgan olmadığınız üçün qızlarınızı qəbul edə bilmərik; bu instituta yalnız qraf, knyaz, xan, bəy, əmir qızları qəbul edilir. Hacının arvadı Sona xanım rəsmi sənəd təqdim edir ki, atası general Balakişi Ərəblinski müharibədə rəşadət göstərib və Rusiyaya sədaqətinə görə çar tərəfindən qızıl silahla təltif olunmuşdur; bu qızlar da onun nəvələridir, bütün imtiyazlardan istifadə etmək hüquqları var.

Tağıyevin qızları ana babalarına - general Ərəblinskiyə görə Smolnı qızlar institutuna qəbul edilirlər.

Hacı Zeynalabdin Tağıyevin qızı Sürəyya xanımın xatirələrindən:

- Hələ ötən əsrin doxsanıncı illərində Buxara əmiri Seyid Mir Əbdül Əhəd xan hər il Qafqaza müalicəyə gedərdi. Onun yolu hər dəfə Bakıdan keçər və gedib qayıdanda rəiyyəti ilə bərabər bir neçə gün şəhərimizdə qalar, neft mədənlərinə, toxuculuq fabrikinə, ayrı-ayrı zavodlara, Mərdəkandakı bağbanlıq məktəbinə, Bibiheybət məscidinə, teatr və digər yerlərə baş çəkərdi.

... Buxara əmiri hər dəfə Bakının bir neçə nəfər yüksək rütbəli mənsəb sahiblərinə, milyonçulara və hətta adi adamlara belə qızıl və gümüşdən birinci və ikinci dərəcəli Buxara "Ucalan ulduz" ordeni və digər Buxara medalları bağışlayardı. Atama və ana babam general-leytenant Ərəblinskiyə də birinci dərəcəli "Ucalan ulduz" qızıl ordeni vermişdi. Hacıya arxa tərəfində xoş sözlər həkk edilmiş iri, çox qiymətli bir qızıl saat da bağışlamışdı.

## GENERAL BAKIXANOVLAR

Bakı xanı Mirzə Məhəmməd xan Sanini övladlarından neçə nəfəri hərb xidmətində olub, hörmət və izzət kəsb etmişlər. Cümləsindən məşhuru və qabili mərhum Abbasqulu ağa Bakıxanov olubdur. Bu zati-şərif ağıl və zəkavəti sayəsində az vaxtın içində bir ülum və fünuna dara olub, müasirləri beynində ad və san qazanmışdı və Qafqazın hər yerində adı söylənirdi. Mərhum Salikin (Kazım ağa Salik Şıxlinski - Ş.N.) müasiri imiş ki, ona "diyari-nəzmü şerdə padşahlıq" ləqəbi verməklə onu yad etmişlər.

Biri Qüdsi ləqəb Abbasqulu bəy,
Diyari-nəzmü şerə padişahdır.

Firidun bəy Köçərli

## ŞAİR, ALİM, GENERAL BAKIXANOV

Abbasqulu ağa artıq çoxdan rus ordusunda
xidmətdədir və onu tanıyanların hamısı
bilir ki, atasının ümidləri tamamilə
doğrulmuşdur. İndi o, Avropa mədəniyyətinə
daha yaxından bələd olmaq üçün və maraqlandığına görə
Rusiyanı səyahət
edir.

Y.N.Ozeretskovsk dekabrist yazıçı.

Abbasqulu ağa Bakıxanov general olmuşdurmu? Bu sual çoxlarını düşündürür. “Azərbaycan gəncləri”ndə mənim “General Bakıxanovlar” adlı məqaləmdən sonra bu sualla tez-tez mənə müraciət edirlər. Vaxtilə bir tədqiqatçı arxiv materiallarında rast gəldiyi “General A.Bakıxanov”u Abbasqulu ağa bilib və bu barədə mətbuatda çıxış etmişdi. Sonralar məlum oldu ki, həmin general Qüdsinin kiçik qardaşı Abdulla ağa Bakıxanovdur. Hər ikisinin adının baş hərfi “A” ilə başladığına görə tədqiqatçı onları səhv salmışdı. Amma Bakıxanovlar nəslinin nümayəndəsi Məmmədrza Bakıxanov ata-babalarının söhbətlərinə istinad edərək inadla deyirdi ki, Abbasqulu ağa Bakıxanov da general olub. Əldə heç bir sənəd olmadığına və inqilabdan əvvəlki ədəbiyyatlarda bu barədə hələlik yazılı mənbə tapılmadığına görə bu fikrə inanmaq çətin idi.

Lap bu yaxınlarda azərbaycanlı generallar haqqında tədqiqat apararkən Azərbaycan Dövlət Tarix Muzeyinin kitabxanasından mütaliə üçün bir kitab aldım: Arnold Zisserman ”İyirmi beş il Qafqazda”. Bir əsrdən çox rəflərdə qalan bu kitabın vərəqləri az qala bir-birinə yapışmışdı. Səhifələrindən hiss etmək olurdu ki, bu qiymətli kitab çoxdan istifadəsiz qalıb.

Kitabın adından göründüyü kimi müəllif düz iyirmi beş il - 1842-ci ildən 1867-ci ilə kimi Qafqazda hərbi xidmətdə olub. Poruçik kimi xidmətə başlayan A.Zisserman podpolkovnik rütbəsinə qədər yüksəlib. Gəncədə, Qazaxda, Qubada, Dərbənd və Teymur Xan-Şurada hərbi qərargahda işləyib. İlisu sultanlığındakı komendantlıqda xüsusi işlər rəisi olub.

Arnold Zissermanın beşcildlik monumental əsəri 1879-cu ildə Sankt-Peterburqda nəfis tərtibatla çap olunub. Kitabın ikinci cildinin əlli üçüncü səhifəsində maraqlı bir fakta rast gəldik. Müəllif yazır: “... Kiçik bir keçiddən sonra biz Gülüllü kəndində düşərgə saldıq. 1842-ci ildə knyaz Arqutinski Qazıkumık xanlığını hiddətləndirən, öz dairə rəisləri podpolkovnik Snaksaryovu başqa zabitlərlə birgə əsir tutan dağlıları burada qırmışdı. O vaxtlar hələ general-mayor rütbəli knyaz Arqutinski Samur dəstəsi adlanan və Cənubi Dağıstanda hərbi əməliyyat rayonuna malik çox da böyük olmayan polkun rəisi idi. Knyaz Moisey Zaxaroviç Arqutinskinin məşhurlaşmasında və yüksək mənsəbə çatmasında başlıca rol oynamış həmin xəbər bütün Qafqaza yayılmışdı. Gülüllü hadisəsi barədə bir əsgər mahnısının nəqəratı hələ də yadımdadır: “ay lülü, ay lülü, ələ keçdi Gülüllü, general Abbasqulu itirdi bir cüt tufli” və i. a. Sonra müəllif mötərizədə yazır: “General-mayor Abbasqulu ağa Bakıxanov, rus rəisliyi tərəfindən Quba aristokratı mənsəbinə yüksəlmişdir. O, Rusiyaya sədaqətli olmuşdur. Arqutinskinin böyük istəklisi idi və həmişə də dəstə süvarilərinə rəis təyin edilirdi. Çünki süvarilər əksəriyyətlə, müstəsna hallarda isə, qala bütünlüklə yerli milislərdən ibarət olurdu, yalnız bir neçə yüz Don kazakı əlavə edilirdi. O, (Bakıxanov - Ş.N.) yaxşı adam idi”.

İyirmi beş il Əlahiddə Qafqaz Ordusunun tərkibində hərbi yürüşlərdə müvəffəqiyyətlə iştirak etmiş Abbasqulu ağa Bakıxanovun "hərbi xidmət kitabçası" ilə tanış olaq.

Məlumdur ki, A.Bakıxanov Qafqazın baş hakimi general A.P.Yermolovun təşəbbüsü ilə Tiflisə hərbi qulluğa dəvət olunmuşdu. 1819-cu il dekabrın 20-dən Baş qərargahın dəftərxanasında Şərq dilləri üzrə mütərcim kimi xidmətə başlayan Bakıxanova doqquz ay tamam olar-olmaz - sentyabrın 4-də praporşik hərbi rütbəsi verilir. Tam altı il sonra poruçik rütbəsi ilə təltif olunur. Bakıxanov ona görə altı il bu rütbədə qalmışdır ki, həmin illərdə Gəncədə, Car-Balakəndə, Qubada tez-tez çar üsul-idarəsinə qarşı kəndli üsyanları olurdu. Yerli məmurlar tərəfindən incidilən, ağır vergilərdən imtina edən yoxsul kəndlilərin tərəfini saxlayan Abbasqulu ağa Bakıxanovdan baş hakim Yermolovun xoşu gəlmirdi. Azərbaycanlı bəyin, ağanın, xanın qanuni hüququnun sıxışdırılması, torpağının əlindən alınıb komendantlara verilməsi bir ziyalı kimi, əsilzadə kimi Abbasqulu ağa Bakıxanovu bərk narahat edirdi. Yermolovun bu cür qəddar əməllərinin şahidi olan A.S.Qriboyedov yazır ki, Yermolov yerli əhalinin gözünü "dəyənəklə, dar ağacı və hər cür edam cəzası ilə, yanğınlarla qorxudurdu. İtaət etməyənləri asmaqla, kəndlərini odlamaqla mütiləşdirirdi".

1825-ci il mart ayının 28-də general-feldmarşal İ.F.Paskeviç Əlahiddə qafqaz korpusunun komandanı təyin olunduqdan sonra A.Bakıxanovun hərbi rütbəsi sürətlə artmağa başlayır, Bakıxanova hörmət və məhəbbətlə yanaşan Paskeviç Qars, Ərzurum, Axalsixi yürüşlərinə onu da aparırdı. Paskeviç gələndən beş ay sonra Abbasqulu ağa Bakıxanov ştabs-kapitan rütbəsi alır. On ay sonra kapitan, səkkiz ay sonra mayor, 1832-ci il martın doqquzunda podpolkovnik, on ildən sonra da - 1842-ci ildə polkovnik kimi yüksək rütbəyə layiq görülür.

Abbasqulu ağa Bakıxanovun "hərbi xidmət kitabçası" burda qurtarır. Bundan sonra heç bir qeyd-filan yoxdur.

Sual olunur, oxucunun yüz iyirmi il bundan əvvəl Qafqazı qarış-qarış gəzərək, kitab yazmış podpolkovnik Arnold Zissermana inanmağa haqqı varmı? Cəsarət edib, elə bəri başdan "bəli" deyirik. Ona görə ki, Zisserman hərbçi idi. O, hərbi rütbələri səhv sala bilməzdi. Axı, Arnold Zissermana nə düşmüşdü ki, yalan yazsın. Bakıxanov onun nə həmməzhəbi idi, nə də yaxın dostu, sirdaşı.

... Deyilənlərə görə[6] Abbasqulu ağa Bakıxanov Məkkəyə gedərkən məhərrəm ayı imiş. Məkkəyə böyük təntənə və dəbdəbə ilə gedənlərdən biri də İran vəliəhdi imiş. Aşura gününü onlar Məkkənin bir günlük məsafəsində qarşılayırlar. Vəliəhd öz çadırının önündə iri hərflərlə yazdırıb vurdurubmuş:

Bu sərbazü əsas şahzadə,
Olaydı kaş o dəmdə Kərbəladə!

6

Abbasqulu ağa çadırın yanından keçərkən yazıya gözü sataşır, oxuyur və altında yazır:

Büsati-cəng olan saət qaçardı,
Qoyardı sərvəri-dini aradə!

Bunu vəliəhdə xəbər verirlər. Abbasqulu ağanı tutub vəliəhdin çadırına aparırlar. Qəzəblənmiş vəliəhd Abbasqulu ağanın qətlinə fərman verir. Abbasqulu ağa namaz qılmaq arzusu ilə vəliəhddən xahiş edir ki, bir neçə dəqiqəliyə öz çadırına getməyə ona icazə versin. Namaz sözünü eşidən vəliəhd ona icazə verir. Abbasqulu ağa öz çadırına gəlib, general paltarını geyir və vəliəhdin çadırına yollanır. Bakıxanovu çar generalı paltarında görən vəliəhd özünü itirir, Abbasqulu ağanın ayaqlarına döşənir:

- Qurban olum, ağa, günahımdan keç!

---

[6] Əhvalat professor K.Məmmədovun "Azərbaycan yazıçılarının həyatından dəqiqələr" kitabından götürülüb. Bakı, 1979-cu il.

Bakıxanov onu ayağa qaldırır:

- Mən sənin günahından keçirəm. Amma ağılla iş görməyi unutmayın, hər şeydən tez qəzəbnak olmayın. Bəlkə mən general yox, adi adamam. Uşaqlarımı yetim, gözüyaşlı qoymağı özünüzə necə rəva bilirdiniz?!

Bu, podpolkovnik Arnold Zissermandan düz yüz il sonra Abbasqulu ağa Bakıxanovun general olmasını təsdiq edən ikinci faktdır.

Ensiklopedik biliyə malik olan Abbasqulu ağa Bakıxanov ötən əsrin əvvəllərində Qafqazda yaşayan qabaqcıl ziyalılarla yaxın dost olmuşdur. A.S.Qriboyedov, V.K.Küxelbeker, N.N.Muravyov, S.A.Sankovski, Şərq dillərinin, Şərq tarixinin bilicisi kimi tanınmış polkovnik Abbasqulu ağadan fəxrlə söhbət açırlar.

Hələ 1829-cu ilin oktyabrında Ərzurum döyüşlərində A.Bakıxanovla birgə fəaliyyət göstərən dekabrist yazıçı A.Bestucev-Marlinski Abbasqulu ağanın tatar (azərbaycanlı - Ş.N.) süvarilərinin cəsarətli mayoru kimi öz ləyaqətinə görə bütün zabitlərdən qat-qat yüksəkdə dayandığını "hərbi antikvar" hekayəsində məhəbbətlə təsvir edir:

"Bu an qapılar açıldı və bizim tatar süvarisinin cəsur mayoru Abbasqulu ağa daxil oldu. O, yüksək dərəcədə savadlı və nəcib bir şəxsdir".

Rus-türk müharibəsindən sonra mayor Abbasqulu ağa Bakıxanovun döyüş xidmətləri layiqincə qiymətləndirilib. 1829-cu il iyunun 24-də Xorto kəndi ətrafında və həmin il sentyabrın 27-də Bayburt altındakı döyüşlərdə göstərdiyi igidliklərə görə Bakıxanov imperator tacı ilə bəzədilmiş ikinci dərəcəli müqəddəs Anna ordeni ilə təltif olundu.

Onu da xatırladaq ki, Bakıxanov ordudakı iyirmi beş illik nümunəvi xidmətində imperiyanın ən yaxşı yeddi orden və medalı ilə təltif olunub. Müqəddəs Anna ordeninin ikinci (iki dəfə) və üçüncü dərəcəsi ilə, üçüncü dərəcəli Stanislav ordeni ilə, müqəddəs Vladimir ordeninin dördüncü dərəcəsi ilə və 1829-cu ildə İran hökumətinin ən yüksək "Şire-Xorşid" ordeni ilə mükafatlandırılmışdır.

Abbasqulu ağa Bakıxanov 1835-ci ildə hərbi qulluqdan istefaya çıxıb Qubadakı doğma kəndi Əmsarda elmi və bədii yaradıcılıqla məşğul olur. Altı il sonra Y.A.Qolovinin xahişi ilə yenidən həqiqi xidmətə çağrılır. 1845-ci ildən isə Məkkə səfərinə yola düşür.

A.Bakıxanov Məkkə səfərinə yola düşməzdən əvvəl çarın qəbulunda olur. Tədqiqatçı F.Qasımzadə, K.Məmmədov, Ə.Əhmədov və müxtəlif arxiv sənədləri də, sübut edir ki, Abbasqulu ağa Bakıxanovun hərbidən tərxis olunması haqqında ərizəsinə şəxsən imperator birinci Nikolayın özü baxıb. İmperator ona ömürlük maaş verilməsinə və lazım gələrsə, yenidən hərbi qulluğa geri çağrılmaq şərtilə hələlik məzuniyyətə çıxmasına sərəncam vermişdir.

Abbasqulu ağa Bakıxanov Peterburqda olarkən Dövlət Şurasında baş katib köməkçisi kimi məsul vəzifədə işləyən Nikolay İvanoviç Pavlişşevlə dostlaşmışdı. Varşavada isə feldmarşal qraf Paskeviçin şəxsi qonağı olmuşdu. Yenə Peterburqda Puşkinlər ailəsinin sevimli qonağı idi. Bir sözlə, Bakıxanov hara səfərə gedirdisə, onu yüksək mədəniyyətinə, ensiklopedik biliyinə görə ali cəmiyyətlərdə çox hörmətlə qarşılayırdılar.

Bir neçə ay Varşavada qalmışam,
Hər cür eyşü-işrətdən kam almışam.
Çox adamla tanış oldum, mötəbər,
Həvəs əhli, hər bir işdən baxəbər
Şəxslərlə məclislərdə - oturdum,
Hər mədəni cəmiyyətə baş vurdum.

Eldə, obada ağız-ağız gəzən bir əhvalat da subut edir ki, Abbasqulu ağanı imperator şəxsən tanıyıb.

... Bakıxanov Peterburqda olanda imperator birinci Nikolayın qonaqlıq məclisinə dəvət olunur. Çara və arvadına çatdırırlar ki, Qafqazdan gələn qonağın ömründə dilinə içki dəyməyib. İmperatorun arvadı qürrələnərək söyləyir ki, mən Abbasqulu ağaya şərab içirdərəm. O, bir qədəh şərabı qızıl podnosa qoyur və özü gətirib Bakıxanova təqdim edir. Padşahın arvadının şərab

təqdim etməsi qonaq üçün ən yüksək hörmət sayılırmış. Abbasqulu ağa ayağa qalxıb podnosdan qədəhi götürür və üzünü imperator birinci Nikolaya tutaraq deyir:

- Ey mənim həşəmətli hökmdarım, siz deyirsiniz bu şərabı için, allahım deyir içmə, hansınızın sözünə baxım?

Çox dindar olan çar birinci Nikolay bir anın içində: - Əlbəttə, allahın - söyləyir.

Abbasqulu ağa Bakıxanov qədəhi qaytarıb padşah arvadının əlindəki podnosa qoyur.

Çar üsul-idarələri qarşısında öz xalqını müdafiə etdiyinə, xüsusilə, 1837-ci il Quba üsyanına görə Abbasqulu ağa Bakıxanovun başı çox ağrılar çəkdi. Qardaşı Cəfərqulu ağa vəzifədən çıxarılıb Bakıya sürgün olundu, əmisi oğlu və qaynı Əlipaşa ağa qiyamçılar tərəfindən öldürüldü, üsyançılar kütləvi həbs olundu. Onlardan 42 nəfəri hərbi-siyasi məhkəmədə mühakimə olunmaq üçün Bakıya göndərildi. Həmin illərdə Əlahiddə Qafqaz ordusunun komandanı baron Q.V.Rozenin fitvası ilə Bakıxanovun "qol-qabırğası" sındırıldı. 1837-ci ilin oktyabrında usyan iştirakçılarını istintaq etmək üçün qraf Vasilçikov Qubaya ezam olundu.

Baron Rozen Peterburqa göndərdiyi tamamilə məxfi məktubunda yazırdı: "Bakıxanovlar ailəsini Rusiya hökumətinə qarşı xainlikdə təqsirləndirmək üçün əlimizdə heç bir sübut yoxdur, amma nəinki Bakıxanovlar, hətta hər hansı bir müsəlman haqqında qəti demək olmaz ki, səmimi qəlbdən bizə bağlıdır. Kim qəti deyə bilər ki, həmin bu ailə başqa bir şəraitdə düşmənlərə qoşulub əleyhimizə çalışmayacaq?..".

Quba üsyanında Bakıxanovlar ailəsini və şəxsən Abbasqulu ağanı günahlandırırdılar. Ona görə də "Quba sakini, podpolkovnik Abbasqulu ağa bəzi izahatlar" üçün zati-alilər (baron Rozen - Ş.N.) tərəfindən Tiflisə çağrılmışdı.

A.Bakıxanovu Qubadan, xalqdan belə uzaqlaşdırdılar. Abbasqulu ağa da bütün bu ağrı-acıları unutmaq üçün dostu qraf feldmarşal Paskeviçin yanına, Varşavaya səfər etdi. Qafqaza qayıtmaq istəmədiyini və onun nələr çəkdiyini yaxşı duyan Paskeviç dostuna kömək etmək üçün təşəbbüs göstərdi. O, xarici işlər naziri qraf K.V.Nesselrodeyə rəsmi məktubla müraciət etdi: "İran müharibəsində Abbasqulu ağanın fəaliyyətindən çox razı idim. Fars dilində mükəmməl biliyi və yorulmadan çalışmağı bizim üçün faydalı oldu. İran dövləti ilə məktublaşmamız onun əlindən keçirdi və beləliklə, iranlılarla əlaqələrimizdən, İranda yürütdüyümüz siyasətdən xəbərdar idi. Abbasqulu ağanı mütləq qulluğumuzda saxlayıb Qafqaz müsəlmanlarına göstərməliyik ki, hökumətimiz bizə can-başla xidmət edənlərin qədrini bilir, bir daha qətiyyətlə bildirirəm ki, Bakıxanov Xarici İşlər Nazirliyinin sərəncamında qalmalıdır.

Xarici İşlər Nazirliyində işə düzəlmək üçün yeddi ay Varşavada, iki ay da Peterburqda gözləyən Abbasqulu ağa Bakıxanov uzunmüddətli məzuniyyət götürüb 1834-cü ildə Qafqaza qayıdır. O, vəzifənin puçluğuna, "hər yüksək mədəni cəmiyyətin saxtalığına" və müqəvva kimi gəzən fraklı məmurların boş-boş danışıqlarına, ağlasığmaz vədlərinə nifrət edərək yazırdı: "Bir çox qəribə işlər və saysız təəccüblü əsərlər gördüm. Hər bir ölkədə, hər bir işdən bilik və təcrübəmi artırdım. Get-gedə cəhalətim azaldı. Yavaş-yavaş xəyalət və təsəvvüratımın puçluğu aydınlaşdı və gördüm ki, dünyanın yüksək mənsəbləri çox alçaqdır və bizim əziz saydığımız tədbirlər bir sərxoşun ağıl sınamasına bənzər; çünki mal və dövlət hər halda puç olacaq, ixtiyar və iqtidar əldən gedəcəkdir... Şəxsi ləyaqət olmadan, nəsəb və sülalə şərafəti qürbətdə naməlum, Vətəndə isə məzəmmətə məruzdur. Bunları təkyə etmək mənasızdır, etibar ediləcək və arxalanacaq bir dövlət varsa, o da hər halda elm və ədəbdən ibarətdir."

Qalan ömrü keçirərəm firavan,
Şükr edərəm allahıma hər zaman.
Qüdsi, xoşdur Əmsar adlı məskənin,
Şəhərlərdən çox üstündür öz kəndin.

## BAKIXANOV QARDAŞLARI

Xalqımızın elə oğulları var ki, onların tərcümeyi-halı, keçdiyi şərəfli yol təkcə özlərinə və öz nəslinə məxsus deyil.

Belə oğulların, belə nəsillərin şərəfli əməli xalqın tarixinə dönüb, sətir-sətir, addım-addım öyrənilməyə layiqdir.

Bakıxanovlar nəsli deyəndə biz ilk anda Abbasqulu ağa Bakıxanovu xatırlayırıq. Onun ədəbiyyatda, tarixdə, fəlsəfədə, maarif sahəsində və nəhayət, rus ordusunda hərbi xadim kimi, xalqımıza göstərdiyi əvəzsiz xidmətlərini ehtiramla yad edirik. Abbasqulu ağa Bakıxanov barədə tədqiqatçılarımız az-çox öz sözlərini deyiblər. Şübhəsiz ki, çox adama, geniş oxucu kütləsinə hələ də yaxşı məlum deyil ki, Bakıxanovlar nəslindən ötən əsrdə on yeddi nəfər hərbçi olub. Cəfərqulu ağa Bakıxanov, Həsən ağa Bakıxanov, Abdulla ağa Bakıxanov isə general kimi yüksək rütbəyə layiq görülüblər. Hətta Cəfərqulu ağa general-leytenant rütbəsinə qədər yüksəlib.

Ötən əsrin iyirminci illərində hərbi xidmətə başlayan Cəfərqulu ağa 1799-cu ildə Bakının Əmircan kəndində anadan olub. Hərbi təhsilini əvvəl Dərbənddə, sonra isə Peterburqda alıb.

Kiçik zabit rütbəsi ilə hərbi məktəbi bitirən Cəfərqulu ağa Müşkür mahalının naibi təyin olunur. 1824-cü ildə Qafqaz canişini general Aleksey Petroviç Yermolov ştabs-kapitan C.Bakıxanovun qüsursuz hərbi xidmətlərini nəzərə alaraq, komendantlıq dövründə alınıb dövlətin ixtiyarına keçirilmiş dədə-baba torpaqlarını Cəfərqulu ayağa qaytarmış və Hacı Ərəb kəndini ona bağışlamışdır.

Cəfərqulu ağa Bakıxanov ilk döyüş sınağını 1826-28-ci illərdə Rusiya ilə İran arasında olan müharibədə keçmişdir. Quba süvari dəstəsinin komandiri kapitan Cəfərqulu ağa Salyanı, Zərdabı və Kür çayı sahilini İran basqınçılarından təmizləmişdir. Şamxor və Gəncə yaxınlığında gedən odlu döyüşlərdə C.Bakıxanov süvarisi şah qvardiyasından bir dəstəni əsir almışdı. Həmin günlərdə komandan İvan Paskeviçə göndərilən raportda yazılırdı: “Azərbaycan döyüşçüləri misilsiz qəhrəmanlıq göstərir və həmişə də ön sıralarda getməyə icazə verilməsini tələb edirlər”.

Fərəhləndirici haldır ki, bu döyüşlərdə əlli səkkiz azərbaycanlı döyüşçünün qəhrəmanlığı orden və medallara layiq görülmüşdür.

Müharibədən bir il sonra, 1829-cu il fevralın 8-də imperatorun sərəncamı ilə döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə mayor Cəfərqulu ağa Bakıxanov üçüncü dərəcəli bantlı “Müqəddəs Anna” ordeni ilə təltif olunur.

Podpolkovnik Cəfərqulu ağa Bakıxanov uzun illər Dağıstan hərbi dairəsində qulluq etmişdir. O, dairənin komandanı general M.Z.Arqutinski ilə yaxın dost olmuşdur. General M.Arqutinski öz qeydlərində Cəfərqulu ağaya, onun qardaşı şair Abbasqulu ağaya səmimi münasibət bəslədiyini və dəfələrlə Qubada onların evində qonaq qaldığını iftixarla yazır. Abbasqulu ağa Bakıxanov isə “Gülüstani-İrəmin” yazılması səbəbi barədə” adlı şerində general Arqutinskini hörmətlə yad edir:

Bir möhtərəm cənab üçün, ələ alıb qələmi,
Çox həvəslə yazmışam bu Gülüstani-İrəmi.

Qalsın bəlkə bu dünyada məndən ona yadigar,
Hər baxanda fərəh versin qəlbinə bu xoş bahar.

Bunda keçmiş məliklərdən, ruzigardan xəbər var,
Bu kitabda çox hikmətli və qiymətli gövhər var.

Yarandısa xahişilə Moisey Zaxariçin,
Yazılmalı oldu, lakin bu əsərim xalq üçün.

1829-cu ildə Cəfərqulu ağa Bakıxanov Həzrə kəndinin çox da varlı olmayan bəyi Xanbutayın qızı Çimnaz xanımla ailə qurur. Kiçik qardaşının xeyir işinə sevinən Abbasqulu ağa Bakıxanov Tiflisdən arvadı Səkinə xanıma yazırdı:

"Əzizim, mehribanım!

... Qardaşım Cəfərqulunun xeyir işi barədə bərk sevindim. Mən canla-başla bu işə razıyam. İstəyir xan, bəy, ya da başqa bir kəsin qızı olsun. Könlü necə istəyir, elə də etsin. Siz də bu barədə əlinizdən gələni edin. Pulum olsaydı belə bir xeyir iş üçün göndərərdim. Ancaq yoxumdur. Öz şallarından birini onun gəlininə bağışla. Artıq nə yazım. Siz qardaşımdan, qardaşım da sizdən muğayat olun. Bir-birinizə mehribanlıq eləyin. Analarımıza, qardaşlarımıza salam-dua yetirin. Bacım Xeyransa xanıma xüsusi salamım var. Günləriniz arzunuzca olsun. Abbasqulu".

1853-cü ildə Krım müharibəsi başlananda Cəfərqulu ağa Bakıxakov polkovnik kimi döyüşürdü. Onun bu müharibədəki igidliyi dördüncü dərəcəli "Müqəddəs Georgi Ordeni"nə layiq görülüb. Azərbaycanlılardan ibarət süvari dəstəsinin komandiri olan Cəfərqulu xana general-mayor rütbəsi verildi.

Arxiv sənədlərində göstərilir ki, 1856-cı ildə II Aleksandrın tac qoyma mərasiminə tanınmış yerli feodallardan ibarət nümayəndələr göndərilmişdi. Nümayəndə heyətinin tərkibində Dərbəndin ali təbəqəsindən general-mayor Cəfərqulu ağa Bakıxanov, Darkin mahalından mayor Nurbahənd Hadi, Samur mahalından poruçik Qazi Əhməd Hacı oğlu, Qazıqumıq xanlığından kornet Həsən xan, Qaytaqdan poruçik Atambəy İbahoğlu, Tabasarandan podporuçik İsmayılbəy Mirzə Hadıoğlu vardı.

Nümayəndə heyətinin başçısı general-mayor Cəfərqulu ağa Bakıxanov olmuşdur.

XIX əsrin altmışıncı illərində Cəfərqulu ağa Quba qəzasında torpaq sahibkarlarından biri idi. General Cəfərqulu ağa Bakıxanov özünün şəxsi torpaqlarından əlavə 1855-ci ildə dövlətdən on beş il müddətinə yüz əlli desyatin torpaq icarəyə götürmüşdü.

1863-cü ildə Cəfərqulu ağa Bakıxanov ordu heyətindəki nümunəvi xidmətinə görə general-leytenant rütbəsinə layiq görülmüşdür.

Axtarışlarımız zamanı hələlik müəyyən edə bilmişik ki, ilk azərbaycanlı general-leytenantımız Cəfərqulu ağa Bakıxanovdur. Bu, keçmiş rus ordusunda ən ali rütbələrdən biridir. Müasir ordu ilə müqayisə etdikdə general-polkovnik rütbəsinə bərabərdir. Bir faktı da xatırlatmaq yerinə düşərdi ki, Zaqafqaziya Rusiya ilə birləşəndə Qarabağ hakimi İbrahimxəlil xana və Cəfərqulu xan Şəkinskiyə də general-leytenant (1806-cı ildə) rütbəsi verilmişdi. Hərbi nizamnaməyə görə adlarını çəkdiyimiz hər iki general-leytenantdan Cəfərqulu ağa Bakıxanovun üstünlüyü ondadır ki, o, nizami orduda uzun illər xidmət etdikdən sonra əla və qüsursuz xidmətinə görə bu rütbəyə layiq görülmüşdür. Qarabağ hakimi İbrahimxəlil xanı və Şəki hakimi Cəfərqulu xanı isə çarizm öz tərəfinə çəkmək məqsədilə general-leytenant rütbəsi ilə təltif etmişdi. Bu faktı qeyd etməklə nə İbrahimxəlil xanın, nə də Cəfərqulu xanın xidmətlərini azaltmaq fikrində deyilik. Lakin döyüşən orduda general-leytenant kimi ali rütbəyə layiq görülmək böyük şərəfdir. Bu isə hər zabitə qismət olmur.

General-leytenant Cəfərqulu ağa 1867-ci ilin sentyabr ayında Qubada vəfat etmişdir. Moskvadakı Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin 191 nömrəli Yefremov fondunda həmin ildə "Vostok" qəzetindən köçürülmüş bir vərəq saxlanılır. Vərəqdə oxuyuruq:

"Vostok" qəzetinin yazdığına görə keçən ay Qubada general-leytenant Cəfərqulu xan Bakıxanov vəfat etmişdir. O, sonuncu Bakı xanı Hüseynqulu xanın nəslindəndir. Hüseynqulu xanın nökəri 1806-cı ildə Sisianovu öldürmüşdür. Bakıxanovun cənazəsi Qubadan Bakıya Şıx vadisində dəfn olunmağa gətirilmişdir. Xanın dəfn mərasimi onun mənsəb və rütbəsinə layiq hərbi şərəflə təşkil olunmuşdur. Qubernator və onun şəxsi heyəti vidalaşmaq üçün Şamaxı yoluna gəlmişdilər.

Mərasim hərbi matəm musiqisi və qaladan atılan yaylım atəşi ilə müşayiət olunmuşdur. Matəm dəstəsinin önündə bəziləri barabanlarla, bəziləri isə bayraq və müxtəlif ordenlərlə irəliləyirdilər. Onların ardınca mollaların müşayiəti ilə tabutda mərhumun cənazəsi aparılırdı.

Cənazənin yanınca qurşağa kimi çılpaq, sinələrinə və başlarına yumruqla döyən azərbaycanlılar gedirdilər.

Mərhum xanla təntənəli vidalaşma Bayıl burnuna qədər davam etdi. Döyüşçülər orada dayandılar. Axırıncı hörmət əlaməti olaraq tüfənglərdən üç dəfə yaylım atəşi açdılar. Sonra xanın ordenləri onu məzara qədər müşayiət edəcək azərbaycanlılara verildi".

## GENERAL HƏSƏN AĞA BAKIXANOV

Cəfərqulu ağanın ölümündən sonra onun üç övladı qalmışdı: Həsən ağa, Əhməd ağa və qızı Nurcahan xanım.

Oğlanlarının hər ikisi atasının yolu ilə gedib, onun hərbi işini davam etdirmişlər. Böyük oğlu Həsən ağa general-mayor, kiçiyi Əhməd ağa isə qvardiya polkovniki rütbəsinə qədər yüksəlmişdir.

Həsən ağa Bakıxanov 1834-cü ildə Qubada anadan olmuşdur. On dörd yaşında Tiflis kadet korpusunu bitirən Həsən ağa hərbi təhsilini artırmaq üçün Peterburqdakı paj korpusuna daxil olur. Hərbi məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra o, xidmət etmək üçün Əlahiddə Qafqaz Ordusuna göndərilir. Dəfələrlə hərbi yürüşlərdə iştirak etdiyinə görə orden və medallarla təltif olunmuşdur.

1894-cü ildə tərtib olunmuş bir arxiv sənədində general-mayor Həsən ağa Bakıxanovun təltif olunduğu orden və medallar qeydə alınmışdır.

O, üçüncü dərəcəli Müqəddəs Vladimir, üzərində igidliyə görə yazısı olan dördüncü dərəcəli Müqəddəs Anna, ikinci və üçüncü dərəcəli Müqəddəs Stanislav, bundan başqa yüz on altı nömrəli ikinci dərəcəli hərbi fərqlənmə ordeni, Georgi lenti üzərində qızıl medalla, Müqəddəs hərbi Georgi ordeninin yüz illiyi şərəfinə buraxılmış bürünc medalla, 1877-1878-ci il müharibəsi xatirəsinə buraxılmış tunc bürünc medal və Qafqazda xidmətinə görə xaçla təltif olunub.

Bir müddət İrandakı Rusiya səfirliyində xidmət etdiyinə görə Həsən ağa Bakıxanov həmin ölkənin ən ali ordeni olan "Şire-Xorşid" ordeninə layiq görülmüşdür.

1856-cı ildə Həsən ağa, əmisi Abbasqulu ağa Bakıxanovun qızı Bikəxanımla ailə qurmuşdur. 1880-cı ildə isə general-mayor rütbəsində istefaya çıxan Həsən ağa Bakıxanov ömrünün axırınadək Qubada yaşamışdır.

## GENERAL ABDULLA AĞA BAKIXANOV

Abdulla ağa Abbasqulu ağa Bakıxanovun ata bir, ana ayrı qardaşıdır. Onların atası II Mirzə Məhəmməd xan üç dəfə evlənmişdi. Birinci arvadı gürcü qızı Sofiyadan Abbasqulu ağa və Cəfərqulu ağa, ikinci arvadı Xeyransa xanımdan Qədir ağa, Mustafaqulu ağa, Cavad ağa və Abdulla ağa dünyaya gəlmişdi. Üçüncü arvadı Xanbikə xanımdan isə övladı olmamışdır.

Cəfərqulu ağanın vəfatından sonra Bakıxanovlar nəslinin qanuni varisi Abdulla ağa olmuşdur.

Etiraf etmək lazımdır ki, A.Bakıxanovun hərbi fəaliyyəti haqqında əlimizdə məlumat azdır. Hələlik onun general olmasını təsdiq edən iki arxiv sənədi var. Birincisi Azərbaycan Dövlət Tarix Muzeyindədir. Həmin sənəd 29 aprel 1894-cü ilə məxsusdur. Orada deyilir ki, 1859-cu ildə qubalı zadəgan, polkovnik Ağabəy Sadıqov Quba qəzasındakı Xudat adlı kəndini hazırda general-mayor rütbəsində olan Abdulla ağa Bakıxanova dövlət qanunu ilə satmışdır.

İkinci sənəd isə Respublika Əlyazmaları İnstitutunda saxlanan general-mayor Abdulla ağa Bakıxanovun görkəmli maarifpərvər Həsən bəy Zərdabiyə yazdığı məktublarıdır. Birinci məktubda - 4 may 1873-cü ildə general Abdulla ağa yazır ki, qəzet nəşr etmək xəbərini eşidəndə sevindim. Sizə mətbəə açmaqdan ötrü min manat vəsait göndərirəm. 24 oktyabr 1873-cü il tarixli ikinci məktubunda isə general-mayor Abdulla ağa Bakıxanov Zərdabiyə bildirir ki, "Əkinçi"ni

çıxartmaq üçün heç şeydən, xüsusilə maddi çətinlikdən çəkinməsin, lazım gələrsə əlavə yenə pul verməyə hazırdır.

Qəzetin kütlələrə, xüsusilə Azərbaycan xalqına böyük kömək edəcəyini yaxşı başa düşən general Abdulla ağa Bakıxanov müxtəlif idarələrə müraciət edib "Əkinçi"nin çıxması üçün var qüvvəsi ilə çalışmışdır. Zərdabiyə isə abunəçi toplamaqda çar çinovniklərini "narahat" etməməyi məsləhət görmüşdür. Məktubların məzmunundan məlum olur ki, maarifpərvər Zərdabi ilə general A.Bakıxanov yaxın dost olmuşlar. 19 iyul 1875-ci il tarixli məktubunda o yazırdı:

"Əziz və istəkli Həsən bəy!

Sizin məktubunuzu Tiflisdə aldım. Qəzetin nəşri haqqında elan isə Qubada mənə məlum oldu. Ona görə də mən Tiflisdən məktub yazmaq imkanından məhrum oldum.

Qubaya gəldikdə öyrəndim ki, Əhməd ağa onları paylamış, bir neçə nüsxəni isə özündə saxlamışdır. Elə burada da öyrəndim ki, elanların paylanması üçün, siz hökumətə müraciət etmisiniz və onların vasitəsi ilə abunəçi toplamısınız. Onu da deməliyəm ki, yuxarı dairələri narahat etməkdənsə qəzetin labüdlüyünü dərk etdirmək yolu ilə abunəçilər axtarmaq daha yaxşı olardı. Onda xeyrini dərk edən xalq könüllü olaraq sizin qəzeti qəbul edərdilər. Qəzet möhkəm zəmin üzrə yayılardı.

Nə isə, bu mənim şəxsi mülahizəmdir. Ona görə də sizi vadar etmirəm.
Hər halda mən sizin tədbirə kömək etməyə çalışacağam. Allah eləsin ki, müsəlman əhalisi arasında savadlanma geniş yayılsın. Sonra sizin qəzetin sadiq abunəçiləri olacaqdır. O zaman sizin qəzetin xalq kütlələrinə mənfəət gətirəcəyini inamla söyləmək olar.

Başladığınız işdə sizə səmimi qəlbdən muvəffəqiyyət arzulayıram. Baxmayaraq ki, ilk vaxtlar bəzi uğursuzluqlar da ola bilər. Yaxşı, olar ki, ruhdan düşməyərək həmişə olduğu kimi xeyirxah işi inamla davam etdirəsiniz.

Sizin sadiq nökəriniz A.Bakıxanov.

İki nüsxə göndərin: birini mənim, o birini isə Əhməd ağanın adına".

19 iyul 1875-ci il. Q u b a.

1877-ci il iyunun 23-də "Əkinçi" qəzeti birinci səhifəsində belə bir elan dərc etmişdi:

"Cənab şahzadə sərəskər, Qafqazın ixtiyarında hesab olunan general Abdulla ağa Bakıxanov Bakı quberniyasına gəlib. Quba şəhərində olan zaman Qafqazda zəxmdar (yaralılar - Ş.N.) olan əsgərlər üçün oranın müsəlmanlarından 233 manat[7] siyahı ilə cəm edib, iyun ayının üçündə qubernatora göndərib. Cənab qubernator isə o məbləği və siyahını cənab sərdarın övrətinin qofmeysteri Tolstoya göndərib ki, zəxmdar olanlara məsrəf olunsun".

Bakıxanovlar nəslinin sonuncu generalı Abdulla ağa Bakıxanov ömrünün sonlarını Tiflisdə yaşamışdır. O, 1878-ci ildə orada da vəfat etmişdir.

Bir nəsildən, bir kökdən qanadlanan üç general oğlumuzun fəaliyyətindən sizə söhbət açdıq. Doğma Azərbaycanımızda belə adlı-sanlı nəsillər çox olub. Onların yetirdiyi sərkərdələr haqqında axtarışlarımızı davam etdiririk. Ümid edirik ki, general oğullarımızın həyatını, döyüş fəaliyyətini öyrənməkdə siz oxucular da bizə kömək edəcəksiniz.

[7] Bu ianə 1877-ci ildə başlayan Rusiya-Türkiyə muharibəsinin Qafqaz cəbhəsində vuruşub yaralanmış azərbaycanlılardan ibarət suvari dəstənin əsgərlərinə göndərilmişdir. Elandan görünür ki, general Abdulla ağa qocalığına görə müharibədə iştirak etməsə də, arxa cəbhədə fəaliətini dayandırmamışdır.

# GENERAL HƏSƏN BƏY AĞALAROV

8 avqust 1944-cü il. Bu gün qəzet buraxdıq...
Vətəndən gələn hədiyylər arasında rus ordusunun general-leytenantı Əliağa Şıxlinskinin "Xatirələrim" kitabına rast gəldim. Bu qoca generalın kitabı mənə çox gözəl təsir bağışladı. O bu kitabı ölümündən bir qədər əvvəl diktə etmişdir. Ancaq hərbi tariximiz üçün böyük əhəmiyyəti var. Azərbaycanın belə generalları çox olmuşdur. Hanı onların adı? Niyə onlar haqqında yazılmır?

Məmməd Aranlı "Cəbhə gündəliyi"

Bir dəfə Azərbaycan Dövlət Tarix Muzeyində axtarış aparanda heç vaxt görmədiyim bir general şəklinə rast gəldim. Maraqlanıb kimliyini soruşdum. Muzeyin elmi işçisi Saraxanım Cavanşirova dedi ki, bu yaxınlarda əldə etmişik, haqqında çox az məlumatımız var. Deyilənə görə, portret yüz qızıl pula işlənib...

General-mayor Həsən bəy Ağalarovun portreti naməlum rəssam tərəfindən çəkilib. Portretin hündürlüyü səksən beş, eni isə yetmiş santimetrdir. Yeni tarix fondunda saxlanan bu portretə zərli çərçivə o qədər gözəl yaraşıq verir ki, tamaşaçı bir müddət ondan ayrıla bilmir.

"Qafqaz hərbi-tarix muzeyi"nin 1913-cü ildə nəşr etdiyi altı yüz otuz bir nömrəli "Soraq kitabçası"nı səhifə-səhifə vərəqləyirəm. Bu kitabçada inqilabdan əvvəlki yüksək rütbəli zabitlər və generallar haqqında məlumatlar var. Siyahı üzrə iki yüz qırx dördüncü bölmədə general-mayor Həsən bəy Ağalarov, haqqında az da olsa məlumata rast gəlirəm.

Həsən bəy Ağalarov 1812-ci ildə Tiflisdə zadəgan ailəsində anadan olub. O, 1830-cu ildə kadet korpusunu bitirdikdən sonra Qafqaz müsəlman-süvari polkunda xidmət edir. Az sonra bölük komandiri Həsən bəy Ağalarovun fərasəti və hərbi işdəki nizam-intizamı general-leytenant knyaz Vasili Osipoviç Behbudovun diqqətini cəlb edir. Ona görə də general, poruçik Həsən bəy Ağalarovu qərargah işləri üzrə ən yaxın köməkçisi təyin edir.

1833-cü ilin noyabrında azərbaycanlılardan ibarət Qafqaz süvari diviziyası Varşavaya ezam olunanda onun sıralarında general İsmayıl bəy Qutqaşınlı, Abbasqulu ağa Bakıxanovun kiçik qardaşı general-mayor Cəfərqulu ağa Bakıxanov, kapitan Həsən bəy Ağalarov da vardı.

1840-cı ildə ştabs-kapitan rütbəsində olan Həsən bəy əla xidmətinə görə üçüncü dərəcəli müqəddəs Stanislav ordeni ilə təltif olunur. 1849-cu ildə onun alayı Debreçin şəhəri uğrunda gedən döyüşlərdə macarların bir rotasını darmadağın edib dörd topunu alanda polkovnik Həsən bəy Ağalarov döyüşdə göstərdiyi igidliyə görə dördüncü dərəcəli "Müqəddəs Georgi ordeni"nə layiq görülür.

1852-ci ildə isə polkovnik Həsən bəy Ağalarov Qafqaz müsəlman süvari polkunun komandiri təyin olunur. Bir il sonra Krım müharibəsi başlananda Qafqaz oğulları da silaha sarıldılar. Xüsusi döyüş dəstələri yaradıldı. "1853-56-cı il Şərq müharibəsinin təsviri" kitabının müəllifi A.F.Qeyrot yazır ki, təkcə gəncəlilərdən ibarət iki süvari dəstəsi yaradılmışdı. Onların ümumi sayı min nəfər cəsur atlılardan ibarət idi. Bu süvarilər hansı cəbhəyə göndərilirdisə, ordan igidlik və rəşadətləri haqqında xoş sözlər eşidilirdi.

1853-cü il noyabrın 2-də Bayandur kəndi uğrunda döyüşlərdə general-mayor İlya Orbelianinin komandanlığı altında qafqazlılar mərdlik və mətanətlə döyüşürdülər. Bu döyüşlərdə gürcü Kavtaradzenin və azərbaycanlı Ağalarovun əsgərləri xüsusilə fərqlənirdilər. Bütün hücumları dəf edən rus və azərbaycanlı döyüşçülərin sarsılmaz dəyanəti düşməni qorxuya salacaq dərəcədə heyrətləndirdi.

Tarixçi A.F.Qeyrot kitabının 191-192-ci səhifələrində Bayandur kəndi yaxınlığında gedən ölüm-dirim vuruşmasında mərd babalarımızın hünərindən iftixarla söhbət açır:

“Orbeliani dəstəsi gözlənilmədən 40 topdan atılan güclü atəşlə qarşılandı. Rus artilleristləri dərhal cavab atəşi atdılar, lakin qüvvələr bərabər deyildi. Güclü top atəşi və düşmən süvarilərinin hücumu başlandı. İkinci Azərbaycan süvari dəstələri top atəşi ilə müdafiə olunan düşmən atlılarının güclü hücumuna məruz qaldı. Tixotski özünün draqun diviziyası ilə vaxtında azərbaycanlı döyüşçülərin köməyinə çataraq düşməni cəhdlə əzməyə başladılar. Draqun diviziyasının və Azərbaycan atlılarının zərbələri altında əzilən düşmən süvariləri qaçmağa üz qoydular”.

1857-ci ildə general-mayor rütbəsinə layiq görülən Həsən bəy Ağalarov Qafqaz əlahiddə ordusunun zabiti kimi ömrünün axırına qədər döyüşən hissələrdə hərbi borcunu şərəflə yerinə yetirmişdir.

General Həsən bəy Ağalarovun sənədləri ilə tanış olduqda görürük ki, o, Tiflisdə yaşayan mütərəqqi fikirli Azərbaycan ziyalıları ilə dostluq etmişdir. O zaman canişinlikdə müşavir və tərcüməçi işləyən Ağabəy Yadigarovla, general-mayor İsrafil bəy Yadigarovla, general İsmayıl bəy Qutqaşınlı ilə böyük dramaturq Mirzə Fətəli Axundovla və görkəmli şairimiz Qasım bəy Zakirlə yaxından əlaqə saxlamışdır.

Məşhur şairimiz Qasım bəy Zakir 1850-ci ildə nahaq böhtana düşüb, sürgün ediləndə general Həsən bəy Ağalarov şairi xilas etmək üçün xeyli çalışmışdır. Zakir bir şerində xeyirxah insan, cəsur bir əsgər kimi yad edir:

Həvadisi-dövran gərdişi-fələk,
Salmışdı binəyə kəbki[8] yepələk:
Tülək tərlan kimi, qafil Həsən bəy,
Şığıyıb çənginə götürdü bayaq.

## YADİGAROV QARDAŞLARI

Talışinskilər nəslindən də general olduğunu eşitmişdim. Bakıda onlardan heç kimi tapa bilməyib, Lənkərana yollandım. Lənkəranda öyrəndim ki, general Mirkazım bəy Talışxanovun[9] nəvələrindən biri Rəna xanım Axundzadə Bakıda yaşayır. Generalın sorağıyla Rəna xanımın qonağı oldum.

Rəna xanım Axundzadənin ötən əsrə məxsus ailə albomundakı üç şəkil diqqətimi cəlb elədi. Şəklin birində Birinci dünya müharibəsi illərində qoca bir general səngərdə təsvir olunmuşdu. Ancaq şəxsiyyəti məlum deyildi. Albom sahibi dedi ki bəlkə də Əliağa Şıxlinskidir, dəqiq bilmirəm. Bu mülki geyimdə olan da Yadigarovdur. Axı, bizim nəsil Borçalı Yadigarovlarla qohum olub. Hansı Yadigarovdur, onu da bilmirəm. Bu səkkiz nəfərin təsvir olunduğu şəkildə isə babam Mirkazımxan ailəsi ilədir. Bunların hamısı mənim yaşımdan çox-çox əvvəl yaşamış adamlardır.

Şəkillərin üzünü çıxartdırmaq üçün Rəna xanımdan icazə istədim. Səngərdə təsvir olunan generalın Əliağa Şıxlinski olmasını heç bir qohumu - nə xalq yazıçısı İsmayıl Şıxlı, nə də Gövhər xanım Usubova təsdiq elədi. Həqiqətən də şəkildəki generalın Şıxlinskiyə oxşarlığı demək olar ki, yox idi... Sonralar məlum oldu ki, Birinci dünya müharibəsi illərində təsvir olunan general da elə Mirkazım bəy Talışxanovdur.

Yadigarovlar Borçalının Təkəli kəndindən olublar. Bu əsilzadə nəslin üç oğlu haqqında məndə az-çox məlumat vardı. Onların hər üçü hərbçi olub. Rusiya-İran, Rusiya-Türkiyə və Rus-

---

[8] Kəbki – kəklik

[9] İnqilabdan əvvəlki sənədlərin hamısında generalın ad-familiyası belə göstərilir.

yapon müharibələrində qeyrətlə vuruşub ad-san qazanıblar. İnqilabdan əvvəl rus hərb tarixçisi M.İ.Boqdanoviç və hazırda Moskvada yaşayan həmyerlimiz, polkovnik, tarix elmləri doktoru Hacımurad İbrahimbəyli bu qardaşlardan birinin - İsrafil bəy[10] Yadigarovun döyüş şücaətlərindən iftixarla bəhs etmişdir. Qazax, Borçalı aşıqları İsrafil bəyin Qars və Ərzurumdakı qeyri-adi qəhrəmanlığı haqqında dastan da qoşublar.

1853-cü ildə Krım müharibəsi başlananda podpolkovnik İsrafil bəy Yadigarov azərbaycanlılardan ibarət min nəfərlik süvari müsəlman briqadası komandirinin müavini olmuşdur. Bir il sonra Kürək dərə döyüşlərindəki hərbi məharətinə görə ona polkovnik rütbəsi verilir. Borçalılardan ibarət könüllü yığma ovçu" döyüşçülər təşkil edən İsrafil bəy ordunun tərkibində ikinci süvari Azərbaycan alayı təşkil edir.

1854-cü il avqustun 19-da döyüşən ordu korpusunun komandanı Əlahiddə Qafqaz korpusunun komandanına göndərdiyi bir məlumatda yazırdı:

"Bu gün möhkəm və dəhşətli bir hücum oldu. Düşmən müdafiə olunmağa cəhd göstərirdi. Lakin onlar polkovnik İsrafil bəy Yadigarovun süvarilərinin hücumuna davam gətirə bilmədilər. Düşmənin sol cinahı yarıldı. Draqunlar, kazaklar, ikinci Azərbaycan süvariləri və gürcü drujinası sürətlə irəli atılıb onları döyüş səhnəsindən sildilər".

Arxiv sənədləri göstərir ki, 1855-ci ilin iyul ayında polkovnik İsrafil bəy Yadigarov Şəki və Şamaxı könüllülərindən təşkil etdiyi süvari alayla Qars üzərinə olan qəti hücumda bir neçə dəfə fəal iştirak etmişdir. Bu müharibədə qeyri-adi qəhrəmanlığa görə təltif olunan 350-dən çox azərbaycanlı arasında polkovnik Yadigarov da vardı. Onun döyüş xidmətləri dördüncü dərəcəli müqəddəs Georgi ordeninə layiq görülmüşdü.

Polkovnik, tarix elmləri doktoru Hacımurad İbrahimbəyli Krım müharibəsində rus hərbi xadimlərinin xidmətindən danışarkən haqlı olaraq yazır:

"Krım müharibəsi dövründə milli Qafqaz hərbi xadimləri içərisindən çıxmış hərbi rəisləri Rusiyanın şöhrətli hərbi xadimləri ilə bir sırada yanaşı qoysaq, səhv etmərik. Onların sırasına azərbaycanlı general-mayor İsmayıl bəy Qutqaşınlını, Mənsur ağa Vəkilovu, polkovnik İsrafil bəy Yadigarovu, polkovnik Ağayevi, kürd podpolkovniki Cəfərağa Əlibəy ağa oğlunu, gürcü generalı Andronikaşivilini, kabardin polkovniki Sultan Qazi Gərayı, osetin polkovnik Kondukovu, Dudarovu və başqalarını aid etmək olar".

İndiyədək heç bir arxiv sənədində inqilabdan əvvəlki hərbi-tarixi əsərlərdə polkovnik İsrafil bəy Yadigarovun general-mayor rütbəsi alması haqqında məlumata rast gəlməmişik. Bu barədə əlimizdə bircə tutarlı fakt var[11]. Onu da ilk dəfə Azərbaycan SSR EA Tarix İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru Tofiq Vəliyev üzə çıxarıb. T.Vəliyev SSRİ Mərkəzi Dövlət Tarix Arxivindən və XIX əsrin dövri mətbuatından topladığı yeni materiallar əsasında yazdığı "Naməlum səhifələr" məqaləsinin ("Ədəbiyyat və incəsənət" qəzeti, 16 yanvar 1981-ci il) bir yerində qeyd edir ki, məhkəmə materiallarından müəyyən olur ki, Əlimərdan bəy (M.C.Topçubaşovun atası - Ş.N.) Borçalı ağalarından birinin qızını almışdı. Çox güman ki, sonralar onun II İrakli sarayına düşməsində arvad qohumlarının böyük rolu olmuşdur. Mirzə Cəfər Topçubaşovun dayısı uşaqlarından saray müşaviri Ağa bəy və general-mayor İsrafil bəy Yadigarovlar, Hüseyn ağa Abbas bəy oğlu və Əsmət xanım Vəzirova onun "varisləri" sifəti ilə qalmış mal-dövlətə iddiaçı idilər".

Yadigarovlar haqda araşdırmalar aparsaq görərik ki, tariximizin müxtəlif qatlarında bu nəslin oğullarının layiqli izi var.

Əvəzsiz tarixçimiz Abbasqulu ağa Bakıxanov məşhur "Gülüstani-İrəm" əsərində Yadigarovlar nəslinin ulu babasından söhbət açır:

... "Fətəli xan, Azərbaycan və bəlkə də, bütün İran işlərin" intizama qoymaq xəyalı ilə Gürcüstan valisi İrakli xanla görüşüb məsləhətləşmək binasını qoydu. İrakli xan da Sadıq bəy

---

[10] Arxiv sənədlərindən və borçalıların söhbətlərindən məlum olur ki, iki İsrafil bəy Yadigarov olub. Baba və nəvə ( - Ş.N.).

[11] Sonralar "Kabkazckij calendar" məcmuəsinin 1873-74-cü il nömrələrində İsrafil bəy Yadigarovun general-mayor rütbəsi alması faktına rast gəldim. ( - Ş.N. )

Yadigar oğlunu səfir sifətilə Fətəli xanın yanına göndərdi. O, qədim valilər nəslindən yadigar qalıb... Onun oğul və nəvələri indi də Tiflisdə yaşamaqdadırlar. Səfir Sadıq bəy Nuxada (Şəkidə - Ş.N.) xanın hüzuruna gəlib, hədsiz lütf və mərhəmətə nail oldu”.

1978-ci ilin oktyabrında Tbilisidə ezamiyyətdə olanda akademik Paata Vissarionoviç Ququşvili ilə görüşdüm. Gürcüstanda onu bizim böyük şairimiz Səməd Vurğunun yaxın dostu kimi tanıyırlar. Söhbətimiz istər-istəməz iki qardaş xalqın qədim dostluğundan, onların yadellilərə qarşı birgə mübarizəsindəa düşdü. Paata Vissarionoviç dedi ki, 1795-ci ildə Qacar Tiflisə hücum edəndə Gürcüstanda yaşayan Azərbaycanlılar da şah ordusuna qarşı şücaətlə vuruşublar. Onlardan biri Sadıq bəy Yadigar oğlu idi, biri də Xudu bəy Borçalinski. Xudu bəy Borçalinski II İraklinin ən yaxın dostu olub. Ən çətin anlarda belə II İrakli Xudu bəyə inanıb. Hətta bir gürcü sərkərdəsini qoşun başçılığından azad edib, əvəzində Xudu bəyi təyin edir. Bizim gürcü tədqiqatçıları indi də bu əhvalatı qeyri-adi bir fakq kimi danışırlar. Xudu bəy də Yadigarovlardandır.

Mən 1928-ci ildə “Gürcü kitabı” (1629-1929-cu illəri əhatə edir) adlı əsərini yazanda bu fakta arxivdə rast gəldim.

Xalqımıza təmənnasız bir sevgi bəsləyən ağsaqqal akademik Paata Vissarionoviç sevinclə:

- Hə, yadıma bir fakt da düşdü, - deyib söhbətinə davam etdi. - Ağa Məhəmməd şah Qacar Tiflisə yeriməmiş II İrakliyə hədələyici bir məktub göndərir. Qacar məktubunda yazıb tələb edir ki, 1783-cü ildə ruslarla bağladığı müqaviləni pozsun. Əgər əmrimi yerinə yetirməsən onda mənim qoşunum Gürcüstanda rus və gürcü qanından Kür kimi bir çay axıdacaq.

II İrakli hiss edir ki, onun ölkəsinə çox güclü və dəhşətli fəlakət gəlir. Ona görə də ailəsini salamat qalmaq üçün Tuşetə göndərməli olur. Bu vaxt çətin dağ yolları ilə II İraklinin arvadı Darecan xanımı və uşaqlarını müşayiət edən Xeyransa xanım Yadigarova və bir neçə başqa azərbaycanlı qadın olub. Bu fakta mən “Kavkaz” qəzetinin 1854-cü ildə nəşr olunmuş nömrələrində rast gəlmişəm.

Azərbaycan Dövlət Tarix Muzeyinin arxivindən əldə etdiyimiz bir sənəd 1846-cı ilə məxsusdur. Həmin ilin may ayında Qafqaz canişini knyaz M.S.Vorontsov raportla çar I Nikolaya bildirir ki, Lori dərəsindəki kəndlərin Sadıq bəy Yadigarovun ixtiyarında qalmasına icazə versin. M.S.Vorontsovun raportu:

“Əvvəllər Körpülü kəndində köçərilərin müvəqqəti məskunlaşmasına baxmayaraq, gürcü çarları İrakli və Georgi tərəfindən bu kəndin Sadıq bəy Yadigarova bağışlanması haqqında ona fərman təqdim olunmuşdu. Bununla bərabər çarlar ətrafdakı xristian və Azərbaycan kəndlərini də onlara bağışlamışdı və indiyədək də həmin kəndlər Yadigarovların tamamilə ixtiyarındadır”.

Dekabrın altısında imperator M.S.Vorontsova cavab məktubunda yazır ki, Lori dərəsindəki torpaqların Gürcüstanda yaşayan əsilzadə azərbaycanlıların ixtiyarında qalmasına etiraz etmir.

Nə İsrafil bəyin, nə Sadıq bəyin, nə də Həsən bəy Yadigarovun fotoşəklinə indiyədək rast gələn olmayıb. Bəs Rəna xanımın göstərdiyi şəkildəki mülki geyimli hansı Yadigarov idi? Təkəli kəndindən Bakıda yaşayan bir neçə ağsaqqal və ağbirçəklə görüşdüm. Şəkli kimə göstərdimsə tanıyan olmadı. Borçalıya getdim. Təkəlinin qocaman sakinləri Hüseyn Eyyubovla, Əli Qurbanovla görüşdüm. Ötən əsrin səksəninci illərində şəkildə əbədiləşən Yadigarovu heç kim tanımadı.

Vaxtilə Borçalı mahalının adlı-sanlı nəsillərindən biri olan Yadigarovlardan indi bu obada bir nəfər belə qalmayıb. Otuz yeddinin qara günləri bu nəslin oğullarını pərən-pərən salıb. Amma qeyrətli Yadigarov qardaşları haqqında qocaların sinəsi dastana sığışmayan əhvalatlarla doludur. Gümrüdən (indiki Leninakan şəhəri - Ş.N.) Sınıq körpüyə, Borçalıdan isə Cəlaloğluya (İndiki Stepanavan şəhəri - Ş.N.) qədər olan torpaq sahələri Yadigarovların ixtiyarında olub. İkimərtəbəli, on iki otaqlı Yadigarovların şəxsi evi indi kəndin orta məktəbidir. Kənddəki dəyirmanı, məscid binasını da bu qardaşlar tikdiriblər. İndi dəyirmandan çörəkxana kimi, məsçiddən isə mədəniyyət evi kimi istifadə olunur.

- İsrafil bəy ucaboylu, enlikürəkli, qarayanız adam idi. Hüseyn dayı ilə birgə Yadigarovların həyətini, bərbad hala düşmüş bağlarını gəzirik. O, mənə nəvə İsrafil bəydən söhbət açır.. - Bəy İngiltərədən bir at gətirtmişdi. Od parçası idi. Mən onda gənç idim, on dörd-on beş yaşım ancaq olardı... Atam, əmilərim danışardılar ki, rus-yapon müharibəsində İsrafil bəy, döyüşlərin birində yaponların topunu qılınc gücünə əsir almışdı.

Qafqaz süvari briqadasının tərkibində vuruşan mayor İsrafil bəy Yadigarov (nəvə) 1905-ci ildə zabitlərə məxsus müqəddəs Georgi ordeninin ikinci dərəcəsi ilə təltif olunmuşdur. O, böyük dramaturqumuz Mirzə Fətəli Axundovla yaxın dost olmuşdur.

1916-cı ildə çar soldatları kasıb kəndliləri çox incidirmişlər. Ağır vergi, müharibəyə əsgər toplanışı camaatı cana doydurubmuş. Yanı soldatlı pristav, uryadnikli qubernator kəndi çapıb talayırmış. Qaçağanlı Mustafa Tağı oğlu, Məmmədtağı Axundoğlu və Qasımlı Kərəm qubernatorun iki soldatını öldürürlər. Az keçmir ki, iki polk əsgər Qaçağan kəndini mühasirəyə alıb kasıb kəndliləri döyür, işgəncə verib cinayətkarları tələb edir. Kəndin bir neçə bəyi, hətta ortancıl qardaş Sadıq bəy Yadigarov da qubernatordan təvəqqe edir ki, camaatı nahaqdan incitməsin. Həsən bəy kənddə yox imiş, Tiflisdə imiş. Ona xəbər göndərirlər. O, dərhal kəndə gəlir. Çamaatı döydürən qubernator faytondan general düşdüyünü görüb özünü yığışdırır.

Həsən bəy: - Bu nə özbaşınalıqdır, mənim kəndimdə?

Qubernator:

- Əlahəzrət, mən onlardan soldatları öldürən cinayətkarları tələb edirəm.

- Cənab qubernator, siz kasıb kəndlilərə vurduğunuz zərəri ödəyin, mən də bu saat sizin öldürülmüş əsgərlərin qan pulunu artıqlaması ilə verərəm. O ki, qaldı cinayətkar kəndlilərin sizə divan üçün verilməsinə... Nə qədər ki, mən sağam, siz onları (heç vaxt ala bilməyəcəksiniz...

Dodaqaltı donquldanan qubernator:

- Əlahəzrət, məndə o qədər pul hardandı?

- Onda gedin işi divan-məhkəməyə verin...

Suyu süzülən qubernator əsərləri də yığıb kəndi tərk edir. Bir daha geri qayıtmır.

Ağsaqqal Hüseyn Eyyuboğlunun söhbəti:

- İnsani keyfiyyətlərə məxsus olan Həsən bəy çox rəhmli və səxavətli adam idi. Kəndlilərə icarəyə verdiyi yerin bəhrəsini məhsula görə alardı. Bacarıb verə bilməyənlərə, külfəti çox olanlara güzəştə gedərdi. Həyat yoldaşı Rüxsarə xanım əmisi qızı idi. Atalar məsəlidir, ərlə arvadın torpağı bir yerdən götürülər. Həsən bəy kimi Rüxsarə xanım da kəndin, Borçalı mahalının bütün xeyir-şər işlərində iştirak edərdi. Kasıb da, ortabab da bəyin bəzəkli faytonunda gəlin gətirər, qız köçürərdi. Onlar heç kəsdən, heç nəyi əsirgəməzdilər. Xoşxasiyyət və rəhmli Rüxsarə nənə kənd qızlarının toylarına gedər, qız-gəlinlərə hədiyyə alardı. Toyun bəyinə isə hədiyyəni Həsən bəyin özü alardı. Kasıblar üçün ayrıca qazan asdırardılar, onları yedizdirib-içirdərdilər.

Sadıq bəy Yadigarovun arvadı gürcü qızı idi. Üç oğlu vardı: Arçil bəy, Vəli bəy və Davud bəy. Otuz yeddinci il onları kəndimizdən yox, bütün ölkədən didərgin saldı. Heç kəsə də pislikləri dəyməmişdi. Çox sadə, əliaçıq adamlardılar: rəiyyətlə rəiyyət, bəylə bəy idilər.

Deyirlər, Sadıq bəyin kiçik oğlu Davud bəy bir neçə il əvvəl gəlib nənəsinin qəbrini ziyarət edib. Deyib ki, Zestafoni şəhərində yaşayır. Azərbaycanlı familiyası ilə ona dinclik vermirmişlər. Ona görə də Davud Sadıqoviç Yadigaraşvili olub.

İllər nə qədər amansız və sərt olsa da bu əsilzadə nəslin oğullarının əvəzsiz xidmətini nə hafizəmizdən silə bilib, nə də daş yaddaşlardan. Tbilisindən Gəncəyə qədər elə bir məclis yoxdur ki, onların adı anılıb, sözləri danışılmasın. Tiflis də imarəti, Borçalıda yurdu, qədim Gəncədə səxavəti qalıb bu nəslin oğullarının. Əgər yolunuz Gəncəyə düşsə XVII əsrdə inşa edilmiş "İmamzadə" kompleksinə baş çəkin. Bu qədim memarlıq abidəsinin giriş qapısındakı qızılı rəngli yazıları oxuyun:

"1296-cı ildə (1917-ci ildə) Tiflisin Borçalı qəzasından olan mayor İsrafil bəy Yadigarov bu müqəddəs qəbrin günbəzini öz pulu ilə ucaltdırmışdır".

Burda kiçicik bir haşiyə çıxıb XIX əsrin əvvəllərində yaşayıb-yaratmış qazaxlı şair Mustafa ağa Arif Şıxlinskinin Borçalı bəyləri haqqında olan bir şeri ilə oxucuları tanış etmək istəyirəm.

"Yeni dövrün möcüzəli məxluqu" titulunu qazanmış general Aleksey Petroviç Yermolov Qafqaza hakim təyin olunan gündən yerli bəylərdən, ziyalılardan çar hökumətinə dönüklüyə görə şübhələnənləri dəstə-dəstə Sibirə sürgün etdirirdi. Mustafa ağanın sürgündən yazdığı "Düşmüşəm" qoşmasından məlum olur ki, bəylərdən biri namərdlik edib nahaqdan onun üzünə durub şər atmışdır. Buna görə də hökumət onu zaval təriqi ilə Rusiyaya sürgün etmişdir. "Ağlaram" qoşmasında isə Mustafa ağa Arif Qazax, Şəmşəddin və Borçalı bəylərinin mərdliyini, on dörd il həsrətini çəkdiyi sərçeşməli bulaqlarımızı, süsənli-sünbüllü dağlarımızı tərənnüm edir. Bu tuthatut günlərdə Borçalı bəylərinin elinə, obasına sadiq qaldığını, ağır günlərdə, namərd zəmanədə möhkəm və dönməz olduqlarını iftixarla yazır:

Qaldı paydar Borçalının bəyləri,
Meydan günü bir-birindən yegləri,
Mehman qarşısına mərd gəlməkləri,
Yadıma düşəndə onlar, ağlaram!

Hanı Qazax? Mehribanlıq gedibdir,
Ağalıq, sultanlıq, xanlıq gedibdir,
Nücəbədan alişanlıq gedibdir,
İtibdir şövkətü şanlar, ağlaram!

Təkəli kəndinin üst yanında kiçicik bir təpə var. Əsrləri yola salmış Babkər dağının ətəyindəki bu boz təpədə, salxım söyüdlər altındakı məzarda bir igid, bir bəy uyuyur. Vaxtilə onun kəhəri Suqovuşanda kişnəyəndə Gümrüdə bəd xəyallara düşənlər diksinib qorxardı. Bu kişnərtindən Çubuxlunun göy yaylaqları, Cəlaloğlu meşələri lərzəyə gələrdi. Lori dərəsinin yalçın qayaları bu kəsilməyən kişnərtidən əks-səda verərdi. İndi bu təmtəraqsız məzar daşında çox qısa bir yazı var: general-mayor Həsən bəy İsrafil ağa oğlu Yadigarov, 1854-1934".

Çoxdan unudulmuş general babamızın məzarını gec də olsa yad etdik. Ruhuna rəhmət oxuduq. Dağılıb talan olmuş həyət-bacasına baş çəkdik. Ovlağından ötüb keçdik. Vaxtilə tərlan ilə şikar elədiyi süsənli-sünbüllü dağlarını gəzdik. Gəzdikçə kövrələ-kövrələ əzabkeş şair Mustafa ağa Arif Şıxlinskinin şerinə üz tutduq.

Ellərimiz vardı bəyli-paşalı,
Dağlarımız vardı əlvan meşəli.
Süsənli, sünbüllü, tər bənövşəli
Qaldı bağlar, xiyabanlar, ağlaram!

## NƏRMİN XANIMLA KİÇİK MÜSAHİBƏ

General babasının sənədləri ilə tanış olmaq üçün Rəna xanımla yenidən görüşdüm. O dedi ki, Yadigarovun şəklini Azərbaycan Dövlət Tarix Muzeyinin elmi işçisi Nərmin xanım Tahirzadəyə göstərin, bəlkə o tanıdı. Məncə o, mərhum Sara xanım Talışinskaya-Xurramoviçlə görüşmüşdü. Sara xanım general Mirkazım xanın qızı idi. O, inqilabdan əvvəl Kiyev Universitetinin hüquq fakültəsini bitirmişdi...

Belə axtarışlarda həmişə köməyimə çatan xeyirxah Nərmin xanım məni neçə aylıq intizardan qurtardı. Şəklə baxan kimi:

- Bu, Ağabəy Yadigarovdur, - dedi, - Rusiyada təhsil almış ilk azərbaycanlı ziyalılardan biridir. M.F.Axundovun əlifba islahatı haqqında olan məktublarının birində Ağabəy

Yadigarovun adının çəkilməsinə baxmayaraq, onun həyat və fəaliyyəti 1966-cı ilə qədər öyrənilməmişdi. Mən elmi işimlə əlaqədar Gürcüstan, Moskva və Leninqrad arxivlərində işləyəndə Ağabəyin fəaliyyəti haqqında material toplaya bildim. Həmin ili akademiyanın "Elmi əsərlər"ində "Peterburq universitetinin ilk azərbaycanlı məzunu" adlı elmi məqalə ilə çıxış etdim.

- Nərmin xanım, ötən əsrin əvvəllərində bizim Rusiya ilə əlaqələrimiz o qədər də yaxşı deyildi. Mən şəxsən bunun ilkin səbəbini mənzilin uzaqlığında, bir də din ayrılığında görürəm. Bizə çox az ziyalımızın o vaxtlar Rusiyada yaşayıb-yaratması məlumdur. Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov, İbrahim Rəhimov, Mahmud İsmayılov və başqaları. Bəs necə olub ki, Ağabəy Yadigarov o illərdə Peterburqa gedib çıxıb? Yəqin ki, bunun bir səbəbkarı, vasitəsi olub?

- Ağabəy Yadigarovun Peterburqa getməsinin səbəbkarı məşhur şərqşünas Mirzə Cəfər Topçubaşovdur. Bu görkəmli alim Ağabəyin doğma dayısıdır. Arxiv sənədləri göstərir ki, 1844-cü ilin yazında Peterburq universitetinin şərq şöbəsinə Zaqafqaziya gənclərinin nümayəndələrini göndərmək üçün heç bir perspektiv olmayanda, universitetin fars dilçiliyi kafedrasını professoru Mirzə Cəfər Topçubaşov həmin şöbəyə öz bacısı oğlu Ağabəy Yadigarovun dövlət xərci ilə qəbul edilməsi barədə xahişlə müraciət edib. Ağabəy Yadigarov həmin ilin yayında Üçüncü dərəcəli Peterburq gimnaziyasını bitirmişdi.

Yadigarov haqqında bioqrafik məlumat son dərəcə az və natamamdır. Əldə olan sənədlərə əsasən, A.Yadigarov 1823-cü ildə Gürcüstanda bəy ailəsində doğulub. Peterburq gimnaziyasına 1837-ci ildə daxil olub. 1844-cü ilin iyun ayınadək ümumi əsaslarla gimnaziya nəzdindəki pansionda tərbiyə alıb. Uzun yazışmalardan sonra imperatorun razılığı ilə professor M.C.Topçubaşovun xahişi nəzərə alınıb, Ağabəy Yadigarovun dövlət xərci ilə oxuması üçün Peterburq universitetinin rektoruna sərəncam verilib.

Ağabəy Yadigarov Peterburq gimnaziyasını bitirdiyinə görə qəbul imtahanları vermədən universitetin şərq şöbəsinə daxil olub. 1844-cü il iyulun 22-dən Ağabəy universitetin nəzdindəki pansiona götürülüb.

1848-ci ildə Yadigarov imtahanları əla qiymətlərlə verib universiteti bitirir. Alimlik dərəcəsini yerinə yetirdiyinə görə Şərq dilçiliyi üzrə namizəd adı alır. Universiteti bitirdikdən sonra Ağabəy Yadigarov hələ bir müddət Peterburqda, çarın müsəlman komandasının konvoy komandiri, rotmistr olan qardaşı İsrafil bəy Yadigarovun yanında qalır.

- Bəs Qafqazdakı fəaliyyətinə nə vaxtdan başlayıb, bu barədə məlumat əldə edə bilmisinizmi?

- 1848-ci ilin may ayında A.Yadigarov Qafqaz canişininin sərəncamına göndərilir. Onu canişinlikdə dəftərxana şöbəsinin müdir müavini təyin edirlər. O, burada otuz beş ildən çox xidmət etmişdir. Hərtərəfli təhsil almış Ağabəy Yadigarov öz bilik və bacarığından istifadə üçün imkan tapa bilməmişdir. Şərq və rus mədəniyyətinə yaxından bələd olan Ağabəy öz milli mədəniyyətini də dərindən bilir, ona hədsiz hörmət bəsləyirdi. Xalqının bu sahədə ehtiyaclarını da yaxşı başa düşürdü. O, Azərbaycan əlifbasının islahatı uğrunda böyük mütəfəkkir Mirzə Fətəli Axundovla birgə çalışmışdır. M.F.Axundovun şəhadətinə görə Ağabəy Yadigarov ərəb əlifbasının yeni, daha mükəmməl əlifba ilə əvəz edilməsi haqqında fikirlərini ifadə edən bir kitabça da yazmışdır.

- Nərmin xanım, otuz beş ildən çox Qafqaz canişinliyində saray müşaviri kimi fəaliyyət göstərən Yadigarovun xidməti dövlət tərəfindən layiqincə qiymətləndirilibmi?

- İnamla demək olar ki, yox! Sənədlər göstərir ki, Ağabəy Yadigarov çox sadə, vəzifəyə və təltifata can atan adam olmayıb. O, əvvəl dəftərxanada, sonra isə canişinliyin baş idarəsində qulluq etmişdir. Onun xidməti müsəlmanlar üçün təsis edilmiş dördüncü dərəcəli müqəddəs Vladimir ordeni ilə qiymətləndirilib.

1853-56-cı illərdə Krım müharibəsindən xatirə olaraq verilmiş Andreyev lenti üzərindəki bürünc medal onun otuz beş ildən çox xidməti müqabilində yeganə təltifatı olub.

Uzun axtarışlardan sonra mən Ağabəy Yadigarovun nəvələrini və onun böyük bacısı Məsumə xanımın uşaqlarını tapa bildim. Onlardan böyüyü Sara xanım Talışinskaya -

Xürrəmoviç dedi ki, babam ötən əsrin doxsanıncı illərində Tiflisdə vəba epidemiyasından vəfat etmişdir. Həqiqətən də 1892-ci ildə Qafqazda güclü vəba epidemiyası yayılmışdı. Ölüm tarixini belə dəqiqləşdirdik. Yadigarovun ömrünün son illəri haqqında isə demək olar ki, heç nə məlum deyil.

## GENERAL MİRKAZIM BƏY TALIŞXANOV

Talışxanovlar nəslindən olan generallarla maraqlanmasaydım, Yadigarov qardaşlarından illərlə zərrə-zərrə topladığım bu, faktlar bəlkə də, heç işıq üzü görməyəcəkdi. Çoxdan topladığım faktları işləməyə bir istinad nöqtəsi tapa bilmirdim. Söz sözü çəkib gətirən kimi, mövzu da mövzunu üzə çıxartdı.

Yadigarov qardaşları haqqında axtarışlarım az qala məni əsas məqsəddən-Talışxanovlardan yayındırmışdı. Bu nəsil əsil-nəcabəti olan üç ziyalı ailə ilə yaxın qohum olub: yadigarovlar, vəkilovlar və vəzirovlar. Hər üç nəsil də xalqımızın maarif, mədəniyyət və hərb tarixinə görkəmli oğullar bəxş edib.

Mirkazım bəy Talışxanov nəslin üçüncü generalıdır. Onun ulu babası Qaraxan Lənkəran xanlığının əsasını qoyub. Xanlığın siyasi və iqtisadi qüdrətini möhkəmlədən Qaraxan İran təhlükəsindən qorunmaq üçün nizami qoşun təşkil edir. Müstəqil Talış xanlığı yaradır. 1786-cı ildə Qaraxan vəfat etdikdən sonra yerinə oğlu Mir Mustafa xan keçir.

Bəzi tədqiqatçılar bu nəsildən dörd və daha artıq general olduğunu deyirlər. Tədqiqatçı Gülməmməd Məmmədov "Leninçi" qəzetində (2.VIII.1988) çıxış edərək, Talışxanovların dörd generalının adını çəkir. Lakin təəssüf ki, onlardan tək biri haqqında-general-leytenant Mir Mustafa xan haqqında maraqlı yazı dərc etdirib.

Məmmədovun yazdığına görə 1812-ci il avqustun doqquzunda ölüm-dirim vuruşmasında Lənkəran-Ərkivan qalaları İran ordusu tərəfindən alınır. Lənkəran qalasından çəkilməyə məcbur olan Mir Mustafa xan mübarizədən əl çəkmir, özündən çox qüvvətli olan İran ordusuna qarşı döyüşü davam etdirir... Lənkəran qalasında iranlıların dörd minlik qoşunu yerləşdirilmişdi. Vəziyyəti nəzərə alan Mir Mustafa xan Rusiyadan yardım istəməyə məcbur olur. Qafqazda olan rus ordusunun komandanı general N.F.Rtişşev İran qoşunlarını Lənkərandan çıxartmaq istəyən Mir Mustafa xana kömək etmək uçün 1812-ci il dekabrın birində general P.S.Kotlyarevskiyə göstəriş verir.

1813-cü il yanvarın birində Talış qoşununun köməyi ilə Lənkəran qalasını ruslar alır. Bu münasibətlə imperator I Aleksandr Talış xanı və Talış qoşununun sərdarı Mir Mustafa xanı general-leytenant rütbəsilə təltif edir.

General-leytenant Mir Mustafa xan Talışxanov 1814-cü il iyulun 26-da Lənkəranda vəfat edir.

Müəllif Miribrahim bəy Talışınskinin də general-mayor olduğunu qeyd edir. Amma hələlik nə təvəllüd, nə ölüm tarixi haqqında faktı dəqiqləşdirə bilməyib. Bizə isə Miribrahim bəy haqqında ilk milli qəzetimiz olan "Əkinçi"nin 26 may 1877-ci il tarixi nömrəsindəki elandan başqa heç nə məlum deyil. Qəzet "Təzə xəbərlər" bölməsində yazır: "Badikubə quberniyasından cəm olunan süvari əsgərə polkovnik Miribrahimbəy Talışxanov hakim, yəni polkovoy komandir təyin olub".

General Mirkazım bəyin qohumu və müasiri Miribrahim bəy general-mayor rütbəsi ala bilibmi? Bu hələlik tədqiqatını gözləyən ciddi bir məsələdir.

Mirkazım bəy Talışxanovun atası Mirəlixan da hərbçi olmuşdur. O, orduda iyirmi ilə qədər xidmət etdikdən sonra ştabs-kapitan rütbəsində istefaya çıxmışdır. Atanın hərbi sənətini davam etdirən Mirkazım bəy iyirmi bir yaşında ikinci dərəcəli Konstantin yunkerlər məktəbini bitirib. Bundan əvvəl o, Bakıdakı realnı məktəbinin tam kursunda oxumuşdur. Cəmi birillik xidmətdən sonra ona unter-zabit rütbəsi verilir.

1877-ci ildə Rusiya Türkiyəyə müharibə elan etdi. Balkanlar kimi Qafqaz da hərbi əməliyyat meydanı oldu. On altıncı qrenadyor Minqrel alayının praporşiki Mirkazım bəy də

döyüşən ordu sıralarında cəbhəyə getdi. Aleksandropol hərbi əməliyyat rayonunda fəal iştirak edən Mirkazımbəy Talışxanov tünd bürünc medalla təltif olundu.

Orduda əla və qüsursuz xidmət edən Mirkazım bəy hərbi pillələri çox sürətlə keçmişdir. 1882-ci ildə tərtib olunmuş bir sənəddə göstərilir ki, əla atıcı olduğuna görə avqustun 26-da ona birinci dərəcəli mükafat verilmiş və yetmiş dörd manat pulla mükafatlandırılmışdır. İki il sonra Tiflisdəki yunkerlər məktəbinə müəllim təyin olunan Mirkazım bəy Talışxanova ştabs-kapitan rütbəsi verilir. 1891-ci ilə qədər yunkerlər məktəbində müəllim işləyən Talışxanov həmin il vaxtilə xidmət etdiyi qrenadyor Minqrel alayının on üçüncü rotasının komandiri təyin olunur. Podpolkovnik Mirkazım bəyin rotası səhra məşqlərində həmişə fərqləndiyinə görə onun xidmət yerini tez-tez dəyişmişlər. Yaxşı komandir kimi onu "axsayan" rotaya komandir təyin etmişlər. 1899-cu ildə podpolkovnik Mirkazım bəy Talışxanov 119-cu Kolomensk piyada alayına, bir il sonra isə səksən ikinci Dağıstan alayına, 1904-cü ildə iki yüz altıncı Larqo-Kaqul ehtiyat piyada alayına, bir neçə aydan sonra isə əlli beşinci piyada batalyonuna komandan təyin olunur.

Polkovnik Mirkazım bəy 1903-cü ildə Qafqaz hərbi dairəsinin iki yüz yetmiş nömrəli əmrilə Qafqaz hərbi Dairə məhkəməsinin üzvü seçilir. Orduda uzun illər qüsursuz xidmətinə görə 1914-cü ildə Mirkazım bəy Talışxanov general-mayor rütbəsinə layiq görülür.

Generalın nəvəsi Rəna xanım Axundzadədə babasının 1905-ci il martın birində tərtib olunmuş "xidmət kitabçası" saxlanılır. Onun ailə vəziyyəti bölməsində oxuyuruq:

"Tiflisli saray müşaviri Ağabəy Yadigarovun qızı Məsumə xanımla 1888-ci ildə ailə qurmuşdur. Dörd uşaq atasıdır; oğlu Mirəlixan 1895-ci il sentyabrın 9-da, Sarabəyim 1890-cı il fevralın yeddisində, Liyabəyim 1891-ci il fevralın səkkizində Züleyxa 1892-ci il avqustun üçündə anadan olmuşdur".

Sənədlərlə tanış olarkən qovluqdan saralıb-solmuş bir vərəq də çıxdı. Onu Mirkazım bəyin qızı Züleyxa xanım yazıb: "Atam Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olub. Minskdə, Magilyovda, Qroznı və başqa yerlərdə. Birinci dünya müharibəsi başlananda Nikolsk-Ussuriysk şəhərində yerləşən üçüncü Sibir atıcı polkunun komandiri idi. Yaşının çox olmasına baxmayaraq yenə də çox sevdiyi hərbi işdən ayrılmaq istəmirdi.

Yadımdadır, o vaxtlar inqilabi iş üstündə "Potyomkin" zirehli gəmisinin heyəti Sibirə sürgün olunmuşdu. Onlar bizim qonşuluqdakı qəsəbədə yerləşdirilmişdilər. Komandirlər xırda bir səhvə görə ağır və dözülməz cəza verəndə atam onlara havadar dururdu. Hətta, bir neçəsini ölüm cəzasından belə xilas etmişdi. Ucaboy, enlikürək matroslar atamla çox hörmət-izzətlə görüşərdilər. Onlar küçədə atama rast gələndə qurşağa qədər əyilər, "Əlahəzrət, səxavətiniz həmişə var olsun. Kölgəniz bizim əzabkeşlərin üstündən əskik olmasın" - deyib yolun qırağına çəkilər, lal-dinməz dayanardılar. Atam isə gülümsünüb onlara yanaşar, əl tutar və bu qədər təzim nəyə gərəkdir, - deyib kədərlə köks ötürərdi.

1914-cü ildə birinci dünya müharibəsi başlananda atam bizi Tiflisə göndərib, özü isə üçüncü Sibir atıcı polku ilə müharibəyə getdi.

Atam qırx beş ilə yaxın ordu xidmətində çoxlu orden və medallarla təltif olunmuşdu. Onlardan yadımda qalanları üçüncü dərəcəli müqəddəs Anna, ikinci və ücüncü dərəcəli Müqəddəs Stanislav ordenləri, III Aleksandrın hakimiyyəti dövrünə aid xatirə və 1877-78-ci illər müharibəsində aldığı tünd bürünc medallardır. Atam 1916-cı ildə general-mayor rütbəsində istefaya çıxdı. Topoqrafiya general-mayoru İbrahim ağa Vəkilovla yaxın dost olan atam Tiflisdəki Qafqaz müsəlman xeyriyyə cəmiyyətində onunla birgə fəaliyyət göstərirdi. Cəmiyyətin sədri İbrahim ağa Vəkilov, katibi isə atam Mirzəkazımbəy Talışxanov idi. Az sonra bu səmimi dostluq qohumluğa çevrildi. İbrahim ağa Vəkilovun böyük oğlu Faris, bacım Liyabəyimlə ailə həyatı qurdu.

General-mayor Mirzəkazım bəy Talışxanov 1938-ci ildə səksən dörd yaşında Bakıda vəfat etmişdir.

## GENERAL ƏSƏDBƏY TALIŞXANOV

Onlar bir nəsildən çıxmışdılar, bir küçədə oynayıb, bir məktəbdə oxumuşdular. Boş vaxtlarını da həmişə birlikdə keçirərdilər. Gənclik yaşına çatanda ulu babaları Qara xanın və Mir Mustafa xanın vəsiyyətlərinə əməl edərək hərbi sənəti seçdilər.

Mirkazım bəyin əmisi oğlu Əsədbəy Talışxanov ondan cəmi iki yaş kiçik idi. Əsədbəy Ağaəlibəyin Lənkəranda açdığı müsəlman məktəbində ilk ibtidai təhsil aldıqdan sonra, o vaxtın ən yaxşı tədris ocaqlarından biri olan Bakı ədadiyyə məktəbində oxumağa başladı...

...Peterburqdakı Mixaylovsk artilleriya məktəbini bitirəndə Əsədbəyin artıq iyirmi yaşı vardı. Nizami ordu üçün püxtələşmiş yetkin bir zabit idi. 1878-ci ildə Qafqaz Əlahiddə Ordusuna göndərilən Əsədbəy praporşik rütbəsində əlli ikinci briqadada xidmətə başladı. Xidmətinin üçüncü ilində əlaçı zabit olduğuna görə, Əsədbəy Talışxanovu batareya komandiri təyin etdilər.

Hərbin çətin yolları, müharibələrin əzab-əziyyəti onu nəinki bezdirdi, hətta ürəkdən sevdiyi hərb sənətinə daha da möhkəm bağladı.

Çar ordusu ötən əsrin otuzuncu illərindən başlayaraq Orta Asiyada istilaçılıq siyasəti aparmağa başladı. Qafqazda Krım müharibəsi (1853-56) sona yetən kimi Şərqə tərəf yürüş başlandı. Ən böyük Kokand və Buxara xanlıqları işğal olundu. Çimkənd, Daşkənd, Səmərqənd şəhərləri bir-birinin dalınca alındı. 1880-ci ildə isə Türkmənistanı fəth etmək üçün ruslar oraya on bir minlik qoşun yeritdilər. Torpağın hər qarışı uğrunda inadla döyüşən Axal-Təkinlilər general Lazerevin ordusunu məğlubiyyətə uğradırdılar. Şərqə yürüşdə qələbə əldə etmək istəyən çar, Göytəpəni, Axal-Təkini ələ keçirmək üçün Şipka qəhrəmanı general Skobelevi də göndərdi. Skobelevin qoşunu Qafqaz hərbi Dairəsinin döyüşçüləri ilə birləşib Göytəpə şəhərini dağıtdı, onu müdafiə edən iyirmi beş min: döyüşçünü qılıncdan keçirtdi. Axal-Təkini və Mərv şəhərini özlərinə tabe etdilər.

Əsədbəy Talışxanov da öz batareyası ilə Axal-Tekini işğal edən ekspedisiyanın tərkibində iki il iştirak etdi. İstilaçı çarın əmrilə vəzifə borcu kimi din qardaşlarına silah qaldırdı. Bu döyüşlərdəki igidliyinə görə üçüncü dərəcəli, qılınc və bantlı "Müqəddəs Anna", "Müqəddəs Stanislav" ordenləri ilə təltif olundu.

On altı il keçəndən sonra həmin ordenlərin ikinci dərəcəsi ilə təltif olunan kapitan Əsədbəy Talışxanov yeni əsri podpolkovnik rütbəsində qarşılamışdır.

Tədqiqatçı M.Əliyev yazır ki, hərbi xidmətinin iyirmi beş illiyi münasibətilə Əsədbəy 1902-ci ildə dördüncü dərəcəli, bantlı "Müqəddəs Vladimir" ordeni ilə təltif olunmuş, 1910-cu il iyulun doqquzunda isə polkovnik rütbəsi qazanmışdır. Bu illər ərzində o əlli ikinci artilleriya briqadasının birinci diviziyonun komandir vəzifəsinə qədər yüksələ bilmişdir.

Əsədbəy Talışxanov ordudakı nümunəvi xidmətlərinə görə 1916-cı il aprelin iyirmi ikisində general-mayor rütbəsi ilə təltif olunmuşdur. O, həmin il iyulun iyirmi beşində Qafqaz Əlahiddə Ordusunun əlli ikinci artilleriya briqadasının komandiri kimi yüksək vəzifəyə təyin olunmuşdur. Uzun illər bu ordunun tərkibində qüsursuz xidmətlərinə görə o, birinci dərəcəli "Müqəddəs Anna" və "Müqəddəs Stanislav", üçüncü dərəcəli "Müqəddəs Vladimir" və dördüncü dərəcəli "Müqəddəs Georgi" ordenləri ilə təltif olunmuşdur.

General-mayor Əsədbəy Talışxanov 1919-cu ildə Dağıstanın Teymurxan-Şura (indiki Buynaksk) şəhərində vəfat etmiş və orada da dəfn olunmuşdur.

# QƏRİBƏ TALE

Qaş qaraldı, uzaqlar yavaş-yavaş görünməz oldu. Axşam düşürdü. Örüşdən qayıdan mal-qaranın mələşməsi kəsildi. Yal gözləyən itlər zəncir gəmirir, dartınıb gah hirslə, gah da yazıq-yazıq zingildəşirdi. Yenicə doğmaqda olan ay Kürün sularında yuyunurdu.

Salahlı obasına qərib bir axşam mehman olmuşdu. İbrahimin səbri tamam kəsilmişdi. Tez-tez torpaq dama girib-çıxır, dinclik tapa bilmirdi. Gözü o tayda qalmışdı. Pənah kişi isə görünmürdü. İbrahim bir neçə dəfə gəlib Pənah kişinin xalxalına baxıb məyus qayıtdı. Atasının dostu ilxıçı Pənah sözünə düz adam idi. Paşa ağanın ölümündən sonra ilxıçı bu dostluğu ailənin böyüyü İbrahimlə davam etdirirdi. "Nə oldu, Pənah əmi niyə gəlmədi, bəlkə...". Öz-özünə verdiyi suallar İbrahimin intizarını daha da artırırdı.

Şəmmətli meşəsinin bərabərində bir at kişnədi. Üstündəki adam ata acıqlandı. At şappıltı ilə suya girdi. Bir göz qırpımında payızın bulanıq sularını yarıb bu taya keçdi.

İbrahim sahildə atlı ilə üzbəüz gəldi. Qorxaq və zəif bir səslə

- Pənah əmi, sənsənmi? - dedi.

İlxıçı duruxdu. Qəfil zərbə dəymiş adam kimi əl-ayaq aça bilmədi:

- Mənəm, oğul, - dedi, sən deyəsən lap doğrulamısan getməyi, hazırsanmı? Burda gözlə, evə dəyib gəlirəm. - Atını cığıra salıb, bir az aralandı. Birdən yarı yolda geri döndərib:

- Ayə, a İbi,- dedi, evə bir şey demisənmi?

- Deməmişəm, Pənah əmi, amma Yusifə bərk-bərk tapşırmışam ki, işdi gördün çox axtarırlar, anam çox ağlayıb sızlayır, onda deyərsən ki, dünən Qazaxda idim, eşitdim İbrahim Tiflisə oxumağa gedib.

- Onda get Bala bərənin yanında gözlə, birdən buralara hərlənən olar, indi gəlirəm, bir az da orda fikirləş, - Pənah kişi atını mahmızladı.

İbrahim qamışlıqda xeyli gözlədi. O, Pənah kişinin "bir az da gözlə" deməyindən şübhələndi. "Yəqin anamdan qorxur, qarğış sahibi olmaq istəmir". Kür aşıb daşanda gətirib sahilə çıxartdığı qarağac kötüyünün üstündə oturub, ağzı qaralan evlər arasından Pənah kişinin evini tapdı.

Gündüzlər ayaqyalın, başıaçıq oynadığı bu hay-küylü sahil gecə yuxusunda uyuyurdu. Səssizlik onun qulağını batırır, qorxusunu artırırdı. Sakit çay da elə bil gündüzün haray-həşirindən yuxuya getmişdi. Daş atmasan onun səsini eşitməzdin. Qamışlıq xışıldadı. İbrahim diksinib əlini yerə uzatdı. Nəsə qamışlığı yara-yara ona tərəf gəlirdi. Qaranlıqda iki göz od kimi yanırdı. İbrahim "a kafir" - deyib, qorxa-qorxa daş atdı Çaqqal sivişib qamışlıqda yox oldu. "Yaxşı ki, dovşan deyil, nənəm deyərdi çaqqal yola uğurludu".

İbrahim yenidən Pənah kişinin evini axtarıb tapdı. İlxıçının qara damının qapısı cırıltı ilə açıldı. Əvvəl Pənah kişi, sonra da əli xurcunlu arvadı çıxdı.

- A kişi, uşaqlara tuman-köynək almağı unutma.

- Rəhmətliyin qızı, mən at satmağa gedirəm, yoxsa tuman köynək almağa, - Pənah kişi arvada hirsləndi. - Axşama kimi kor Baqrat tuman-köynək satır, ondan alsan belin qırılarmı?

- Onda sən atanın goru, bir az mampası al, - arvad yalvardı, - uşaqlar neçə gündü sevincək olublar ki, dədəmiz şəhərdən mampas alacaq.

Pənah kişi könülsüz

- Yaxşı, yaxşı, - deyib, xurcunu atın belinə aşırdı. Atı yedəkləyib xalxaldan çıxartdı. İbrahimin yanına qədər ata minmədi. Qamışlığın arxasına çəkib atın sağrısını, boynunu sığalladı, oxşadı.

- Əlimdən möhkəm tut, indi atıl min.

İbrahim bir göz qırpımında ata sıçradı.

- Geri otur, - Pənah kişinin səsində arvadla danışdığı əsəbilik qalmışdı. O, birdən fikrini dəyişib: - Yox, yox, a İbi, qabağa otur, bu üzülmüş xamdı, birdən çayın ortasında hürküb eləyər, yıxar səni. Yalmanından bərk tut, çətini çayı keçənə kimidi.

İlxıçı "ya allah" deyib ata mindi. Xam at çayın dərin-dayaz yerinə baxmayıb suyu yarır, fınxıra-fınxıra o taya tələsirdi.

Sahilin o tayı başdan-başa meşə idi. Şəmkirdən başlayan qədim Qarayazı meşəsi Kürün sahili boyunca yaşıl kəmər kimi Gürcüstan sərhədlərinə doğru uzanırdı. Çayın sağ sahilindəki Salahlı, Şıxlı obalarının dolanacağı da bu meşə idi. Əhali otu, odunu buradan aparır, mal-qarasını burada otarırdı. Pənah kişi də burada ilxı saxlayırdı. Hər ilin payızında beş-altı dilbozu Tiflisə aparıb dolanacaq edirdi.

O taya çıxan kimi at tanış cığırda yerişini artırdı. Meşə bir az seyrələndə duruxub kişnədi və birdən götürüldü. Pənah kişi atın başını çəkdi:

- Əyə, üzülmüşün boynunu sığalla, gecə vaxtı nə hay-küy salır.

İbrahim atın yalmanını sığallaya-sığallaya:

- Pənah əmi, - dedi, -bu nə dəli atdı, bunnan heç oğurluğa-zada getmək olmaz.

- Təzə tutmuşam, a bala, hələ yaxşı öyrəşməyib. Sən niyə bu gecə vaxtı tərs atın üstündə tərs söz danışdın. Allaha şükür nəsil-nəcabətində oğurluq eləyən də yoxdur. Oğurluq hardan ağlına gəldi?

İbrahim nə ağ dindi, nə də qara.

- A İbi, sən Mirzənin evini tanıyırsanmı?

Kişi İbrahimin yaralı yerinə toxundu. Odur ki, kefsiz-kefsiz:

- Yox, - dedi.

Əyə, bə nə təhər gedib çıxacaqsan? Heç şəhərdə olubsanmı?

- Ötən yay Mirzə kəndə gələndə bir kağız yazıb verdi. Ünvanı da var orda.

A bala, səndən qorxuram, gedib o dinsizlərin içində itib eləyərsən, mən qanda qalaram. Sonra anan Tükəzbanın əlindən qurtara bilmərəm.

- Qorxma, Pənah əmi, məndən sonra evdə anamın on balası var. Hürkütməsə saya bilmir. Mən heç yada düşməyəcəyəm.

- Elə demə, a bala, ana ürəyidir, yoxluğundan əsim-əsim əsəcək. Bir də nə var o şəhərdə, bilmirəm; qaçıb gedirsən ora. Gərək qalıb kənddə işləyəydin, evin də böyüyü sən idin, anana da kömək olardın.

- Yox, Pənah əmi, gedib oxuyub bir sənət qazanacam, adam olacam.

Burda, kəndimizdə Molla Mustafanın məktəbi səni adam olmağa qoymur? Oxu molla ol, ya da Abbasağa kimi özünnən şer quraşdır. Elə o da molla kimi bir şeydi.

- Şairlik mollalıq döyül, Pənah əmi, Abbasağa kişi şairdir.

Niyə o boyda Vidadiyə, Vaqifə mollalıq yaraşdı, Abbasağaya yaraşmadı?

- Pənah əmi, Vidadiynən Vaqif sən deyən o Mustafa kimi molla döyül ey. O vaxtlar babalarımız onlara savadlarına görə molla deyiblər.

- Yaxşı, bunlar bir yana qalsın, sən gedib şəhərdə nə olacaqsan, nə oxuyacaqsan? - Pənah kişi hirslə soruşdu. İbrahimin canına qorxu düşdü ki, birdən cavabımdan razı qalmasa bu dəli Pənah məni qaytarar ha... Özünü ələ alıb:

- Mən başqa şey oxuyacam, voyenni olacam.

- O nə sözdü əyə, olmaya əfsər olacaqsan? İbrahim qorxa-qorxa:

- Hə, - dedi.

- Dilini bilirsənmi? Urusun deyirəm.

- Mampassatan Baqratdan bir-iki söz öyrənmişəm, qalanını da orda öyrənəcəm.

- Ay öyrəndin ha, axşama kimi gürcü çobanlarıynan bir yerdəyəm. Qoqodan, bicodan artıq kəlmə bilənin dədəsi tünbətün olsun. Dil öyrənmək su içmək döyül, oğul.

İbrahim istədi desin ki, sənin savadın, fərasətin yoxdu, mən neyləyim. Qorxdu ki, dəli Pənah elə buradaca onu dəli atından düşürər, qalar dizinə döyə-döyə.

Meşə yolu qurtardı. Onlar sonu görünməyən Ceyrançöl düzünə çıxanda ay Avey dağının bərabərində idi. Çöl bulud arxasına girib-çıxan aydan gah nurlanır, gah da qaralırdı. Xeyli uzaqda otlayan ilxı qəbirdaşları kimi qaralırdı. Onların mindiyi at ilxını görəndə bir neçə dəfə kişnədi. Atların bir neçəsi başını qaldırıb fınxırdı. Birdən yaxındakı kolun dibindən bir adam qalxdı. Vahimələnən İbrahim atın yalmanından yapışdı. Pənah kişi bunu dərhal hiss edib:

- Qorxma, - dedi, mənim ilxıçı yoldaşımdı, bunu gördüyünü heç yerdə danışma ha, yazıq bir gürcüdü, xozeyinini öldürüb qaçıb. Mənə pənah gətirib. God kəndində bir dəmirçi dostum var, onun qardaşı oğludu. Zalım oğlu qorxu nə olan şeydi bilmir. Deynən get qəbiristanda yat, yatacaq, eymənmək-zad yoxdur. Bunda urusca qəzet də var, gündə çıxardıb oxuyur. Məni günortadan gözləyir...

- Qatso, o kimdi, sənnən gələn?

- Paşa ağanın oğludu, İbidi, bu da şəhərə gedir. - Xeyir ola, bu uşağın Tiflisdə nə işi var?

- Nə bilim, Nikolaz, - deyir gedib oxuyub, voyennidi, əfsərdi, nədi ondan olacam.

Nikolaz qayğılı-qayğılı:

- Qatso, dəlisən-nəsən, - dedi - xalqın uşağını aparıb itirərsən.

- Niyə itir, on dörd yaşında cavan da şəhərdə itərmi?

***

İbrahim həmkəndlisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin Şeytanbazar yanındakı evini asanlıqla tapa bildi. Çünki o vaxtlar Tiflisdə çoxlu azərbaycanlı yaşayırdı. Mirzə Hüseyn Əfəndi də çox hörmətli və məşhur şəxs idi.

O, Tiflisdə rus-tatar məktəbində şərq dilləri müəllimi, Zaqafqaziya müftisi vəzifələrində işlədiyindən böyük nüfuza malik olmuşdu. Oxumaq istəyən kasıb balalarına kömək əli uzatmağı, onların bu işıqlı arzularının həyata keçməsinə şərait yaratmağı Mirzə Hüseyn Əfəndi ən nəcib, ən şərəfli vəzifə hesab edirdi.

Müftinin həyat yoldaşı Səadət xanım İbrahimi görəndə gözlərinə inanmadı. Bu gözəl və nəcib qadın heyrətdən, təəccübdən az qala qışqıracaqdı. O, İbrahimi bağrına basıb doğma balası kimi öpdü, oxşadı. Kəndi, qohumları soruşdu. Atası Paşa ağanın vaxtsız ölümünə heyfsiləndi. İbrahimin oxumaq dalınca gəlməsini eşidəndə ona elə bil dünyanı bağışladılar.

- Səadət xanım, - Hüseyn Əfəndi ağır-ağır soruşdu: - İbrahimin haraya qəbul olunmaq istədiyindən xəbərin varmı?

-Xeyr!

- Ot kökü üstə bitər. Praporşik Paşa ağanın oğlu hərbi qulluqçu olmaq istəyir.

- Hə! - qadın xeyli duruxdu, - demək mənim kəndimin, Salahlının ilk savadlı hərbi qulluqçusu olacaqsan, çox yaxşı, çox gözəl, oğul. - Səadət xanım onu yenidən qucaqladı.

- Kadet korpusunda yer yoxdur, bir az gec gəlib, bu gün sentyabrın altısıdır. Amma Hüseyn əmisi onu məyus qaytarmaz. Mirzə ipək kimi yumşaq və dümağ saqqalını sığallayıb ani olaraq susdu:

- Bəxtindən üçüncü Mecevoy hərbi gimnaziyasında bir yer var. Bu məktəbin direktorunun mənimlə dostluğunu bilirsən. O İbrahimi himayəsinə götürər. Mənə belə gəlir ki, burda İbranim üçün çətin olmayacaq. Direktor milliyyətcə Kazan tatarıdır. Bizim dilə yaxşı bələddir. Ona həm rus dilini öyrədər, həm də təhsil verər.

1866-cı il sentyabrın altısında İbrahim ağa Paşa ağa oğlu Vəkilov həmin gimnaziyaya daxil oldu.

Gimnaziyanı 1879-cu ildə müvəfəqiyyətlə bitirən İbrahim ağa Vəkilov praporşik rütbəsi alır. Qulluq uçun Tiflisə göndərilən gənc zabit bir müddət Qafqaz hərbi dairəsinin topoqrafiya qərargahı şöbəsində çalışır.

Xidmət etdiyi ilk illərdə Dağıstanda topoqrafiya ilə məşğul olan İbrahim ağa Vəkilov 1883-cu ildə rus-İran komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiqləşdirilməsində iştirak edir. Belə bir ciddi işi vaxtından əvvəl, iki ilə müvəffəqiyyətlə yerinə yetirdiyinə görə İbrahim ağa Vəkilovun xidməti İran hökumətinin ən yüksək "Şire-Xorşid" ordeninə layiq görülür. Beş il Qafqaz hərbi dairəsində topoqrafiya işlərinə rəhbərlik edən İbrahim ağa Qafqazın və Krımın muxtəlif rayonlarında topoqrafiya xəritəsinin çəkilməsi ilə məşğul olur. 1891-ci ildə Türkiyəyə ezam olunan İbrahim ağa dörd il rus səfirliyində yaşayaraq xususi tapşırıqları yerinə yetirir. Mayor rütbəsində Vətənə qayıdaraq yenidən Qafqaz hərbi dairəsində xususi işlər icraçısı olur.

Şöbə rəisi podpolkovnik İbrahim ağa Vəkilov 1901-ci ildən Qars vilayətinin rus-türk sərhədlərində topoqrafiya işlərinə rəhbərlik edir.

1912-13-cü illərdə Rusiya və İran hökumətlərinin danışıqlarına əsasən polkovnik İbrahim ağa Vəkilov Cənubi Azərbaycanın Təbriz, Urmiya və Xoy şəhərlərində topoqrafiya xəritələrinin çəkilişinə başçılıq etmişdir. Birinci dünya müharibəsi illərində döyüşən ordu qərargahında qulluq edən polkovnik İbrahim ağa Vəkilov Oktyabr inqilabından sonra Tiflisə qayıtmışdır. Onun xidmətləri Stanislav, Anna və dördüncü dərəcəli Vladimir ordenlərinə layiq görülmüşdür.

Bir müddət Tiflisdə Xeyriyyə cəmiyyətinin sədri olan İbrahim ağa Vəkilov sonralar Bakıda və Gəncədə fəaliyyət göstərmişdir.

Xususilə Tiflis ədəbi mühitində yaxından iştirak edən İbrahim ağa Vəkilov böyük dramaturqumuz Cəlil Məmmədquluzadə ilə yaxından dostlaşmışdı. Xalqımızın nicatı üçün hər iki dost birgə çalışırdı. Bu fakta Mirzə Cəlilin həyat yoldaşı Həmidə xanımın "Mirzə Cəlil haqqında xatirələrim" kitabında da rast gəlmək olur. Həmidə xanım yazır ki, 1907-ci ildə Qarabağda çəyirtkə və aclıq gözlənilirdi... Tiflis Xeyriyyə Cəmiyyəti (cəmiyyətin sədri İbrahim ağa Vəkilov, katibi Mirzə Cəlil idi) bizim rayonun məruz qaldığı çıxılmaz vəziyyətdən xəbər tutduqda, zərərdidələrə paylamaq üçün poçt ilə mənim adıma altı yüz manat pul göndərmişdi.

Bizdə Mirzə Cəlillə general İbrahim ağa Vəkilovun birgə fəaliyyətini təsdiq edən daha bir etibarlı sənəd var. O da 1909-cu il martın iyirmi ikisində çap olunan "Molla Nəsrəddin" jurnalının on ikinci nömrəsidir.

Həmin nömrədə İbrahim ağa haqqında iki dostluq şarjı verilmişdir. Birinci şarjda küçədə İbrahim ağaya rast gələn ziyalı müsəlmanların hamısı ona baş əyir, xoş təbəssümlə təzim edirlər. Hamı onun Tiflisdə Müsəlman Xeyriyyə Cəmiyyəti açmaq təşəbbüsünü bəyənir, ətrafına toplaşıb şirin-şirin söhbət edirlər. Ona deyirlər ki, sən Xeyriyyə cəmiyyətini təşkil et, biz sənə maddi cəhətdən kömək göstərəcəyik.

İzof Rotterin məharətlə çəkdiyi bu şarcın altında belə yazılıb: "İbrahim ağa Vəkilov. Müsəlman, Xeyriyyə Cəmiyyətinin sədri seçilməmişdən əvvəl".

Həmin səhifədə verilmiş ikinci şarjda isə İbrahim ağa küçənin ortasında tək dayanıb. Ondan baş götürüb qaçan musəlmanlara baxıb acı-acı gülümsünərək, - bunlara nə oldu, - deyir. Xeyriyyə cəmiyyətinə yardım etmək istəməyən "bu ziyalı müsəlmanların indi kimisi qaçır, kimisi də gizlincə tindən, dalandan qorxa-qorxa İbrahim ayağa baxır. İbrahim ağanın əlləri təəccüblə açıq qalıb  Şarjın altında: oxuuruq: "Xeyyriyyə Cəmiyyətinin sədri seçiləndən sonra".

Rəsmi sənədlərdən məlum olur ki, İbrahim ara Vəkilov görkəmli dövlət və partiya xadimi Muxtar Hacıyevlə, Əliheydər Qarayevlə, Qəzənfər Musabəyovla, Həmid Sultanovla, Sultanməcid Əfəndiyevlə, Tağı Şahbazi ilə, general Tərlan Əliyarbəyovla, Heydər Vəzirovla birgə işləmişdir.

Əliheydyr Qarayevin məsləhətilə 1920-ci ildə Azərbaycanın ilk coğrafi xəritəsinin müəllifi və respublikamızda topoqrafiya məktəbinin yaradıcısı da general-mayor İbrahim ağa Vəkilov olmuşdur.

Xalq komissarlığının və hərbi dəniz donanmasının əmrində oxuyuruq:

Hərbi topoqrafiya şöbəsinin rəisi İbrahim ağa
Vəkilov yoldaş hərbi topoqrafiya kurslarının
təşkili və rəhbərliyi sayəsində misilsiz xidmətlərinə, eləcə
də yeni Qırmızı topoqrafiyanın
yetişdirilməsinə səmimi və vicdanla yanaşmasına
görə, Qırmızı topoqrafçıların birinci buraxılışının
təntənəsi günü, ümumi iclasın qərarına əsasən hərbi
topoqrafiya kurslarının fəxri kursantı seçilmişdir.

Hərbi Dəniz Donanmasını xalq komissarı:

**Ə.Qarayev".**

**Qərargah rəisi: T.Ə l i y a r b ə y o v**
**Təsərrüfat işləri üzrə şöbə rəisi;**

**İ.Əfəndiyev**

Arxiv sənədlərində general İ.Vəkilovun Sovet hakimiyyəti illərində qeyrət və vicdanla çalışmasına aid maraqlı sənədlər, rəylər vardır.

1933-cü il noyabrın iyirmi doqquzunda qocaman generala Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Azərbaycan SSR Xalq Komissarları Şurası fərdi pensiya kəsmişdir.

Ömrünün çoxunu Tiflisdə yaşayan və işləyən İbrahim ağa Vəkilov 1884-cü ildə rus qızı Yelena Yefimovna Yermolova ilə ailə qurmuşdur. Lakin bir-birini sevərək xoşbəxt ailə quran gəncləri imperator III Aleksandrın ədalətsiz qanunu çıxılmaz vəziyyətdə qoymuşdu. Çarın qanununda deyilirdi ki, müsəlmanın rus qızıyla evlənməyi qəti qadağan olunur. Müsəlman oğlanı rus qızıyla evlənərsə, o, islam dinindən üz döndərib, xristianlığı qəbul etməlidir. Xristianlığı qəbul etməsə, valideynlik hüququndan məhrum olunur.

Vəziyyətdən çıxış yolu axtaran İbrahim ağa Vəkilov imperator III Aleksandrın müqəddəs sinoduna, yəni ruhanilər məclisinin ober prokuroruna - məşhur K.P.Pobednosevə müraciət etməli olur. O xahiş edir ki, xristian dinini qəbul etməyi ona məcbur etməsinlər və kəbinini qanuniləşdirsinlər. Çarın sadiq nökəri K.P.Pobednosev qəti etirazını bildirir, hətta onun üzərinə hücum çəkərək deyir ki, siz rus qızı ilə kəbin kəsdirməyi heç xəyalınıza belə gətirməyin. Biz sizdən uşaqları alacağıq, sizin onlara atalıq etməyə hüququnuz yoxdur.

Nəhayət, 1891-ci ildə bu gənc ailənin bəxt ulduzu doğdu. Tale sanki özü onların xoşbəxtliyini himayəyə aldı. Həmin il kapitan İbrahim ağa Vəkilov çarın xüsusi əmrilə ən yaxşı mütəxəssis kimi Türkiyəyə ezam olundu.

İki il sonra - 1893-cü ildə İbrahim ağa ilə Yelena Yefimovnaya bolqar keşişi Georgi Misarov qanuni kəbin kəsdi. Bu vaxt ər otuz doqquz, arvad isə otuz iki yaşında idi.

Artıq onun ailəsi də böyümüşdü: ailənin böyük oğlu Borisin yeddi, Qlebin isə altı yaşı vardı.

Aradan on altı il keçdi. Ancaq nə İbrahim ağa Vəkilovun ata ürəyi sakit olur, nə də Yelena Yefimovnanın ana qəlbi narahat döyüntüsünü kəsirdi. Onların intizarının əsas səbəbi oğlanlarının hansı dinə qulluq etmələri idi. Tale onlara üçüncü bir övlad da bəxş etmişdi. Rənanın artıq on üç yaşı vardı, hara gedib, kimdən ağıllı bir məsləhət almalı? Nə rəsmi dövlət idarələri, nə də din xadimləri çıxılmaz vəziyyətdə qalan ailəyə bu barədə kömək edə bilmirdilər.

1909-cu ildə şair Abbas ağa Nazir yazıçı Lev Tolstoya məktub yazıb bildirmişdi ki, sizin "İnsana çoxmu torpaq lazımdır?" hekayənizi tatar - Azərbaycan dilinə mənzum tərcümə etmişəm. Ona görə də sizdən izhari-hörmətlə xahiş edirəm ki, göstərilən tərcümənin nəşrinə və yayılmasına lütfən icazə verəsiniz.

Tiflis və Bakıda çıxan qəzetlər öz səhifələrində müsəlman şairinin Lev Tolstoyla məktublaşmasına səxavətlə yer vermişdilər.

Ata İbrahim ağa Vəkilov və ana Yelena Yefimovna da belə qərara gəldilər ki, müdrik yazıçı Lev Tolstoydan başqa heç kəs bu ciddi ailə məsələsinə ağıllı cavab verə bilməz. Ona görə də 1909-cu il martın ikisində Tiflisdən Yelena Yefimovna yazırdı:

"Bizim dərin istəkli müəllimimiz Lev Nikolayeviç!

Məktubumla sizi narahat etdiyimə görə sizin qarşınızda üzrxahlıq üçün söz tapa bilmirəm. Bilirəm, sizdən mənim kimi məsləhət almaq istəyənlər çoxdur, bütün bunlara baxmayaraq, mən də sizə müraciət edirəm. Çünki həyat: mənim qarşımda gücümün yetmədiyi bir məsələ qoymuşdur.

Çalışacağam ki, istədiyimi qısaca izah edim. Mənim əlli yaşım var, üç uşaq anasıyam. Ərim müsəlmandır. Ancaq kəbinimiz qanunidir. Uşaqlarımız pravoslav (xristian) dininə etiqad edirlər. Qızım on üç yaşındadır. Oğlanlarımdan birinin iyirmi üç yaşı var. O, Peterburq Texnologiya İnstitutunun tələbəsidir. O birinin iyirmi iki yaşı var. Moskvadakı Alekseyev hərbi məktəbinin yunkeridir. Bax, bu oğullarım atalarının dini etiqadına - daha doğrusu, müsəlmanlığa

keçmək üçün məndən icazə istəyirlər. Mən nə etməliyəm? Mən bilirəm ki, indi bu mümkündür və həmçinin onu da bilirəm ki, bizdə yaşayan yadellilərə pis münasibət var. Onlarda bu fikrin oyanmasına səbəb xırda həyati məsələlər deyil: nə maddi təminat, nə də mənsəbpərdstlik onları bu işə təhrik edir. Ancaq qaranlıqda qalan Azərbaycan xalqına kömək etmək məqsədini güdürlər. Din onlara xalqa qovuşmağa, xalqa yanaşmağa mane olur. Amma mən qorxuram ki, bu dar düşüncəli məsləhətimlə də onları pis məqsədə təhrik edəm. Mən öz dərdlərimlə tənhayam. Ah, əgər mən öz əzablarımı və mübarizəmi yaza bilsəydim... Mən öz övladlarını dəlicəsinə sevən bir ananın göz yaşları ilə yazıram. Budur, əzabdan ağlımı itirmiş halda sizdən məsləhət almaq qərarına gəldim. Siz, yalnız siz, öz ağlınızla həyatımızın hazırkı şəraitində bunun nə ilə nəticələnəcəyini duya bilərsiniz. Sizə mənim dərdim kiçik və xırda görünə bilər. Ancaq bu mənə dəhşətli əzablar verir.

Lev Nikolayeviç, siz bizə, biz balaca adamlara heç vaxt ürəkdən gələn dəyərli məsləhətlərinizi əsirgəməmisiniz Bunu bildiyim üçün cəsarət edib sizi öz xahişimlə narahat etdim.

Dönə-dönə üzr istəyirəm ki, sizin qiymətli vaxtınızı aldım. Bu addımı atmağa məni məcbur edən dəlicəsinə analıq sevgisidir.

Bütün qəlbilə sizə sadiq olan Yelena Yefimovna Vəkilova.

1909-cu il martın on beşində Yasnaya Polyanadan göndərdiyi cavab məktubunda dahi sənətkar yazırdı:

Yelena Yefimovna (Vəkilova)

Sizin oğullarınızın tatar (Azərbaycan - Ş.N.) xalqının maariflənəmsinə kömək etmək arzusunu təqdir etməyə bilmərəm. Belə olduğu halda Məhəmməd dinini qəbul etməyin nə dərəcədə lazım olduğunu da deyə bilmərəm. Ümumiyyətlə, Sizə demliyəm ki, hökuməti etiraf etmədən, adamın hansı dinə mənsub olması barədə kiməsə məlumat verməsini artıq hesab edirəm. Elə buna görə də Sizin oğullarınızın Məhəmməd dinini pravoslavdan üstün tutaraq qəbul etmələri - yəni bir dindən başqa dinə keçmələri barədə kiməsə məlumat vermələri gərək deyil. Bəlkə bu, zəruridir, lakin bu haqda bir şey deyə bilmərəm, ona görə də Sizin övladlarınız bu haqda lazımi hökumət orqanlarına xəbər verib - verməmələri barədə özləri qərar qəbul etməlidirlər.

Müsəlmançılğın pravoslavlıq qarşısındakı üstünlüyünə və xüsusilə Sizin övladlarınızın xidmət etdikləri məqsədin alicənablığına gəlincə, bu hərəkətinə bütün qəlbimlə rəğbət bəsləyirəm.

Xristian idealı və təlimini həqiqi mənada hər şeydən üstün tutan bir adam üçün bunu etiraf etmək nə qədər qəribə olsa da deməliyəm ki, müsəlmançılığın öz xarici formasına görə kilsə pravoslavlığından müqayisə olunmaz dərcədə yüksəkdə durması məndə heç bir şübhə doğurmur. Belə ki, əgər bir kəsin qarşısında kilsə pravoslavlığına, yoxsa ki, islam dininə sitayiş etmə yollarından hansını seçmə məsələsi qoyularsa, onda hər bir ağıllı adam, mürəkkəb və anlaşılmaz ilahiyyatı - üç sifətli allahın, günahın bağışlanması mərasimini dini ayinlərin İsanın anasına yalvarışının, müqəddəslər və onların şəkillərinə saysız-hesabsız ibadətlərin əvəzinə, şübhəsiz ki, bir ehkamlı vahid allahı və peyğəmbəri olan islam dinini üstün tutar.

... Əgər mənim məsləhətlərim heç olmasa bir şeyə yarasa, Siz və yaxud da Sizin oğullarınız özlərinin sonrakı fəaliyyətləri haqqında qərarını mənə bildirsələr çox şad olaram”.

Lev Tolstoy

Lev Tolstoyun məktubundan sonra Tiflisdəki Zaqafqaziya ruhani idarəsi general - mayor İbrahim ağa Vəkilovun övladlarını müsəlmanlığa qəbul etmiş və bu barədə mufti Mirzə Hüseyn Əfəndi Qayıbzadənin imzası ilə rəsmi sənəd vermişdir. Uşaqların adını da dəyişdirmişlər - Boris Faris olmuş, Qleb isə Qalib kimi rəsmiləşmişdir.

Peterburq Texnologiya İnstitutunu bitirən Faris yaxşı mühəndis kimi İttifaqda tanınmışdır. Moskvadakı Alekseyev hərbi məktəbini bitirib Qızıl Orduda komandir olan Qalib.

Vəkilov isə görkəmli sərkərdə Mixail Frunze, Çingiz İldırım, Əliheydər Qarayev və başqaları ilə çiyin - çiyinə işləmişdir.

Lev Tolstoyun Yelena Yefimovna Vəkilovaya yazdığı məktubun əslini oğlu Faris 1978-ci ildə Moskvadakı Lev Tolstoy adına Muzeyə vermişdir.

## UZUN ÖMRÜN SƏHİFƏLƏRİ

Məni çox kefsiz və bir az da könülsüz qarşıladı. Əvvəlcə başa düşə bilmədim, bu etinasızlıq mənim gəlişimə görədir, yoxsa qoca xəstəhaldır. Elə-belə, nəzakət xatirinə "keçin, əyləşin" - dedi. Bu tənha yaşayan qocanın tərtəmiz geyimindən, ev şəraitindən hiss etmək olurdu ki, çox səliqəli adamdır.

Qoca əvvəl eynəyini çıxartdı, sonra da dizinin üstündəki kitabı qatlayıb qırağa qoydu. İri şkafın enli siyirtməsini çəkib dərindən nəfəs ala-ala, qara məxməri parçaya bükülmüş bağlamanı açdı. Balaca bir şəkil tapıb işığa tərəf tutdu. İri ala gözlərini geniş açıb "budur, - dedi, - atam, buyur, bax!". "Atam" - deyəndə səsi qırıldı. Qəribə, təsvirolunmaz bir kövrəklik bu qocanın bütün varlığını titrətdi. Udqunub üzünü yana döndərdi.

Mən şəkli alıb baxdım. Bu, cavan, çox yaraşıqlı bir zabitin ötən əsrdə çəkilmiş şəkli idi.

- Faris baba, - dedim, - bəs sənədləri? Təkcə bu şəkillə nə eləmək olar? Mümkünsə sənədləri də tapın, birgə baxaq, elə burdaca... heç yerə aparmayacağam.

O, könülsüz geri döndü, ağır addımlarla yenidən şkafa yaxınlaşdı. Xeyli əlləşdi. Bayaq oxuduğu kitabı o küncdən bu küncə qoyur, dəftəri açıb baxır, arasından heç nə tapa bilməyib əsəbiləşirdi...

Səbrim tükənmişdi, onun əhvalı mənə də təsir etmişdi. Nəhayət, şkafın tək gözündən götürdüyü qalın bir qovluğu mənə verib titrək, kövrək səslə soruşdu:

- Cavan oğlan, sənin nəyinə lazımdı mənim atamın sənədləri?

- Faris baba, atanız xalqımızın hərbi - topoqrafiya tarixində yeganə general olub. İstəyirəm qəzetdə, jurnalda onun barəsində bir yazı ilə çıxış edim, qoy bugünkü gənclik xalqımızın belə bir şöhrətli generalı olduğunu bilsin.

- Mənim atam çoxdan unudulub, - deyə incik halda əlini yellədi. Ani fasilədən sonra əlavə etdi: - Bəlkə, elə belə yaxşıdı. Kimin nəyinə lazımdır?.. - İndi başa düşdüm ki, qoca məni nəyə görə könülsüz qarşıladı. - Bir vaxt özüm çox çalışdım ki, üzə çıxsın, generallar arasında onun da adı çəkilsin. O da Azərbaycan üçün, xalqı üçün can qoyub, cəbhələrdə vuruşub, gecəsi-gündüzü topoqrafiya çəkilişlərində keçib.

Hələ 1883-cü ildə rus - İran komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiqləşdirilməsində iştirak edib. Belə bir ciddi işi vaxtından əvvəl yerinə yetirən atamın xidməti İran hökumətinin ən yüksək "Şire - Xorşid" ordeninə layiq görülüb. O, Krımın, Dağıstanın və bütün Qafqazın topoqrafik xəritəsini tərtib edib. 1892-ci ildə Türkiyəyə ezam olunan atam Qars vilayətinin rus-türk sərhədlərində topoqrafiya işlərinə rəhbərlik edir. Cənubi Azərbaycanın Təbriz, Xoy, Urmiya və başqa şəhərlərinin də topoqrafik çəkilişinə atam rəhbərlik edib. Hər gələn bir sənədini, şəklini istədi, elə o gedən oldu. - Kövrək-kövrək, - mən də ki, belə, gördüyün kimi, qocaldım, əldən düşdüm. Sənəd, şəkil aparanların da ünvanını, telefonunu itirdim. O, insafsızlar da, nə atam haqqında yazdılar, nə də şəklini qaytardılar.

- Mən burda baxacam, heç nəyi heç yerə aparan deyiləm. Qeydlərimi də burda eləyəcəm...

- Yaxşı, onda aç qovluğu, söhbət eləyək. Əvvəla de görüm atamın sorağını sənə kim verib? - Zənlə üzümə baxıb soruşdu. Bir marşalın "Mənim xatirələrim" adlı yeni kitabı çıxıb. Orda atanız, polkovnik İbrahim ağa Vəkilovun Sərdarabad, Baş Abaran əməliyyatındakı fəaliyyətindən geniş məlumat verilir. Qərargah rəisi polkovnik İbrahim ağa Vəkilovun hərbi döyüşlərdə məharətini marşal bütün ordu heyətinə nümunə göstərir.

Üz-gözündən gördüm ki, bu fakt onu hədsiz dərəcədə sevindirdi. Məndən qabaq əl uzadıb qovluğu özü açdı.

.. 1978-ci ilin yazında Faris İbrahim ağa oğlu Vəkilovla tanışlığım belə oldu. Həmin il atası haqqında “Azərbaycan” jurnalında çıxış etdikdən sonra yenidən onun görüşünə getdim.

Faris baba jurnalı aldı, yazını o üz - bu üzə vərəqlədi. Divanda yanaşı əyləşdik.

- Oxu, - dedi, - görüm nə yazmısan?

Yarıya çatmamış sərlövhəsini bir də soruşdu.

- “Qəribə tale”, - dedim və dönüb ona baxdım. Onun ağıllı iri gözlərində yaş damcıları görüb dayandım.

- Daha oxuma, özüm oxuyacam, - deyib, buz kimi əlilə biləyimdən yapışdı, - atamı yad etdiyiz üçün hamınıza minnətdaram...

Yol boyu bu tənha qocanı düşünürdüm. “Mənim bu uzun ömrümün qarası ağından çox olub”. Bu sözlər onun dilindən elə-belə çıxmamışdı. Sonralar onun həyat tarixçəsi ilə yaxından tanış olanda heyrətə gəldim ki, bütün bu əziyyətlərə necə dözüb? Qəribə burasıdır ki, həmişə başı qovğalarda olan çox əziyyətlər çəkən bu insanın yaddaşı zərrəcə zəifləməmişdi.

Faris Vəkilov nə az, nə çox, ömrünün on səkkiz ilini doğma Azərbaycandan uzaqda, həm də əzab-əziyyətlə keçirmişdi. Neçə inqilabın, neçə müharibənin sınaqlarından sayıq çıxmışdı. Çünki amalı düz, əqidəsi pak olmuşdu. Harda, hansı şəraitdə olmasına baxmayaraq, qəlbində bir çırağın işığı yanmışdı. Onun da adı Azərbaycan idi. Lakin bir acı ilin sərt küləyi onun üzünü elə qarsımışdı ki, qapısını elə bərk çırpmışdı ki, o, hələ də özünə gələ bilmirdi.

Birinci dünya müharibəsi başlananda Texnologiya İnstitutunun beşinci kurs tələbəsi Faris Vəkilov Petroqradın Putilov zavodundakı top emalatxanasının müdafiəsinə səfərbər olunur. Gənc mühəndisin bu zavoddakı yaxşı fəaliyyəti onu pillə-pillə ucaldır. 1916-cı ildə yaxşı xasiyyətnamə ilə Petroqraddakı məşhur “Feniks” zavoduna baş mühəndis təyin olunur. Bir il sonra oktyabr tufanları zamanı bu səhmdar idarə öz fəaliyyətini dayandırır. Faris Tiflisə - ailəsinin yanına qayıdır. O, mətin bolşevik Əliheydər Qarayevlə birgə ictimai-siyasi işlə məşğul olur. Onlar Peterburqda fəaliyyət göstərən “Azərbaycan həmyerliləri cəmiyyəti”ndə tanış olmuşdular.

Azərbaycanda inqilabın qələbəsindən az sonra ixtisasını təkmilləşdirmək üçün Parisdəki “Reno” zavoduna ezam olunur.

“... 1926-cı ildə Əliheydər Qarayevdən bir teleqram aldım. O yazırdı ki, dağılıb uçurulmuş sənayemizi bərpa etmək üçün sənin də köməyinə ehtiyacımız var, qayıt gəl. Mən dərhal Bakıya qayıtdım. Əliheydər Qarayev məni mənzillə təmin edib, leytenant Şmidt zavoduna işə göndərdi”.

... Axşam qonşusu qadın mənə zəng eləyib dedi ki, Faris baba sabah sizi görmək istəyir. Mümkünsə ona baş çəkin.

İşdən bir az tez çıxıb onun yanına gəldim. Biz neçə ilin dostu, hətta deyərdim, qohum kimi görüşdük.

- İndi mənim sənə işim düşüb, - dedi. - Xəbərin varmı, atamın dayısı oğlu İbrahim ağa Usubov da general olub. Ondan da yazmaq lazımdır.

Həmin günü mənə çoxlu şəkil, sənəd göstərdi. Səxavət əli açılan Faris babanın mənə hədiyyə verdiyi şəklin biri 1901-ci ildə Qarsda çəkilib. Burda atası İbrahim ağa Vəkilov topoqrafiya çəkilişi zamanı təsvir olunub. Hər iki şəklin orijinalı indi də məndədir. Anası Yelena Yefimovna Vəkilovanın 1909-cu il martın 2-də böyük rus yazıçısı Lev Tolstoydan öz övladlarının islam dinini qəbul etmələrinin mümkünlüyü barədə yazdığı məktubdan söhbət açdı.

Faris baba bu məktubun fotosurətini və öz əlilə rus dilində yazdığı xatirələrini avtoqrafla mənə verdi.

- Oğul, - dedi, - mənim ömrüm qurtarır, səninki isə başlayır, qoy bunlar səndə qalsın. Amma mən tənha qocaya tez-tez baş çək, sənə lazım olan çoxlu materiallar verərəm...

Bu dəfə söhbətimizin əsas mövzusu Faris babanın əmisi İbrahim ağa Usubov oldu. General-mayor İbrahim ağa Usubov 1872-ci ildə Qazax qəzasının Qıraq Salahlı kəndində dünyaya kəlib. Sənədlərdən öyrənirəm ki, generalın atası Musa ağa da rus ordusunun zabiti olub. İran şahzadəsi Abbas Mirzənin qoşunları 1826-cı ildə Azərbaycana hücum edəndə atası Musa ağa və əmisi Süleyman ağa Usubovlar Qazax süvari dəstəsində mərdliklə vuruşmuşlar.

Sonralar Polşa müharibəsindəki nümunəvi xidmətinə görə Musa ağa ştabs - kapitan rütbəsinə qədər yüksəlmişdir. Faris baba sənədlərindən birini açır, titrək barmağını üstündə gəzdirə-gəzdirə.

- Fikir ver, əmim də Əliağa Şıxlinski və atam kimi Tiflisdəki kadet korpusunu bitirib, özü də əla qiymətlərlə, - deyir, - 1890-cı ildə Xarkov piyada hərbiyyə məktəbinə daxil olur. Həmin məktəbi də əla qiymətlərlə bitirib ştabs - kapitan rütbəsində əsrimizin əvvəllərində başlayan rus-yapon müharibəsində iştirak edir. Port-Artur döyüşlərində mərdliklə vuruşan əmim müqəddəs Georgi ordeninin dördüncü dərəcəsiylə və bir neçə medalla təltif olunur. Podpolkovnik rütbəsi alır.

Həmyerliləri, artilleriya generalları Əliağa Şıxlinski və Səməd bəy Mehmandarovla çiyin-çiyinə vuruşan podpolkovnik İbrahim ağa Usubov rus-yapon müharibəsində az şücaət göstərmir.

Port-Artur döyüşlərindən sonra yenidən Xarkov şəhərində hərbi xidmətə başlayır. 1910-cu ildə İbrahim ağa Usubov Tiflisdə yaşayan qohumu, Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin kiçik qızı Gövhər xanımla ailə həyatı qurur.

Müsahibimdən soruşuram:

- Generalın oğlu, qızı necə, qalırmı?

Bu saat hamısını deyəcəyəm, - Faris baba yenidən əl-ayağa düşür. Köhnə cib dəftərçələrinin birini götürüb, o birini qoyur. - İki adamla görüş, söhbət elə. Əmim qızı Nigar Usubova və generalın qardaşı qızı Gövhər Usubova ilə.

Elə həmin günü Mirzə Şəfi küçəsinin altı nömrəli mənzilində yaşayan Gövhər xanıma baş çəkdim. General-mayor əmisinin adını eşidən kimi səksən yaşlı qadının da gözlərində, sifətində qəribə bir işıq yandı. Sonra o işıq qəfildən də çəkildi və yerində təəccüb qaldı: "Nə əcəb? Hardan yada düşüb?".

Gövhər ana əlini dizlərinə vurub yana-yana dedi:

- Fələyin gözü tökülsün, bircə əmim oğlu vardı, o da 1940-cı ildə qəfildən vəfat etdi. Yeganə kişi nişanəsi idi əmim ocağının. Atam İsmayılı zorla xatırlayıram, 1910-cu ildə vəfat etdikdən sonra əmim İbrahimin himayəsinə keçdim. O, Xarkovda hərbi qulluqda olsa da doğma kəndi Salahlını unutmurdu. 1914-cü ildə məni Bakıya gətirib Hacı Zeynalabdin Tağıyevin qız məktəbinə qəbul etdirdi. 1917-ci ilədək bu məktəbdə oxudum. Bir il sonra Azərbaycan Demokratik Hökumətinin dəvətilə Xarkovdan Bakıya köçdü.

Adətən hərbçi zəhmi ağırdı, deyirlər. Əlbəttə, işdə, qulluqda necə olmağını deyə bilmərəm, amma evdə, ailədə əmim xoşxasiyyət, həssas qəlbli insan idi. Təhsil və tərbiyə məsələsinə ciddi fikir verərdi. "Gövhər, deyərdi, - səni atanın arzusu ilə müəllimliyə qoymuşam. Sənin qarşında mədəni insan yetişdirmək kimi nəcib bir vəzifə durur. Gərək elə şagird yetişdirəsən ki, onunla həmişə iftixar edə biləsən". Yadımdadı, general Əliağa Şıxlinski tez-tez bizə gələrdi, hər iki bacanaq Port-Artur döyüşlərindən, Birinci dünya müharibəsindəki fəaliyyətlərindən söhbət açardılar.

İbrahim ağa Usubov görkəmli dövlət xadimi Nəriman Nərimanovla, Əliheydər Qarayevlə, Mixail Frunze və başqaları ilə çox yaxın idi. 1916-cı ildə döyüş meydanlarında göstərdiyi şücaətə görə ona polkovnik rütbəsi verilmişdi.

1918-ci ilin may ayında İbrahim ağa Usubovu milli Azərbaycan diviziyasında işləmək üçün dəvət etdilər. O, Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, Cavadbəy Şıxlinski və başqa hərbçilərlə birgə Azərbaycan Demokratik hökumətinin milli diviziyasının təşkilinə başladı. On səkkizinci ilin aprelində Gəncədə praporşik məktəbi açdılar. Burada azərbaycanlı gənclər təhsil alırdılar. Bir il sonra həmin məktəb Bakıya köçürüldü və Azərbaycan hərbi məktəbi adlandırıldı. 1919-cu ildə milli hökumət xalqına sidq-ürəklə xidmət etdiyinə görə polkovnik İbrahim ağa Usubovu general-mayor rütbəsi ilə təltif etdi.

Milli hökumət İbrahim ağanı on doqquzuncu ildə Azərbaycan ordusu üçün hərbi ləvazimat və hərbi geyim alıb gətirmək məqsədilə İtaliyaya ezam etmişdi. Respublika Mərkəzi Dövlət Arxivində saxlanan bir sənəd də bunu təsdiq edir.

Müsavat dövlətinin İtaliyadakı nümayəndəsinin müsavat ordusuna geyim və təchizat əşyaları almaq üçün hərbi nazirliklə danışıqları barəsində teleqram.

**2 dekabr 1919-cu il.**

**Özünün sərəncamında olmadığından İtaliyanın hərbi nazirliyi paltar və silah verə bilmir. O avtombillər, aeroplanlar, projektorlar, dizliklər, mələfələr və adyallar verir. Geyim əşyalarının göndərilməsi Gellə tapşırılıb. İlk partiya dekabrın axırlarında Batuma gələcək. Keyfiyyətli köhnə paltar tapmaq mümkün deyil. Əgər qiyməti əl versə, bu əşyaların əvəzinə parça almaq barəsində fikirləşərəm. Parçanın bizdəki qiymətini təcili bildirməyinizi xahiş edirəm.**

**General İbrahimağa Usubov».**

- Əmim çox zarafatcıl idi, - deyən Gövhər xanım söhbətini davam etdirir. - Bir dəfə süfrə başında olan bir əhvalat da yadıma düşdü. İbrahim əmim köksünü ötürüb:

- Of, - dedi, - balalarım kaş hər şeydə: ağılda, kamalda, şöhrətdə özümə oxşasınlar. Amma bircə şeydə mənə yox, dayılarına oxşasalar yaxşıdı.

Həyat yoldaşı Gövhər bibim tez üstünə düşdü.

- De görüm, o nədi elə? Əmim bığaltı gülümsünüb:

- Boyumu deyirəm, - dedi, - bircə boy-buxundan kəm-kəsirim var.

Əmim ortaboylu idi, ona işarə vururdu.

Əliağa Şıxlinski də ona zarafatla cavab verdi. - Eybi yoxdu, - dedi, - İbrahim, qəm eləmə, o da igidə bir yaraşıqdı.

- Gövhər xanım, general əminizin son taleyi necə olub?

- İyirminci ilin aprelində XI Ordu gəldi. Əliağa Şıxlinski, İbrahim ağa Vəkilov, Səməd bəy Mehmandarov, Firidun bəy Vəzirov, əmim və bütün azərbaycanlı hərbçilərə, generallara ilk günlər toxunmadılar. Xüsusi əmr verdilər ki, poqonlarınızı çıxarın, indi Qızıl Orduda xidmət edəcəksiniz. Onlar da dinib-danışmadılar. Dedilər, təki xalqa toxunmasınlar, biz də xalqa xidmət edərik. Səhv etmirəmsə, hətta onlara əmək haqqı da təyin etmişdilər. Əmimə vəsiqə də vermişdilər ki, o, Ordu komandiri kimi xidmət edir. Yadımdadır, iyul ayının ilk günləri idi. Evimizdə Qazaxdan gələn qonaq da vardı. Əliağa əmim, İbrahim dayım da bizə gəlmişdi. Hamı kəndi, qohumları, uşaqlıq dostlarını soruşur, deyib-gülürdülər. O vaxt bütün hərbçilər indiki Kommunist küçəsindəki beş nömrəli evdə yaşayırdı. Gecə on ikiyə işləyəndə hər kəs öz evinə getdi. Yenicə yatmağa hazırlaşırdıq ki, küçədə bir yük maşını dayandı. Maşından tökülüşən əsgərlər qaça-qaça bloklara doldular. Tüfənglərin qundağı ilə qapıları döyüb içəri soxuldular. Əsgərlər içəri girən kimi əmimi əhatəyə aldılar. Mən əmimə tərəf atılıb zorla əlindən yapışıb ağladım. Əsgərlər ev əşyalarını siyahıya aldılar. Əmimin orden, medallarını və özünü də apardılar. O gecə azərbaycanlı generalları - Əliağa Şıxlinskini, Səməd bəy Mehmandarovu, general-qubernator Nərimanbəyovu, Hüseyn Şıxlinskini, əmim İbrahim ağa Usubovu - hamısını yük maşınına doldurub apardılar. Dallarınca çox gedib-gəldik, bir xəbər öyrənə bilmədik. Onları həbs etdirən İlya adlı hərbçi idi. O, yarı erməni, yarı yəhudi idi. Əmimi, on iki azərbaycanlı general və zabiti 1920-ci il iyulun on altısında gecə ilə Nargin adasına aparıb orada güllələyiblər. Çox get-gəldən sonra əmim arvadı Gövhər bibimə əl boyda kağız verdilər ki, onları səhvən güllələyiblər. Şura hökuməti ailənizdən üzr istəyir.

Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov isə ayrı kamerada olublar. Xoşbəxtlikdən onların Nəriman Nərimanova göndərdikləri məktub çatıb və onlar xilas olublar. Orduya soxulan terrorçu-daşnaklardan ehtiyat edən Nərimanov ona görə də 1920-ci il avqustun birində Ə.Şıxlinskini və S.Mehmandarovu Moskvaya göndərdi.

General İbrahim ağa Usubovdan çox az nişanə qalıb. Bir neçə şəkil, bir də qızı - Azərbaycan Dövlət Konservatoriyasının müəllimi, əməkdar incəsənət xadimi, profesor Nigar xanım Usubova... Mübarizələrdə keçən ömrün anları indi illərin saralıb-soldurduğu çox az şəkil

və sənədlərdə yaşayır. General-mayor İbrahim ağa Usubovun qızı Nigar xanım atasından fəxrlə söhbət açır.

- Əliağa əmim deyərdi ki, atan İbrahimin hərbi istedadı birinci dünya müharibəsi dövründə özünü parlaq şəkildə göstərdi. Döyüş zamanı çevikliyi, piyada qoşundan məharətlə istifadə etməsi, xüsusilə əsgərlərlə səmimi rəftarı İbrahimi rus ordusunda mahir bir sərkərdə kimi tanıtdı. Əliağa əmim bir də danışırdı ki, M.V.Frunze atanı yaxşı bir insan kimi tanıyırdı. Birinci dünya müharibəsindəki fəaliyyətini, hərbi sənətkarlığını çox yüksək qiymətləndirirdi.

Mən Xarkovda anadan olmuşam. Uşaq olsam da bəzi əhvalatları yaxşı xatırlayıram. Yadımdadır, nə münasibətləsə evimizdə qonaqlıq vardı, məclisdə yüksək rütbəli zabitlərlə yanaşı sıravi əsgərlər də iştirak edirdi. Əsgərlərdən biri atam haqqında dedi: - baxmayaraq ki, o, rus deyil, azərbaycanlıdır, ancaq bizim üçün doğma atadan da yaxındır.

Atam həqiqətən də əsgərlə zabit arasında sərt sədd çəkməyən adam idi. Əsgərin bütün hüquqlarını əlindən alan zabitlərlə o, heç vaxt razılaşmazdı. Məhz bu keyfiyyətlərinə görə onu əsgərlər ata kimi sevir, hörmət edirdilər.

... Faris baba ilə görüşlərimin birində gördüm ki, o, lüğətlə bir Azərbaycan yazıçısının romanını oxuyur.

- Faris baba, - dedim, - indən belə dil öyrənmək gec deyilmi?

- Öyrənirəm ki, İbrahim əmim kimi dünənə sabah deməyim.

- O nə deməkdir?

- Bu saat danışacam, - deyib qoca iri gözlərilə gülümsündü. - Xatirimdədir, 1914-cü ilin yazında atam məni də götürüb kəndimiz Salahlıya gəlmişdi. Hələ müharibə başlanmamışdı. Atam doğma kəndinə, qohumlara baş çəkməyi çox sevirdi. Ali rütbədə, yüksək bir yerdə işləməyinə baxmayaraq, ildə bir neçə dəfə kəndə gedərdi. "Bu kənd - deyirdi, - oğul, harda olsam mənimlədi, adam nə qədər böyük şəhərlərdə, uzaq ellərdə olsa da doğmasını, ondan süd əmdiyi yeri unuda bilmir. Buna haqqı da yoxdu".

Atam eşidir ki, İbrahim ağa Usubov da ailəsilə kəndə gəlib, Abdulla əmimlə onun görüşünə gedirlər. Abdulla əmim İbrahim əmimdən soruşur ki, nə vaxt gəlmisən?

İbrahim əmim cavab verir ki, "sabah".

Atam təəccüb edir ki, bu nə danışır. Abdulla əmim işin nə yerdə olduğunu başa düşür. Gülə-gülə deyir:

- İbrahim, əgər sabah gəlmisənsə, yəqin ki, dünən də qayıdıb gedəcəksən. - Qoca əhvalatı danışıb kədərlə gülümsündü. - İbrahim əmim - dedi, - uzun müddət Rusiyada qulluq etdiyindən Azərbaycan dilini bir az yadırğamışdı. Məni də tale ölkədən-ölkəyə, şəhərdən-şəhərə atıb. Fransız, ingilis və bir neçə dildə sərbəst danışıb yaza bilirəm. Amma hiss edirəm ki, o qədər yadlarla oturub-durmuşam ki, doğmamı unutmaq ərəfəsindəyəm.

Faris baba çoxillik ömründə bitib-tükənməyən hadisələrin, əhvalatların şahidi olmuşdu. Heyf ki, bu səmimi, mehriban qoca ilə görüşüm onun həyatının son günlərinə təsadüf etdi. O, bizim işıqlı dünyamızdan ömrünün doxsan dördüncü ilində köçdü.

Minillik ədəbiyyata, mədəniyyətə malik xalqımızın minillik də qəhrəmanlıq tarixi var. İgid Cavanşirin, əyilməz Babəkin, köhlən at belində yadellilərə qarşı vuruşan Koroğlunun, Nəbinin adı həm öz xalqının, həm də bütün bəşər tarixinin səhifələrində yaşayır. Onların hər biri öz doğma torpağını, öz yurdunu, öz xalqının əsrlərdən bəri yaratdığı mədəniyyəti qəsbkarlardan mərdliklə müdafiə etmişdir.

Hər əsr tarixə öz qəhrəmanlarını verib, hər igid özünün şücaəti ilə gələcək nəslə örnək olub. Zaman keçib, illər ötsə də onlar yenə unudulmur, tarixin əbədi yaddaşında, sənədlərdə həmişəyaşar qalırlar.

İnanırıq ki, hərbi qüdrət tariximizin səhifələrində general-mayor İbrahim ağa Usubov da beləcə yaşayacaqdır.

## YARALI SÖHBƏT

Topoqraf general İbrahim ağa Vəkilovun qəribə taleyi ilə bağlı axtarışlar aparıb mətbuatda çıxış etdikdən sonra onun doxsan iki yaşlı oğlu Faris baba ilə dostluğumuz başlandı. Bir neçə dəfə görüşdükdən sonra qoca mənə etibar edib öz həyat yolundan, əmisi general-mayor İbrahim ağa Usubovdan danışdı. Hər dəfə görüşəndə günahsız olaraq həbs edilib əvvəl Mordoviyada, sonra Karaqandada on səkkiz il çəkdiyi əziyyətlərdən, iztirablardan yana-yana, bir-birindən dəhşətli əhvalatlar söyləyirdi.

Eşitmişdim ki, Faris babanın kiçik qardaşı polkovnik Qalib Vəkilovun ordu komandiri kimi böyük xidmətləri olub. Onu da otuz yeddidə həbs ediblər. Arabir qardaşı haqqında soruşurdum. Hər dəfə də o, söhbətin yönünü dəyişir və bu barədə danışmaq istəmirdi. Yüzü haqlayıb, uşaq kimi kövrək olan qocanın qəlbinə dəyməyə qıymırdım. Bir dəfə söhbəti Çingiz İldırımdan saldım. Bilirdim ki, Çingiz İldırımla Qalib dost olublar. Qoca məcbur olub ötəri bir əhvalat danışdı. Mən əl çəkməyib, - Qalib niyə tutulub, - deyə soruşanda qoca qəmli-qəmli üzümə baxıb xeyli dinmədi. Bu an divardakı qədim saatın səsi bizi diksindirdi. Hər ikimiz dönüb ona baxdıq. Əqrəblər düz on birin üstündə dayanmışdı. Bu gün Faris baba ilə söhbətimiz həmişəkindən daha çox olmuşdu. Həqiqətən onu bərk yormuşdum. Durub getmək istəyəndə qoca əlimdən yapışıb:

- Bərk yorulmuşam, - dedi. - Qoy qardaşım Qalib haqqında söhbət sonraya qalsın, onun faciəsi çox uzundur. Bu, illərlə ürəyimdə gəzdirdiyim yaralı bir söhbətdir. - Yazıq görkəm alan qoca üzrxahlıq elədi; - incimə, gələn şənbə-bazar gözləyəcəm... Təəssüf ki, Faris baba mənə görüşmək üçün vəd etdiyi bazar gününə kimi yaşamadı...

Sonralar Qalib Vəkilovun doğma qızı Leyla xanımla bir neçə dəfə görüşdüm. Pedaqoji elmlər doktoru, professor Leyla xanım Vəkilova M.F.Axundov adına rus dili və ədəbiyyatı institutunda işləyir.

General Əliağa Şıxlinskinin onlarda saxlanan nadir şəkillərinin üzünü çıxartdıranda, general babası İbrahim ağa Vəkilov haqqında veriliş hazırlayanda arabir atası haqqında da soruşurdum. O da əmisi kimi suallarıma çox qısa cavab verir və nədənsə bu mövzunun üstündən sükutla keçirdi.

"...Bu gün bütün bunlar qəribə görünür, ancaq o illər repressnya olunanların hətta uşaqları da bəzən öz ata-analarının günahkar olmasına inanır və açıq-aşkar onlardan üz çevirirdilər. Bu nə ilə əlaqədar idi? Qorxaqlıqla, öz şəxsi həyatını qorumaqla? Bu da vardı, amma əsas səbəb yalnız kor-koranə, fanatik inam idi".

Professsor Nikolay Truşenkonun bu sətirlərini "Smena" jurnalında (1988, № 9) oxuyanda dərhal Leyla xanımı xatırladım. Susmağının səbəbini sanki bu sətirlərdə tapmışdım. Elə ki, atası haqqında danışmağa başladı, bir daha gördüm və hiss etdim ki, Leyla xanımdan qorxu hissi doğrudan da çox uzaqdır. Zarafat deyildi, doğma atadan danışmaq, yazmaq əlli ildən çox idi yasaq edilmişdi. O, heç vaxt "xalq düşməni" atasından üz döndərməmişdi. Nə kor-koranə, fanatikcəsinə "ellər atası Stalinə", nə də cəllad M.C.Bağırova özünün pənahı kimi pərəstiş edə bilməmişdi. O illərdə incidilmiş əlli bir min "gözükölgəli" azərbaycanlı ailəsindən biri kimi dərdini ürəyində çəkmişdi. Və bəlkə də Leyla xanımın ağlına gəlməzdi ki, vaxt gələcək aşkarlığın, demokratiyanın işığında hər şey açıq-aydın etiraf ediləcək. Bütün gümanlar, şübhələr ürəklərdən silinib atılaçaq, haqq-nahaq öz yerini tapacaq.

- Təəssüf ki, mən atamı babam İbrahim ağadan daha az görmüşəm, - Leyla xanım söhbətinə general babasından başlayır. - İlk dəfə atam Qalib həbs ediləndə mənim cəmisi altı yaşım vardı. İkinci dəfə isə on üç yaşında idim. Ona görə də atam haqqında anamın söhbətlərindən yadımda qalanlar daha çoxdur.

- Bəs general babanız İbrahim ağa Vəkilov atanız həbs ediləndə sizə onun haqqında heç nə danışmayıb?

- Yox. Babam heç vaxt oğlunun günahsız həbs olunması haqqında söhbət salmazdı. Sonralar mənə məlum oldu ki, babam atamın tutulmasını ürəyində sağalmaz yara kimi gəzdirirmiş. Mənim kimi körpə qız uşağına xalqının, Vətəninin rifahı üçün çalışan atamın

xidmətlərini və onun günahsızlığını başa salmaq iqtidarında deyilmiş. Atam tutulandan sonra babamın qəddinin əyilməyini indi də gözüm önünə gətirəndə kövrəlirəm. Babam o ağır illərdə qanadları qırılmış quş kimi gəzirdi.

General-topoqraf İbrahim ağa Vəkilovun ailəsində üç övlad böyüyürdü.

Qleb sənətdə atanın yolunu seçdi. O, hərbçi olmaq məqsədi ilə Tiflisdəki kadet korpusunu müvəffəqiyyətlə bitirib Xarkovdakı üçüncü Aleksandr adına Ali hərbi-texniki instituta qəbul olundu. İkinci kursdan sonra Qleb Vəkilov könüllü olaraq həmin institutu tərk etdi. Sonralar Moskvadakı Alekseyev hərbi məktəbində təhsilini davam etdirdi.

Əsrin əvvəllərində fəhlə sinfi ayağa qalxıb mütləqiyyətin rədd olunmasını tələb edirdi. Qanlı bazar hadisələrindən hiddətlənən xalq hərəkatı coşmuşdu. İmperiyanın hər yerində çarizmin qanlı cinayəti nifrətlə qarşılandı. Belə təlatümlü, qarışıq bir dövrdə ananın da, atanın da əzabı onlara dinclik vermirdi. Peterburqda təhsil alan böyük oğlu Borisi, Moskvada yunker məktəbində oxuyan Qlebi də bir sual düşündürürdü. Mən kiməm, hansı millətə məxsusam? Bu izahedilməz müdhiş sual qarşısında qalan hər iki qardaş tez-tez ana-ataya müraciət edirdilər.

Faris Vəkilovun söhbətindən: - Mənim on doqquz yaşım tamam oldu. Dərs məşğələləri ilə bərabər Məhəmmədin dininə keçmək fikri də məni tərk etmirdi. 1904-05-ci illərdəki şərait bu niyyətimin həyata keçməsinə kömək etməli idi. Bədniyyətli rus-yapon müharibəsi, xalq kütlələri arasındakı inqilabi əhvali-ruhiyyə çar hökumətini bəzi liberal qərarlar verməyə məcbur etdi.

1904-cü ildə “Dinazadlığı haqqında manifest” nəşr olundu. Orada hər hansı bir səbəbdən öz ata-baba dinindən dönmüşlərə yenidən o dinə qayıtmalarına icazə verilirdi. Adama elə gəlirdi ki, müvafiq ərizə vermək kifayətdir ki, bununla da məsələ həll olunsun. Təcrübəli adamlar, o cümlədən mənim valideynlərim Peterburqa gəlişimin birinci ilində pravoslav dininin müdafiəçilərinin bilavasitə yaxınlığında bu məsələni qaldırmağı məsləhət görmədilər. Anamın Lev Tolstoya məktubunda da bu ehtiyat öz əksini tapmışdı. Xoşagəlməz hadisələrdən yaxa qurtarmaq məqsədilə mənim niyyətimin həyata keçirilməsini bir qədər ləngitməli olduq.

Ona görə də çıxılmaz vəziyyətdə qalan anam Yelena Yefimovna Vəkilova 1909-cu il martın 2-də dahi yazıçı Lev Nikolayeviç Tolstoya məktubla müraciət etməli olub.

Görünür, böyük Tolstoyu ananın məktubu bərk həyəcanlandırıb. Bunu dörd səhifəlik və demək olar ki, təcili yazılan məktubdan da hiss etmək olur.

Lev Nikolayeviç Tolstoyun məktubu ailədə hökm kimi oxunub, qanun kimi qəbul olundu. Ailənin sakitliyi öz yerində, hətta onlar Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qayıbzadənin məsləhəti ilə adlarını da dəyişdilər. Boris - Faris, Qleb isə Qalib oldu.

1910-cu ildə yunker Qalib Vəkilov Moskvadakı Alekseyev hərbi-texniki məktəbini bitirib xidmətə başladı. Birinci dünya müharibəsi başlananda o, Qərb cəbhəsindəki mühəndis polkunda döyüşürdü. Molodeçniy şəhəri uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə podpolkovnik Qalib Vəkilov 2-ci dərəcəli müqəddəs Georgi ordeni ilə təltif olundu. Hərbi-texniki mütəxəssis kimi Qalib Vəkilovun ən başlıca vəzifəsi düşmənin qəfil hücum edəcəyi bərə və keçidlərin möhkəm qurulması, səngərlərdə piyada və tank əleyhinə mərmilərin dəqiq yerləşdirilməsi idi.

Leyla xanımın stolun üstünə qoyduğu müxtəlif sənəd və fotoşəkillərin hamısı inqilabdan əvvələ məxsusdur. Onların arasında çox da qalın olmayan bir kitab da var. Bu, məşhur ədəbiyyatşünasımız Firidun bəy Köçərlinin ilk “Azərbaycan tatarlarının ədəbiyyatı” kitabıdır. Onu müəllif 22 oktyabr 1903-cü ildə belə bir avtoqrafla Leyla xanımın general babasına hədiyyə verib. “Hörmətli İbrahim ağa Vəkilova böyük məhəbbət nişanəsi ilə Firidun bəy Köçərlidən. Qori şəhəri”.

Şəkillərdən ikisi daha maraqlıdır. Onlar məşhur general-leytenantımız Əliağa Şıxlinskiyə məxsusdur. İndiyədək heç kəsə məlum olmayan və heç yerdə dərc edilməyən şəkillərdə Əliağa Şıxlinski 1915-ci ildə təsvir olunub. Bir qrup zabit və üç nəfər şəfqət bacısı ilə birgə çəkdirdiyi şəkildə Əliağa Şıxlinski həyat yoldaşı Nigar xanımla birgə dayanıb.

- Nigar xanımla yanaşı əyləşən anam Aleksandra İvanovna Vəkilovadır. Anam da atam Qaliblə birgə birinci dünya müharibəsi illərində döyüşən orduda xidmət edib. Anamın rütbəsi leytenant olub. O, da Nigar xanım kimi hərbi səhra qospitalında şəfqət bacısı işləyib. Böyük

oktyabr inqilabı başlananda onlar Minsk ətrafındakı cəbhədə olublar. Atam üç ay ordu sıralarında komandir kimi xidmət etdikdən sonra komandanlıq onu qulluğunu davam etdirmək üçün Bakıya ezam edir. Azərbaycanda Sovet hakimiyyəti qələbə çaldıqdan sonra atam Bakı hərbi-mühəndislər idarəsinin rəisi təyin olunur. Az sonra atam Qızıl Ordunun Ənzəli şəhərindəki mühəndis qoşunları hissəsinin rəisi vəzifəsində qulluq edir.

Anam da bu yürüşdə atamla birgə olmuşdu. Atam bu yürüşdə ağır xəstələnmişdi. O, malta qızdırmasına tutulmuşdu. Xəstəliyinə baxmayaraq, 1922-ci ildə yenidən Azərbaycan Baş hərbi-mühəndislər idarəsinin rəisi vəzifəsində işə başladı. Sonra Zaqafqaziya Qızıl Ordu hərbi inqilab şurasının hərbi sənaye komitəsinin direktoru oldu. Bu vəzifədə beş il işlədi.

- Leyla xanım, - bayaq dediniz ki, atanız iki dəfə həbs edilib. Otuz yeddinci ildən əvvəl nə vaxt həbs olunmuşdu?

- İlk dəfə atam 1931-ci ildə həbs edilib. O, inşaatçı-mühəndis sifətilə Belomor - Baltik kanalının tikintisində dustaq kimi işləmişdi. 1933-cü ildə o, həbsxanadan gəldi. Qocalıb əldən düşmüş, xəstəhal atamın saçı tamam ağarmış və dinib-danışmaz olmuşdu. O, tək bircə dəfə mənimlə həbs olunması haqqında söhbət edəndə dedi: “Kim mənim haqqımda sənə nə deyir-desin, bilmirəm. Bircə onu yadında saxla ki, mən nə Vətənimin, nə xalqımın qarşısında, nə sənin, nə ananın, nə də heç kəsin qarşısında günahkar deyiləm”.

Belomor - Baltik kanalı tikintisindən qayıdandan sonra atam Bakıda məişət-tikinti trestində direktor müavini işlədi.

Yadımdadır, çox tez-tez xəstələnərdi. Semaşko adına xəstəxanada, dəmiryolu xəstəxanasında, sonra da Bayıldakı xəstəxanada müalicə olunurdu. Onu operasiya elədilər. Anamla çox çətinliklə yanına gedib-gələrdik. Bir xeyli sonra atamın səhhəti yaxşılaşdı. Ailəmizin güzəranı da pis deyildi. O, işini dəyişmişdi. İndi Kür üstündəki Bankə qəsəbəsində işləyirdi. Sən demə, ən dəhşətlisi geridə imiş. Otuz yeddinci il gəlib çatdı. Laxa ağzını açan bu dəhşətli qara il yüzlərlə saf adam kimi atamı da uddu...

1956-cı ildə atamın günahsız məhv edilməsi haqqında iki bəraət məktubu aldım. Biri 1931-ci ilə görə, biri də 1937-yə görə. Sonuncuda yazılmışdı ki, polkovnik Qalib Vəkilov 19 dekabr 1937-ci ildə həlak olub. Anamla mən isə otuz yeddinci ildən əlli altıya qədər onu həbsxanalarda axtarırdıq.

Leyla xanım Vəkilovanın stolun üstündəki daha bir tarixi şəkil haqqında: süfrə arxasında altı nəfər əyləşib. Ovdan qayıdıb günortaüstü nahar edirlər. Məşhur sovet sərkərdəsi Mixail Frunze sol əli çənəsində dərin düşüncələrə dalıb. Onun sağ yanında dayanmış Əliheydər Qarayevlə Qalib Vəkilov da fikirlidirlər. Təkcə diviziya komandiri Məmməd Veysov məşğuldur. O, əlindəki çəngəl-bıçaqla qarşısındakı qabda nəyisə doğrayır. Qalan iki nəfərin kimliyi məlum deyil. Leyla xanım deyir ki, bu şəkil 1925-ci ilin qışında M.V.Frunze ikinci dəfə Azərbaycana gələndə Xaçmaz rayonunun ərazisindəki keçmiş Neruçev (indiki 1 №-li sovxoz) malikanəsində çəkilib.

Altı ay keçməmiş bu sıradan biri - M.Frunze qəfil vəfat etdi. Əliheydər Qarayev, Qalib Vəkilov otuz yeddinin qurbanı oldular. Məmməd Veysov isə doqquzillik həbs cəzası çəkib 1957-ci ildə vəfat etdi.

- Leyla xanım, atanızın dostlarından kimləri xatırlayırsınız?

- Hələ uşaq idim, yadıma gəlir ki, M.V.Frunze, Əliağa Şıxlinski, Serqo Orconikidze və ən çox Çingiz İldırım qonağımız olardı. Çingiz İldırım mənim üçün “Çi dayı” idi. O, çox şən, səsli-küylü, çox vaxt mənimlə oynayan, mənə cürbəcür macəralar danışan “Çi dayı” idi.

Onun ailəsi yox idi. Vaxtının çoxunu atamla bizdə keçirərdi. “Çi dayı” uşaqlara xüsusi məhəbbət və hörmətlə yanaşardı. Onun danışdığı yarımfantastik hekayətlər də yaxşı yadımdadır. O, nəql edərdi ki, bir dəfə qatar gedə-gedə atılıb ona mindim, ordan da hoppanıb uçan təyyarənin üstünə qondum. Bunları danışar, özü də mənimlə birgə gah təccüblənər, gah da uğunub gedərdi.

O danışardı ki, yadıma gəlir, bir dəfə Lənkəran tərəfdə ov eləyəndə qamışlıqdan qəfil çıxan atanı qaban zənn edib az qala qanına qəltan eləmişdim. “Çi dayı” hər gəlişində mənə rəngli uşaq kitabları gətirərdi. Bir dəfə ağacdan yonulmuş qaban heykəli gətirdi. Pəncəsində anama avtoqraf yazdırmışdı. Həmin heykəl - qaban budur. İndi də saxlayıram. Atamın yazı stolunun

üstündə "Çi dayı"nın Qırmızı Bayraq ordeni alandan sonra çəkilmiş fotoşəkli qoyulmuşdu. Onu Çingiz əmi avtoqrafla atama bağışlamışdı.

Birdən-birə "Çi dayı" yoxa çıxdı. Bir müddət bizə gəlmədi. Hər dəfə mən atamdan, anamdan soruşanda ki, "Çi dayı" niyə bizə gəlmir, onlar susardılar. Mənim sualım cavabsız qalardı. Xeyli sonra mən başa düşdüm ki, o qara illərin qorxunc əli onun da yaxasından yapışıb. Çingiz İldırım cəllad Bağırovdan yaxasını qurtarmaq üçün əvvəl Maqnitoqorsk, 1934-də isə Krivoy - Roqa gedir. Amma cəllad Bağırov orda da onu axtarıb tapdırır və güllələtdirir.

Leyla xanım stolun üstündəki şəkli götürüb kədərli səslə;

- "Çi dayı"nın atama bağışladığı bu şəkil qeyri-adi bir təsadüf nəticəsində bizdə qalıb, - deyir. - Atam həbs olunanda onun kitabları, bağışlanmış şəxsi silahı, sənədləri hamısı müsadirə olundü. "Çi dayı"nın bu şəkli isə sonralar lazımsız bir kitab arasından çıxdı. Atam Çingiz İldırımdan sonra həbs olunacağını gözləyirdi. O hətta "Çi dayı" nın həbs olunmasını eşidəndə anama deyib ki, indi növbə mənimdir.

Görünür, atam bilə-bilə "Çi dayı"nın şəklini lazımsız kitabın arasına qoyub ki, ələ düşməsin.

Çingiz İldırıma bəraət veriləndən sonra bu nadir şəkil o gözəl insandan demək olar ki, yeganə yadigar idi. Bizim muzeylər bu şəklin surətini çıxartdılar. Adını daşıyan Politexnik İnstitutu qarşısındakı büst də bu şəkil əsasında qoyuldu.

İndi hər dəfə yolum Nərimanov prospektinə düşəndə o büst qarşısında istər-istəməz baş əyir, sanki canlı "Çi dayı"yla salamlaşıram.

## SOLMAYAN ŞÖHRƏT

Mən öz keçmişimə təmiz bir vicdanla,
müasirlərimin üzünə tam cəsarətlə baxıram.

Əliağa Şıxlinski,

Əliağa general təkəbbüründən əsər-
əlamət yox idi... Şıxlinski hərbi akademiyanı
bitirməsə də, fitri zəkası, praktik fəhmi
topçuluq məsələlərində ona böyük nüfuz
qazandırmışdı,

Aleksandr Stepanovun
"Zvonaryovlar ailəsi" romanından.

"İllər atını dördnala çapır, həyat öz axarında davam edir. İllər, əsrlər bir-birini əvəz etsə də, Vətən uğrunda əvəzsiz xidməti olan oğulların adı əbədi yaşayır, unudulmur. O oğulların ki, Vətənin dar günündə silaha sarılıb ana torpaq uğrunda sipər olublar.

"Bir dəfə (1906-ci ildə - Ş.N.) məni bir Avstriya topçusu ilə tanış etdilər.

- Bu Şıxlinski, məşhur Şıxlinskinin qohumu olmasın ki, - deyə o, yanındakılardan soruşdu.

Mən, həmin Şıxlinski olduğumu dedikdə, əlini mənə uzadaraq - Sizin üçbucağınız bizim bütün topçularımıza yaxşı məlumdur, - dedi.

"Manevrlərdən sonra bizim məktəbdə (1912-ci ildə Ə.Şıxlinski Çarskoye Selodakı Artilleriya Zabitləri Məktəbində müavin vəzifəsində idi - Ş.N.) ziyafət verildi. Yemək zamanı

fransız polkovniki Varlen mənim yanımda oturmuşdu. Dövlət başçılarının, rus və fransız xalqlarının, müttəfiq orduların sağlığına rəsmi tostlar deyildi. Varlen əyilib qulağıma dedi:

- Əliağa, sizin sağlığınıza!

Mənim adımı hardan bildiyinə təəccüb etdim, çünki biz birinci dəfə idi ki, görüşürdük.

Adımı hardan bildiyini soruşduqda dedi:

- Fransada sizi yaxşı tanıyırlar. Buraya gəlib topçu zabitləri məktəbinə baxaraq geri dönənlər həmişə sizdən danışırlar".

Hərb aləmində görkəmli sərkərdə, müdrik nəzəriyyəçi kimi ad-san qazanmaq hər kəsə qismət olmur. Əgər gənclikdən bu sənəti sevib-seçmisənsə, ən başlıcası Vətənə xidmət etdiyini dərk etmisənsə, onda hərbi şan-şöhrət özü sənin ayağına gələcək.

General Əliağa Şıxlinski rus ordusunda nümunəvi xidmət edən bir əsgər olaraq qalmamışdır. O, topçuluq elminin inkişafında hərbi xadim kimi də böyük nailiyyətlər qazanmışdır. Onun 1910-cu ildə Luqa şəhərində nəşr olunmuş "Səhra toplarının cəbhədə işlədilməsi" adlı sanballı əsəri və hərbi dərsliklərə salınmış "Şıxlinski üçbucağı", "Şıxlinski formulu", kəşf və ixtiraları ona şan-şöhrət gətirmiş, bir Azərbaycan oğlunun adının ən yüksək dairələrdə belə hörmətlə çəkilməsinə səbəb olmuşdur.

V.Bertels 1912-ci ildə Varşavada çap etdirdiyi "Quru qala qoşunları və ağır səhra artilleriyası tərəfindən atəş açılmasında cinahlardan istifadə edilməsi haqqında məlumatlar" kitabında onun elmi fəaliyyətinə yüksək qiymət verərək yazmışdır:

"Artilleriya atəşinin aparılmasında "Şıxlinski üçbucağı" böyük rol oynamışdır. "Üçbucağın" ətraflı şərhi və yazılışı ilk dəfə 1912-ci ildə çap olunmuşdur.

"Şıxlinski üçbucağı" təkcə rus artilleriyasında deyil, Fransa, İsveçrə, Norveç və Avstriya artilleriyasında da böyük şöhrət qazanmışdır".

Əliağa Şıxlinski artilleriya tarixində ilk dəfə toplarda gözlə görünməyən hədəfə atəş açmaq texnikasını işləyib hazırlamış və onların təkmilləşdirilməsi işinə bir sıra yeniliklər gətirmişdir.

Ömrünün qoca yaşlarında belə Şıxlinski elmi fəaliyyətindən qalmamış, Bakı qarnizonunun hərbi elmi cəmiyyətinin sədr müavini işləmişdir. "Gələcək müharibədə toplar", "Topların piyada və süvarilərlə qarşılıqlı əməliyyatı", "Topların dağlıq yerlərdə atəş xüsusiyyəti haqqında", "Alay topları haqqında" adlı hərb elmi üçün böyük əhəmiyyəti olan silsilə mühazirələr oxumuşdur.

Əliağa Şıxlinski 1928-29-cu illərdə Bakıda nəşr olunan "Hərbi bilik" jurnalında silsilə hərbi-nəzəri məqalələrlə çıxış etmişdir ("Hərbi bilik" jurnalı, 1928-ci il, № 2,8. 1929-cu il № 1,2 və s.)

Hava hədəflərini vurmaq üçün atəş qaydalarının hazırlanması, alay və batalyon toplarının yaradılması kimi gərəkli ideyaların müəllifi də general-leytenant Əliağa Şıxlinskidir.

"Rusca-azərbaycanca qısa hərbi lüğət"in də ilk yaradıcısı general-leytenant Əliağa Şıxlinskidir. Onun 1926-cı ildə "Azərbaycan hərbi redaksiyası" tərəfindən nəşr olunmuş lüğəti hərbi nizamnamələrin, hərbi elmi ədəbiyyatın tərcümə olunmasında böyük əhəmiyyət kəsb etmişdir. Eyni zamanda hərbi məktəblərdə, yenicə yaranmış ordu sıralarında xidmət edən azərbaycanlı əsgərlər lüğətdən qiymətli bir vəsait kimi istifadə etmişlər. Bütün bu əvəzsiz elmi xidmətlərinə görə general-leytenant Əliağa Şıxlinski SSRİ Hərbi İnqilab Şurasının 1928-ci il 23 fevral qərarı ilə Fəxri Fərmanla təltif olunmuşdur.

`O vaxtdan çox illər keçsə də həmin lüğət öz elmi dəyərini itirməmiş, bu günlərdə belə qiymətli bir elmi məxəz kimi alimlərin diqqətini cəlb edir.

"Azərbaycan SSR EA-nın müxbir üzvü Ə.Ə.Orucovun "Əliağa Şıxlinskinin bir əlyazması haqqında" terminoloji-leksikoloji etüdü bu gün dilimizdə işləklik qazanmış bir çox terminlərin yaranma tarixini öyrənməkdə bizə kömək edir. Həmin məqalədə təkcə hərbi terminologiyamızın deyil, həmçinin bir çox başqa elm sahələrinin inkişafına vətəndaşlıq qayğısı göstərmiş general Əliağa Şıxlinskinin maraqlı mülahizələri ilə tanış oluruq. Məlum olur ki, görkəmli hərbi mütəxəssis hələ 1941-ci ildə bir çox rus terminlərinin dilimiz üçün xarakterik olan elə qarşılıqlarını tapa bilmişdir ki, hələ də öz leksik-terminoloji əhəmiyyətini saxlamaqdadır:

qaravəlli (anektod), saxlanc (zapas-ərəb mənşəli "ehtiyat" sözünün əvəzində), pərənpozan (dezorqanizator), çıxdaş (brak) kimi sözləri bunlara misal göstərmək olar"[12].

1942-ci ildə ömrünün son günlərini yaşayan general gələcək nəsil üçün əvəzsiz bir yadigar da qoyub getmişdir. O, görkəmli filosof-alim Heydər Hüseynovun məsləhətilə xatirələrini yazmışdır. Qoca general tərəfindən diktə olunan "Xatirələrim" müəllifin ölümündən bir il sonra, 1944-cü ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı tərəfindən rus və Azərbaycan dilində çap olunmuşdur.[13]

Müdriklər haqlı deyiblər ki, tarix gələcək nəsil üçün dərslikdir.
Saf bir vicdan və böyük təvazökarlıqla yazılmış Şıxlinski xatirələrində bugünkü gənclik üçün öyrənilməli çox şey vardır. Haqlı olaraq tədqiqatçılar bu əsəri ilk sanballı memuarlardan biri hesab edirlər.

General Əliağa Şıxlinskinin "Xatirələrim"i çap olunan kimi həm mərkəzi, həm də respublika mətbuatında hərbi mütəxəssislər tərəfindən maraqlı rəylər yazılmışdır.

Dövlət mükafatı laureatı, hərb elmləri doktoru, professor Yevgeni Zaxaroviç Barsukov Ə. Şıxlinskinin "Xatirələrim"ini son dərəcə maraqlı və ibrətli əsər sayır. Kitabı böyük Vətənimizin geniş oxucu kütləsi üçün tövsiyə edir. "Qızıl Ordunun komanda heyəti onunla tanış olmalı, topçular isə onu öyrənməlidirlər" hökmünü verir.

Əliağa Şıxlinskinin "Xatirələrim" kitabını mütaliə edənlərdən biri də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin professoru Arkadi Lavroviç Sidorov olmuşdur. Bu qiymətli kitabın hərbi əhəmiyyətindən və tarixçi alimlər üçün gözəl məxəz olmasından bəhs edən professor A.Sidorov "İstoriçeskiy jurnal"ın 1945-ci ildəki üçüncü nömrəsində yazmışdır:

"Köhnə rus ordusunun son dövrünə aid yazılmış bollu xatiratla biz kifayətlənə bilmərik. Bu xatirələrin əksəriyyətini Rusiyadan qaçan, öz xatirat və qeydlərində gənc orduya qarşı öz "döyüş qəhrəmanlıqlarını" təsvir edən ağqvardiyaçı generallar yazmışlar. Onların xatirələrində bilavasitə ordu qayda-qanununa, əsgər və zabitlərin hazırlıq sisteminə aid materiallar adətən çox azdır.

Şıxlinskinin xatirələri, Oktyabr sosialist inqilabından sonra öz əlaqəsini Vətəndən və ordudan kəsməyən şəxslər tərəfindən yazılmış tarixi sənədlərdən biridir. Buna görə də Şıxlinskinin xatirələri, rus ordusunun tarixini öyrənmək üçün xüsusi bir tarixi məxəz kimi qiymətlidir. Rus-yapon müharibəsi haqqında fəslin tarixçilər üçün əhəmiyyəti daha böyükdür".

1945-ci il aprelin iyirmi altısında isə artilleriya general-leytenantı Parseqov SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının direktoruna yazırdı: "Hörmətli direktor, bu gün SSRİ EA Tarix İnstitutunun nəşri olan "İstoriçeskiy jurnal"ın üçüncü 1945-ci il nömrəsinin "Tənqid və biblioqrafiya" bölməsində Moskva Dövlət Universitetinin professoru Arkadi Sidorovun "Əliağa Şıxlinski. Mənim xatirələrim" resenziyasını oxudum. Giriş sözü Dövlət mükafatı laureatı, hərb elmləri doktoru E.Z.Barsukovundur.

Məlum olduğu kimi, Əliağa Şıxlinski qocaman artilleriya (topçu) generalıdır, onun böyük mübariz həyat təcrübəsi var. İlk dəfə mən bu general barədə iyirmi il bundan əvvəl eşitmişəm, o vaxt mən hələ Qırmızı Ordu artilleriyasının təkmilləşmə kursunda dinləyici idim.

Artıq dərəcədə Sizdən təvəqqe edirəm, xahişimi rədd etməyib mənə Əliağa Şıxlinskinin "Mənim xatirələrim" əsərinin bir nüsxəsini göndərəsiniz. Çünki biz artilleristlərə ilk növbədə artilleriyamızın şanlı tarixini bilmək üçün bu kitab əvəzsiz vasitədir".

* * *

12 N.Quliyev. "Terminologiya" məqaləsi, "Ədəbiyyat və incəsənət" qəzeti. 25 dekabr 1987-ci il.

13 Hər iki dildə təkrar çapı 1984-cü ildə olmuşdur.

Port-Artur döyüşlərində qala müdafiəsi zamanı düşmən həmlələrinin dönə-dönə dəf edilməsində top artilleriyasının mahir ustası Əliağa Şıxlinskinin döyüş xidmətləri misilsizdir. Onun 1904-1905-ci illərdəki hərbi rəşadəti bütün Rusiyaya yayılmışdı. Qəhrəmanlığı altı ordenə layiq görülən, rütbəsi kapitandan podpolkovnikə yüksələn Şıxlinski haqlı olaraq "Xatirələrim"də fəxrlə yazır: "Port-Artur epopeyasının iştirakçısı olduğumu həmişə iftixarla yad edirəm.

... Port-Arturda hərbi əməliyyat dayandıqda, yaponlar bildirdilər ki, zabitləri Vətənlərinə yalnız bir şərtlə buraxırlar ki, bundan sonra müharibədə iştirak etməyəcəklərinə dair dillərindən kağız vermiş olsunlar. Əks təqdirdə zabitlərin hamısı əsgərlər kimi hərbi əsir elan ediləcəkdir.

İmperator qalanı qəhrəmancasına müdafiə etdiyimizə görə qarnizona təşəkkür edib, zabitlərin qayıtmasına icazə verdiyini teleqrafla bildirdi. Zabitlərin çoxu dillərindən kağız verib qayıtdılar, bizim briqadanın zabitləri isə bunu özləri üçün təhqir bildilər. Mən də dilimdən kağız verməyə razı olmadım".

Yapon tibb komissiyasının verdiyi arayış generalın arxivində saxlanılır. Onun mətni belədir:

"Arayış doqquz nömrəli ehtiyat səhra qospitalından dördüncü Şərqi-Sibir atıcı artilleriyasının kapitanı Şıxlinskiyə verilir. Ondan ötrü ki, onun yapon tibb komissiyası tərəfindən hərbi xidmətə yararlı olmadığı (Şıxlinski sol qıçından yaralandığına görə yapon həkimi arayışa belə yazmışdı - Ş.N.) müəyyənləşdirilib. O, Rusiyaya buraxılır".

Yapon tibb komissiyasının onu hərbi qulluğa yararsız hesab etməsinə baxmayaraq, dilindən iltizam verməyən Əliağa Şıxlinski Vətənə qayıdandan sonra yenidən yaponlarla döyüşmək üçün Mancuriya müharibəsində iştirak etmək arzusunda olduğunu bildirir. Lakin topçu general-müfəttiş knyaz Sergey Mixayloviç "Port-Arturda çəkdiyiniz yetər, buraxmaram" - deyir və onun yenidən cəbhəyə qayıtmasına qıymır.

Onun Port-Arturdakı nümunəvi döyüş xidmətləri "İgidliyə görə" sözləri yazılmış qılınc, dördüncü dərəcəli Anna ordeninə əlavə olaraq qızıl qılınc nişanı, qılınc və bantla birgə Vladimir ordeni, üzərində "İgidliyə görə" sözləri yazılmış qızıl silah və məşhur Georgi ordeninin dördüncü dərəcəsinə layiq görülmüşdü.

Azərbaycan Tarixi Muzeyində generalın şəxsi əşyaları arasında 1908-ci il martın 5-də imperator tərəfindən təsdiq olunmuş "Port-Artur qalasının müdafiəçisi döş nişanı" saxlanılır. Onu Əliağa Şıxlinskinik ünvanına keçmiş Kvantun vilayətinin və Port-Artur şəhər sovetinin sədri A.Verşinin göndərib.

Port-Artur döyüşlərinin şahidi, yazıçı Aleksandr Stepanovun "Port-Artur" və "Zvonaryovlar ailəsi" romanları sovet ədəbiyyatının qızıl fonduna daxil olmuşdur. İndiyədək on doqquz dəfə nəşr olunan romanın tirajı milyonu keçmişdir. İngilis, fransız, macar, yapon və başqa dillərə tərcümə olunan belə bir məşhur əsərin səhifələrində (271, 350, 353 və s.) kapitan Əliağa Şıxlinskinin qəhrəmanlıq fəaliyyəti öz əksini tapmışdır.

"... İrman ədəb-ərkanla təzim edib çevrildi və otağı tərk etdi. Diviziya rəisinin yanından çıxandan sonra İrman cəld xəstəlik haqqında raport və Kondratenkoya müfəssəl məktub yazdı. Sonra isə məktubu Əliağa Şıxlinskiyə verdi və dərhal generalın yanına getməsini əmr etdi. İrman kapitana xeyir-dua verib dedi:

- Sizdən çox şey asılıdır, Əliağa.

- Narahat olmayın, Vladimir Aleksandroviç. Əliağa hələ indiyə kimi heç kəsin etimadını yerə salmayıb, ömründə satqınlıq eləməyib. Əgər Fok yeddinci diviziyanı yaponların zərbəsi altına salmaq istəyirsə o, buna nail ola bilməyəcək. Onun kələyini kəsmək və general Kondratenkoya kömək etmək üçün bütün qüvvəmi əsirgəməyəcəyəm.

Bunu deyib, Şıxlinski sıçrayıb ata mindi və dördnala çaparaq ordan uzaqlaşdı...".

SSRİ xalqlarının bir neçə dilinə tərcümə olunan bu qiymətli roman təəssüf ki, hələ də Azərbaycan mütərcimini gözləyir. Romanda təkcə Əliağa Şıxlinskinin yox, həm də general Səmədbəy Mehmandarovun komandirlik fəaliyyəti haqqında oxuduqca fəxr etməyə bilmirsən.

"... Praporşik çadırdan çıxıb öz komandasının qərar tutduğu yerə tərəf getdi. Yolda Əliağa Şıxlinski də ona qoşuldu. İrmanın tapşırığı ilə o, batareyaya baş çəkməli və indiki mövqelərindən getmək üçün onları xəbərdar etməli idi.

- Necə, artilleriya da bu sahəni tərk edir?- deyə Zvonaryov təəccübləndi.

- Fok əmr verib ki, bütün topları yığışdırmalı, mühəndislər isə səngərdəki sipərləri söküb, materiallardan mövqeyimizin başqa sahələrində istifadə etməlidir.

- Qısası, Kondratenkoya boş yer verilir ki, orada hər şeydən əvvəl yeni istehkam düzəltsin.

- Ehtimal ki, yaponlar istehkamları sökdüyümüzü görüb bizdən qabaq hücuma keçsinlər.

- Bu barədə generalı təcili xəbərdar etmək lazımdır, - Zvonaryov qərara gəldi və geri - Semyonovun qərargahına qayıtmaq istədi, lakin kapitan Əliağa Şıxlinski təklif etdi ki, ora şəxsən özü getsin.

Çox narahat olmayın. Mənim briqada komandirim polkovnik İrman qərara gəlib ki, sağ cinahdakı batareyaları Fokun əmrinin əksinə olaraq hələlik yerində saxlamaq lazımdır. Mən şəxsən polkovnik Mehmandarovla görüşəcəm. Biz onunla köhnə dostlarıq, bir-birimizi yek kəlmədən başa düşərik. Fok necə əmr verirsə versin, mənim zabit olduğum podpolkovnik Laperovun batareyası Kondratenkonun diviziyasını köməksiz qoyub getməyəcək, - deyə Şıxlinski coşmuş halda dilləndi. - Romanovskinin sağdakı batareyasından iyirmi altıncı polkun qərargahınadək cəmi üç-dörd verstdir, mən yarım saata ora çatıb lazım olan hər şeyi deyərəm. Siz isə birbaşa Yençeyevskinin yanına gedin".

Əliağa Şıxlinskinin döyüş məharətini gözləri ilə görən ikinci rus yazıçısı Trofim Borisov olmuşdur. Uzaq Şərq həyatından maraqlı elmi və bədii əsərlər yazan T.Borisov sonu faciə ilə bitən rus-yapon müharibəsi haqqında 1959-cu ildə Vladivostokda "Port-arturçular" adlı sanballı bir roman nəşr etdirmişdir. Müəllif sıravi əsgərlərin və zabitlərin döyüş yolunu özünəməxsus ustalıqla ön plana çəkir. Böyük hərarət və məhəbbətlə xalqımızın mərd oğulları Əliağa Şıxlinski və Səmədbəy Mehmandarov haqqında söhbət açır. İlk gündən Şıxlinskinin batareyasında döyüşən Trofim Borisov onun qəhrəmanlığını, xarakter və xasiyyətini daha dəqiq işıqlandırmışdır..

"Səhər saat onda batareyanın baş zabiti kapitan Əliağa Şıxlinski kazarmaya gəldi. Onun iri, uzunsov sifətinə bir qədər sivri burnu daha ciddi görkəm verirdi. Sıx bığları qalın idi, başının tükləri qabaqdan azca seyrəlmişdi. Çatma qaşları bir qədər yuxarı dartılmışdı. Qonur gözlərində sevinc işığı vardı. Balaca ağ əllərinin ağ barmaqlarını arxasında tutmuşdu. Şıxlinski hamı ilə görüşəndən sonra orduya təzəcə çağırılmışların adlarını oxudu:

- Antonov Valentin Pavloviç.

- Mən, - deyə o, cavab verdi.

- Sən azsavadlısan.

Əsgər dolaşıq sözlərlə nəsə dedi, kapitan Morozovu çağırdı..

- Sənin də savadın yoxdur. Bu necə olur? Böyük şəhərdən gəlibsən, amma heç bir təhsilin yoxdur. Siz niyə oxumayıbsınız?

Morozovun sifətinə yüngül qızartı çökdü.

Şıxlinski sıranın önündən keçib, əlində yeni çağırılmışların siyahısı olsa da, gülümsəyə-gülümsəyə bir-bir onları familiyasını, adını, atasının adını çəkdi.

- Ancaq biz gözləyir və fikirləşirdik ki, sibirlilər bizim inamımızı doğruldacaqlar... Pribaltika quberniyalarındakı və Mərkəzi Rusiyadakı savadsızlıq orada da hökm sürür. Yaxşı deyil, artilleriyaçı yaxşı biliyə malik olmalıdır. - Kapitan Şıxlinskinin sifətinə bir ciddilik çökdü. Gickahı tarıma çəkildi, ançaq gözlərində bayaqkı təbəssüm işartısı qalırdı. Təzə çağırılanlarla söhbət edə-edə onlara göstəriş verirdi: Başını düz tut, sağ çiynini əymə, - deyə kapitan Pudovkin" müraciət etdi. - Sən məhkəmə palatasında çoxmu işləyibsən? İki il? Bəs ona kimi harada işləyibsən?

- Prikazçik işləmişəm. Ancaq mənim əsas işim balıqçılıqdır.

- Sənin xəttin yaxşıdırmı?

- Mirzəliyi istəmirəm, zati-aliləri...

- Baxarıq. Bəs mirzəliyə kimi təyin edək? Özün görürsən, yazılarımızı yazmağa mirzə də lazımdır... Abramoviç Moisey İosifoviç! Sən usta-çilingərsən?..

“Yaddaşa bax, yaddaş belə olar. Siyahını bircə dəfə oxuyan kimi hamının ad-familiyasını, atasının adını necə də dəqiq yadında saxladı, - deyə Pudovkin fikrə getdi”.

Port-Arturdakı oktyabr döyüşlərində podpolkovnik Əliağa Şıxlinskinin qəhrəmanlığını əyani əks etdirən tarixi sənədlər də az deyil. 1905-ci ildə çap olunmuş “Yaponlarla müharibənin salnaməsi” almanaxının səksən birinci nömrəsinin min beş yüz yetmiş yeddinci səhifəsində bu barədə oxuyuruq:

“Müqəddəs Georgi ordenli süvari dumasının təqdimatına əsasən əlahəzrət imperator 3/1X-1905-ci il tarixdə böyük mərhəmət göstərərək, Port-Arturun müdafiəsində şücaəti ilə fərqlənmiş, 1904-cü il oktyabrın 13-dən 17-dək üç nömrəli istehkamı və bu istehkamın digər qurğularını artilleriya ilə bacarıqlı müdafiə etmiş, dördüncü Şərqi Sibir atıcı artilleriya briqadasının podpolkovniki Əliağa Şıxlinskini dördüncü dərəcəli şəhid və müzəffər Georgi ordeni ilə təltif etmişdir. Podpolkovnik Əliağa Şıxlinski bu döyüşdə böyük şücaət göstərmiş, ixtiyarında olan yarımbatareyanın nişançıları həlak olduğundan çox vaxt topları şəxsən özü tuşlayaraq düşmən artilleriyasını dəfələrlə susmağa məcbur etmiş və adı çəkilən istehkamlara yaxınlaşmağa can atan yapon piyadalarını geri oturtmuşdur...”.

General-leytenant Əliağa Şıxlinskinin birinci dünya müharibəsindəki hərbi fəaliyyəti Aleksandr Stepanovun iki hissəli “Zvonaryovlar ailəsi” romanında daha geniş işıqlandırılıb. Hələ nə rus, nə də Azərbaycan ədəbiyyatında həmyerlimizin obrazı bu əsərdəki qədər dolğun və hərtərəfli verilməyib. Bu irihəcmli romanda general Əliağa Şıxlinski mərd bir sərkərdə kimi oxucuya təqdim olunur. O, Port-Arturdakı silahdaşları ilə indi də almanlara qarşı vuruşur.

“... Bu yaxınlarda general Əliağa Şıxlinski burada olmuşdu. Siz onu Port-Arturdan tanımalısınız. İndi o, böyük knyaz Sergey Mixayloviçin sərəncamındadır.

- Şıxlinski yaxşı yadımdadır. Orada kapitan idi. Ayaqlarından ağır yaralanmışdı, odur ki, yaponlar onu Rusiyaya buraxmışdılar. Generallığında rast gəlməmişəm. Bu müddətdə dəyişib-dəyişmədiyini deyə bilmərəm. - Boreyko cavab verdi.

Koçarovski rişxəndlə:

- Sizcə belə çıxır ki, o da başqa generallar kimi ağıl sarıdan geriləyib? - dedi.

- Zati-aliləri, rəyindən daşındırmağa curət etmərəm.

- Əhsən Şıxlinskiyə, əzmkar, başbilən adamdır, həm də böyük diplomat, knyaz kimi adamla dil tapa bilib. Hə, Şıxlinski deyirdi ki, Ali komandanın qərargahı nəzdində komandanlığın gücləndirmə vasitəsi olacaq ağır artilleriya yaratmaq istəyirlər.

Boreyko:

- Yəni almanların qırx santimetrlik dəmiryol platformalarında gəzdirilən topları kimi? Belələrini Novogeorkiyevsk ətrafında uzaqdan-uzağa görmüşdüm. Özü də ən yaxşı istehkamlarımızı necə alt-üst elədiklərinin şahidi olmuşdum, - dedi.

- Yox, elə deyil! Qərb cəbhəsində bizim müttəfiqciyəzlər olmazınca güclü toplar tətbiq etmişlər, on iki düyünlü qaubitsa da, uzaqvuran toplar da. Bizlərdə də nəhəng toplardan ibarət bir sıra divizionlar yaradılır...

... Əliağa Şıxlinskidən bu barədə eşidən kimi, sizin batareyanız yadıma düşdü...

... Bir neçə gündən sonra batareya şose yolu ilə irəliləyərkən Koçarovski ilə rastlaşdı. Generalı iki zabit də müşayiət edirdi. Boreyko əvvəl onları tanıya bilmədi.

Kapitan “farağat” əmri verib atını Koçarovskiyə sarı sürdü. General yanındakı atlıya işarə etdi və Boreyko Əliağa Şıxlinskini tanıdı.

- Əliağa! - Sevincindən qışqıran Boreyko tez də özünu ələ alıb əlavə etdi. - Zati-aliləri!

- Köhnə dostlar üçün mən həmişəki kimi Əliağayam. Xahiş edirəm, elə belə də deyəsiniz.

Batareya gecələmək üçün düşərgə salanda, hər iki general yenə də Boreykoya baş çəkdilər. Boreyko Novokeorgiyevsk hadisələrini ətraflı danışdı. Şıxlinski qulaq kəsilib bloknotunda nə isə yazırdı.

- Bütün danışdıqlarınız olduqca ibrətamizdir. Komandanlığa da beləcə çatdıracağam, - deyə Şıxlinski öz mülahizələrinə yekun vurdu...”.

* * *

General Əliağa Şıxlinskidən danışanda Heydər Hüseynovun xidmətlərini unutmaq haqsızlıq olardı. “Xatirələrim”in yazılmasında ən müstəsna rolu olan ilkin şəxs Azərbaycan Elmlər Akademiysının akademiki Heydər Hüseynovdur. Qocaman generalı yaxından tanıyan Heydər Hüseynov ona köməkçi verib “Xatirələrim”i yazdırmaqla kifayətlənməmişdir. Heydər Hüseynov general Şıxlinskinin ölümündən sonra da onun xidmətlərini unutmamış, xatirəsini əziz saxlamışdır. O, respublika mərkəzi mətbuatında həm rus, həm də Azərbaycan dilində silsilə məqalələr dərc etdirib.

Heydər Hüseynov “Xəbərlər” məcmuəsinin səkkizinci nömrəsində (1945) fəxrlə yazırdı: “Əliağa Şıxlinski dünyada şöhrət qazanmış rus topçuluq elmi sahəsindəki kəşflərlə tanış olmaqla yanaşı, dil və ədəbiyyat məsələləri ilə də yaxından məşğul olurdu. O, Azərbaycan dilini təkmil bilirdi. İslah, ifadə quruluşu, yeni söz yaradıcılığı ilə ciddi məşğul olmuşdur”.

Klassik ədəbiyyatımızı gözəl bilən Şıxlinski, həm də sovet ədəbiyyatının görkəmli nümayəndələri Səməd Vurğunun, Osman Sarıvəllinin şerlərini rus dilinə tərcümə etmişdir. Səməd Vurğunun “Böyük ədib”, “Sədaqət”, Osman Sarıvəllinin Cəfər Cabbarlının ölümünə həsr etdiyi “Yaşar” şerinin tərcüməsi hələ də arxivində qalır. “Zabitin yaddaşı” dəftərindəki qeydlərdən aydın olur ki, görkəmli dramaturqumuz Cəfər Cabbarlının ölümü onu hədsiz dərəcədə kədərləndirib, onun yaradıcılığına generalın xüsusi məhəbbəti olub.

General Əliağa Şıxlinski təkğə tərcümə sahəsində deyil, bədii yaradıcılıqla da müntəzəm məşğul olmuşdur. Bu təvazökar insan onları heç vaxt dərc etdirməmişdir.

Vətəndən uzaqlarda xidmətdə olan general doğma ana dilini unutmamışdır. Onun ümumi dəftər həcmində olan şer və tərcümələrinin əlyazması Azərbaycan Tarixi Muzeyindəki şəxsi qovluğunda və Azərbaycan Elmlər Akademiyasının əlyazmaları fondunda saxlanılır. Onun həyat və məslək yoldaşı, ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanıma yazdığı “Ey sevdiyim, ey dilrüba”, məşhur rus alimi, Port-Artur qalasının qəhrəmanı vitse-admiral Stepan Osipoviç Makarovun ölümünə və qalanın yapon samuraylarına təslim olunmasına dair şerləri vardır. 1909-cu il oktyabrın iyirmi yeddisində əmisi qızı Nigar xanımla ailə həyatı quran Əliağa Şıxlinski sonralar yazırdı: “Bu dəyişiklik mənim həyatımı işıqlı bir yola, parlaq bir səadətə yönəltdi. Bir yerdə keçirmiş olduğumuz iyirmi iki illik həyatın aydın səmasında bir bulud ləkəsi belə görünmədi. Fitrətən istedadlı olan, yaxşı təhsil görmüş, mülayim xasiyyətli Nigar xanım ailə səadəti üçün yaradılmış bir qadın idi. Mən bu səadətə tam mənası ilə nail oldum. Lakin 1931-ci il avqustun on beşində Nigar xanımın ölümü mənim üçün ən ağır bir zərbə oldu. Mənim hər şeyim: həm səadətim, həm də səhhətim onunla getdi”.

Sonsuz bir məhəbbətlə sevdiyi Nigarını o ilhamla tərənnüm edirdi:

Ey sevdiyim, ey dilrüba,
Səbrim, qərarımsan mənim.
Səd mərhəba, səd mərhəba,
Nə türfə yarımsan mənim.

Görən səni ey nazənin,
Deyər: pəh-pəh, səd afərin!
Dünyada mislin yox yəqin,
Əcəb dildarımsan mənim!

Gözəl zahirdə surətin,
Gözəl batin, təbiətin.
Gözəl hər işdə qeyrətin,
Namusum, arımsan mənim.

Mənim baharda bülbülüm,
Mənim qızılca sünbülüm.

Gülşənlərdə zərif gülüm,
Bağlarda barımsan mənim.

Klassik şairimiz Molla Vəli Vidadinin nəvəsi olan general-leytenant Əliağa Şıxlinski hər iki - rus və Azərbaycan dillərində şer yazmaq, tərcümə etmək qabiliyyətinə malik olub.

Görkəmli dövlət və partiya xadimi, yazıçı, publisist Nəriman Nərimanov gənc Sovet Azərbaycanının ordu hissələrini yaratmaq üçün iki məşhur generaldan - Əliağa Şıxlinski və Səmədbəy Mehmandarovdan istifadə etmək məqsədilə V.İ.Leninə 1920-ci il avqustun birində göndərdiyi məktubunda yazırdı:

"Əziz Vladimir İliç!

Gəncə üsyanı zamanı köhnə Azərbaycan ordusunun butün zabitləri həbsə alınmışdı. Bu məktubu Sizə təqdim edən məşhur general - Mehmandarov və Şıxlinski də onların içərisində idi. Diqqətli yoxlama nəticəsində məlum oldu ki, generalların üsyanla əlaqəsi olmamışdır. Lakin mövqeyimiz sakitləşənə qədər və ümumi işimizə kömək məqsədilə biz hər halda bu qərara gəldik ki, onları qərargahda işləmək üçün Sizin sərəncamınıza göndərək, çünki onlar hərbi mütəxəssislər olmaq etibarı ilə əvəzsizdirlər. Onlardan biri Şıxlinski Nikolay ordusunda "artilleriyanın allahı" sayılırdı. Polşa cəbhəsi qurtarana qədər qoy onlar Moskvada işləsinlər, sonra sizdən xahiş edəcəyəm ki, bizim əsgəri hissələrimizi təşkil etmək üçün onları buraya göndərəsiniz. Bu müddətdə onların qayğısına qalmaq lazımdır.

Kommunist salamı ilə N.Nərimanov.

General, ömrünün son illərini Bakıda, Cəfər Cabbarlı küçəsindəki on dörd nömrəli evin iyirminci mənzilində yaşayıb. Həyat yoldaşı Nigar xanımın ölümündən sonra tənha yaşayan Şıxlinski xeyirxah və yaxşı adamlarla əhatə olunmuşdu.

Azərbaycan Dövlət Tarix muzeyinin arxivində Əliağa Şıxlinskinin yazdığı "Vəsiyyətnamə", üstündə isə belə bir qeyd var:
mən öləndən sonra açmalı. Məktubda general, doktor Bahadır Qayıbovu, onun həyat yoldaşını böyük hörmət və ehtiramla xatırlayır. Hər ikisinə Nigar xanımın ölümündən sonra ona göstərdikləri qayğı üçün intəhasız minnətdarlığını bildirir.

Akademik Heydər Hüseynov 1945-ci il aprelin iyirmisində Bahadır bəy Qayıbova tibbi-ictimai fəaliyyətinin qırx illiyi münasibətilə göndərdiyi təbrik məktubunda yazır. "Lakin mən burada Sizin Vətən və elm qarşısındakı daha böyük xidmətinizi qeyd etmək istəyirəm. Siz və Sizin həyat yoldaşınız məşhur hərbi xadim və alim, köhnə ordunun generalı Azərbaycan xalqının sadiq oqlu Əliağa Şıxlinskinin həyatının son illərini qayğı və diqqətlə əhatə etmiş və bəzəmisiniz."

Bahadır bəy Qayıbovun otuz sentyabr 1946-cı il tarixli məktubu:

Hörmətli Heydər Nəcəfoğlu!
Əlbəttə, Sizin unudulmaz Əliağa və Nigar bacı haqqındakı yazınız həmişə çox uğurlu alınır. Bəli, onları unutmaq olmaz: onların hər ikisi öz Vətənini və xalqını səmimi qəlbdən sevirdilər. Onlar yalnız təhsil aldığı rus dilini deyil, öz doğma ana dilini də əla bilirdilər.

Heç vaxt unutmaram ki, onların hər ikisinə şəxsən ana dilində təhsil verən, həmçinin Tiflisdə, Qoridə - Müəllimlər seminariyasında yüzlərlə azərbaycanlı uşağını oxudan rəhmətlik atam səbəbkardır. Rəhmətlik Nigar bacı atamdan daha çox şey əxz etmişdir: o yetkinliyində, nəinki İran klassikləri Sədi, Firdovsi, Hafiz, Cami və başqalarını oxumuş, həmçinin bütün Azərbaycan şairlərini - Xaqani, Nizami, Füzuli, Vaqif və başqalarını mütaliə etmiş, ərəb dilini öyrənmiş və ərəb ədəbiyyatı ilə də tanış idi.

Heyf ki, Siz onunla tanış deyildiniz - o, həqiqətən rus dili bir yana, bizim və fars ədəbiyyatının bilicisi idi.

Sizin dostunuz Bahadır bəy Qayıbov".

General-leytenant Əliağa Şıxlinskinin adı el qəhrəmanları Babək, Cavanşir, Koroğlu və Həzi Aslanovla yanaşı çəkilir. Haqqında çoxlu şer, poema və nəsr əsərləri yazılmışdır. Bunların arasında Sabir İbrahimovun "General Əliağa Şıxlinski" monoqrafiyası xüsusilə qiymətlidir. Şair Telman Tovuzlunun bu qanadlı misralarını el aşıqları telli saz havasında oxuyur:

Rus topunun "allahı"dı,
Şıxlinski Əliağa.
Harda adı çəkilirsə,
Ürəyimiz dönür dağa.

## LENİNQRADDA İYİRMİ İKİ GÜN

Əliağa Şıxlinski heç bir zaman mənsəb dalınca düşməmişdir, onun heç bir himayəçisi olmamışdır. Xidmətdə irəli getmək üçün o, heç bir intriqaya əl atmamışdır: mənsəb özü onun ayağına gəlmiş və o, köhnə ordunun topçuluğunda yüksək vəzifə qazanmışsa, bu cəhətdən tamamilə özünə borcludur.

Yevgeni Barsukov,
Dövlət mükafatı. laureatı, general-mayor,
hərb elmləri doktoru, professor.

Keçmiş rus ordusunun general-leytenantı, məşhur artillerist Əliaqa Şıxlinskinin adı artilleriya sənətində həmişə hörmətlə çəkilir. O, əlli ildən artıq çar ordusunda zabit kimi qulluq etmiş, Böyük Oktyabr sosialist inqilabından sonra isə özünün biliyini və böyük həyat təcrübəsini Qızıl Ordunun möhkəmlənməsinə sərf etmişdir.

Arkadi Lavroviç Sidorov,
Moskva Dövlət Universitetinin
professoru.

Leninqradın həmişə gur olan Sadovaya küçəsində qədim bir bina var. Məşhur rus yazıçısı Saltıkov-Şedrinin adını daşıyan kütləvi kitabxana burada yerləşir. Məni bu kitabxanaya məşhur general-leytenant Əliağa Şıxlinskinin inqilabdan əvvəl çıxmış kitabı və Peterburq jurnallarında dərc olunmuş məqalələri ilə tanış olmaq arzusu gətirmişdi.

Axtarışa "Rus jurnalı şöbəsi"ndən başladım. 1912-ci ildən fəaliyyətə başlayan "Artilleriya zabitləri məktəbinin xəbərləri" jurnalının elə üçüncü nömrəsində Əliağa Şıxlinskinin "Öz qoşunlarının başı üstündən top atəşi" adlı iri məqaləsi dərc olunub. Rus-yapon müharibəsindən sonra bu atəş üsulu müxtəlif fikirlərə səbəb olubmuş. Bir çoxları deyirmiş ki, hücum edən piyada qoşununu himayə etmək üçün, bəzən onun başı üstündən atmaq lazımdır. Ali rütbəli zabitlərin bir qismi bu atəş üsulunun öz qoşunlarına zərər verəcəyindən ehtiyat edir, daha doğrusu, ondan istifadə etmək istəmirdilər.

Polkovnik Əliağa Şıxlinski isə bu məqaləsində hesablama və sxemlərlə sübut edirdi ki, bu üsul, qoşunlar düzəngahda dayanıb hədəfə ancaq yüz sajen qalanda qorxuludur. “Bu məsafəyə qədər, heç bir şeydən ehtiyat etmədən atəş açmaq olar. Düşmən üzü bizə tərəf olan yamacı tutduqda, bu məsafə otuz-otuz beş sajen azalır. Düşmən bizimlə üzbəüz olan başqa bir yamacı tutduqda isə biz hücum edən hissəmizi süngü vuruşması başlayana qədər top atəşi ilə himayə edib qoruya bilərik.” Həmin jurnalın 1914-cü il fevral (22) nömrəsində “V.İ”. imzalı bir müəllif bu üsula yüksək qiymət verərək artilleristlərə tövsiyə edir ki, Port-Artur döyüşlərinin iştirakçısı Şıxlinskinin toxunduğu bu məsələni dərindən öyrənsinlər...

Bu yeniliyə dönə-dönə qayıdan jurnal özünün “Redaksiyadan” adlı qeydlərində göstərir ki, Şıxlinskinin məqaləsi topçu qoşun komandirlərinin görüşlərində böyük və əsaslı dəyişiklik yaratdı.

General-leytenant Əliağa Şıxlinski 1942-ci ildə qələmə aldığı “Xatirələrim” adlı hərbi memuarında bu barədə yazır: “Hələ 1924-cü ildə Qızıl Ordu məcmuələrinin birində bu məsələyə istinad edilmişdir. Bu cür atəşdən qorxan skeptiklər, şübhəsiz ki, indi də vardır”.

İllərin zərrəcə saraldıb-soldura bilmədiyi jurnalı yenidən vərəqləyirəm. Yüksək keyfiyyətli kağızda çap olunmuş məqalələrlə, ölkənin ayrı-ayrı hərbi dairələrində qulluq edən artilleriyaçılar haqqında verilən xəbərlərlə yanaşı Şıxlinskinin müxtəlif şəkillərinə də rast gəldim. Onun ordugahda məşq zamanı, tələbə və zabit heyətilə birgə təsvir olunmuş şəkillərini nə şəxsi arxivində, nə də qohumlarında görmüşdüm.

Jurnalın 1914-cü il fevral nömrəsində “1913-cü ildə artilleriya zabitləri məktəbinin yerinə yetirdiyi kursun hesabatı” verilib. Qırx iki səhifəlik hesabat yeddi fəsildən və bir epiloqdan ibarətdir. Onu artilleriya zabitləri məktəbinin rəisi, artilleriya generalı Aleksandr Nikolayeviç Sinitsin, məktəbin rəis müavini general-mayor Əliağa Şıxlinski və Sergeyev, hərbi təlim meydanının rəisi podpolkovnik İvanov imzalayıblar.

Jurnalın səhifələrindən öyrənirəm ki, 1913-cu ilin payızında artilleriya zabitləri məktəbinin rəisi, artilleriya-generalı A.N.Sinitsin qocalığına görə istefaya çıxır. Jurnal bu münasibətlə Sinitsinin portretini ikinci səhifədə dərc edir, haqqında böyük bir yazı verir. Əliağa Şıxlinskinin bu münasibətlə yazdığı iki bənd şer də dərc olunur.

A.N.Sinitsin istefaya çıxdıqdan sonra düz bir il (1913-cü ilin payızından 1914-cü ilin oktyabr ayına kimi - Ş.N.) artilleriya zabitləri məktəbinin rəisi vəzifəsini general-mayor Əliağa Şıxlinski aparmışdır. 1914-cü ilin oktyabr nömrəsində jurnal “Redaksiyadan” adlı məqaləsində yazır:

“Artilleriya zabitləri məktəbinin rəisi vəzifəsini ifa edən general-mayor Əliağa Şıxlinski hazırkı müharibənin iştirakçılarına məktubla müraciət edərək döyüşçülərin, artilleriyanın fəaliyyəti barədə bildiklərini təfsilatı ilə yazmalarını və lazım olan ünvana göndərmələrini xahiş etmişdir”.

1914-cü ilin dekabr nömrəsində jurnal məktəbin qırx səhifəlik illik hesabatını dərc edib. Həmin hesabatı da məktəbin rəisi vəzifəsini ifa edən general-mayor Əliağa Şıxlinski və Sergeyev, hərbi təlim meydanının rəisi podpolkovnik İvanov hazırlayıblar.

Çox keçmir ki, yuxarı dairələrdə, baş topçuluq idarəsində məktəbə təzə rəis təyin olunması məsələsi müzakirə olunur. Böyük knyaz bu vəzifəyə general-leytenant Qaitinovu məsləhət görür. Lakin o, bu işə hazır olmadığını bildirir.
Böyük knyaz cavabında deyir:

- Mən sizi ancaq bir illiyə təyin edirəm. 1914-cü ildə orduda islahat aparmaq üçün böyük proqram həyata keçiriləcək, onda siz Odessa hərbi dairəsinin topçu rəisi vəzifəsinə təyin olunacaqsınız. Məktəbə rəhbərlik isə Şıxlinskiyə tapşırılacaq. Şıxlinski məktəb müdiri müavini vəzifəsində az işlədiyinə görə hazırda hərbi məsləhətçilərimi razılığa gətirə bilmirəm.

General-leytenant Qaitinov soruşur:

- Bəs bu bir ilin ərzində mən nə edə bilərəm, əlahəzrət?

- Sizin işi yaxşı bilən Şıxlinski kimi köməkçiniz olacaqdır.

Onda icazə verin, əvvəlcə onunla danışım.

Danışın...

* * *

”Məni telefona çağırdılar. Gəldim. Həyəcanlı bir səs eşidildi.

- Salam, Əliağa, sizinlə danışan Qaitinovdur.
- Salam, Valeri Mixayloviç, mənə aid qulluğunuz?
- Mən əlahəzrətin kabinetindən danışıram. Mənə təklif edirlər ki, sizin məktəbdə müdir işləyim. Sizdən çox xahiş edirəm ki, saat beşdə ordu və donanmanın klubuna gələsiniz. Həm bir yerdə yemək yeyək, həm də məsləhətləşək.

Mən oraya getdim. Qaitinov rəhbərliyi öz üzərinə götürdü, mənim isə məşğələləri aparmağıma razı olub-olmadığımı soruşdu. Razılıq verdim. - Təşəkkür edirəm, - dedi...

Yeni müdir general-leytenant Qaitinov daima auditoriyalara baş çəkir, baş qərargah zabitlərinin rəhbərliyi altında mühazirə və taktiki məşğələlərə gəlir, lakin bu məşğələlərin gedişatına qarışmır, bunların hamısını öz müavininə (Şıxlinskiyə - Ş.N.) tapşırırdı”.

Bu kiçik epizod “Xatirələrim” kitabındandır. Şıxlinskinin dəmir yaddaşı çox şeyi olduğu kimi hifz edib saxlamışdır. Məsələn, vaxtilə (1907-ci ildə) məktəbin müdiri onu ikinci Konstantin topçu məktəbinə batareya komandirliyi vəzifəsinə namizəd göstərəndə Baş topçu idarəsinin rəisi general Kuzmin Karavayev gözlənilən təklifi rədd edərək demişdir ki, “bu vəzifəyə “tatar” (azərbaycanlı - Ş.N.) yox, rus tapmaq lazımdır.

Bütün bunlara baxmayaraq, çar hökuməti, çar ordu heyəti general Əliağa Şıxlinskinin əvəzsiz xidmətinə laqeyd qala bilməmişdir...

1912-ci ildə artilleriya məktəbinə müavin təyin edilən Şıxlinskinin müvəffəqiyyətinə sevinənlər az deyildilər. Ona Rusiyanın, hətta xarici ölkələrin adlı-sanlı topçuları təbrik teleqramları göndərmişlər. Baş qərargah Akademiyasının professoru general-mayor A.A.Neznamov yazırdı:

“Sizi və rus artilleriyasını təbrik edirəm!”.

Fransa topçu zabitləri məktəbinin müdiri Nolle isə ürək sözlərini belə ifadə eləmişdi:

“Rus topçu məktəbinin ikinci şefi (məktəb müdirinin müavini ikinci rəhbər hesab olunurdu - Ş.N.) təyin edilməyinizi eşitdim. Sizin simanızda rus artilleriyasını təbrik edirəm!”.

Jurnalın nömrələrini vərəqlədikcə məlum olur ki, əsrin əvvəllərində “Şıxlinski üçbucağı” adlı hərbi nəzəriyyə müəllifinə böyük şöhrət gətiribmiş. Bu nəzəriyyə təkcə Rusiyada dərc olunan hərbi dərsliklərə salınıb istifadə olunmurdu. Ədəbiyyatlardan məlum olur ki, “Şıxlinski üçbucağı” Fransa və Avstriyada da geniş yayılıbmış. Məsələn, Fransa topçu divizionunun komandiri mayor Laver Şıxlinski ilə söhbətlərindən birində demişdir:

“Fransaya elm üçün çox əhəmiyyətli olan xeyli material aparıram. Bunun üçün sizə minnətdaram”.

1913-cü ilin yayında general Joffre fransız ordusunun on yeddi nəfərlik zabit heyəti ilə Rusiyaya gəlir. Onlar bir neçə gün artilleriya zabitləri məktəbinin proqramı ilə maraqlanırlar.

Fransızlar qısalüləli topdan örtülü atəş üsulu ilə bir komandirin rəhbərliyi altında batareyadan necə atəş açıldığını göstərməyi xahiş edirlər. Bütün atəş üsulunun təşkilinə komandirlik Əliağa Şıxlinskiyə həvalə olunur. General Şıxlinskinin təşkil etdiyi dəqiq atəş üsulu və qısalüləli ağır top atışı fransızları heyrətdə qoyur. Onlar qısalüləli atəş üsulunu (o vaxta qədər fransızlarda qısalüləli top atəşindən istifadə olunmurmuş - Ş.N.) özlərində tətbiq etməyi elə oradaca qət edirlər.

Bir il sonra Rusiyaya gələn Fransa prezidenti Paunkare Raymon rus artilleristlərinin general Joffreyə və onun heyətinə göstərdikləri hörmət müqabilində mükafatlar gətirir. Bu mükafatların arasında generallara məxsus cəmi iki fəxri Legion ordeni də vardı. Onun biri süvari generalı Bezorazova, ikincisi isə Əliağa Şıxlinskiyə təqdim olunur.

Əliağa Şıxlinskinin hərbi və pedaqoji fəaliyyəti ilə yaxından tanış olduqda bu mahir sərkərdənin misilsiz istedadına qibtə etməyə bilmirsən.

1897-ci ildə gənc Əliağa Şıxlinski ilə söhbət edən iyirminci topçu briqadasının baş həkimi Zelenski ondan soruşur ki, belə bir istedadınız olduğu halda niyə akademiyaya getmədiniz?

Əliağa Şıxlinski isə cavabında "iş belə gətirdi" - deyə təvazökarlıqla cavab verir. Bu görüşdə iştirak edən general Baumqarten də söhbətə qoşulur: "Akademiyanı neyləyir, akademiya onun başıdır".

Doğrudan da keçmiş rus ordusunda ikinci elə bir şəxs yoxdur ki, qeyri millətdən ola-ola, ali hərbi təhsil almadan qısa bir vaxtda dörd il otuz altı gündən sonra general-mayor rütbəsinə yüksəlsin.

Əliağa Şıxlinski hərbi xidmətdə belə tez, həm də böyük sürətlə irəliləməsinin ilkin səbəbini rus-yapon müharibəsinin iştirakçısı olmasında, bir də topçu zabitləri məktəbindəki hərbi-pedaqoci fəaliyyətində görürdü.

Əliağa Şıxlinskinin 1908-ci il noyabrın 26-dan 1914-cü il iyulun 8-dək topçu zabitləri məktəbində olan elmi-pedaqoji fəaliyyəti çox yüksək qiymətləndirilmişdir. O, üçüncü dərəcəli müqəddəs Vladimir, eləcə də fransızların zabitlərə məxsus fəxri komandir Legionu ordeninə layiq görülmüşdür.

"Artilleriya zabitləri məktəbinin xəbərləri" jurnalının səhifələri, orda verilmiş ayrı-ayrı elanlar təsdiq edir ki, Əliağa Şıxlinski məktəbdə, qoşun bölmələrində və Peterburqun müxtəlif elmi yığıncaqlarında hərbi mövzuda silsilə mühazirələr oxumuşdur. Bu mühazirələr Baş qərargahın əmrilə kitabça şəklində çap olunmuşdur. Onun "Divizion miqyasında topçu manevrlərinin təşkili üçün təlimat", "Dağ və səhra artilleriyası üçün məsələ və misallar məcmuəsi", (1913-cü ildən 1916-cı ilədək üç dəfə nəşr olunub - Ş.N.) "Səhra toplarının cəbhədə işlədilməsi" və "Topçu zabitləri məktəbində podpolkovnik Şıxlinski tərəfindən oxunmuş mühazirələrin xülasəsi" kimi sanballı kitabları çap olunmuşdur. Xüsusilə, sonuncu kitab topçular arasında çox böyük şöhrət qazanmışdır. Onu da deyək ki, artilleriya zabitləri məktəbinin mətbəəsində çap olunan bu kitab məktəbə xeyli mədaxil gətirir. Həmin gəlirdən Əliağa Şıxlinskiyə qızıl pulla 500 manat müəllif haqqı verilir...

Bizə Əliağa Şıxlinskinin indiyədək bircə kitabı məlumdur. O da 1944-cü ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı tərəfindən rus və Azərbaycan dilində çap olunmuş "Xatirələrim"dir. Vəssalam. Bəs, yuxarıda adını çəkdiyimiz kitabların taleyi nə yerdədir, harda, kimdə, necə saxlanılır? Bax, bu suallara cavab tapmaq lazımdır.

## KİTAB AXTARIŞINDA

Anketlərin ağ səhifəsini doldurmaqdan yorulmurdum. Dalbadal Şıxlinskinin kitablarını sifariş verirdim. Səhərisi cavabı üçün gələndə eyni sözləri oxuyurdum. "Belə kitab yoxdur. Mənbəni dəqiqləşdirin".

Məni təəccüb bürümüşdü. Axı, müəllif özü yazır ki, belə bir kitabım çıxıb. Onu da bilirdim ki, Əliağa Şıxlinski "Xatirələrim" hərbi memuarını ancaq yaddaşına güvənib yazmışdı. Özü də səksən yaşında! "Xatirələrim"i yenidən çapa hazırlayanda düzü şübhələndim: axı ola bilməz ki, bu yaşda adam bu qədər faktı yadında saxlaya, rəqəmləri, tarixi hadisələri dəqiq deyə bilsin. Ona görə də kitabda adı çəkilən adamların familiya və rütbəsini, ayrı-ayrı hadisələri bir daha hərbi ensiklopediya ilə yoxlayıb tutuşdurdum. Zərrəcə səhv tapa bilmədim. Ona görə də mən general Əliağa Şıxlinskinin yazdığı hər bir fakta tam inamla yanaşırdım. Altıncı günü anketimə baxan növbətçi qız dedi ki, sizi biblioqrafiya fondunun baş mühafizəçisi çağırır. Dəftər-qələmimi yığışdırıb onun yanına getdim. O, məni "hücumla" qarşıladı:

- Hələ sizin kimi inad adama rast gəlməmişəm. Bütün azərbaycanlılar belədirlər?

- Xeyr, - dedim, - əlimizdə əsaslı fakt olmasa, biz heç vaxt yersiz inad göstərmərik.

- Axı sizə dönə-dönə deyirlər ki, belə bir kitab yoxdur, siz isə yenə də yazırsınız. Heç olmasa anketlərə heyfiniz gəlsin. Özünüz fikirləşin, olmayan şeyi sizə hardan və necə verə bilərik?

Mən yenə də əl çəkmədim:

- Siz inanın, - dedim, artıq beş ilə yaxındır ki, Şıxlinskinin həyat və fəaliyyəti ilə məşğul oluram. Onun rus və Azərbaycan dilində xatirələrini çapa hazırlamışam. Yazdığı yüzlərlə faktı dönə-dönə yoxlamışam, bir işıq ucu qədər yanlışlıq görməmişəm. O özü yazır ki, 1910-cu ildə Luqa şəhərində belə bir kitabım çıxıb. Özünüz fikirləşin, bundan sonra mən neyləməliyəm?

- Bilmirəm, cavan oğlan, - dedi, - onun haqqında bizdə bircə kitab var. O da Sabir İbrahimovun "General Əliağa Şıxlinski" monoqrafiyasıdır. Sizi qane edirmi? Böyük Vətən müharibəsi illərində Luqa şəhəri faşistlər tərəfindən dağıdılmışdır. Bəlkə kitab o vaxt məhv olub, bizə gəlib çatmayıb?

Kor-peşman qayıdıb oxu zalına gəldim, buraxılış vərəqəsi almaq üçün. Qəfildən ağlıma bir fikir gəldi. Təzə anket götürüb doldurdum. Kataloqda inqilabdan əvvəl Luqada nə qədər artilleriyaya aid kitab və kitabça çıxıbsa sifariş verdim. Yarım saatlıq fasilədən sonra stolumun üstündə ondan çox kitab vardı. Bir-bir vərəqləyib onların axırıncı səhifəsində verilən elanları oxudum. Üz qabığı qalın, həcmcə o qədər də böyük olmayan, 1911-ci ildə çap olunmuş "Artilleriyada səhra topları üçün məsələlər" məcmuəsinin son - yüz altmış birinci səhifəsində belə bir elanı tapdım: "Artilleriya zabitləri məktəbinin anbarına satış üçün qəbul olunmuş kitablar".

Yeddinci kitab Əliağa Şıxlinskinin "Səhra toplarının cəbhədə işlədilməsi" əsəri idi. Sevindiyimdən gözlərimə inanmadım. Dönə-dönə baxdım. Açıq-aydın yazılmışdı. "Şıxlinski Ə. 1910-cu il, qiyməti 70 qəp. Luqa şəhəri, V.M.Kuroçkinin yeni mətbəəsində çap olunub".

Ayağa qalxdım. Növbətçi qızın yanına gedib yazını ona göstərdim. Ordan birbaşa fondun baş mühafizəçisinin yanına qaçdım.

- Baxın, baxın...

Baş mühafizəçi məni sakitləşdirdi:

- Özünüzə gəlin, qoyun əməlli-başlı baxım. O, eynəyi çıxarır, oxuyur, özü də bərkdən. "Ə.Şıxlinski". Bəli, biz təslim olduq, cavan oğlan, indi bildim haradadır. - Nina Qriqoryevna, - deyə yaxınlıqdakı bir qadını səslədi. Bir baxın, bu azərbaycanlı bizi təslim etdi. Demək, belə bir kitab varmış.

Nina Qriqoryevna:

- Bu kitab olsa-olsa hərbi dərsliklər şöbəsində olacaq, dedi. Sifarişi təzələyin...

* * *

Artıq bir həftədir ki, Leninqradın bəyaz havasına oxşar binada məni bir yazı stolu gözləyir. Beş, ya da on dəqiqə, lap uzağı iyirmicə dəqiqə geçiksəm, gərək kiminsə durmağını gözləyəm. Nahara qədər də öz "isti yuvasını" tərk edən adam çox çətin tapılır. Ona görə də səhər saat doqquz tamamda kitabxananın qarşısında olmağa adət eləmişəm.

Mənə müvəqqəti verilmiş vəsiqəmi təqdim edib soruşuram.

- Zəhmət olmasa, K-9178 nömrəli sifarişi yoxlayın.

- Sizin istədiyiniz kitab tapılıb, amma bir qədər gözləməli olacaqsınız...

Yəni nə qədər?

Dəqiq deyə bilmərəm... Bəlkə bir gün, bəlkə üç gün, bəlkə bir həftə... Ona görə də hər gün gəlib yoxlamalısınız.

* * *

Leninqrad ətrafındakı iki şəhər Əliağa Şıxlinskinin hərbi fəaliyyəti ilə bağlı olub. Onlardan biri Luqa, digəri isə Çarskoye Selo (indiki Puşkin şəhəri - Ş.N.) şəhəridir. Əliağa Şıxlinski xatirələrində bu yerləri böyük məhəbbətlə yad edir. İnqilabdan əvvəl artilleriya zabitləri məktəbi Çarskoye Seloda, bütün Avropada ən nümunəvi hərbi təlim meydanı isə Luqa düzənliyində yerləşirmiş. Ona görə də fürsətdən istifadə edib Çarskoye Seloya getmək - Şıxlinskinin yaşayıb işlədiyi şəhəri görmək arzusu məni rahat buraxmırdı...

## AZƏRBAYCANLI, YOXSA POLYAK?

İstirahət günü olduğundan Litsey-muzeyə baxmağa gələnlər daha çox idi. Hava dumanlı və yağışlı olsa da, böyük növbə vardı. Şəhərin qədim və zəngin tikililəri, təkrarsız gözəlliyi" - sarı xəzəlli cökə xiyabanları, uzaqdakı dumanlı meşələr, "Səssiz" gölün cilvələnən ləpələri doğrudan da insanı valeh edir.

Yanımda dayanan eynəkli kişi əlindəki qəzeti büküb gileylənməyə başladı:

- Başa düşmürəm ki, bu boyda binaya niyə az adam buraxırlar. Ötən il də burda olmuşam, onda belə deyildi.

- Əgər ötən il olmusunuzsa, bu il nəyinizə gərəkdir? - deyə mən söhbətə qoşuldum.

- Elə deməyin. Gərək tarixə dönə-dönə baş çəkəsən... Bağışlayın, hardansınız?

- Azərbaycandanam...

- Mən də Tambovdanam. Gəlin tanış olaq: biologiya elmləri namizədiyəm.

Mən də özümü təqdim etdim. Buraya nə məqsədlə gəldiyimi dedim. O, tələsik soruşdu:

- Yaxşı, ay dost, bir dayan, Litsey hara, Azərbaycan hara? Məgər burda azərbaycanlılar da oxuyub?

Düzü, bu haqda dəqiq heç nə bilmirəm. Amma bir faktı dəqiq bilirəm ki, xalqımızın general oğlu Əliağa Şıxlinski burda, keçmiş Çarskoye Seloda xidmət edib. Mən onun sorağı ilə gəlmişəm. Vaxtdan istifadə edib Litsey-muzeyə də baxmaq istədim.

Nikolay Xaritonoviç heyrət və təəccüblə:

- Məgər general Şıxlinski sizin xalqın oğludur?

- Bəli, necə məgər?

- O ki, polyakdır. Mən acı-acı gülümsünürəm. Eyni zamanda fikirləşirəm ki, bunun günahı özümüzdədi. Biz xalqımızın şöhrətli oğlunu yaxşı tanımırıq. Üstəlik bəzi qələm sahiblərimiz yerli-yersiz ona çar generalı damğası vurublar. Elə burda, bu dar macalda, necə deyərlər, dəridən-qabıqdan çıxıb müsahibimi başa salıram ki, o, polyak deyil, azərbaycanlıdır.

Mən ona Dövlət mükafatı laureatı, general-mayor, hərb elmləri doktoru, professor Yevgeni Zaxaroviç Barsukovun sözlərini xatırladıram:

"Əliağa Şıxlinski içərisindən çıxmış olduğu Azərbaycan xalqına bütün varlığı ilə sadiq olub, onu sonsuz dərəcədə sevib, eyni zamanda bütün Rusiyanın və bütün Sovetlər ölkəsinin də qızğın bir vətənpərvəri kimi həmişə vətən yolunda canından keçməyə hazır idi".

Nikolay Xaritonoviç:

- Oxumuşam, - deyir, - onun haqqında. Mən bioloq olsam da, tarixlə maraqlanıram. Lovğalıq olmasın, az-az tarixi roman və yaxud elmi-tarixi əsər olar ki, oxumamış olam. Aleksandr Stepanovun "Port-Artur"u, "Zvonaryovlar ailəsi" romanları stol-üstü kitablarımdır. Orda kapitan Şıxlinski, general Şıxlinski qoçaq adam kimi təsvir olunur, fəxr etməyə dəyər. Təsəvvür edin ki, çar, Port-Arturda uduzan rus generallarını Stesseli, Foku, Smirnovu və başqalarını məhkəməyə verdi. Şıxlinskini isə əksinə, (1906-cı ildə - Ş.N.) məşhur Georgi ordeni ilə təltif etdi.

- Azərbaycanlı general Şıxlinski - qəsdən "azərbaycanlı" sözünü tez-tez işlədirəm ki, həmsöhbətimin yadında yaxşı qalsın, bundan sonra heç vaxt çaşmasın, - öz xatirələrini yazıb, heç şübhəsiz ki, oxumamısınız.

- Xeyr, oxumamışam. Nəsə rast gəlməyib.

- Bizim Azərbaycanda nəşr olunub. Hökmən göndərərəm...

- Yadıma düşdü, - deyə Nikolay Xaritonoviç sevinclə bildirir. Onun familiyasına "Rus artilleriyası birinci dünya müharibəsində" adlı kitabda da rast gəlmişəm. Amma yenə deyirəm, mən bu günədək onu polyak bilmişəm. İndi siz deyirsiniz azərbaycanlıdır. Bunu sübut edən əsaslı bir fakt varmı?

İlişmişdim, özü də möhkəmcə. Yaxşı ki, əl çamadanımda Əliağa Şıxlinskiyə, onun həyat yoldaşı Nigar xanıma aid materialları, fotoşəkilləri özümlə götürmüşdüm.

- Litsey-muzeydən çıxanda hara gedəcəksiniz? - deyə soruşdum. Leninqrada, orda qalıram, “Sovetski” mehmanxanasında.

- Nə xoş təsadüf, mən də orda qalıram, on üçüncü mərtəbə, on doqquzuncu otaq. Axşam qonağımsınız, ətraflı söhbət edərik...

* * *

Leninqradın və onun ətraf şəhərlərinin havasını bircə gün yağmursuz təsəvvür etmək çətindir. Çətiri olmayanlar Litsey-muzeydən çıxan kimi qaçıb özünü avtobusa salırdı. Navalçalardan tökülən aramsız yağış mərkəzi küçənin asfaltını yuya-yuya axıb Səssiz gölə qarışırdı. Gün günortadan keçmişdi. Nə hava açılırdı, nə də yağış kəsirdi. Buna baxmayaraq, dəstə-dəstə, ikibir-üçbir şəhər bağını, Yekaterina sarayının ərazisini başı çətirli gəzənlər azalmadı.

Artilleriya zabitləri məktəbini və onun arxivinin yerini soruşdum. Litsey-muzeydəki növbətçi qız dedi ki, arxivi deyə bilmərəm, amma məktəbin binası durur. Arxiv üçün şəhər muzeyinə müraciət edin. Park küçəsi ilə gedin, muzey yolun üstündədir.

Muzeydə bələdçi qız dedi ki, Əliağa Şıxlinskinin adını birinci dəfədi eşidirəm. Direktorumuz məzuniyyətdədir, amma bir yana getməyib, şəhərdədir. O, keçmiş Çarskoye-Selo və indiki Puşkin şəhəri haqqında kitab yazır, bilməmiş olmaz. İstəyirsiniz ev telefonunu verim, zəng edib soruşun. Məmnuniyyətlə razı oldum. O, - buyurun, - deyə ev telefonu, ad və familiya yazılmış balaca bir kağızı mənə verdi.

Telefona Nina Aleksandrovna Trofimovanın özü gəldi. O, Bakıdan olduğumu biləndə:

- Allah xatirinə, heç bir izahat, təqdimat lazım deyil, vaxtınız varsa, gözləyin, indi gəlirəm.

Yarım saat keçər-keçməz Nina Aleksandrovna gəlib çıxdı.

- Bağışlayın, - dedi, - bir az gecikdim, lətifəsi sizdən uzaq, bizim şəhərin yağışı üzlü qonaq kimidi, gəldi, getmək bilmir. “Bakı” sözünü eşidəndə sevindim. Bakılılara, ümumiyyətlə, azərbaycanlılara böyük hörmətim var.

Ürəyim fərəh hissiylə döyündü. Uzaqda yağışlı, soyuq bir havada xalqımızın haqqında eşitdiyim xoş söz canıma hərarət, gözümə nur gətirmişdi.

- Buyurun, eşidirəm, mənə dair qulluğunuz? - deyə Nina Aleksandrovna mehriban gözlərini mənə dikdi.

Mən nə məqsədlə gəldiyimi izah elədim. O, gülümsəyə-gülümsəyə dedi:

- Əliağa Şıxlinski general olub, özü də elə - belə general yox, ordudakı misilsiz xidmətinə görə artilleriyanın “allahı” sayılıb. - Mən onun haqqında eşitmişəm də, oxumuşam da. Amma çox təəssüf ki, onunla bağlı muzeyimizdə heç nə yoxdur, təkcə ondan yox, heç onun işlədiyi məktəbdən də bir sənəd, fotoşəkil qalmayıb. Məndə bir kitab var, 1911-ci ildə Sankt Peterburqda çap olunub. – “Çarskoye Selo” - müəllifi də Sergey Nikolayeviç Velçikovskidir. O kitabı gətirim baxaq.

Kitabın bir yerində polkovnik Şıxlinskinin adı çəkilir. Məktəb haqqında olan faktları dəftərçəmə köçürdürəm. Arxiv haqqında isə yenə də heç nə əldə edə bilmirəm.

Nina Aleksandrovna soruşur:

- Yaxşı, qonaq, belə yağışda yolun haradır?

- Məktəbə baxmaq istəyirəm.

- Gedək göstərim, mənim evim də o istiqamətdədir.

Biz məktəbin həyətinə çatdıq. İndi burada “Puşkin şəhər Ali Radiotexnika məktəbi” yerləşir. Bazar günü olduğundan rəhbər işçilərdən heç biri yoxdur. Nina Aleksandrovna xahiş edib muzeyi açdırdı. Təəssüf ki, general Əliağa Şıxlinski haqqında heç nə tapa bilmədik. Muzey əsasən 1940-cı ildən bu günlərədək olan eksponatlar əsasında qurulub. Biz siyasi işlər üzrə komissardan keçmiş məktəb zabitlərinin yaşadığı binanın yerini göstərməyi xahiş etdik. O, ikimərtəbəli bir binanı göstərdi.

“Burda məktəbin rəisi, müavinləri, əlbəttə, ailələri ilə birlikdə yaşayıblar”. “Məktəb müavininin evi”. Deməli, Şıxlinski həyat yoldaşı Nigar xanımla burda yaşayıb. 1906-cı ildən ta 1914-cü ilin yayına kimi isti ocağı, doğma evi bura olub. Burda o, gecədən keçənə kimi qərib-qərib yanan lampa işığında elmi-hərbi məqalələrini yazıb, onu bütün dünyaya tanıdan məşhur “Şıxlinski üçbucağını” tərtib edib. 1912-ci ildə Nigar xanım qışın bir ayını Tiflisdə atası evində olanda general Əliağa Şıxlinski qəribsəyərək yazmışdı:

Səni ziyarət eylərəm,
Sənə ibadət eylərəm.
Həm çox sədaqət eylərəm,
Çün son Nigarımsan mənim.

Mən aşiqin adı Əli,
Verdin bu dərsi bilməli:
Eşqindən olmuşam dəli,
Sən ahu-zarımsan mənim,

Burda, bu evdə general Şıxlinskinin həyat yoldaşı Nigar xanımın bir vaxt bişirdiyi dadlı-tamlı Şərq xörəkləri qraf Baransevi, general Sinitsini, Barsukovu, knyaz Sergey Vasilyeviçi heyran qoyub...

1914-cü ildə məktəbi yoxlamağa gələn qraf Baransev üzünü general Şıxlinskiyə tutub deyir:

- Hamı sizi tərifləyir. Həyat təcrübəmə görə əgər bir adamı tərifləyirlərsə, deməli, burda bir fırıldaq var.

On gün məktəb heyətinin işilə yaxından tanış olan yoxlama qrupu heç bir qüsur tapa bilmir. Qraf Baransev Əliağa Şıxlinskiyə nümunəvi rəhbərliyinə görə təşəkkür etmək üçün general Qaitinovla onun evinə gəlir.

“Qraf Baransev gəldi. O, son dərəcə mehriban idi. Arvadımla tanış oldu, onun əlini öpdü, sonra general Qaitinova müraciət edərək dedi:

- Mən indi inandım ki, belə bir köməkçisi olan hər cəhətdən xatircəm ola bilər.

`Görüşüb ayrılarkən qraf Nigar xanıma dedi:

- İzin verin ərinizi qucaqlayım.

Arvadım ona cavab verdi:

- Nəinki icazə verirəm, ona qarşı səmimiyyətinizə görə təşəkkür edirəm.

Qraf məni qucaqlayıb üç dəfə öpdü”.

Çarskoye Selo xatirələri general - mayor, hərb elmləri doktoru, professor Yevgeni Barsukovun da qəlbində unudulmaz izlər qoymuşdu. “1905-ci ildən 1914-cü ilə kimi mən həmişə topçu - general - müfəttiş tərəfindən taktika dərsləri vermək və qrupların təcrübi atışlarına rəhbərlik etmək üçün topçu zabitləri məktəbinə göndərilirdim. İşi ilə yaxından tanış olduğuma görə, təsdiq edə bilərəm ki, Əliağa Şıxlinski məktəbin ali akademik topçuluq təhsili görmüş bütün ştatlı rəhbərləri arasında ən görkəmlisi və ən istedadlısı idi...

Əliağa Şıxlinski arvadını sonsuz bir məhəbbətlə sevirdi, övladı yox idi. Qumara nifrət edirdi, heç bir zaman spirtli içki içməzdi. Pulla kart və başqa bir oyun oynamazdı, çox mehriban və qonaqpərvər idi. Yoldaşlarını tez-tez ləzzətli plova qonaq edərdi...”.

Mən bütün bunları Nina Aleksandrovnaya və siyasi komissara danışdım. Onlar məni heyranlıqla dinlədilər. Hiss edirdim ki, bəzi faktlara şübhə ilə yanaşırlar. Bəlkə ona görə də Nina Aleksandrovna dözə bilməyib soruşdu:

- Məgər general Şıxlinskinin həyat yoldaşı rus olmayıb?

- Xeyr, - dedim, - öz əmisi qızını - Nigar xanım Mirzə Hüseyn qızı Qayıbovanı alıb. Buyurun, baxın, bu da onun fotoşəkli. Tiflisdəki Nücabə qızlar institutunda oxuyarkən çəkilib, 1889-cu ildə çəkdirib, həmin institutu qızıl medalla bitirməsi münasibətilə. Yaxasındakı banta fikir verin. İnstitutu əla qurtaranların hamısı belə bir bantla təltif olunurdu.

Nigar xanım fransız dilini də təmiz bilirmiş.
1912-ci ilin yayında Çarskoye Seloya gələn fransız generalı Dezavye onun danışığına valeh olmuşdur. General Dezavye soruşanda ki, neçə il Parisdə yaşamısınız, o, gülümsünüb cavab vermişdir ki, heç vaxt Rusiyadan kənara çıxmamışdır. Ona təşəkkür edən general Dezavye demişdir:

- Məni heyrətə gətirdiniz, madam, öz gözəl, təmiz fransızca danışığınıza görə...

Bundan başqa Nigar xanım fars dilini də mükəmməl öyrənmişdi. Ərəb qrammatikasına isə yaxşı bələd idi.

Nigar xanımın yaxın qohumu, mərhum Zülfüqar Qayıbovun altı il əvvəl mənə söylədiyi bir əhvalatı da onlara danışdım: Bir dəfə anası ilə doğma Salahlı kəndindən Tiflisə gedən Nigar Saloğlu stansiyasında qatar gözləməli olur. Bu vaxt Qarayazı çölündən ekspedisiyadan qayıdan iki fransız da qatarın gəlməsini gözləyirmiş (Ötən əsrin sonlarında imperatorun əmrilə Qazax qəzasının Qarayazı düzündə pambıq-təcrübə plantasiyası salınmışdı - Ş.N.) Fransızlardan biri o birinə milli geyimdə olan Nigar xanımı göstərib deyir:

- Ora bax, gör türk qızı necə gözəldir, amma heyf, çox zövqsüz geyinib.

Fransızların Nigara baxıb nəsə dediklərini hiss edən anası Səadət xanım:

- Qızım, - deyir, - onlar səndən danışırlar?

- Ana, dinmə, onlar məni və geyimimi təhqir etdilər. Eybi yoxdur, bu saat cavablarını alarlar.

Qatar gəlir. Minirlər. Bir xeyli gedəndən sonra Nigar xanım çölə baxıb fransızlardan təmiz fransız dilində soruşur:

- Cənab, zəhmət olmasa, deyin görək, saat neçədir, hələ Naftulluqa çoxmu qalır?

Heyrətdə qalan fransızlar özlərini itirirlər. Dönə-dönə Nigar xanımdan və anasından üzr istəyirlər.

Şəkillərdən birini götürüb ona diqqətlə baxan Nina Aleksandrovna soruşur:

- Bu da Nigar xanımın şəklidir?

Bəli, o, həm də bizim xalqın ilk hərbi şəfqət bacısı olub.

Başımız söhbətə elə qarışmışdı ki, kursantların ətrafımıza nə vaxt yığışdıqlarını hiss eləməmişdik. Siyasi komissar irəli durub dedi:

- Görürsünüzmü, necə maraqla qulaq asırlar, vaxtınız varsa, bir az da danışın. Mən elə bilirdim inqilabdan əvvəl sizin qadınlar məktəb üzü görməyiblər, çadrada, dörd divar arasında yaşayıblar.

Mən Saltıkov-Şedrin adına kütləvi kitabxananın arxivindən əldə elədiyim "Artilleriya zabitləri məktəbinin xəbərləri" jurnalının surətini onlara göstərdim: 60-61-ci səhifədə yazılıb ki, Nigar xanım Şıxlinskaya "Qadın xeyriyyə cəmiyyəti"nin sədri seçilib. Digər bir səhifədə isə daha qırx beş qadının adı, familiyası çap olunub. Bunlar qadın cəmiyyətinin üzvləri - Nigar xanımın tabeliyində işləyənlərdir. Jurnalın yetmiş səkkizinci səhifəsində Nigar xanım Şıxlinskayanın "Dul qadınlar, yetim uşaqlar və aşağı rütbəli ailələr üçün" adlı müraciəti dərc olunub. Məqalədə göstərilir ki, hökumət müharibədə ailə başçısını itirənlərə yardım verib, təqaüd kəsməlidir...

Birinci dünya müharibəsi başlananda artilleriya zabitləri məktəbinin müdavimləri bir nəfər kimi döyüşən orduya - Vətəni qorumağa gedirlər. Onların tədris binası, kazarmaları yaralı əsgərlər üçün qospitala çevrilir. Zabit arvadları yaralı əsgərlərə yardım göstərmək üçün "Qırmızı xaç" cəmiyyətini təşkil edirlər. Nigar xanım Şıxlinskaya həmin cəmiyyətə sədr seçilir.

İmperatorun "Qırmızı xaç" cəmiyyətinin səlahiyyətli nəzarətçisi polkovnik Velçinski bir yoxlama zamanı demişdir ki, Nigar xanım Şıxlinskayanın başçılıq etdiyi xəstəxana hazırkı müharibədə fövqəladə təşkil olunmuş bütün "Qırmızı xaç" çəmiyyətinin xəstəxanaları arasında ən yaxşısıdır. Onu da xatırladaq ki, xəstəxananın rəsmi adı "Topçu zabitləri məktəbi qadın komitəsinin xəstəxanası" olmasına baxmayaraq, hörmət əlaməti olaraq hamı ona "Şıxlinskayanın xəstəxanası" deyirmiş.

General Əliağa Şıxlinskinin özü bu barədə yazır:

“Mənim arvadım həmişə xəstəxanada olurdu. Komitənin sədrliyi vəzifəsini ifa etməkdən başqa, əsgərlər üçün evlərinə” rusca, kazan tatarlarının, kazakların və başqalarının dillərində məktub yazırdı. Əsgərlər mənim arvadımı son dərəcə sevir və onu “mamaşa” - deyə çağırırdılar; tez-tez bu xəstəxanaya getdiyimdən mənə də “papaşa” deyirdilər”.

- Yəqin ki, sizə Nigar xanım Şıxlinskayanın 1914-cü ildə “Müharibəyə əzizlərini yola salan qadınlara” adlı məqaləsi də məlum deyil, - deyə mən yanımdakılara müraciət etdim.

- Xeyr, əlbəttə, məlum deyil, biz onu hardan oxuya bilərik ki?..

- Həmin müraciət - məqalə 1914-cü-ildə “Russkiy invalid” - qəzetinin dörd avqust nömrəsində çap olunub. Əlimdəki qəzeti göstərdim, - baxın, bu da onun surəti. Ana ürəyinin çırpıntıları ilə yazılmış bu məqalədə böyük vətənpərvərlik hissi var.

Nigar xanım yazır ki, döyüşçünün qadını ağlayıb sızlamaqdansa, sağlamlığını qorumalı, uşaqlarına qayğı göstərməlidir. Qoy Vətən uğrunda döyüşən ərin qulağına ailəsi, uşaqları haqqında xoş sədalar yetişsin.

- Bəs, Əliağa Şıxlinskinin, Nigar xanımın inqilaba münasibəti necə olub? - deyə, ucaboy, enlikürək bir kursant soruşur. Kursant yoldaşları gülə-gülə, ərklə ona söz atırlar ki, gör həmyerlisi ilə neçə maraqlanır...

- Ruslarda belə bir məsəl var: “Gözəl doğulma, xoşbəxt doğul”. Bu müdrik atalar sözünü həyatın bütün kəşməkəşini qoşa addımlayan general Əliağa Şıxlinskiyə və onun həyat yoldaşı Nigar xanıma aid etmək olar. Onu da etiraf etmək lazımdır ki, Nigar xanım həm gözəl, həm də xoşbəxt doğulub. Bayaq siz onun şəklini gördünüz, gözəlliyinə heyran qaldınız. Onlar həyatın bütün gözəlliyindən zəhmətləri və çalışqanlıqları bahasına tam istifadə edə biliblər.

1917-ci ildə general Şıxlinski inqilab edən xalqın tərəfinə keçir. Həmin il noyabrın on beşində Qafqaza qayıdır. Bir müddət milli diviziyanın təşkili ilə məşğul olur. 1920-ci ilin baharında XI Ordu Bakıya gələndə müsavatın daxili işlər nazirinin müavini Şəfibəy Rüstəmbəyov Əliağa Şıxlinskiyə deyir:

- Hə, cənab general, qaçmırsınız?

- Öz Vətənimdən niyə qaçım ki?

- Sizi öldürərlər.

Təmkinini pozmayan Əliağa Şıxlinski sakitcə belə cavab verir:

- Gələnlər ağıllı adamlar olsalar, məni öldürməzlər, çünki onların işlərinə yararam, axmaqlardan isə heç yerdə canını qurtara bilməzsən. Buna görə də Vətənimin mənə ehtiyacı olduğu bir zamanda onu qoyub getmərəm.

General Əliağa Şıxlinski ömrünün axırına kimi Sovet Azərbaycanına sədaqətlə qulluq edir. 1920-ci il aprelin 30-da müvəqqəti respublika hərbi-dəniz komissarının müavini təyin olunur. İnqilab komitəsinin sədri Nəriman Nərimanov 1920-ci il avqustun birində onu rəsmi məktubla Moskvaya - V.İ.Leninin sərəncamına göndərir.

N.Nərimanov yazır ki, “...mövqeyimiz sakitləşənə qədər və ümumi işimizə kömək məqsədi ilə biz hər halda bu qərara gəldik ki, onları (S.Mehmandarovu və Ə.Şıxlinski - Ş.N.) qərargahda işləmək üçün sizin sərəncamınıza göndərək, çünki onlar hərbi mütəxəssislər olmaq etibarı ilə əvəzsizdirlər. Onlardan biri. Şıxlinski rus ordusunda “artilleriyanın allahı” sayılırdı. Polşa cəbhəsi qurtarana qədər qoy onlar Moskvada işləsinlər”.

Burada o, Ali topçuluq məktəbində müəllim işləyir. 1921-ci ilin fevralında Petroqradda olan Şıxlinski topçuluq Akademiyasında mühazirələr oxuyur. Bir il sonra Nərimanovun xahişi ilə Azərbaycana qayıdır. Bakı qarnizonunun hərbi-elmi bilik cəmiyyətində topçuluqdan silsilə mühazirələr oxuyur. İlk dəfə “Rusca-azərbaycanca qısa hərbi lüğət”in yaradıcısı olur.

1923-cü ildə Bakıya gələn görkəmli sərkərdə M.V.Frunze onun elmi və hərbi fəaliyyətini yüksək qiymətləndirərək demişdir ki, burada Şıxlinski üçün fəaliyyət sahəsi çox dardır.

Danışdıqca hiss edirdim ki, kursantları da, Nina Aleksandrovnanı da, siyasi komissarın özünü də Nigar xanımın sonrakı taleyi, daha doğrusu inqilabdan sonrakı fəaliyyəti daha çox maraqlandırır. Ona görə də Əliağa Şıxlinski haqqında söhbətimə yekun vurub, Nigar xanım haqqında bildiklərimi onlara nəql etdim.

Hələ inqilabdan əvvəl Tiflisdə təşkil olunmuş "Qafqaz qadınlarının xeyriyyə cəmiyyətinə" ömürlük üzv seçilən Nigar xanım inqilabdan sonra Azərbaycan qadınlarının azadlığı və təhsili ilə xüsusi məşğul olmuşdur.

1921-ci ildə Nigar xanım "Yeni fikir" qəzetində Azərbaycan ədəbiyyatına dair sanballı bir məqalə ilə çıxış etmiş, dilin saflığını korlayan çığırdaş qələm sahiblərini tənqid atəşinə tutmuşdu. "Axır vaxtarda çox yazır və söyləyirlər ki, molla dili, kitab dili ilə yazmaq lazım deyil; yazı el, camaat diliycə yazılmalıdır ki, "hamı onu qansın". Belə sözləri oxuyanda, eşidəndə adam fikir edir ki, kişi doğru deyir, camaat dili ilə yazılsa hamı başa düşər. Amma bu doğru deyən kişinin dediyini yerinə yetirmək çox çətin işdir. Camaat dili ilə demək asandır. Amma camaat dili - "Azərbaycan oxumamış dili" hansıdır? Hamının məlumdur ki, Azərbaycan camaatı növbənöv şivədə danışır: Şəki, Şirvan, Gəncə... hər biri bir başqa şivədə, El dili ilə yazmaq istəyən hansı camaatın şivəsi ilə yazılmışdır? Məsələn: "bayır" desin, yoxsa "eşik", "külək" desin, yoxsa "yel", "necə" desin, yoxsa "hancarı", "nöşün" desin, yoxsa "niyə", "ana" desin, yoxsa "cici", "cici", "dəgil" desin, yoxsa "dögü", "deyil", "döyül" və i.a. Bu camaatın hansının şivəsində yazılsa, o birinin xoşuna gəlməyəcəkdir. Demək ki, həmişə və hər yerdə camaat söylədiyi dildə yazmaq olmaz. Hər millətin və camaatın növbənöv şivəsi vardır, amma ədəbi dili birdir. Yazan özü hər nə şivədə danışsa da, yazdığını ədəbi dildə yazır". Nigar xanım Şıxlinskaya zəngin klassik ədəbiyyatımızı, mədəni irsimizi qoruyub saxlamağı gənc nəslə tövsiyə edir, ədəbiyyatımızı, dilimizi yad ləhcələrdən təmizləməyin doğru-dürüst yolunu göstərirdi.

* * *

Çölə baxdım, qaranlıq düşmüşdü. Dərhal xatirimdən keçdi ki, görəsən, kitab tapıldımı? Sifarişlərimin cavabı indi necədi? Şəhərə çatana kimi kitabxana bağlanacaqmı? Özümə təsəlli üçün bir el məsəlini xatırladım: axşamın xeyrindən səhərin şəri yaxşıdır. Ona görə də birbaşa mehmanxanaya qayıtmağı qət elədim.

Ayrılanda Nina Aleksandrovnanı fikirli gördüm. Düzü, əvvəl ürək eləmədim soruşmağa. Nəhayət, dözə bilməyib:

- Niyə belə fikirlisiniz, Nina Aleksandrovna? - deyə soruşdum, - nəsə sözlü adama oxşayırsınız? Bəlkə mənim çıxışımda xətrinizə dəyən söz...

O, gülümsəyə-gülümsəyə başını buladı və soruşdu:

- Hər adın bir mənası var. Nigar nə deməkdir? Mənası nədir?

- Nigar, - dedim, - sevgili, şəkil kimi gözəl deməkdir.

- Onda mümkünsə, Nigar xanımın şəklinin birini yazıb mənə bağışlayın. Bircə qızım var, - dedi, - tale mənə onu qoca yaşlarımda qismət edib. Bir neçə ay olar ki, ərə vermişəm. Nəvəm qız olsa adını Nigar qoyacağam...

Nədənsə məni qəribə, kövrək bir hiss bürüdü. Özümü cəmləşdirib dedim:

- Çarskoye Seloda yetmiş il əvvəl kişi qeyrətli bir Nigar yaşayıb. Özünün şəfalı əllərilə yaralı əsgərlərə şəfa verib. Qoy gözəl Puşkin şəhəri heç vaxt Nigarsız olmasın. Sizin Nigar bizim Nigar xanımın adına layiq böyüsün, elinə-obasına gərəkli övlad olsun, - deyib xudahafizləşdim.

* * *

Leninqradda ən çox sevindiyim 1984-cü ilin bir oktyabr günü oldu. İntizarında olduğum kitab nəhayət, tapıldı. "Səhra toplarının cəbhədə işlədilməsi", müəllifi polkovnik Şıxlinski, Luqa şəhəri, 1910-cu il.

Artilleriyanın, xüsusən rus-yapon müharibəsində, səhra artilleriyasında döyuşdə istifadə olunması qaydaları konkret şəkildə işlənib hazırlanmış və elmi cəhətdən əsaslandırılmışdır. Kitab altı fəsildən ibarətdir.

Bu uğurlu gündə V.Bertelsin 1912-ci ildə Varşavada çap etdirdiyi "Quru qala qoşunları və ağır səhra artilleriyası tərəfindən atəş açılmasında artilleriya cinahlarından istifadə edilməsi

haqqında məlumatlar" kitabını əldə edib, hər ikisinin surətini çıxartdırdım. V.Bertels kitabının ikinci hissəsində polkovnik Şıxlinski "Üçbucağı"nın artilleriyada böyük, əvəzsiz əhəmiyyətindən bəhs edir: "Artilleriya atəşinin aparılmasında "Şıxlinski üçbucağı" böyük rol oynamışdır. "Üçbucağın" ətraflı şərhi və yazılışı ilk dəfə 1912-ci ildə çap olunmuşdur.

"Şıxlinski üçbucağı" təkcə rus artilleriyasında deyil" Fransa, İsveçrə, Norveç və Avstriya artilleriyasında da böyük şöhrət qazanmışdır".

## ÖMRÜN SON GÜNLƏRİ

Təbiət Əliağaya böyük bir ağıl,
müstəsna bir qabiliyyət və hərbi istedad,
mərdlik və nəcib sifətlər, Vətən müdafiəsi
üçün çox faydalı olan fəaliyyət ehtirası ilə
dolu coşğun bir enerji vermişdi.

Artilleriya professoru
Yevgeni Barsukov.

General qocalmışdı, elə qocalmışdı ki, nə gözü əməlli-başlı görürdü, nə də qulağı eşidirdi. Yerişi də o yeriş deyildi. At belində, piyada cəbhələr gəzən, batalyonlara, alaylara, orduya sərkərdəlik edən generalın indi tərpənməyə halı qalmamışdı.

Dövlətin ona verdiyi bir neçə otaqdan özü üçün ancaq birini saxlamışdı. Onda da tək-tənha yaşayırdı. Oğulsuz-qızsız, nəvəsiz-nəticəsiz. Tale onu bu nemətdən məhrum etmişdi. Həyat onun üçün hələ adiləşməmişdi. Nikbin baxışı, əzəmətli vüqarı, yaşamaq ehtirası və dərin ağlı tam üstündə idi. Kim onu küçədə, bayırda görürdüsə fəxrlə tanımayana göstərirdi: "Port-Artur qəhrəmanı Əliağa Şıxlinski!".

Bu adı o, 1906-cı ildən qazanmışdı. Hər yerdə onu belə nişan verirdilər.

... Uzaqlarda toplar dinir, tüfənglər atılır, insanlar qırılır, kəndlər, şəhərlər dağılırdı. Onun topçuluq və artilleriya haqqındakı təklifləri bu müharibədə də əsgərlərimizin köməyinə gəlirdi. Rus topçuluq elmindəki kəşflərindən, xüsusən "Şıxlinski üçbucağından" və "Şıxlinski formulu"ndan geniş istifadə olunurdu.

General isə dəmir darvaza arxasında saxlanan pələng kimi tək-tənha qalmışdı. Səksən illik ömür yolunda general, yaşamağına, dünyaya gəlməsinə zərrəcə heyfsilənmirdi. Keçmişdən söhbət düşəndə o, fəxrlə deyirdi:

- Mən öz keçmişimə sakit bir vicdanla nəzər salır və müasirlərimin gözlərinə cürətlə baxıram. - Stola söykənib qalın bığlarını eşər, xeyli sükut etdikdən sonra gülümsünən general - bu günlər də bizim ömrümüzün qocalıq çağına düşdü, - deyərdi.

Altmış ildən çox nümunəvi hərbi qulluğu ona şan-şöhrət gətirmişdi. Uzaq Şərqdəki xidməti, rus-yapon və Birinci dünya müharibələrində, Oktyabr inqilabındakı sabit fəaliyyəti bütün hərbçilərə nümunə göstərilirdi. General xidmət illərini xatırlayanda qəlbi nurla dolur, gözünə işıq gəlirdi. Sanki uzaqlarda atılan qələbə soraqlı topların səsini belə eşidirdi.

Onu yalnız tənhalıq sıxırdı. Bu anlarda dünyada ən çox sevdiyi bir adamla səssizcə danışmaq ona təsəlli verirdi. Bu adam şəkil olub divardan asılmışdı. Düz on iki ildən çox idi şəklə dönən insan onun pıçıltılarına cavab vermirdi. Onunla danışanda generalın səsi boş otaqda əks-səda verib özünə qayıdırdı.

O, özü kimi "qoca kreslo"da sakitcə əyləşmişdi. Ötən günləri qovub xəyalından, yaddaşından silmək istəyirdi. Keçmişə qayıtmaq istər-istəməz əziz Nigarını xatırlamaq demək idi. O, bunsuz keçinə bilmirdi. Bu mümkün də deyildi. Bütün xidməti boyu Nigar onunla qoşa addımlamışdı. Saysız-hesabsız əsgərlərə zərif əllərilə şəfa verib həyata qaytarmışdı. Otaq buz kimi soyumuşdu. Bayır qatı dumana bürünmüşdü. Gözəgörünməz çisəkdən nəmlənmiş asfalt parıldayırdı. Küçələrdən gediş-gəliş kəsilmişdi. Cəbhə həyatı keçirən şəhər sanki köçmüşdü.

Bayaqdan pəncərə ağzında quruyan generalın yadına Sovet məlumat bürosunun hər saat radio ilə verilən xəbərləri düşdü. Yaxasından gödəkcəsinin cibinə sallanan qədim saatın zəncirini çəkib onu işığa tutdu. Səkkizə az qalırdı. Küçədə telefon dirəyindən asılmış reproduktorun altına xeyli adam yığışmışdı. General pəncərəyə yaxın oturub, burdan aydın eşidilən cəbhə xəbərlərini dinlədi.

... Bu gün hissələrimiz Stalinqrad ətrafı döyüşlərdə faşist generalı Fridrix Paulsun və feldmarşal Fon manşteynin ordusunu darmadağın etmişdir.

İndi qələbə bizimlədir. Daha heç nəyi eşitməyən general evin içində sürətli addımlarla gəzişirdi. Qalın cod bığları sevincdən titrəyirdi. Sevincini bölüşməyə adam axtarırdı.

- Radioda son xəbərlərin oxunuşu qurtardı. Qapı döyüldü, o, cəld irəliyə addımladı. Soruşmadan qapını açdı. Cavan, yad bir adamı qapıda görüb özünu itirən kimi oldu. Gecdən-gec:

- Kimi istəyirsiniz? - deyə həyəcanla soruşdu. Qapıda dayanan cavan oğlan dedi:

- Əliağa Şıxlinski sizsinizmi?

- Bəli, buyurun içəri keçin.

Qonaq irəli bir addım atıb əl uzatdı:

-Akademiyanın elmi işçisiyəm. Məni vitse-prezident Heydər Hüseynov sizin yanınıza göndərib. Tapşırıb ki, xatirələrinizi yazmaqda sizə kömək edim.

- Yaxşı eləyib gəlmisən, oğul, düzü mənim üçün çox çətindir. Belə ki, əllərim əsir, gözüm pis görür, qulaqlarım da yaxşı eşitmir. Ancaq hafizəm, yaddaşım hələ qalıb. Hər bir hadisəni, əhvalatı gününə, hətta saatına qədər də xatırlayıram. - Sonra buz kimi soyuq, kimsəsiz otağı göstərdi: - Nə bilim, bu? şəraitdə mümkündürmü?..

Səhərisi akademik Heydər Hüseynovun özü qoca generalın görüşünə gəldi. Görkəmli alim qarşısında dayanan ucaboy, enlikürək generala heyranlıqla baxırdı. Sanki onun sağlığına inana bilmirdi. Professor Barsukovun kitablarında Əliağa Şıxlinskinin adına dönə-dönə rast gələndən sonra şəxsən alim özü elmi işçini məcbur eləmişdi ki, qapı-qapı gəzməli də olsa generalı tapmalıdır.

Alimlə general üzbəüz oturdu. Ötəri də olsa evə göz gəzdirən alim, burda kitablardan və qədim mebeldən başqa qiymətli heç nə görmədi. Ağzı yarıaçıq qalan şkafdan bir dəst general mundiri asılmışdı. General əli əsə-əsə stolun üstündəki solğun gülün əyilmiş saplağını düzəltdi. Qonaq titrək səslə:

- Yoldaş general, - dedi, - bizim Akademiya professor Yevgeni Barsukovun yenicə nəşr olunmuş əsərlərini alıb. Professor dördcildlik “Rus artilleriyası Birinci dünya müharibəsində” əsərində sizin yalnız rus topçuları arasında deyil, həm də rus ordusunun geniş dairəsində hörmət və nüfuzunuzu, Port-Artur epopeyasında son dərəcə böyük şöhrətinizi məhəbbətlə, ehtiramla xatırlayır.

Bayaqdan susan, qonağını dinləyən general təvazökarlıqla.

- Hə, - dedi, - az-çox cavanlıqda Vətən qarşısında xidmətimiz olub. Yevgeni Zaxaroviçlə təxminən iyirmi il birgə qulluq etmişik. Topçu zabitləri məktəbində, Luqa şəhərində, topçu general-müfəttişliyində işləmişik.

Heydər Hüseynov onu tapdığına uşaq kimi sevinirdi. Ürəyində özünü danlayırdı ki, xalqımızın belə şöhrətli oğullarını vaxtında itirib-axtarmırıq. Bu gün görkəmli rus professoru onun əvəzsiz xidmətlərini nahaqdan xatırlamır. Özü də ötəri yox, dönə-dönə öz elmi əsərində onun hərbi üçbucağından, Birinci dünya müharibəsindəki fəaliyyətindən ağızdolusu danışır.

O özü ilə gətirdiyi kitabı stolun üstünə qoydu. Səhifələrin arasındakı nazik kağız parçalarını götürüb dedi:

- İcazənizlə bir epizod oxuyum, yəqin ki, sizin üçün maraqlı olar.

- Buyurun, - deyib - ağır eşidən general stulunu bir az da yaxına çəkdi. Damarı çıxmış əllərini dizləri üstünə qoydu. Məmnuniyyətlə, qulaq asıram.

- “General Əliağa Şıxlinski 1916-cı ildə Krevo yaxınlığında alman mövqelərinin yarılması əməliyyatına, onuncu ordu cəbhəsində 1917-ci il iyul əməliyyatına rəhbərlik etmişdir. Əliağa Şıxlinskini həmişə ön mövqelərdə görmək olardı. O, topçu hissələrinin yerlərini

yoxlayır, onları daha düzgün yerləşdirmək üçün göstərişlər verir, döyüş əməliyyatlarını izləyir və rəhbərlik edirdi”.

Heydər Hüseynov səhifəni axıra qədər oxuyub vərəqi çevirdi. Sakitcə oturub onu dinləyən generala baxdı. Uzaq keçmişinin şan-şöhrət səsinə diqqətlə qulaq asırdı. Dumanlanmış eynəyini çıxardıb ehmallıca sildi. İri sifətindəki batıq ordları həyəcandan titrədi.

- Bu səhifədə isə sizin onuncu ordunun baş komandanı olan vaxt yazdığınız bir raportun mətni verilib.

- Maraqlıdır, mən yüzlərlə raport yazmışam. Görəsən, hansı əməliyyatdır ki, bir tarixi fakt kimi hətta kitaba düşüb? Oğul, zəhmətdən keçib, rica edirəm, onu da oxuyun, - deyə, general nəzakətlə xahiş etdi.

“Topçu hazırlığı başlandı. Müharibənin üç ili ərzində mən topçuların bu qədər gözəl əməliyyatını görməmişdim. Qoşunların əhvalı yüksəlməyə başladı. Hətta topçulara qarşı çox tələbkar olan piyadalar da razı qalmışdı. Otuz səkkizinci korpusda piyadalar hazırlığı tamamilə bitmiş hesab edib, hətta onu davam etdirmək təklifindən əl çəkdi... hissələr hücuma keçdilər, onlar düşmənin iki-üç sıra səngərini aşıb, onun batareyalarına çatdılar, düşmən toplarının nişangahlarını götürüb gətirdilər...

- Hə, yadıma gəldi, - deyib, general sinədolusu nəfəs aldı.

- Çox sağ ol, oğul...

- Hələ qurtarmamışam, yoldaş general, - deyib Heydər Hüseynov yenidən oxumağa başladı. O, generalı sevindirdiyinə özü də hədsiz dərəcədə şad olmuşdu. - Əliağa çox tələbkar və zabitəli bir komandir olmaqla bərabər, eyni zamanda xeyirxah, tabeliyində olanların qeydinə qalan bir adam idi. Onlar Əliağaya hörmət edər və onu son dərəcə sevərdilər...

- Bəsdir, oğul, bəsdir, - deyib, general alimin biləyindən tutdu. - Üzgörənlik eləyib Yevgeni Zaxaroviç məni lap ox tərifləyib.

- Zənnimcə elə xidmətiniz müqabilində də Yevgeni Zaxaroviç tərif yazıb. Amma siz nədənsə elə tərifdən qaçırsınız.

- Axı ay oğul, biz o işləri tərif naminə görməmişik. Bu hər birimizin borcu idi, onu da pis-yaxşı yerinə yetirdik.

- Yoldaş general, borca qalanda... - susdu, cəsarət eləməyib elə-belə kitabı vərəqlədi.

- Hə, buyur oğul, nəsə sözlü adama oxşayırsan, de utanıb-çəkinmə...

- Sizdən bir təvəqqem var, amma gərək yox deməyəsiniz...

- Oğul, bir de görüm, əlimdən gələn işdimi? - Kövrək-kövrək, - məgər bu əldən-ayaqdan düşmüş qoca da kiminsə işinə yarıyar.

- Yaxşı olar ki, siz də xatirələrinizi yazasınız. Sizin xatirələr bu gün də dünya ağalığı iddiasında olanlara qarşı mübarizədə ən güclü silahlardan biri olardı.

General kitabı əlinə alıb, eynəyini gözünə taxdı. Kitabın ilk səhifəsinə elə-belə göz gəzdirib:

- Ay oğul, - dedi, - dünən sizin bir elmi işçi də gəlmişdi. Ona da dedim. Bu elə çətin işdir ki, tək mən öhdəsindən gələ bilmərəm. Hərbi gimnaziyada, sonra isə Peterburqda Mixaylov adına Topçuluq Məktəbindəki təhsil illərim, rus-yapon müharibəsindəki xidmətlərim, cahan müharibəsində və inqilab illərində olan bütün hadisələr təfərrüatı ilə yaddaşımda qalıb. Bu, görünür, ömrümdə bir dəfə də olsun araq içməməyimdən, ət yeməməyimdən irəli gəlir. Ümumiyyətlə, uşaqlıqdan məndə qumara və insana məxsus olmayan əyləncələrə qarşı nifrət var. Boş vaxtımı at sürməkdə, kitab mütaliəsində keçirmişəm. Bəlkə ona görə də yaddaşdan yaxşıyam. Amma qulaqlarım və gözlərim vəfasızlıq edir. Bu da, görünür qocalıqdandır. Axı, zarafat deyil, bu yolu mən ötən əsrin ortalarından gəlirəm.

Alim sevinclə:

- Eybi yoxdur, yoldaş general, - dedi, - generalın razılıq verməyi onun hədsiz sevincinə səbəb oldu. - Mən sizə köməkçi verərəm. Hiss eləyirəm naxoşsunuz, əgər etiraz etməsəniz, sizə bir nömrəli xəstəxanda otaq da ayırardıq. Orada həm müalicə olunardınız, həm də xatirələrinizi diktə edərdiniz. O, adam gecə-gündüz sizinlə bir otaqda yaşayacaq.

- Mən etiraz etmirəm, - deyə general qocalara məxsus xoş təbəssümlə gülümsündü. - Onsuz da evdə tək-tənha darıxıram. Həkimlər mütaliəni də mənə çox gördülər. Amma bir şeyi də demək istəyirəm. Sizin o alim yoldaşın günahı nədi, sapsağlam ola-ola xəstə...

- Siz onun üçün narahat olmayın. O, özü buna ürəkdən razıdır. Başa düşür ki, bu xatirələrin hər bir epizodu xalqının azadlığı yolunda əzab-əziyyətlərə dözən, odlu səngərlərdə "Vətən uğrunda!" deyib hücuma keçən əsgər və zabitlərə hava, su qədər gərəklidir.

- Mən hazıram, - deyə general ürəkdən razılıq verdi. Gur səslə, - bir şərtlə ki, lap uşaqlıqdan başlayacağam. Çünki uşaqlırım mənim üçün çox əzizdir, - dedi. Sizə onu da xatırladım ki, kiçik bir mülkədar olan atam İsmayıl ağa Əli Qazax oğlu Şıxlinski, əsli 1537-ci ildən başlayan igid bir nəslə mənsub olub. Bizim ulu babamız Ağdolaq Məmmədağa Qazax qəzasında igidliyi ilə ad-san qazanıbmış. Onun iki oğlu olub, Böyük oğlu Şıxı çox ağıllı və sakit, kiçiyi Əli Qazax isə çox igid, amma dəlisov bir adam imiş. Mən Əli Qazaxın nəslindənəm. Əvvəllər ikisi də Qazaxlı kəndində yaşayıblar. Şıxının övladları artıb, böyüyəndə görünür, torpaq sahəsi azlıq edib. Ona görə də onlar bir qədər qərbə köçüb, biri Sınıq körpünün yanında, o biri də Kürün sahilində kənd salıblar. İndiki Şıxlı kəndləri mənim ulu babamın adını daşıyır.

- Eşitdiyimə görə sizin böyük şair Molla Vəli Vidadiyə də qohumluğunuz çatır?

Çatır yox, oğul, - general fəxrlə izah etdi. - Mənim anam Şah Yəmən xanım Vidadinin dost-doğma nəvəsidir. O dövrün bir məşhur şairi də bizim nəslin yetişdirməsidir. Kazım ağa Salik, eşitmisənmi?

- Bəli, ədəbiyyat tarixində belə bir şair var. Amma heyf ki, çox az şerləri bizə gəlib çatıb. O da Firudin bəy Köçərlinin xidməti sayəsində.

Alim hiss edirdi ki, danışmaq, o illəri xatırlamaq general üçün çətin də olsa xoşdur. Həyəcanlanmış general durub rəfdən qalın bir kitab gətirdi. Vərəqləyib istədiyi səhifəni tapdı. Kresloda əyləşib dərindən nəfəs aldı.

- Rəhmətlik Firudin bəy gör nə qədər künclərdə, bucaqlarda itib-batmaqda olan Azərbaycan şairlərinin şerlərini üzə çıxartdı. Yəqin ki, bu kitabı oxumusunuz. Görürsünüzmü, Kazım ağa Salikin, Mustafa ağa Arifin neçə şeri verilib. Ömrünü Rusiyada sürgündə keçirən mayor Mustafa ağa da bizim nəslə mənsubdur. Mustafa ağa ilə Kazım ağa deyilənə görə qardaş, ya da əmioğlu olublar. Diqtət elə, gör qürbətdə Qazaxı xatırlayan Mustafa ağa Arif Salikə nə yazır:

Bilməm noldu bizim Qazax, Şəmsəddin,
Gəlmədi onlardan bir xəbər yəqin.
Qəzayi-ilahi bu imiş həmin,
Getdi əldən o dövranlar, ağlaram!

... Söhbətləri elə tutmuşdu ki, qonaq getməyi, general isə xəstəliyini unutmuşdu. Sanki onlar bir-birini neçə illər idi tanıyıb sevirdilər. Alim ürəyində fikirləşirdi: "Hər bir xalq şübhəsiz ki, öz sərkərdəsi ilə fəxr edir. Biz isə belə sərkərdəni itirib-axtarmırıq. Vaxtilə rus artilleriyasının "allahı" sayılan, xalqımızın hərb tarixinə şanlı səhifə yaza biləcək insan Cəfər Cabbarlı adına küçənin on dörd nömrəli evində tək-tənha ölümünü gözləyir".

- Nəslinizdə sizdən əvvəl hərbçi olubmu?

- Bizim nəsil cəngavərliyi, tündməcazlığı ilə tanınıb. Ona görə də bizi qəzada "dəliqazaxlı" adlandırıblar.

Əli Qazaxoğlu nəslində birinci savadlı adam mənim atam olub. O, 1804-cü ildə Rusiya-İran müharibəsində Qazax-Dilican yolu üstündə şahzadə Abbas Mirzə qoşunlarını məğlubiyyətə uğradan süvari dəstəsinin tərkibində vuruşmuşdur. Atam İsmayıl ağa döyüşdə xüsusilə fərqlənənlər, təltif olunanlar sırasında olub.

Şıxlinskilər nəslində Avropa təhsili alan birinci adam mən olmuşam.

Atam rus dilini bilməsə də, görünür ona böyük hüsn-rəğbəti olub. Məndən iyirmi beş yaş böyük qardaşımı çar konvoyuna göndərib. Qardaşım atamdan aldığı maddi yardımla özünə müəllim tutub rus dilini öyrənir. Üç ildən sonra zabitliyə imtahan verib, süvari zabiti adını alır.

Mənə isə hərbi təhsil vermək atamın ən böyük arzusu idi. Ona görə də məni götürüb özü ilə Tiflisə apardı. Anamın əmisi oğluna - o vaxtlar çox məşhur olan, bir çox azərbaycanlının təhsil almasına yaxından kömək edən Mirzə Hüseyn Əfəndi Qayıbzadəyə tapşırdı. Həyatda tutduğun mövqeyə görə həm müəllimim həm də qayınatam Mirzə Hüseynə borcluyam.

General susdu. Gödək saqqalını fikirli-fikirli sığalladı. Qonağın sorğu-sualı onu həyatının ilk gənclik çağına qaytardığından ürəyindəki nisgili də tərpətmişdi. Saysız-hesabsız dostlarını, tanışlarını elə bil qonaq özü ilə gətirmişdi. "Qayınatam" deyəndə istər-istəməz Nigarını xatırladı. Başını söykənəcəyə dirədi. Dünyanın ağrısı-acısı onun köksünü didirdi.

- Hə, oğul, - deyəsən kitabın bir fəslini yazıb bitirdik. Alim onun bərk yorulduğunu görüb ayağa durdu. Sağollaşıb ayrıldı.

Söhbətdən sonra xeyli vaxt özünə gələ bilməyən general nahar etməyi də unutmuşdu. O, fikrə getdi. Ötən günlər onu yaman kövrəltmişdi. Diqqəti məchul bir nöqtədə ilişib qalan ev sahibi fikrən hadisələri ilbəil bir-birinin yanına düzürdü.

... 1908-ci il, iyirmi beş noyabr. Çarskoye Seloda müqəddəs Georki Pobedonosev günü bayram edilirdi. Podpolkovnik Şıxlinskiyə əla xidmətinə görə polkovnik rütbəsi verilirdi. O, onillik xidməti borcunu üç ildə yerinə yetirmişdi. Bu barədə yuxarı dairələrdə də, orduda da çox nadir bir hadisə kimi danışılırdı. Sülh vaxtı bu ağlasığmaz təltifat idi.

Əliağanı məşhur Şipka qəhrəmanı, piyada generalı Nikolay Qriqoryeviç Stoletova burda təqdim etdilər. Hərbi sovetin üzvü N.Q.Stoletov çatılmış qaşları altındakı iri mavi gözlərini Əliağaya dikib təmiz Azərbaycan dilində dedi:

- Tanışlığımıza çox məmnunam, cənab polkovnik.

Əliağa donub qaldı. Ona elə gəldi ki, qulağı səsə düşüb. Generalın qarşısında hərbi qaydada farağat dayanıb təəccüblə:

- Mən də həmçinin ... - səsi qırıldı.

Qulluğunuz necə keçir, füsunkar Qafqaz üçün darıxmırsınız?

- İşin çoxluğu bəzən buna imkan vermir. Lakin Vətən, həmişə Vətən olaraq qalır. Məgər onun üçün darıxmamaq olarmı?

- Çoxdanmı ayrılmısınız Qafqazdan?

- Artıq səkkiz ili keçir. Cənab general, icazənizlə soruşmaq istərdim, əgər sirr deyilsə, bizim dili belə təmiz kimdən öyrənmisiniz?

General gülümsünüb ərklə əlini Əliağanın çiyninə qoydu: - Bu dili mən sizinkilərdən öyrənəndə yəqin ki, sən onda uşaq idin. 1860-cı ildə Tiflisdə hərbi xidmətdə olmuşam. Sevastopol kampaniyasından sonra mənə ştabs-kapitan rütbəsi verib Qafqaz ordusunun baş qərargahına təyin etdilər. Onda cavan bir azərbaycanlı ilə tanış oldum. Bu adam ərəb, fars dilində yaxşı təhsilə malik olsa da, rus dilini çox zəif bilirdi. Bu dilə isə güclü marağı vardı. Biz onunla dostlaşdıq. Belə qərara gəldik ki, mən ona rusca, o da mənə azərbaycanca dərs keçək. Azərbaycan dilini bilməyən adam Qafqazda çətin hərəkət edə bilər. Bunu Martınov gülləsinin günahsız qurbanı, böyük şair Lermontov da etiraf etmişdir.

Onu da deyim ki, sənin Azərbaycan dilin bir neçə dəfə Şipka döyüşlərində də köməyimə çatıb. Son həmlələrin birində əsir aldığımız məşhur türk sərkərdəsi Hacı Osman Paşanı mən Azərbaycanca danışdıranda onun cözü kəlləsinə çıxdı. Dodaqaltı mızıldanıb hirslə gözlərini üzümə bərəltdi:

- Gavura satılan qafqazlı, - deyə məni təhqir etdi.

- Lütfən deyin, cənab general, o dərs aldığınız adamın adını xatırlamırsınız ki...

- Əlbəttə, xatırlayıram, Mirzə Hüseyn Əfəndi. - General ani olaraq fikrə getdi.

Əliağa Şıxlinski dərhal sevinclə soruşdu:

- Qayıbzadə, eləmi?

- Bəli, məgər siz də onu tanıyırsınız?

- Necə tanımayım. Hüseyn Əfəndi mənim anamın doğmaca əmisi oğludur. Həm də mənim qayınatamdır. Mən də ondan dərs alıb bu rütbəyə çatmışam.

- Görürsünüz, tanış çıxdıq. Bu çox yaxşı oldu. Axtarılsa siz qafqazlılar hamınız bir-birinizə qohumsunuz. Vaxtınız olanda bizə buyurun, cənab polkovnik, sizi Qafqaz çayına qonaq edərik.

- Cənab general, icazə versəydiniz mən də sizi keçmiş dostunuzun qızı Nigar xanımın bişirdiyi Qafqaz plovuna dəvət edərdim...

- Böyük məmnuniyyətlə...

Əliağa Şıxlinski Uzaq Şərqdəki xidmət illərini, Çinə səfərini, rus-yapon və Birinci dünya müharibəsindəki iştirakını, Azərbaycanda xidmətini, Nəriman Nərimanov, Əliheydər Qarayev, Frunze, Çingiz İldırım kimi dövlət xadimi və məşhur sərkərdələrlə görüşlərini xatırlayır, titrək qələmilə xırdaca qeydlər də edirdi.

O gündən unudulmuş qoca generala fərdi təqaüd kəsildi. Həkimlər həyəcanlanmamağı tapşırırdılarsa da mümkün olmurdu. Daim ön xətlərdə, müharibə meydanlarında döyüş əməliyyatlarının mahir sərkərdəsi həyəcansız danışa bilmirdi.

1943-cü ilin aprelində kitabın son səhifələrini diktə edən general vətəndaşlıq borcunu xatırlayaraq deyirdi: "İçərisindən çıxdığım xalqıma və onun özü üçün seçmiş olduğu hökumətə həmişə sədaqətlə xidmət etmişəm, edirəm və edəcəyəm."

Bütün varlığı ilə xalqını sonsuz ehtiramla sevən generala kitabının çıxmasını görmək qismət olmadı. Gələcək nəsillərə onun böyük bir əmanəti qaldı. İbrətamiz həyat yolunu, hərbi xidmətini ayna kimi göstərən məşhur "Xatirələrim" kitabı ölümündən bir il sonra işıq üzü gördü. Topçu hissələrilə tankların açıq hərəkət üsulu kimi ağıllı təklifləri düşməni məhv etməkdə döyüşçülərimizin köməyinə gəldi.

Dövlət mükafatı laureatı, hərb elmləri doktoru, artilleriya taktikası professoru Yevgeni Zaxaroviç Barsukov kitaba yazdığı müqəddimədə bunu bir daha təsdiq edirdi:

"Qızıl Ordunun artilleriyası özünün möhtəşəm qüvvəsini yaradarkən təkcə bu günün nailiyyətlərindən istifadə etməmiş, təkcə gələcəyə baxmamış, eyni zamanda keçmişdən bütün faydalı və lazım olanları da götürmüşdür. O, köhnə rus ordusunda olan ən yaxşı döyüş ənənələrini mənimsəmişdir.

Döyüş ənənələri və köhnə rus artilleriyasında yaxşı nə vardısa, hamısı general-leytenant Əliağa Şıxlinski ilə əlaqədardır"

## GENERAL SƏMƏD BƏY MEHMANDAROV

> Bizim keçmişdə başqa xalqların qibtə etmələrinə layiq böyüklərimiz çoxdur. Əgər biz istəyirik ki, gələcəkdə bizim xalqımızdan böyük şəxsiyyətlər yetişsin, həmin böyükləri müasirlərimizə, gənclərimizə yaxşı tanıtmalıyıq. Keçmişə məhəbbət gələcəyə xidmətdir.
>
> Əkrəm Cəfər
> professor

1871 - ci ildə Mehmandarovlar ailəsində şadlıq keçirilirdi. Sadıq bəy oğlunun orta təhsil alması münasibətilə Bakıda yaxın dostlarından ibarət bir məclis düzəltmişdi. Qarabağdan adlı-sanlı bəylər, yaxın qohumlar, Lənkərandan qulluq yoldaşları Sadıq bəyin sevincinə şərik olmağa gəlmişdilər. Şuşadan gələn qonaqlar özlərilə müğənni də gətirmişdilər. Müğənni füsunkar Qarabağın igidlərini, türfə gözəllərini vəsf edib məclisi əyləndirirdi. Gecədən xeyli keçənə qədər davam edən məclisdən hamı deyə-gülə dağılışdı. Uzaqdan gələn yaxın qohumlar əlavi söhbəti hələ də davam etdirirdilər. Xanı bəy sağ yanında əyləşmiş Sadıq bəyə yanakı baxıb:

- Əmioğlu, Səməd bəy ədadiyə[14] məktəbində təhsilini ikmal elədi. Biz də yığışıb onu təbrik elədik. Bəs sonrası, indi hansı ali məktəbə hazırlaşır?

Kefi kök, damağı çar Sadıq bəy bığlarına ötəri əl gəzdirib:

- Ötən il, - dedi, - özü ilə söhbətimiz belə olub ki, gimnaziyaya getsin, müəllim olsun, onu da istəməz, bəyənməz doxtur, mühəndis... Bunların hansını istərsə...

-Yaxşı bu, ötən ilin söhbəti, bəs indi, bu il nə fikirləşib?

- Bu nə sözdü, canım, fikirləşmək də ilnəndi? Nə fikirləşəcək, kişinin sözü bir olar. Nə bilim, ay qadan alım, əgər sən deyən kimidirsə, bu ilin qərarını yəqin ki, özü vermiş olar. Çağır, özündən soruş. Əmi, qardaşoğlu - siz ki, köhnə dostsunuz.

Sadıq bəy oğlunun boy-buxunu, ədəb-ərkanı ilə fəxr edirdi. İstəyirdi ki, yaxın qohumlar da onun yarlı-yaraşıqlı oğlu olmasını yaxından görsünlər.

Xanı bəy çaydan bir neçə qurtum alıb atasının yanında naz-qəmzə ilə şıltaqlıq edən Rüxsarənin saçlarını tumarladı..

- Qızım, - dedi, - get, qardaşın Səməd bəyi çağır gəlsin bura.

Səməd bəy ədəb-ərkanla salam verib stolun aşağı ucunda, qohumlarının hüzurunda müntəzir dayandı. Şuşadan gələn ağsaqqal qonaqlar olmasaydı, ötəri zarafatı olan əmisi Xanı bəylə öpüşüb görüşərdi. İçkidən xumarlanan Xanı bəy şad-xürrəm halda gülümsünür, gözünü Səməd bəydən çəkmirdi.

- Bura bax, əyə, - dedi, - yaxın gəl, bir əmin səni öpsün.

Sadıq bəy təəççüblə:

- Bay, balam, hələ görüşməmisiniz? Xanı bəy gur səslə:

- Yox - dedi, - mən gələndə soruşdum, dedilər evdə yoxdu,

- Xanı bəy zarafatla şəhadət barmağını silkələyə-silkələyə: qırışmal, gör heç əmisi ilə görüşməyə can atır? Dirsəyi ilə əmisi oğlu Sadıq bəyə yüngülvarı toxunub - ona izin ver gəlsin.

- Nə izin verəcəm, bura kimi gəlib, qoy bir-iki addım da atsın. Gəl, əminlə görüş, oğul.

Xanı bəy hər iki əlilə onun başından yapışıb alnından öpdü.

- İgidin alnından öpərlər, sən ki, ədadiyəni əla bitirdin,
demək igidsən.

Səməd bəy qollarını əmisinin boynuna dolayıb qulağına pıçıldadı:

- Mən də elə bildim qız kimi üzümdən öpəcəksən.

Xanı bəy bərkdən qəhqəhə çəkərək:

- Əyə, - dedi, - Lənkəranda[15] dünyaya gəlsən də, vallah, qarabağlısan ki, qarabağlısan... Eşq olsun sənə, qardaş oğlu....

Səməd bəy şəhadət barmağını dodaqlarının ucuna toxundurdu. Yəni ağartma, atama, qonaqlara demə işarəsi verdi.

Sadıq bəy üzə vurmasa da, onun özünə də xoş gəlirdi ki, Xanı bəy oğlu ilə böyük kimi rəftar edir. Aralarında səmimi zarafatları vardı. Bir-iki dəfə elə-belə ehtiyata əmisi oğluna demişdi ki, çox da dərinə gedib uşağı üzdən salma. Zarafatın şitişoru çıxanda, aradan pərdə götürülür, hörmət-izzət itir, axırı yaxşı nəticə vermir.

Sadıq bəy qəlyanını doldura-doldura:

- Yenə başladınız. Xanı, o sənin qulağına nə dedi ki?..

Ağır-ağır yerinə əyləşən Xanı bəy:

- Heç, özümüz bilərik, - dedi. - Gözünü Səməd bəydən çəkmədən - Yaxşı, qardaş oğlu, ədadiyəni bitirdin, yəni möhtəşəm bilik məbədinə gedən pilləkənin birini çıxdın, bəs sonrası, indi fikrin nədir, hara oxumağa gedəcəksən?

---

14 Əd a d i y ə - orta məktəb.

15 Əslən Qarabağlı olan Səməd bəy Mehmandarov 1856-cı il oktyabrın on altısında Lənkəranda varlı zadəgan ailəsində anadan olub.

Səməd bəy susurdu. Dinmək istəyirdi, ancaq atasından ehtiyat edirdi. Axşamdan özlüyündə belə fikirləşmişdi ki, arzumu əmimə təklikdə deyərəm, o da bəlkə atamı yola gətirdi. Bir ilə yaxın idi ki, qəti qərara gəlmişdi: oxumağa hərbiyyə məktəbinə gedəcək.

- Hə, dillən, oğul, qonaqları, əmini intizarda qoyma. Hara istəyirsən? Tiflis gimnaziyasına, Xarkova, yoxsa Peterburqa?.. Maşallah, özün daha böyük oğlansan. Bəlkə mühəndis olmaq istəyirsən, bəlkə təbabət elmi fikrindən keçir?

- Ata, demək olar, bütün sənətləri saydı, bircə Səməd bəyin bir ilə yaxın havası ilə uçduğu hərbi kəlməsini dilinə gətirmədi. Bu qədər ağsaqqalın yanında susmağı nəzakətsizlik sayan Səməd bəy özünü toplayıb bəy oğluna məxsus təmkinlə:

- Ata, Peterburqa, amma hərbiyyə məktəbinə getmək istəyirəm. Sadıq bəy hərbiyyə sözünü eşidib yerində qurcalandı. Təəççüb və heyrətlə:

- Hara dedin, oğul?

- Hərbiyyə məktəbinə getmək çoxdankı arzumdur. Mən ora hazırlaşmışam, ata!

Səsinin tonu dəyişmiş Xanı bəy:

- Baho, qardaş oğlu, bu nə çətin oldu. - Deyilişindən hiss olunurdu ki, əmi də narazıdır, onun hərbçi olmasına. Bu dəfə lap ciddi - Gələcəyin yolu yaman enişli-yoxuşlu oldu, qardaş oğlu. Bəri başdan yaxşı fikirləş ha...

- Bu mənim qəti qərarımdır, əmi! - deyib Səməd bəy utancaq baxışlarını yerə dikdi. Ani olaraq gözaltı atasına baxdı. Kişinin sərt sifəti qara qayış kimi tarıma çəkilmişdi. Sinəsi körük kimi qalxıb enirdi. Otaqda tam sakitlik hökm sürürdü. Xanı bəy bikef halda stəkanı götürüb bir qurtum içdi. Özü də hiss etmədən stəkan əlindən sürüşüb nəlbəkidə şaqqıldadı. Əyilib diqqətlə stəkana yandan baxdı:

- Bay sənin - dedi, - çatladı ki... - Üzünü Səməd bəyə tutub: -qardaş oğlu, gəl bunu mətbəxə apar.

- Səməd bəy otaqdan çıxanda Xanı bəy üzrxahlıq edib Sadıq bəyə təsəlli verdi:

- Əmi oğlu, - dedi - gördün, şüşə qab sındı, fikir eləmə, bəlkə xeyir elə bundadır. Uşağın arzusuna qarşı çıxma, hiss olunur ki, hərbiyyə işinə çox həvəsi var. Səməd bəy qanacaqsız uşaq deyil. Özün məndən yaxşı tanıyırsan. O sənəti sevməsə, bu qədər ağsaqqal hüzurunda deməzdi ki, bu mənim qəti qərarımdır. Allah xeyir versin...

Sadıq bəy hirslə:

-Yava-yava danışma, mənim on beş oğlum yoxdur ki, birinin də başından keçib rusa verəm.

- Rusa niyə verirsən, oxuyub qayıdacaq. Bakı, Gəncə, Tiflis qarnizonlarından birində xidmət edəcək. Xalqımızın bir silah tutan oğlu da artacaq.

- Bəs o, gecə-gündüz Nizami, Füzuli oxuyurdu. Vidadi, Vaqif şerlərini əzbərləyirdi. Fars, türk dillərinin qrammatikasını öyrənirdi. Mən də sevindim ki, oğlum müəllim olacaq, xalqına gərək olan maarif işində çalışacaq. - Sadıq bəy hirslə Rüxsarəyə:

- Get, onu çağır, bura gəlsin! - dedi.

Səməd bəy pörtmüş halda içəri girdi. Bilmirdi baxışlarını hara diksin. Yenə bayaqkı yerdə böyüklərin hüzurunda müntəzir dayandı.

- Sadıq bəy sərt və ötkəm səslə:

- Oğul, bu sənin qəti qərarındır?

- Bəli, ata...

- Axı sən onu bilirsənmi ki, sənin atan Sadıq bəyin indiyədək nə hökumət qulluğunda, nə dostlar arasında, nə də ki, evdə bir sözü iki olmayıb. Heç kəs onun sözünün qabağında söz deməyib.Bizim nəsildə indiyədək bir nəfər belə hərbçi olmayıb. Bu mənasız fikir hardan sənin ağlına gəlib? Get, fikirləş, qərarını dəyiş, - kinayə ilə, - hərbçi olacaq,... yox bir yaranal olacaq... Elə bilirsən asandı gecə-gündüz çöllərdə qalmaq? Bu nə sənətdi? Qızmar günəşdə, sərt ayazda, dizə çıxan palçıqda günlərlə, aylarla çöllərdə qalaçaqsan. Səni kimsə yoldan çıxardıb, yəqin ki, yaranal olmaq iştahan var... Dəyiş qərarını... On altı yaşın var, özünə sənət seçib, gün ağlaya bilmirsən.

- Əziz ata, ilk dəfə sözünüzdən çıxdığım üçün üzr istəyirəm. O ki qaldı yaranal olmağa... yaranal qızlardan olmur. Yaranal elə mənim kimi oğullardan olur...

Anası Böyüknənə dözə bilməyib oğluna qahmar çıxdı:

- A kişi, uşağı bu qədər danlama, özün də boş yerə hirslənib əsib-coşma. Uşaqdı, indi deyib, bəlkə səhərə, o biri günə fikrini dəyişdi.

Sadıq bəy hirslə stulunu qabağa çəkib:

- Görmürsən, deyir ki, bu mənim qəti qərarımdır. Mənimdə qəti qərarım, oğul, eşit və bil, ondan ibarətdir ki, səni heç yerə göndərməyə, nə də hərbiyyə məktəbində oxutmağa bir qəpik belə-pulum yoxdur. Xoş gəldin, get, otur evdə, un çuvalına tay ol...

- Ata, mən kor qız deyiləm ki, un çuvalına tay olam. Sizin yardımınızdan imtina edib, Peterburqa hərbiyyə məktəbinə oxumağa gedəcəm... - deyib çıxdı.

1871-ci ildə ata sözündən "çıxan", bir daha onun üzünü görməyən general Səməd bəy Mehmandarov ilk hərbi təhsil almağa belə getdi. Kaş bütün gənclər ata sözündən belə "çıxaydı".

Səməd bəy Mehmandarov haqqında yazmağı düşünəndə qeyri-ixtiyari Əliağa Şıxlinskini xatırladım. Tez-tez Şıxlinskinin "Xatirələrim"indəki ayrı-ayrı epizodlar yadıma düşürdü. Mənə elə gəlir ki, Səməd bəy Mehmandarovun ömür yolunu Əliağa Şıxlinskidən yaxşı bilən ikinci bir şəxs olmayıb. Ona görə də Şıxlinskinin əvəzsiz xatirələrinə müraciət edəcəyəm. Onlar ilk dəfə 1888-ci ildə tanış oldular. Bu dostluq 1931-ci ilin fevralına kimi - Mehmandarov dünyadan köçən günə qədər davam etdi, həmyerlilərin bu dostluğu bir neçə müharibə alovundan, inqilab tufanından keçib nəsillərə nümunə oldu.

Çox təəssüf ki, Səməd bəy Mehmandarov da Əliağa Şıxlinski kimi hərbi memuar yazmayıb. Buna otuzuncu illərin sərt abı-havası günahkardır. Onda Heydər Hüseynov kimi məşhur, xeyir-xah alim ədəbi ictimaiyyətə təzə gəlmişdi. Bizə əziz miras kimi qalan "Xatirələrim"in bəxti onda kəsdi ki, müharibə başlananda milli Azərbaycan diviziyasının yaradılması ilə bağlı məsləhətə gələn Heydər Hüseynov generalın xatirələrinin dəyərini qiymətləndirərək onu qələmə aldı. Ömrunün son günlərini yaşayan Şıxlinski də qürbətdə, səngərlərdə, palçıq və qanqarışıq cəbhə meydanlarında Səməd bəy Mehmandarovla keçirdiyi günlərini unutmayıb ona diktə etdi.

Bir hərbi xadim kimi, Səməd bəyin xidmətləri əvvəzsizdir. Hərbi sərkərdə kimi, rus hərb tarixçiləri və yazıçıları onun artilleriya sahəsindəki böyük nüfuzundan, istedadından iftixarla yazırlar. Özümüzdə isə, inqilabdan əvvəlki generallarımızdan söz düşəndə, ən az məlumata malik adam belə Şıxlinskinin və Mehmandarovun adını çəkə bilir. Etiraf etməliyik ki, son illərə qədər hər bir azərbaycanlının tanıdığı yalnız bu iki əfsanəvi general olub. Təəssüf ki, onların da adını çox vaxt qorxa-qorxa çəkmişik. Rəsmi dairələrdə isə onların - adının yanında həmişə bir neçə ağ ləkə olub: "çar generalıdı", "müsavatın hərbiyyə naziri olub", "bəy nəslinin nümayəndələri"-dir və s. Bu minvalla, yersiz damğalarla görkəmli sərkərdələrimizi unutmuşuq, lap az tədqiq etmişik. Amma qonşularımız praporşik rütbəsində olan oğlunu elə tərifləyir, haqqında o qədər yazır ki, az qala gözündə generaldan da uca olur. Halbuki, - yadların fəxrlə söhbət açdığı bu iki generalımız Port-Arturda yaponlara, Birinci dünya müharibəsində almanlara qarşı vuruşaraq ulu babalarımızdan gələn döyüş ənənələrini bütün dünyaya yaymışlar. Birinə "artilleriyanın allahı" fəxri adı, o birinə isə müqəddəs Georgi ordeninin bütün dörd dərəcəsi verilib. Böyük imperiyanın minlərlə generalları arasında onların da öz yeri olub.

Əliağa Şıxlinskinin aydan arı, sudan duru xatirələrindən məlum olur ki, podpolkovnik Mehmandarov ilk dəfə 1900-cü il avqustun üçündə çinlilərə qarşı vuruşmada ad-san qazanmışdır. Uzaq Şərqə hərbi xidmətə gələn gənc zabit Şıxlinski həmin ili Nerçinsk şəhərində düşərgə salmış Zabaykal topçu divizionunda həmyerlisi ilə görüşünü sevinclə qeyd edir: "Divizion iki batareyadan ibarət idi: birincisinə podpolkovnik Enqelman, ikinci batareyaya isə mənim həmyerlim və köhnə tanışım podpolkovnik Səməd bəy Mehmandarov komandanlıq edirdi".

Şıxlinskinin xatirələrindən aydın olur ki, o, həmyerlisi ilə fəxr edirmiş. Bu da təsadüfi deyildi. Axı, hərbin sərt qanunlarına, ciddi nizam-intizama baxmayaraq, kinayə ilə "aziat" deyilən bir millətin cavan zabit oğlu az müddətdə Rusiyanın ikinci və üçüncü dərəcəli

“Müqəddəs Stanislav”, ikinci dərəcəli “Müqəddəs Anna”, üçüncü dərəcəli “Müqəddəs Vladimir”, sərkərdələrə məxsus “İgidliyə görə” (qızıl qılıncla birgə) ali ordenləri ilə təltif olunmuşdur.

1875-ci ildə Peterburqdakı Konstantin yunkerlər məktəbini bitirən Səməd bəy hərbiyə olan güclü marağı və fitri istedadı sayəsində bir il keçməmiş podporuçik rütbəsi ilə təltif olunur. Xidmətdə çox sürətlə irəliləyən Mehmandarov, yeni əsrin başlamasına iki il qalmış podpolkovnik idi. Bir az əvvələ qayıtsaq görərik ki, cəmi iki il Varşava hərbi dairəsində xidmət edən mayor Səməd bəy Mehmandarov şəhər hərbi məhkəməsinin üzvü seçilib.

Əliağa Şıxlinski bunları bilirdi və həmyerlisinin Uzaq Şərqdə çinlilərlə döyüşdəki məharəti ilə haqlı olaraq fəxr edirdi.

Zabaykal topçu divizionunun batareya komandiri Mehmandarov tapşırıq almışdı ki, Kiçik Xinqan dağ silsiləsini düşməndən müdafiə etsin. Komandir üç sıra səngər qurdurdu. Silsilənin coğrafi şəraiti çılpaq təpələrdən ibarət olduğuna görə batareya düşmənin atəşi altında özünə mövqe tutmalı idi. Özgə çıxış yolu yox idi. Bura topların qurulması, topçuların əl-qol açması üçün münasib deyildi. Batareya döyüşə hazır olan anda Zabaykal vilayətinin rəisi, general-mayor Rennenkampf əmr verdi ki çinli əsgərlər Sisikara şəhərindən çıxır, onlara atəş açın. Bu vaxt silahsız, hərbi paltarda, iki dəstə düşmən əsgərləri təntənə ilə şəhərdən çıxmağa başladı. General nə qədər qışqırıb bağırdısa, Mehmandarov silahsız adamlara atəş açmadı.

Bu əhvalatın canlı şahidi Əliağa Şıxlinski olub. O yazır, ki, bu hadisəyə görə general Rennenkampfla Mehmandarov arasında ciddi münaqişə oldu. General Rennenkampf Mehmandarovu hədələyərək dedi ki, əmri yerinə yetirmədiyinə görə, batareya komandirliyindən çıxarılıb məhkəməyə veriləcəksən. Mehmandarov isə silahsız adamlara atəş açmağı qəti rədd etdi. O, şəhərdən çıxan çinlilərin başı üstündən atəş açdırıb onları geri qaytardı. Sisikara şəhərində bir nəfərin belə qanı axıdılmayıb bağırdısa, Mehmandarov silahsız adamla atəş açmadı.

... Polkovnik Səməd bəy Mehmandarovun artilleriya divizionu 1902-ci ildə Mancuriya ərazisində öz xidməti borcunu yerinə yetirirdi. Komandanlıq ona mühüm bir tapşırıq vermişdi: Siyan-Sin rayonunda yapon agentləri - xunxuzların quldur dəstələrini ləğv etmək. Az bir müddətdə quldur dəstələrini ləğv edən polkovnik Mehmandarovun divizionu onların başçısı, xunxuz generalı Çembeyinin özünü də əsir aldı. Həmin əməliyyatlardakı əla döyüş xidmətlərinə görə komandir Səməd bəy Mehmandarov üçüncü dərəcəli “Müqəddəs Vladimir” ordeni ilə təltif olundu.

1903-cü ilin əvvəllərində Mehmandarov altı aylıq məzuniyyət alıb Peterburqa qayıdır. Jitomirli Yelizaveta Nikolayevna Teslavla ilə ailə həyatı qurur. Yeddi aylıq topçu zabitləri məktəbində təhsilini davam etdirir.

Əliağa Şıxlinskinin xatirələrindən:

“Mehmandarov bizdən ayrı olduğu bu müddətdə batareyaya mən komandanlıq edirdim. O, hissəmizə qayıdanda həyata keçirdiyim bütün tədbirlərlə tanış oldu, çox razı qaldı... batareyanı qəbul edərkən bütün dəftərlərə və pulun qəbul edilməsi aktına qol çəkdi. Amma pulları saymadı. Mən təəccüb edərək, pulları niyə saymadığını soruşduqda, gülümsəyərək:

- Siz ki, saymısınız, - dedi - mənim saymağıma ehtiyac yoxdur.

Mehmandarov həmişə kefi saz olanda etdiyi kimi, indi də papağını yan qoyaraq, açarı cibinə qoydu və evinə getdi. Kiçik rütbəli yoldaşlarım bu işə çox təəccüb etdilər. Çünki onlar komandirimizin dövlət pulu üçün necə can yandırdığını yaxşı bilirdilər. Mən onlara başa saldım ki, Mehmandarov kimi adamlar, adama bir dəfəlik inanırlar. Məni isə Səməd bəy Mehmandarov 1888-ci ildən tanıyır”.

## PORT-ARTUR DÖYÜŞLƏRİNDƏ

1904-cü ildə rus-yapon müharibəsi başlananda Səməd bəy Mehmandarovun qırx səkkiz yaşı vardı. Yelizaveta Nikolayevna ilə evlənmələrinin bir ili tamam olmamışdı. Yelizaveta Kiyev

qadın gimnaziyasını bitirmişdi. Port-Artur hərbi səhra xastəxanasında şəfqət bacısı işləyirdi. - Səməd bəy kimi, o da zadəgan nəslindən idi. İyirmi bir yaşlı - Yelizavetaya həyat, elə bil anadan olandan səbir dərsi keçmişdi. O, nə ağır hərb işinə, nə də yaralı əsgərlərə qarşı laqeyd deyildi. Zadəganlara məxsus sadəliklə Yelizaveta əsgərlərlə çox mehriban davranırdı. Yaralıları müalicə edir, savadsız olanların ailəsinə məktub yazır, müharibə çətinliyinə səbirlə, dəyanətlə dözürdü.

Bir dəfə Səməd bəy ona deyir: - Komandanlıqdan sənin Peterburqa qayıtmağına icazə almışam. Hazırlıq gör, sabah, ya da birisi gün səni yola salacam.

Ərinin üzünə şax baxan Yelizaveta:

- Səməd bəy, - demişdi, - ölkədə müharibə gedirsə, səncə əsgərin yeri harada olmalıdır?

- Əlbəttə, cəbhədə!

- Bax, mən də cəbhədəyəm, yoxsa məni qadın görüb əsgər olmağıma şübhə edirsən?

- Axı, sən ana olmağa...

- Bir də bu söhbətə qayıtmayaq. Söz verirsən... Bu mövzudan vaz keçək, əzizim! Sənsiz mənə Peterburq yox, heç Paris də lazım deyil.

Yanvarın iyirmi altısında gecə yaponlar rusların Port-Artur limanında dayanan eskadrasına hücum edib, "Retvizan", "Sesareviç" zirehli gəmilərini və "Pallada" kreyserini yandırdılar. Müharibə başlandı. Səhərisi, Səməd bəy Mehmandarovu yeddinci Sibir atıcı topçu divizionun komandiri təyin etdilər. Bu quru qoşunlarının komandanı, general-mayor Roman Kondratenkonun əmri idi. Roman İsidoroviç, Mehmandarvun döyüşdə dəyanətinə, komandirlik bacarığına yaxşı bələd idi. Məhz ona görə də Səməd bəyi Şərq cəbhəsinin rəisi təyin etdi. Bura, Port-Artur müdafiəsində ən mühüm cəbhə hesab olunurdu. Yaponlar ən güclü qüvvəni də buraya yeritmişdilər. Onlar şiddətli həmlələr edir və arası kəsilmədən bombalar yağdırırdılar. Polkovnik Səməd bəy Mehmandarov komandan Kondratenkonun ən yaxın köməkçilərindən biri idi. Topçuların əməliyyatına bacarıqla rəhbərlik edən Mehmandarov qala mühasirədə olanda həmişə ön mövqelərdə və çox təhlükəli yerlərdə sərrast atəşlə samurayların hücumunu dəf edirdi.

Səməd bəy Mehmandarovun ən təhlükəli döyüşdə belə özünü itirmədiyinin şahidi olan Əliağa Şıxlinski yazır ki, oktyabrın on dördündə qala top atəşinə tutulan zaman Səməd bəy Mehmandarov mənim mövqeyimə gəldi. Həmin mövqe yaponlar tərəfindən on bir düyməli topdan, otuz yeddi millimetrlik xırda dəniz topuna qədər müxtəlif toplarla atəşə tutulmuşdu. Həm də bu mövqe yaponların tüfəng və pulemyot atəşi altında idi. Bu zaman Mehmandarovun yaxınlığında altıdüymə mərmi partladı və yerdən qalxan qara palçıq onun üstünü buladı, amma yaralanmadı.

Mehmandarov buna əsla əhəmiyyət verməyərək, böyük bir soyuqqanlılıqla cibindən ağ dəsmalını çıxarıb, təzə paltosunun üzərinə sıçrayan palçığı silməyə başladı.

Dekabrın ilk günlərində yaponlar qalaya iki ağır zərbə vurdular. Rusların inadlı müqavimətinə baxmayaraq, onlar qalanın bir neçə mühüm fortlarını tutdular. İkinci ağır zərbə isə dekabrın ikisində oldu. Komandan general Roman Kondratenko qəhrəmanlıqla həlak oldu. Əvəzində iradəcə zəif olan general Fok komandan təyin edildi. On altı gün sonra yaponlar qalanın taleyini həll edən Drakonovıy Xrebet dağını ələ keçirdilər. Port-Arturun qorxaq və istedadsız komendantı general Stessel qalanı dərhal düşmənə təslim etmək üçün hərbi şuranın iclasını çağırdı. Şurada iştirak edən bəzi komandirlər Stesselin təklifinə şərik oldular. Lakin general-mayor Səməd bəy Mehmandarov, polkovnik Semyonov və bir qrup mərd zabitlər təslim olmağa qəti etiraz etdilər. Döyüşkən zabitlər inad edirdilər ki, güclü yapon ordusunu geri oturtmağa hələ qüvvələri çatar. General Mehmandarov başda olmaqla onlar deyirdilər ki, qala hələ özünü saxlamağa qadirdir. Nə qədər ki mərmi var, toplardan atəş yağdıracağıq. Nə qədər ki patron var, tüfənglərdən atəş açacağıq. Mərmi və patron qurtardıqda isə süngü ilə döyüşəcəyik.

Lakin cəsarətsiz general Stessel mərd zabitləri eşitmədi, silahı yerə qoymağı qarnizona əmr etdi. Sonralar Rusiyaya qayıdanda general Stessel qala müdafiəçilərinin tələbi ilə Port-Arturu tələsik təslim etdiyinə görə hərbi məhkəməyə verildi.

General-mayor Mehmandarov və onun zabit dostları qala təslim edildikdən sonra da hərbi anda sadiq qalaraq başqa əsgər və zabitlər üçün nümunə göstərdilər. Yaponların şərtlərinə görə əsgərlər hərbi əsir alınır, zabitlər isə Yaponiyaya qarşı bir daha müharibədə iştirak etməyəcəkləri

barədə yazılı iltizam verəndən sonra Rusiyaya qayıda bilərdilər. Stesselin ətrafındakı mürtəce fikirli bir qrup zabit dillərindən belə bir iltizam verdilər. Lakin xalqımızın igid oğlu Səməd bəy Mehmandarov belə bir alçaq, zabit şərəfini təhqir edən vəddən boyun qaçırdı. Bir daha Yaponiyaya qarşı müharibədə iştirak etməcəyi barədə dilindən iltizam vermədiyinə görə general-mayor Səməd bəy Mehmandarov əsir alınıb Yaponiyaya göndərildi". O, 1906-cı ildə Portsmut müqaviləsi bağlandıqdan sonra Rusiyaya qayıda bildi.

Məşhur Port-Artur qalasının üç yüz otuz iki günlük müdafiəsi general Səməd bəy Mehmandarovun taleyinə belə qismət oldu.

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ

Sərkərdə kimi böyük şöhrət qazanmış Səməd bəy Mehmandarov və Əliağa Şıxlinskidən danışanda talelərində oxşarlıq olan iki məşhur musiqi xadimlərimiz yada düşür. Üzeyir bəy Hacıbəyov və Müslüm Maqomayev. Üzeyir bəylə Müslümün taleyindəki oxşarlıqları hər iki görkəmli hərbi xadimin həyatında da görmək olar. Onların hər ikisi bir ildə anadan olublar, eyni seminariyanı bitiriblər. Əliağa Şıxlinski də Üzeyir bəy kimi övlad həsrətilə dünyadan köçdü. Tale Mehmandarova və Müslüm Maqomayevə övlad da verdi, şöhrət də. Amma Əliağa və Üzeyir bəyə nisbətən tez dünyadan köçdülər.

Hər ikisi 18 yaşından əsgər çəkməsi geyindi, Peterburqda oxudular, Port-Arturda, Birinci dünya müharibəsində vuruşdular. Tam artilleriya generalı kimi ali rütbə aldılar.

Birinci dünya müharibəsi başlananda Mehmandarov Vladiqafqazda yerləşən 21-ci piyada diviziyasının komandanı idi. Bu vaxtadək həyatında bir çox mühüm hadisələr baş vermişdi. Əsirlikdən qayıdan kimi yeddinci Şərqi Sibir artilleriya briqadasının komandanı təyin edildi, az sonra ona daha məsul vəzifə tapşırıldı. – Üçüncü Sibir ordusunun korpusunda artilleriya rəisi oldu. 1908-ci il Səməd bəyə bu yüksək vəzifədən başqa daha iki böyük sevinc bəxş etdi. Həmin il iyulun on üçündə onu general-leytenant rütbəsilə təltif etdilər. Noyabrın 18-də isə tale uzun intizardan sonra ona oğul payı göndərdi. Səməd bəy ona Pir adı verdi. Sonralar İqor adını daşıyan Mehmandarov otuzuncu illərdə general atasına görə çox əzablar çəkdi. 1988-ci ildə Bakıda görüşdüyüm İqor Mehmandarovun danışdığı bir epizodu heç vaxt unuda bilmirəm.

- Atamdan sonra tez-tez anamı və məni çekaya çağırırdılar. Min cür hədələyici suallar verirdilər. Suallara düzgün cavab versək də, verməsək də bizi döyüb incidirdilər. Bir dəfə lap cana doyub ağlaya-ağlaya soruşdum ki, axı, məni niyə döyürsünüz? Verdiyiniz sualların cavabını mən həqiqətən də bilmirəm, yalandan nə deyim? Mənim günahım nədir?

- Günahınız ondan ibarətdir ki, özünüzə yaxşı valideynlər seçməmisiniz.

Qəribə məntiqdir, nə vaxtdan övlad özünə valideyn seçib?.. 1910-cu ilin ılıq may günlərindən birində uzun ayrılıqdan sonra doğma Qafqaz Səməd bəyi qəhrəman oğul kimi qoynuna aldı. O, Tiflisdə yerləşən birinci Qafqaz ordusunun korpusunda artilleriya rəisi təyin edildi.

Səməd bəyi yaxından tanıyan mayor Hacıağa İbrahimbəyli 1946-cı ildə çap etdirdiyi "Səməd bəy Mehmandarov" adlı kitabçasında iftixarla yazır:

"Rəsmən hərbi akademik təhsili olmayan bir zabit yalnız böyük bacarığı sayəsində, hərbi xidməti çox sevdiyinə, döyüşlərdə misilsiz qoçaqlıq və hərbi məharət göstərdiyinə, işinə can yandırdığına və son dərəcə təmiz adam olduğuna görə bu qədər böyük rütbə sahibi ola bilərdi. Səməd bəy Mehmandarov da məhz belə bir zabit idi.

Əla səviyyəli topçu olan Səməd bəy Mehmandarova rəsmən topçu akademik təhsili olan hər bir topçu, həmçinin görkəmli qoşun generalı olan hər bir ərkani hərb zabiti həsəd apara bilərdi".

Birinci dünya müharibəsi illərində general Mehmandarov bir neçə uğurlu hərbi əməliyyatı yerinə yetirən istedadlı sərkərdə kimi ad-san qazanmışdı.

1914-cü il sentyabrın on beşində keçirilən Lodz əməliyyatında general Mehmandarov xüsusi şöhrət qazandı. Alman generalı Makenzenin qoşunları güclü hücumla İvanqorod şəhərini

alıb sürətlə Lodz şəhəri uğrunda əməliyyata başladı. Güclü təzyiqlə geri çəkilən rus qoşunları çox ağır vəziyyətə düşmüşdü. Bütün mövqelərdən hücuma keçən almanlar dayanmadan irəliləyərək geri çəkilən rus qoşunlarının qabağını kəsib onları mühasirəyə almağa çalışırdı.

Mehmandarovun iyirmi birinci piyada diviziyası səksən birinci Abşeron, səksən ikinci Dağıstan, səksən üçüncü Samur və səksən dördüncü Şirvan polklarından təşkil olunmuşdu. Bu polkların hərəsinin özünəməxsus döyüş ənənəsi vardı.

Korpus komandanı öz bölmələrinin müqəddəratı üçün təşvişə düşərək Mehmandarovun diviziyasının nə vəziyyətdə olduğunu telefonla xəbər aldı. Səməd bəyin telefonda komandirlərə məxsus mərd, qısa cavabı belə oldu: "Vəziyyət ağırdır. Hücuma keçirəm!".

İki rus ordusunun geri çəkildiyi belə ağır bir vaxtda Mehmandarovun diviziyası böyük bir iştahla irəliləyən düşmənə ağır zərbə vurub onu geri oturtdu. Üçgünlük ağır döyüşlərdən sonra İvanqorod şəhərinin hüdudlarına çatıb ona həmlə etdi. Birinci dünya müharibəsi tarixində Mehmandarovun bu müvəffəqiyyətli əməliyyatı alman generalı Makenzenin sürətli hücum planlarını puça çıxartdı. Geri çəkilən iki rus ordusunu isə mühasirəyə düşmək rüsvayçılığından xilas etdi."

Həmin əməliyyat zamanı general Əliağa Şıxlinski Ali baş komandan tərəfindən səhra toplarının baş müfəttişi yanında xüsusi tapşırıq generalı vəzifəsini daşıyırdı. Sonralar o yazırdı:

"O zaman rus ordusunda yeni bir silah olan ağır səhra toplarının vəziyyətini yoxlamaq və bu sahədə fəaliyyətə istiqamət vermək üçün qərb cəbhəsinə çağırıldım. Mən yeddi korpusu gəzdim və müəyyən etdim ki, yalnız Səməd bəy Mehmandarovun korpusunda ağır topların vəzifəsi düzgün başa düşülmüş və bu toplar həmin vəzifələrə uyğun yerləşdirilmişdir. Bu iş korpus top müfəttişinin təşəbbüsü yox, məhz mahir topçu olan Mehmandarovun şəxsi təşəbbüsünün nəticəsi idi".

Bu müharibədə misilsiz qələbələrə görə Mehmandarova tam artilleriya generalı rütbəsi verildi. 1915-ci ildə o, ikinci Qafqaz ordu korpusuna komandan təyin edildi.

General Səməd bəy Mehmandarovun döyüşlərdə göstərdiyi igidliyi və əsgərlərlə xoş rəftarı haqqında onun müasirləri iftixarla söhbət açırlar. Mayor Hacıağa İbrahimbəyli yazır ki, general Mehmandarov birinci dünya müharibəsi zamanı çox böyük şöhrət qazanmışdı. Vuruşmaların ən qorxulu dəqiqələrində onun misilsiz soyuqqanlılığı və hədsiz qoçaqlığı rus ordusunda məşhur idi.

O, təbiətən ədalətli, namuslu, düz danışan adamları sevir, onlara kömək göstərir, ürəyi düz olmayanlara qarşı isə amansız idi. Ona tabe olanların hamısı ondan çəkinər, lakin onu sevər və ona inanardılar.

Mehmandarov əsgərlərlə həmişə səmimi rəftar edər və daim onların qayğısına qalardı.

"Mehmandarov nadir artilleriyaçıdır". Bu sözləri Qırmızı bayraqlı Qafqaz Ordusunun komandanı İ.E.Yakir 1925-ci ildə "Birləşmiş Azərbaycan hərbi məktəbi"ndə müəllim işləyərkən generalın şəxsi işinə öz əlilə yazıb. İnqilab illərində Mehmandarovun həyatı çox təlatümlü keçib. Nə yeni hökumət, nə də onun adamları ona inanmırdılar. Hər yerdə "çar generalı" kəlmələri sərt şillə kimi onun və silahdaşlarının üzünə çırpılırdı. Həmin o narahat illərdən Səməd bəy Mehmandarovun öz əlilə doldurduğu iki vərəq kağız qalıb. Onu ilk dəfə 1988-ci il fevralın on səkkizində "Molodyoj Azerbaydjana" qəzetində dərc etdirən jurnalist N. Davıdov olub. Onu kiçik ixtisarla sizə təqdim edirəm.

## GENERAL MEHMANDAROVUN ANKETİ

O, balacaboy, saçları iki yerə daranıb ayrılmış, ağsaqqallı bir adam idi. Həmişə kiçik ayaqlarına xüsusi dəridən tikilmiş yüngül çəkmə geyərdi.

Deyirlər ki, 1923-cü ildə ağsaqqallı generalı... əlində süpürgə Bakıda görüblər. Altmış yeddi yaşlı general bir zamanlar Müsavat hökumətinin hərbi naziri kimi iki il addımladığı həmin bu küçəni süpürüb, adamlardan utanaraq Azərbaycan Fövqəladə Komissiyasına qeyd olunmağa tələsirdi. Özü də hər gün. Qoy görsünlər ki, o yerindədir, heç hara getməyib, heç yana qaçmayıb.

Deyirlər ki, belə olub. Bizim əlimiz çatan nəşrlərdə bu yoxdur, ancaq adamların yaddaşında beləcə qalıb. Uzun müddət belə hesab edirdilər ki, öz tariximizi, onun bütün keçidlərini bilmək bizə o qədər də lazım deyil, əgər biz onu bütün ziddiyyətləri ilə, lap həqiqət olsa belə yazsaq, "düz başa düşmərik". Lakin aşkarlığın şüası, çəkilmələr zamanı sualtı daşlar təmizlənən kimi, həqiqəti üzə çıxardaraq bütün qaranlıq künclərə işıq saçır.

Oktyabrın yetmiş illik yubileyi ərəfəsində jurnalist axtarışları məni çekistlərin arxivinə gətirib çıxartdı. Burda "keçmiş adamlar"ın anketləri arasında illərin soldurduğu və Mehmandarovun xırda hərflərlə yazdığı ikiqat bir vərəq saxlanılır. O illərin qoxusunu verən bir vərəq...

Səməd bəy Sadıq bəy oğlu Mehmandarov xidmət illərini necə və harada keçirib? Anketdən bunu müəyyən etmək olmur. Ancaq anketin "təltiflər" sütununa görə mühakimə yürütsək, məlum olur ki, Mehmandarov əli qoynunda oturmayıb, rus çörəyini havayı yeməyib. Həmin sütunda göstərilib: "üçüncü və dördüncü dərəcəli Georgi ordeni, brilyantla bəzədilmiş qızıl silah, birinci, ikinci və üçüncü dərəcəli Stanislav ordeni, birinci, ikinçi və üçüncü dərəcəli Anna ordeni, ikinci, üçüncü və dördüncü dərəcəli Vladimir ordeni, Ağ qartal, Aleksandr Nevski və s. Sütunda yer qurtarıb, aşağıda yazılıb "və başqaları...".

Ordenləri elə-belə verməzdilər. Şübhəsiz hərbi xidmətə görə verilirdi.

Sonra isə anketdə bir yığın sual var. Köhnə orduda sonuncu rütbəniz və vəzifəniz? - Artillerya generalı, ikinci Qafqaz korpusunun komandiri. 1917-ci il fevral inqilabı zamanı harda olmuşsunuz? - Alman cəbhəsində - Bəs Oktyabr inqilabı zamanı?

Petroqradda, 1917-ci ilin mayında üzv seçildiyim yaralıların Aleksandrovsk komitəsində.

1918-ci ildə altmış iki yaşlı generala Azərbaycan Demokratik Respublikasının müsavatçılar kabinetində hərbi nazir vəzifəsini təklif eləyirlər və Mehmandarov bu təklifi qəbul eləyir. 1920-ci il iyunun dördündə onu həbs eləyib, iki aydan sonra Moskvaya göndərirlər. Ad gününü həbsdə "qeyd eləyir". Yeddi gün sonra azad edilib Daimi Artilleriya Komissiyasının üzvü kimi Səhra Qərargahına göndərilir. Burda Mehmandarovun əliylə yazılıb:

"Bir dəfə də istintaq aparmadılar, heç bir ittiham irəli sürmədilər". Bəs nəyə görə?! Rus qanı tökməyib, bolşeviklərə qarşıçıxış eləməyib. Hərbi andı qəbul eləyib. Əsgərdən generala kimi yüksəlib. Sədaqətlə xidmət edib. 1921-ci il noyabrın on səkkizində Səməd bəy Sadıq bəy oğlu Nərimanov və Qarayevin xahişi ilə Bakıya - Hərbi Dəniz Xalq Komissarlığına qaytarılır. 1923-cü ildə yazılmış anketində göstərir: "İndiki vaxtdan tapşırıqçı və pul kağızlarının bölgüsü üzrə komissiyanın sədriyəm".

Bildiyimiz kimi, pul hər adama etibar edilmirdi. Deməli, təmiz adam olub.

Əgər Oktyabr inqilabına rəğbət bəsləməmişsinizsə bunun səbəbi nə olub? (Həmin dövrdə sizin etiqadınız?).

Cavab: - Bu suala ən yaxşı cavab - aprelin iyirmi səkkizində, yəni çevriliş günündə mənim Azərbaycan ordusuna verdiyim əmrdir. Bu əmr hissə rəislərinə göndərilmiş teleqramla Qərargah arxivində qorunur və onlar mənim Sovet hakimiyyətinə münasibətimi müəyyənləşdirə bilər.

Otuz doqquz nömrəli sual: hansı səpkili fəaliyyətə daha çox meyl edirsiniz?

Cavab: Mənim yaşımda sakit və dinc fəaliyyətə...

* * *

"1923-cü ildə ağsaqqallı general Mehmandarovu əlində süpürgə Bakıda görüblər". Anketdən bu sözləri oxuyanda istər-istəməz adamın ürəyi ağrıyır. Orduda minlərlə əsgərə, zabitə silah tutmağı öyrədən igid bir sərkərdəni bu qədər alçaldan kimlər idi? Şöhrəti Rusiyanın sərhədlərini aşan Port-Artur, Birinci dünya müharibəsinin qəhrəmanı ilə ömrünün ağsaqqal çağında belə "ciddi zarafat" edən şəxsdə vicdandan əsər-əlamət vardımı?

1920-ci ildən şahid qalmış bir sənəddə bu sualların cavabını tapmaq olur. Orada oxuyuruq:

“Qızıl Ordu demək olar ki, bütünlüklə döyüş qabiliyyətindən məhrum və daşnak zabitlərinin komandası altında olan erməni könüllülərindən ibarət idi. Bu dəstələr ətraf kəndləri qarət edir, bununla müsəlman kəndlərinin qəzəbinə səbəb olurdular”.

Bax, bu “könüllülər” Bakıya varid olandan sonra cəmi iyirmi üç ay Azərbaycan Demokratik Respublikasının hərbi naziri olmuş Mehmandarovu xalqın gözündən salmaq üçün əlinə süpürgə verib küçə süpürtdürmüşlər. Bu “könüllü” düşmənlərimiz yaxşı bilirdilər ki, Səməd bəy Mehmandarovu xalq sevir və inanırdılar ki, onlara “azadlıq gətirən könüllülərin” zülmündən xalqı məhz Səməd bəy Mehmandarov kimi generallar qurtara bilər. Bu ümidlə də hələ 1919-cu il iyunun altısında Qusar, Quba, Xaçmaz, Dəvəçi əhalisinin keçirdikləri mitinqin qətnaməsində deyilirdi:

“Biz əminik ki, hökumətimiz (Azərbaycan Demokratik hökuməti - Ş.N.) döyüş meydanında özünün son üzvünü itirənədək ona etibar etdiyimiz qadın və qızlarımızı qara generalların əlinə verməyəcək. Nikolayın mənafeyi naminə Port-Artur civarlarında fərqlənmiş şücaətli hərbi nazirimiz Mehmandarov bizim mahalda olduğu vaxt gözündə yaş damlaları süzüldüyü halda, Vətənin, qadın və qızlarımızın ana və bacılarımızın namusunun müdafiəsi yolunda canından belə keçməyə hazır olduğunu bildirmişdi”.

Lakin işlər dəyişdi, dünyanın çarxı sanki tərsinə fırlandı. Dindarla dinsizin müharibəsi başlandı. Bu döyüşlərdə biz çoxlu tələfat verdik. Azərbaycanı içəridən “yeyən” S.Şaumyan, T.Əmirov, S.Lalayev, Avakyan kimi daşnaklar quzu cildində qurd olmuşdular. Onların quldur dəstələri gecələr müsəlman evlərinə hücum edir, kəndlilərin silahını əlindən alır, vəhşicəsinə döyürdülər. “Azərbaycan” qəzeti (30/17 mart 1919, № 67) yazırdı ki, Qafqaz cəbhəsindən türk orduları geri çəkilərkən Türkiyə erməniləri Qafqaz erməniləri ilə birləşdilər və birlikdə həmin hissələrə qarşı hücuma keçərək, onlara zərbə vurmağa başladılar. Bir tərəfdən Andranikin, digər tərəfdən isə Dro, Keri və Muradın dəstələri hərəkət edirdilər. Tərk edilmiş bütün müsəlman kəndləri qarət olunmuş və yerlə yeksan edilmişdi. Məhz bu vaxt Şaumyanın və Avakyanın fitnəkarlığı sayəsində Şamaxı hadisələri başlandı. Şaumyan tərəfindən bu hadisələrlə əlaqədar yazılmış məktub Gəncə komendantının əlinə düşdü. Bu məktubdan Şaumyan və Avakyanın daşnak olduqları açıq-aydın görünürdü”... Bu faciələrin hamısı on səkkiz - on doqquzuncu illərdə olmuşdu. 1920-ci ilin aprelində isə qırx minlik milli Azərbaycan Ordusu yetmiş iki minlik XI Ordunun qarşısında tab gətirə bilmədi. Ona görə ki, otuz minlik piyadası, on min süvari qoşunu olan milli Azərbaycan ordusu Zəngəzurda, Qarabağda, Qazax və başqa qəzalarda daşnak quldurları Hamazasbın və Andranikin dəstələrinə qarşı vuruşurdu.

On birinci ordu ilə Azərbaycana gələn marşal S.A.Krasovski “Жизни в авиасии” kitabının (1960) yetmişinci səhifəsində bu barədə yazır: “XI Ordu hissələri Azərbaycan sərhəddinə, Yalama stansiyasına yaxınlaşanda Bakıda müsavat hökumətinin iclası gedirdi. Bu iclasda hərbi nazir general Mehmandarovdan hökumət başçısı Nəsibbəy Yusifbəyov soruşur: “Müsavat ordusu düşmənin hücumunun qarşısını ala biləcəkmi? “Nazir də sualı sualla qarşıladı: “hansı düşməni nəzərdə tutursunuz? Daşnakları, yaxud menşevikləri? Menşevikləri deyirsinizsə ümid var. Hərgah XI Ordunu nəzərdə tutursunuzsa, onda bizim gücümüz yalnız bir dəqiqəliyə kifayətdir, cənab nazir. Biz bolşeviklərlə döyüşməyəcəyik!”.

Ona görə də “Sovet tərəfinin xahişi ilə xüsusi olaraq Bakıya dəvət olunmuş türk hərbi generalı Xəlil Paşa XI Ordu ilə birlikdə 1920-ci il aprelin 28-də döyüşsüz Bakıya daxil oldu. Xəlil Paşa Dərbənddən bu tərəfə yol boyu bütün dayanacaqlarda çıxış edib əhalini Sovet hakimiyyətini müdafiə etməyə çağırırdı. İstambul hərbi muzeyində Xəlil Paşanın RSFSR, MİK tərəfindən təltif olunduğu gümüş xəncər saxlanılır” (Z.Bünyadov “Elm və həyat” jurnalı, 1988-ci il, № 10).

Bu yaxınlarda Türkiyədə səfərdə olmuş oyma işləri üzrə sənətkar dostumuz Firidun Seyfəddinoğlu 1976-cı ildə İstambulda çap olunmuş “Azərbaycan” adlı bir kitab da gətirmişdi. Kitabın müəllifi Kərim Oder xalqımızın ədəbiyyatından, tarixindən, iqtisadiyyatından və Azərbaycan Demokratik hökumətinin fəaliyyətindən məhəbbətlə söhbət açır. Kitab həm də xalqımızın görkəmli oğullarının nadir fotoşəkilləri ilə bəzədilib. Orda Səməd bəyin on səkkiz -

iyirminci illərdəki fəaliyyəti haqqında məlumat və bizə məlum olmayan fotoşəkli də verilib. Kərim Oder yazır:

"Cümhuriyyət hökuməti əsgəri işlərə əhəmiyyət vermişdir. Hərbiyə nəzarətə general Səməd bəy Mehmandarov təyin olunmuşdu. Onun müavini rus artilleriyasının "allahı", general-leytenant Əliağa Şıxlinski, baş qərargah rəisi isə general-leytenant Süleyman Sulkeviç idi. İyirmi dörd min süngü, altı min piyada, süvari, topçu və digər siniflərdən ibarət hər cür silahla yaraqlanmış bir ordu qurulmuş və Xəzər dənizində kiçik bir flot hazırlanmışdır. Bakıda, Lənkəran və Qarabağda milli hökuməti tanımaq istəməyənlərdən acınacaqlı vəziyyət yaranmışdır. Rus və digər düşmən qüvvələr itaət və nizam altına alınmışdır".

İyirminci illərdə general Səməd bəy Mehmandarovun təlatümlü keçən günlərini o vaxtlar on iki yaşı olan oğlu daha yaxşı xatırlayırdı: "Atam aprelin iyirmi yeddisində parlaman iclasından qayıdıb özümüzlə aparmaq üçün anamın hazırladığı çamadanları gördükdə dedi ki, bunları boşalt, heç yerə gedəsi deyilik. Anam: "Nə danışırsan? Necə gedəsi deyilik? Bilirsən ki, səni gülləıəyəcəklər?".

Atam cavab verdi ki, parlamanın son iclası qurtaranda "Hümmət" fraksiyası lideri Əliheydər Qarayev mənə yaxınlaşıb əmin etdi ki, Səməd bəy, getmə, qal! Heç yerə getmə. Söz verirəm ki, başınızdan bir dənə də tük əskik olmayacaq. Qal bizimlə işlə...

Anam isə etiraz edib dedi: "Ola bilər ki, sənə heç nə eləməzlər, amma oğlunun taleyi, gələcəyi, mənim vəziyyətim?..".

Atam qəti səslə: "Heç yerə getməyəcəyik", - dedi. Anam inad elədi: "Axı qatar Biləcəridə gözləyir...". Atam: "Bizsiz də gedərlər. Vətəndən ayrılmağa heç bir əsasım yoxdur".

Doğrudan da Biləcəridə müsavat hökumətinin başçılarını Tiflisə aparacaq qatar atama görə saat yarım gözləmişdi".

Tədqiqatçılar Səməd bəy Mehmandarovun tərcümeyi-halından danışanda iyirmi birinci ildən iyirmi dördüncü ilə kimi olan fəaliyyətindən demək olar ki, sükutla keçirlər. 1920-ci ilin avqustun birindən Səməd bəy Mehmandarov Əliağa Şıxlinski ilə birlikdə baş qərargahda işləmək üçün Moskvaya göndərilirlər. Şıxlinski Ali Artilleriya məktəbində gələcəyin marşalları L.A.Qovorova, N.D.Yakovlevə, M.N.Çistyakova, baş artilleriya marşalı N.N.Voronova və başqalarına dərs deyib. Səməd bəy Mehmandarov da Artilleriya Nizamnaməsi hazırlayan komissiyanın tərkibinə daxil edilib, həm də hərbi Akademiyada taktikadan dərs deyib. İyirmi birinci ilin yayında Azərbaycana qayıdan hər iki general Respublika hərbi Komissarlığının sərəncamında saxlanılır. Əliağa Şıxlinski bu barədə daha dəqiq məlumat verir: "İyulun on səkkizində biz ikimiz də Bakıya yola düşüb, iyulun iyirmi ikisində gəlib çatdıq. Bakıda biz Azərbaycan Sovet Qoşunları Qərargahına daxil edildik. Bundan başqa hər ikimiz Azərbaycan Komandirlər məktəbində topçuluqdan - Mehmandarov rus, mən isə Azərbaycan dilində dərs deməyə başladıq. Qarnizon rəisi öz sədarəti altında olaraq, Bakı qarnizonu hərbi - Elmi Cəmiyyətinin təşkili haqqında əmr verdi. Mən sədr müavini təyin edildim. Qarnizon rəisi özü sədrlik etmirdi, adətən iclasları mən aparırdım. Mehmandarov isə bu cəmiyyətin üzvlüyünə təyin edilmişdi".

Bəs iyirmi üçüncü ildə general Səməd bəy Mehmandarovun əlinə süpürgə verib küçə süpürtdürən kimlər idi? Mərkəzdə oturan Stalin əmr vermişdi ki, müsəlman ziyalıları arasında "təmizlənmə" aparılsın. Bakıda solların mövqeyini möhkəmlədən, Nərimanovun məsləkdaşlarına qarşı mübarizəni gücləndirən AK (b) P Bakı Komitəsinin katibi L.Mirzoyan və onun əlaltıları S.Qutun, A.Mikoyanın "varisləri" Sərkis və içərimizi qurd kimi gəmirən bir qrup keçmiş daşnaklar, havadarları Stalinin əmrini canla-başla yerinə yetirirdilər. Həmin ildə onlar Nərimanovu da Bakıdan perikdirmişdilər. Onlar yaxşı bilirdilər ki, Nərimanov general Mehmandarovu sərkərdə kimi çox yüksək qiymətləndirirdi.

# ŞAMAXI TƏRLANI

Keçmiş zamanlarda belə hesab edərlərmiş ki, zabit ömrü cəmi iki müharibə əzabından keçə bilər. Biri onun gəncliyinə, o biri isə yaşlı vaxtına təsadüf edər. Fərəhləndirici haldır ki, həmyerlimiz general-mayor Tərlan Əlyarbəyov altmış dörd illik ömür yolunda üç müharibənin iştirakçısı olub.

Tam artilleriya generalları Əliağa Şıxlinskidən və Səməd bəy Mehmandarovdan sonra o, üçüncü azərbaycanlıdır ki, birinci dünya müharibəsində, vətəndaş müharibəsində və Böyük Vətən müharibəsində vuruşub.

1911-ci ildə üçüncü Qafqaz alayının əlaçı əsgəri Tərlan Əlyarbəyovu Tiflisdəki piyada hərbi məktəbinə oxumağa göndərdilər. Dörd il kursdan-kursa müvəffəqiyyətlə keçən Tərlan hərbi məktəbi birinci dərəcəli diplomla bitirdi. Podporuçik Əlyarbəyov Şamaxıdakı 205-ci piyada alayında xidmətə başladı.

1914-cü ilin yayında birinci dünya müharibəsi başlandı. Kayzer Almaniyası Rusiyaya müharibə elan etmişdi. Əlyarbəyovun xidmət etdiyi 205-ci alayı da Qərb cəbhəsinə göndərdilər. Od-alov yağan səngərlərdə gənc zabitin çətin sınaq günləri başlandı. Komandirin verdiyi tapşırıqları yerinə yetirən, hər döyüşdən qələbə ilə çıxan Tərlan əsgərlərin də sevimlisi oldu. Ona görə də rota komandiri olan Əlyarbəyovu batalyon komandiri kimi məsul vəzifəyə təyin etdilər.

Öz batalyonunu qələbədən-qələbəyə aparan ştabs-kapitan Əliyarbəyovun igidliyi bütün Qərb cəbhəsinə yayılmışdı.

Bir dəfə Verden ətrafında gedən vuruşmaların qızğın çağında ona 10-cu ordunun komandanı general Əliağa Şıxlinski ilə görüşmək nəsib oldu.

General hərbçi qaydası ilə onu başdan-ayağa süzüb: “Səsini-sorağını eşitmişəm, eloğlu, əsl igid kimi vuruşursan”, - dedi. Əlini onun çiyninə qoyub – “Böyük şair Puşkin vaxtilə Şamaxı gözəlini vəsf eləyib, indi yeni bir Puşkin lazımdır ki, sənin Şamaxı Tərlanının qəhrəmanlığını qələmə alsın”. Sonra maraq dolu baxışlarını Tərlana zilləyib:

- Bir de görüm, hansı hərbi məktəbi bitirmisən, oğul?

- Tiflisdəki hərbi gimnaziyanı... General Şıxlinski sevinclə:

- Hə, demək ikimiz də bir yuvadan pərvazlanmışıq. Çox şadam. Bu qürbət diyarda sevindirdin məni, oğul. Onsuz da bir neçə gündür ki, sevincimdən ürəyim köksümə sığışmır. Xəbərin varmı, bu günlərdə bir eloğlumuz qeyri-adi igidlik göstərdiyinə görə Müqəddəs Georgi ordeninin bütün dörd dərəcəsi ilə təltif olunub.

- Xeyr, eşitməmişəm. Düzü, cəbhəyə gələndən heç bir eloğlumla görüşə bilməmişəm. Cəbhədə sizdən başqa heç bir azərbaycanlıya rast gəlməmişəm, cənab general. İcazənizlə soruşum, kimdi belə yüksək təltifata layiq görülən?

- Nijeqorod draqun alayının rotmistri Teymur Novruzovun igidliyi haqqında qəzetlər bar-bar bağırır. Sən isə burdan-bura eşitməmisən. Eloğlumuz Teymur özünün eskadronu ilə bir ay əvvəl düşmənin piyada süvarilərinə hücum edərək onların hamısını qılıncdan keçirib. Hələ üstəlik də iki gün sonra üç ağır topunu qənimət götürüb. Cəmisi iki ay yarımlıq döyüşdən sonra həmyerlimiz Teymur Novruzov Georgi ordeninin dörd dərəcəsi ilə təltif olunub. Bu çox böyük fəxrdir. O, artıq kavalerdir.

Tərlan bu şöhrətli generalla görüşünü uzun müddət unuda bilmədi. Onlar bir də 18-ci ildə Bakıda görüşdülər.

1916-cı ilin yayında general A.A.Brusilovun ordusu Pripyat çayından Rumıniya sərhədinə kimi uzanan 400 kilometrlik cəbhə boyunca hücuma keçib düşmənin müdafiə xəttini yardı. Ağır şəraitdə vuruşan qoşunlar güclü düşməni xeyli geriyə qovdu. Tərlan Əlyarbəyov bu döyüşlərdə sinəsindən ağır yaralandı. Bu, müharibə başlanandan Tərlanın aldığı dördüncü yara idi. Ştabs-kapitan bir müddət Brest şəhərindəki qospitalda müalicə olunduqdan sonra Bakıya göndərildi.

1918-ci ilin avqustunda müsavat ordusuna çağrılan Tərlan Əlyarbəyov ikinci alayın komandir köməkçisi təyin edildi. Rusiyada Qızıl Ordu tərəfindən dağıdılmış Denikin ordusu

pərən-pərən düşüb ölkənin hər yerinə dağılmışdı. Dərbəndi tutan ağqvardiyaçılar Azərbaycana soxulmaq istəyirdilər. Qusarda yerləşən ikinci alay gecə-gündüz vuruşaraq düşməni Azərbaycana buraxmadı.

İyirminci ilin baharında Tərlan Əlyarbəyov Bakı hərbi idarə rəisinin müavini idi. O, heç vaxt inqilabi ənənələr şəhəri Bakını belə qaynar, belə təlatümlü görməmişdi.

Döyüşlərdə böyüyüb-bərkimiş Tərlan Əlyarbəyov könüllü olaraq ordu sıralarına yazıldı.

Bir neçə qolçomaq Şuşanın yalçın qayaları arasına sığınaraq başına quldur dəstələri yığmışdı. Tez-tez kəndlərə hücum edir, kənd soveti sədrlərini, komsomolçuları öldürürdülər. Kapitan Tərlan Əlyarbəyovun 1920-21-ci illərdəki böyük fəallığı ilə bu quldur dəstələri ləğv edildi. 1922-ci ildə respublika Xalq Komissarlığı qərargahında hərbi dəniz işləri üzrə rəis işləyən Əlyarbəyova yeni bir tapşırıq verildi:

"Kürdəmir və Qaraqoyunlu ərazilərində baş qaldıran quldur dəstələrini məhv etməli". O, cəsur silah yoldaşları ilə yorğunuq və yuxusuzluq nə olduğunu bilmədən az bir vaxtda düşməni məğlub etdi.

Azərbaycan Sovet Sosialist Respublikası hərbi Dəniz Xalq Komissarlığının 1922-ci il 9 dekabr tarixli 525 nömrəli əmrində deyilirdi:

"Mənə etibar olunmuş Komissarlığın qərargah rəisi Tərlan Əlyarbəyov yoldaş Azərbaycanda Sovet hakimiyyəti qurulan ilk günlərdən məsul vəzifələr daşımış, vicdanlı, səliqəli olması, ona tapşırılan vəzifələri can-başla yerinə yetirməsi və proletar hakimiyyətinə sədaqəti ilə fərqlənmişdir.

Hərbi işi tam bildiyini göstərmiş və Azərbaycan SSR-də mahal hərbi komissarlıqlarının təşkili işinə böyük qüvvə və qayğı sərf etmişdir. 1920-ci ildə Bakı qəzasında və 1921-ci ildə bütün respublikada səfərbərliyi yüksək bacarıqla keçirmişdir.

Hazırda HDXK-nın qərargahı ləğv edildiyi üçün Əlyarbəyov yoldaşı Azərbaycan SSR Hərbi Komissarlığının müavini vəzifəsinə təyin etməklə inanıram ki, onun öz biliyi və Sovet hakimiyyətinə sədaqəti sayəsində Azərbaycanda səfərbərlik işi həmişə yüksək səviyyədə olacaqdır.

Təxminən üç il müddətində hərbi idarədə birgə çalışdığımız vaxtlar gənc Sovet Azərbaycanının yaradılması işinə böyük zəhmət və enerji sərf etdiyinə görə Tərlan Əlyarbəyova rəhbərlik adından təşəkkür elan edir və əmr edirəm ki, şəxsi xidmət kitabçasına yazılsın.

Hərbi Dəniz Xalq Komissarı və Əlahiddə Qafqaz Ordusu Hərbi İnqilab Şurasının üzvü Əliheydər Qarayev.

Qərargah rəisi əvəzi Məğrubov.

Gənc sovet respublikası Tərlan Əlyarbəyovu hansı sahəyə göndərirdisə o, namuslu bir zabit kimi çalışır, verilən tapşırığı ləyaqətlə yerinə yetirirdi. 1927-ci ildə Frunze adına hərbi Akademiyada Ali komanda heyəti kursunu bitirdikdən sonra Bakıya qayıdan Əlyarbəyov hərbi istedadını milli hərbi kadrların yetişdirilməsinə sərf etmişdir. O, ikinci dəfə bu hərbi Akademiyanı bitirən ili ölkəmizi faşizm taunu bürüdü.

Böyük Vətən müharibəsi başlananda polkovnik Tərlan Əlyarbəyov 416-cı atıcı diviziyanın komandir müavini, üç ay sonra isə onun komandiri təyin edildi.

Diviziya 1942-ci il noyabrın 30-da səhər Terek çayı sahilində düşmənlə ilk dəfə döyüşə girdi. İki günlük döyüşdən sonra İşşorsk rayonunda faşistlərin müdafiə xətti yarıldı, Novo-Lednev və Kapustino yaşayış məntəqələri azad edildi.

Xalqımızın igid oğullarından ibarət olan bu diviziya dekabrın altısında inamla vuruşaraq düşmənin möhkəmləndirilmiş daha bir atəş nöqtəsini məhv etdi. Hücumu müvəffəqiyyətlə genişləndirən polkovnik Tərlan Əlyarbəyov həmişə ön cəbhədə olur, döyüşçülərdə qələbəyə sarsılmaz inam yaradırdı.

44-cü ordunun tərkibində yerləşən bu diviziya 1942-ci ilin qışında Şimali Qafqazda 350 kilometrlik döyüş yolu keçərək, onlarla şəhər və kəndi düşməndən azad etdi. Dəfələrlə ordu komandanlığının təşəkkürünə layiq görüldü.

Sonralar 79-cu, 88-ci alaylara, 402-ci atıcı diviziyaya başçılıq edən və 58-ci korpusun komandir müavini kimi məsul vəzifələrdə çalışan Tərlan Əlyarbəyov özünün komandirlik

bacarığını parlaq şəkildə nümayiş etdirdi. O, xidmət etdiyi bütün hərbi hissələrdə böyük nüfuza və hörmətə malik idi.

Müharibə illərində Əlyarbəyovun döyüş xidmətlərini yüksək qiymətləndirən hökumətimiz 1944-cü il fevralın 9-da onu general-mayor rütbəsi, ilə təltif etmişdir.

1956-cı ildə vəfat edən generalın iki oğlu qalıb. General atasının sənədlərini qayğı ilə qoruyub saxlayan Nadir Əlyarbəyovun xatirələrindən:

- Atamın söhbətləri yaxşı yadımdadır. Danışardı ki, 1908-ci ildə Şamaxıdakı altı illik şəhər məktəbini bitirəndən sonra Vladiqafqaza gedib kadet korpusuna daxil olmaq istəyirdim. Lakin babam Abdullanın qəfil ölümü onun hərbi məktəbə getməsinə mane olur. Atam yalnız 1910-cu ildə Tiflisə gedib Mixaylovsk hərbi piyada məktəbinə daxil olur.

Atam özü haqqında çox az danışardı. Evdə də az olardı. O, daim əsgərlərin yanında olar, onların ailə həyatı ilə, güzəranı ilə maraqlanardı.

Yadımdadır, atamın ölümündən sonra bizə bir jurnalist gəlmişdi. Atam haqqında yazmaq istəyirdi. Anam Lətifə xanımdan atam haqında danışmağı xahiş etdi.

Anamsa, nə deyim, nə danışım, ay oğul, - dedi, - bir doyunca üzünü gördüm ki... Qonaq kimi gəlib-gedərdi.

Anam - "Tərlan bizə gələndə belə oldu, Tərlan belə dedi", - deyə danışanda qonşular gülərdilər.

Atamı tanıyanlar - döyüş yoldaşları, dostları həmişə deyərdilər ki, Tərlan özü üçün yaşamadı, eli, obası üçün yaşadı. O, məzuniyyət, istirahət nə olduğunu bilməzdi. Onun xidmətləri Lenin ordeni, Qırmızı Bayraq ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif olundu. Doğma Şamaxıda adına abad küçə qoyuldu.

Şahidi olduğum bir xatirəni heç vaxt unuda bilmirəm. Atam hərbi qulluqda idi. Anamla mən bir dəfə onun yanına getmişdik. Bizim gəlişimiz günorta vaxtına düşmüşdü. Aşpaz üç qabda yemək gətirdi. Atamın bərk acığı tutdu. Aşpazı geri çağırıb dedi:

- Bunlar buraya yeməyə gəlməyiblər ki?.. Sən niyə əsgərin payından kəsib bunlara gətirirsən. Bu saat qaytar... Sonra anama "niyə nahar vaxtı gəlmisiniz?" - dedi.

İllər keçib, evimizdə bir Tərlan da böyüyüb. Atamın adını daşıyan oğlum Tərlan bu il Bakıdakı Azərbaycan SSR Ali Soveti adına hərbi məktəbi bitirib, zabit rütbəsi ilə qulluğa başlayıb, babasının yolunu seçib.

## GENERAL HACIBABA ZEYNALOV

Hələ Böyük Vətən müharibəsindən əvvəl də Sovet ordusunun hissə və birləşmələrində döyüş hazırlığı və siyasi hazırlıq məktəbi keçmiş azərbaycanlı zabitlər az deyildi. Onlar M.V.Frunze adına hərbi Akademiyada, V.İ.Lenin adına Hərbi-Siyasi Akademiyada, Baş Qərargahın Akademiyasında və başqa ali hərbi məktəblərdə təhsil almışdılar.

Cəmşid Naxçıvanski, Məmməd Veysov, Qambay Vəzirov, Tərlan Əlyarbəyov, Mahmud Əbilov, Heybət Heybətov, Yaqub Quliyev, Məmmədşərif Həmidov, Hüseyn Rəsulbəyov, Həzi Aslanov və başqaları milli hissə və birləşmələr üçün yetişdirilmiş sərkərdələr idi.

Belə hərbi xadimlərdən biri də Hacıbaba Məmməd oğlu Zeynalov olmuşdur. 1906-cı ildə qədim Gəncədə yoxsul ailədə dünyaya gələn Hacıbaba orta təhsilini də doğma şəhərdə almışdır. O, hərbçi olmaq arzusu ilə 1923-cü ildə Bakıya gəlib, gənc komandirlər məktəbinə qəbul olunur. Üç illik təhsilini müvəffəqiyyətlə başa vuran Hacıbaba Zeynalov Serqo Orconikidze adına Azərbaycan atıcı diviziyasının ikinci dağ nişançı alayına vzvod komandiri təyin edilir. Az bir vaxtda onu komandirlik məharətinə görə alayın rabitə rəisi vəzifəsinə təyin edirlər.

Böyük Vətən müharibəsi başlananda podpolkovnik Hacıbaba-Zeynalov Pribaltika Hərbi Dairəsində "N" diviziyasının şöbə rəisi kimi məsul vəzifədə çalışırdı. Kommunist komandirin sinəsini "Qırmızı Ulduz" ordeni və bir neçə medal bəzəyirdi. O, bu orden və medallara iki il əvvəl ağ finlərə qarşı döyüşlərdə göstərdiyi igidliyə görə layiq görülmüşdü. 1939-cu ildə M.V.Frunze adına hərbi Akademiyanı əla qiymətlərlə bitirən Hacıbaba hərb sahəsində yaxşı

biliyə, böyük təcrübəyə malik idi. Podpolkovnik H.Zeynalov Azərbaycan diviziyasında xidmət edəndə məşhur general-leytenant Əliağa Şıxlinski onlara mühazirə oxumağa gələrdi. Qoca general döyüş vaxtı komandirin cəsarətindən, mərdlik və mətanətindən söhbət açanda deyərdi:

"Döyüş də bir səhnədir. Tamaşanın müvəffəqiyyəti səhnədə hər kəsin öz rolunu vaxtında ifa etməsindən asılı olduğu kimi, döyüşün də müvəffəqiyyəti hər hissənin öz vəzifəsini vaxtında ifa etməsindən asılıdır. Bu işi də təşkil etmək başlıca olaraq komandirin öhdəsinə düşür".

Podpolkovnik Hacıbaba Zeynalov generalın sözlərini öz təcrübəsində dönə-dönə sınamışdı. Döyüş vaxtı hissələrin qarşılıqlı əlaqəsi daha çox diqqət tələb edirdi. Döyüşün ahəngi, əsgərlərin cəsarəti də hissələrin düzgün yerləşdirilməsindən hər kəsin öz vəzifəsini dəqiq və vaxtında yerinə yetirməsindən çox asılı idi. Onda döyüş zamanı tələfat da az olurdu.

... Qərbi Divina çayı sahilində dayanan diviziya cəbhə komandanı general Kuznetsovdan əmr almışdı ki, hissələrdən biri nəyin bahasına olursa-olsun çayı keçib, qarşıdakı kənddə özü nə mövqe tutmalıdır. General bu əməliyyatın yerinə yetirilməsini podpolkovnik Zeynalova həvalə etmişdi. Podpolkovnik batalyonu gecə ilə çayın sahilinə endirdi. Körpünü faşistlər tutmuşdular. Kəşfiyyat xəbər gətirdi ki, faşistlər səhər tezdən körpüdən keçib hücum edəcəklər. Ona görə də Zeynalov xeyli aşağıdan, çayın qalın meşə ilə örtülmüş sahilindən batalyonu gecə ilə o taya keçirdi. Düşmən gözləmədiyi yerdən ağır zərbə aldı. Mahir komandirin sayıqlığı ilə düşmənin altı tankı yandırıldı, qalanları isə geriyə qaçdı. Diviziyanın irəliləməsi üçün tam təhlükəsizlik təmin edildi.

Bir neçə gün sonra növbəti döyüşdə polkovnik Hacıbaba Zeynalov yaralandı. Tbilisi şəhərində müalicə olunan polkovnik Zeynalov yenidən cəbhəyə səfərbər olundu.

1942-ci ilin payızında Bakı neftinə can atan hitlerçilər Şimali Qafqazın şəhər və kəndlərini müharibə alovlarına bürümüşdülər.

Polkovnik Hacıbaba Zeynalov 416-cı atıcı diviziyanın qərargah rəisi idi. O, burada özünü hərbi təcrübəyə, yüksək döyüş qabiliyyətinə, gözəl təşkilatçılıq məharətinə malik sovet sərkərdəsi kimi göstərdi.

Zaqafqaziya cəbhəsinin 47-ci ordu qərargahında xüsusi şöbə rəisi, Krım cəbhəsinin 396-cı atıcı diviziyasında qərargah rəisi, 402-ci atıcı Azərbaycan diviziyasında komandir kimi məsul vəzifələrdə polkovnik Hacıbaba Zeynalov qəhrəman xalqının adına layiq çalışmışdır.

İstefada olan general-mayor Akim Abbasovun xatirələrindən:

- Hacıbaba Zeynalovla ilk dəfə 1932-ci ildə tanış oldum. O vaxt biz 77-ci Azərbaycan diviziyasında qulluq edirdik. Zeynalov ikinci dağ-nişançı alayında, mən isə dördüncü dağ-atıcı alayında rota komandiri idim.

Hər il may ayından oktyabradək diviziyamız Hacıkəndə hərbi düşərgəyə gedirdi. Orada təlimləri, manevrləri, poliqon və atəşgahları birgə keçirərdik. Yaxşı yadımdadır, Hacıbaba Deyərdi ki, zabit də, əsgər də səliqəli olmalıdır. Əgər o zabitdə, o əsgərdə səliqə yoxdursa, tam mənası ilə o nə özünü, nə də Vətəni sevir.

Hacıbaba təkcə geyimində yox, işində də hədsiz dərəcədə səliqəli və ciddi komandir idi.

1937-ci ilə kimi birgə qulluq etdik. O vaxt mayor rütbəsində olan Hacıbaba Zeynalovun bacarığını diviziya komandanı Qambay Vəzirov, Cəmşid Naxçıvanski, polkovnik İbrahim İbrahimov çox yüksək qiymətləndirirdilər.

Hacıbaba Zeynalov ilk azərbaycanlı qırmızı komandirlərdən biri idi.

Böyük Vətən müharibəsi başlayandan az sonra Hacıbaba 416-cı atıcı Azərbaycan diviziyasının qərargah rəisi idi. Mənim xidmət etdiyim 402-ci diviziya da onlarla yanaşı vuruşurdu. O vaxt azərbaycanlı zabitlərin, xüsusilə, Hacıbaba Zeynalovun döyüş məharəti haqqında çox tez-tez eşidirdim. Onun bacarıqla idarə etdiyi diviziya Şimali Qafqazın neçə-neçə kəndini, şəhərini faşist quldurlarından təmizlədi. Mozdok və İşşersk kəndi uğrundakı döyüşlərdə göstərdiyi qəhrəmanlıq və hərbi bacarığına görə polkovnik Hacıbaba Zeynalov "Qırmızı Bayraq" ordeni ilə təltif olundu.

Hacıbaba Zeynalov kimi yüksək təhsilli zabit kadrlarımız o vaxtlar çox az idi.

General Hacıbaba Zeynalov iki hərbi Akademiyanın məzunu olmuşdur. O, 1939-cu ildə M.V.Frunze adına hərbi Akademiyanı, 1948-ci ildə isə Baş Qərargah Akademiyasını əla qiymətlərlə bitirmişdir.

Müharibədən sonra general Zeynalov korpus komandanının müavini, sonralar 402-ci Azərbaycan atıcı diviziyasının komandiri olmuşdur. Hərbi işi hədsiz dərəcədə sevən general yorulmaq bilmədən çalışırdı.

O, diviziyanın hissələri üçün atəşgahlar, tank və artilleriya üçün poliqonlar, avtodromlar və digər mühüm obyektlər yaradırdı. General Zeynalov əsgərlərin yüksək döyüş bacarığına yiyələnməsi üçün var qüvəsi ilə çalışırdı.

Tez və səliqəli iş görən, sözdə də konkret və qısa danışan general Zeynalov həm də çox tələbkar komandir idi. O, həmişə cəsarətli və işgüzar zabitləri nümunə göstərərdi. General-mayor Zeynalov ictimai xadim kimi də fəal vətənpərvər idi, respublika Ali Sovetinin deputatı, Mərkəzi Komitənin üzvü olmuşdu.

1956-cı ildə Hacıbaba Zeynalovun misilsiz hərbi xidməti nəzərə alınaraq ona general-mayor rütbəsi verilib. Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəisi işləyən istedadlı komandir, Sovet Ordusu üçün bacarıqlı, yüksək ixtisaslı, Vətənin, xalqın keşiyində ayıq-sayıq dayanan zabitlər yetişdirirdi.

Hərbi məktəbdə bu gün general Zeynalovun adını ehtiramla çəkirlər. Məktəbin "Şöhrət muzeyi"ndə keçmiş rəisə həsr olunmuş ayrıca guşə var. Gələcəyin zabitləri bu guşənin qarşısına tez-tez yığışır, generalın keçdiyi şan-şöhrətli döyüş yolunu maraqla öyrənirlər.

İstefada olan polkovnik Konstantin Oletskinin xatirələrindən:

- General Zeynalov Bakı hərbi məktəbinə 1957-ci ildə gəldi. Onun məktəbə gəlişi ilə kursantların tədris prosesində müharibədən sonrakı döyüş təcrübəsinin üstün cəhətlərinin tətbiq edilməsi dövrü başlandı. Təlim sahəsində böyük təcrübəsi olan general Zeynalov özünün Frunze adına Akademiyada və Baş Ştabın Voroşilov adına Akademiyasında aldığı dərin biliyə əsaslanaraq, kursantların səhra şəraitində təlimini qətiyyətlə təşkil etməyə başladı. Zabit və müəllimlərdən tələb edirdi ki, kursantları müharibədə tələb olunan hər şeyə öyrətsinlər.

O, məktəbin zabit heyətində komandirlik və müəllimlik vərdişlərinin tərbiyə olunmasına, təkmilləşdirilməsinə də böyük diqqət yetirirdi. Gündəlik işində məktəbin təlim bazasını möhkəmləndirməyi də unutmur və bunu tabeliyində olanlardan da tələb edirdi. O deyirdi ki, "...savadlı, mənəvi və fiziki cəhətdən möhkəm zabitləri yalnız döyüşə maksimum yaxın olan şəraitdə tərbiyə etmək olar. Bundan ötrü də kursantların təlim-tərbiyəsi üçün hər cür lazımi şərait yaratmaq lazımdır".

Bilavasitə onun rəhbərliyi ilə müasir avtotank parkı, üzgüçülük hovuzu tikilmiş, təlim düşərgəsi təkmilləşdirilmiş, kabinetlər ən yeni avadanlıqla təchiz edilmişdir.

General-mayor Hacıbaba Zeynalovun rəhbərliyi və şəxsi iştirakı ilə qısa vaxtda ali riyaziyyat, fizika, texniki tank hazırlığı və xarici dillər kafedraları yaradılaraq avadanlıqla təchiz edilmişdir. Kursantlara kimya, elektroradiotexnika, elektronika, pedaqogika, psixologiya fənləri tədris edilməyə başlandı.

Bu gün Azərbaycan SSR Ali Soveti adına Bakı Ümumqoşun Komandirləri Məktəbinin ölkənin qabaqcıl Ümumqoşun məktəblərindən biri hesab olunmasında şübhəsiz general Zeynalovun xidməti böyükdür.

O, nikbin və təvazökar bir insan idi. Onu tanıyanların, onunla işləyənlərin, ondan dərs alanların hamısının xatirəsində Zeynalov beləcə qalacaqdır.

Hacıbaba Zeynalovun böyük sərkərdəlik qabiliyyətini yüksək qiymətləndirən partiya və hökumətimiz onu Lenin ordeni, üç dəfə "Qırmızı bayraq" və "Qırmızı Ulduz" ordenləri ilə, çoxlu medalla, fəxri fərmanlarla mükafatlandırmışdır.

Onun ölməz əməllərini əbədiləşdirmək məqsədilə xalqımız Xəzərin mavi sularında üzən bir gəmini "general Zeynalov" gəmisi adlandırmış, doğma şəhəri Gəncənin küçələrindən birinə onun adını vermişdir.

# GENERAL HEYBƏT HEYBƏTOV

General Heybət Heybətovdan söz düşəndə çoxları etinasızlıq göstərirlər. Xüsusilə, müharibə görməyən cavanlar. Səbəbi də budur ki, guya bu general doğma ad-familini atıb, arvadının (Zuvanovanın) familini qəbul edib[16], hətta dinini belə dəyişib.

Yalnız general-mayor Heybətovun döyüş dostları - polkovnik Baxış Mehdiyev, yazıçı-jurnalist İbrahim Novruzov, müharibə veteranı Əbdüləli Mürsəlov, Bəxtiyar Əfəndiyev və onu tanıyan başqa veteranlar general dostlarından söz düşəndə ondan fəxrlə danışırlar.

Qəribədir, əsl həqiqət qalıb kölgədə, amma mənasız bir fakt belə gözəl insanın, görkəmli sərkərdənin şəxsiyyətinə yersiz bir ağ ləkə salıb. General Heybətov bizim xalqın oğludur. Və mən bu unudulmuş, haqqında söz düşəndə bir çoxlarının ağız büzdüyü generalı bizə özümüzə “qaytarmaq” üçün dəridən-qabıqdan çıxmaq istəmirəm. Buna ehtiyac da yoxdur. Uzun axtarışlardan sonra general Heybətovun səksən altı yaşlı doğma bacısı Saraxanım Heybətovanı tapa bildim.

Əvvəla onu deyim ki, indiyədək hansı qəzet və jurnalda, radio və televiziya verilişlərində generalın ad-familini çəkirlərsə, atasının adını səhvən Heybət yazırlar. Onun əsl ad-famili belədir: - Heybət Atamoğlan oğlu Heybətov. Bu barədə generalın bacısı Sara xanımın söhbəti oxucular üçün də maraqlı olar.

- Ailəmiz çox böyük idi. Yeddi uşaqdıq: Heybət, Həzi, Cahangir, Nəcəf, Sara, Salman (Leninqrad mühasirəsində həlak oldu), Rəhman. Atam maştağalı idi, anam Tutixanım isə Saray kəndindən. Atamı zorla, çox dumanlı şəkildə xatırlayıram. Onu 1918-ci ildə erməni-müsəlman davasında heç nədən daşnaklar güllə ilə vurub öldürdülər. Atamdan sonra ailəmizin dolanacağı çox çətin olduğundan anam böyük qardaşım Heybəti Zuvanov familiyalı bir hərbçinin yanında işə düzəltdirir. Qardaşımın işgüzarlığı, fərasəti, yaxşı hafizəsi Zuvanovun xoşuna gəlir və buna görə onu hərbi məktəbə qəbul etdirir. Zuvanov həm də sonsuz idi. Anamdan təvvəqqe edir ki, Heybəti öz familinə keçirməyə, onu oğulluğa götürməyə icazə versin.

Anam bizi güç-bəla ilə saxlayırdı. Ağır ehtiyac və generalın şirnikləndirici vədləri anamı məcbur edir ki, belə bir güzəştə getsin. Qardaşım Heybətin başqa bir familiyanı götürməyinin belə bir tarixçəsi olub.

General Heybətovun ailəsini axtardım. Dedilər ki, oğlu Boris Əhmədli qəsəbəsində yaşayır. Üzümə qapını ortayaşlı bir qadın açdı. Nadejda Yevgenyevna təəssüflə bildirdi ki, Boris 1983-cü ildə vəfat edib. General qayınatasından isə evdə heç bir sənəd, fotoşəkil qalmayıb. Elə qapının ağzındaca hara, kimə müraciət etməyi “planlaşdırdıq”. Ondan generalın bacısı Saraxanımın ünvanını aldım. Bir də polkovnik Baxış Mehdiyevə müraciət etməyi məsləhət gördü. - Respublika hərbi Komissarlığında şəxsi işi qalmalıdır, - dedi.

“Qalmalıdır, saxlanılmalıdır”. Təəssüf ki, nə Nadejda Yevgenyevnanın dediyi kimi oldu, nə də mənim düşündüyüm kimi. Respublika hərbi komissarlığında mayor Çebunin Nikolay Mixayloviç dörd günlük axtarışdan sonra bildirdi ki, general-mayor Heybət Heybətovun şəxsi işi 1971-ci ildə məhv edilib. Vaxtilə generalın yaşadığı ərazinin rayon hərbi komissarlığına müraciət edin, bəlkə orda surəti saxlanılır, - dedi. Ordan da sevindirici cavab ala bilmədim: “Bizdə general Heybətovla bağlı heç bir sənəd, fotoşəkil saxlanılmır, vəssalam!” - cavabını alanda təəccübləndim. Axı bu adam general olub, adi, sıravi əsgər yox. Zənnimizcə, hər bir generalın həyat yolu onun mənsub olduğu xalqın tarixinin solmaz bir səhifəsidir.

Məni sevindirən təkcə polkovnik Baxış Mehdiyev oldu. Sən demə, polkovnikdə generalın zəngin “xəzinəsi” varmış. Heybətovun nadir fotoşəkillərinə (bu fotolar müharibə illərində səngərdə, döyüş dostları ilə, Krasnoarmeysk stanitsasında, 223-cü atıcı diviziyasında əla döyüş xidmətlərinə görə ona respublika Ali Sovetinin Keçici Qırmızı Bayrağı təqdim edilərkən, müharibədən sonra iş otağında çəkilib) baxdıqca ürəyimi fərəh hissi bürüyürdü.

16 Bundan sonra generalın ad-famili hər yerdə Heybətov kimi işlənəcək.

Baxış Mehdiyevin qoruyub saxladığı sənədlərin içərisində ən qiymətlisi 1945-ci il iyunun dördündə Sovet İttifaqı Qəhrəmanı, qvardiya general-leytenantı Cerebinin, beşinci zərbə ordusunun komandanı general-polkovnik Berzarinin, hərbi şuranın üzvü general-leytenant Bokovun, 416-cı Taqanroq diviziyasının komandiri general-mayor Sızranovun general-mayor Heybət Heybətova verdikləri "attestasiya" sənədidir. Bu qədər əziyyətdən sonra general haqqında bircə sənəd tapdığıma görə sevinirdim.

Polk komandiri Baxış Mehdiyev müharibənin ilk günündən sonuna kimi diviziya komandiri general Heybətovla çiyin-çiyinə vuruşub. Ona görə də generalın müharibə dövrünü yaxşı xatırlayır. 1983-cü ildə nəşr etdirdiyi "İki yüz iyirmi üçüncü Qırmızı Bayraqlı Belqrad diviziyası" hərbi memuarında komandir dostundan iftixarla söhbət açır:

"... General Heybətov tibb məntəqəsinin rəisi Şükür Əhmədovun müşayiətilə yaralılara yaxınlaşdı. Yaralının üzünu görən kimi Əhmədovun rəngi qaçdı. O, döyüş dostunu tanıdı. Yaralı döyüşçü Bəyqulov da gözlərini açıb Şükürü tanıdı, gülümsəməyə çalışdı. General Heybətov şinelin küncündən möhkəm yapışmış yaralının əlinə ehtiyatla toxundu:

- Möhkəm ol, oğul...

- Eybi yoxdu, yoldaş general, mən hələ...- Bəyqulov nəsə demək istədi. Onu soyuq tər basdı, ağrıdan dişlərini möhkəm sıxdı.

General Heybətov yaralı əsgərin ipək kimi yumşaq saçlarını ata nəvazişi ilə sığalladı.

- Eybi yoxdu, oğlum, indi qospitala aparıb səni müalicə edərlər. Tezliklə qayıdarsan, biz hələ səninlə yeni döyüşlərə gedəcəyik..."

Polkovnik Baxış Mehdiyevin general haqqında kitabında yazmadığı şəxsi xatirələri, söhbətləri də çoxdur. Bacısı Sara xanımdan sonra Baxış ikinci adamdır ki, general Heybətovdan ürəklə, yana-yana danışdı:

- 1959-cu ildə general Heybətov vəfat edəndə bir cümə axşamı arvadı Anna Fyodorovna çəkinə-çəkinə mənə yanaşdı.

- Baxış, - dedi, - mənə yaxşı məlumdur ki, həyatda Heybətin sizdən yaxın ikinci bir dostu yox idi. Mən çox istərdim ki, onun attestasiyası sənədi sizdə qalsın. Sizə daha çox etibar eləyirəm. Çünki bir dəfə Heybət xəstəykən sənədlərindən söhbət düşəndə arzu elədi ki, attestasiya sənədi sizdə qalsın.

Mən Annanı da yaxşı tanıyırdım. Müharibənin ilk günündən sonunadək bizim diviziyada şəfqət bacısı işləyirdi. Diviziyamızda Heybətovlar ailəsindən üç nəfər vuruşurdu. General ata, zabit oğul və hərbi şəfqət bacısı olan ana. Döyüşlərin birində oğlu düşmən gülləsindən həlak oldu. Anna oğul itkisindən bir müddət özünə gələ bilmədi. Əlbəttə, ata kimi general Heybətovda yanıb-yaxılırdı. Amma çalışırdı ki, döyüşçülər yanında ümidsizliyini, kədərini büruzə verməsin.

Bir dəfə kəşfiyyatdan "dil" gətirmişdik. Ondan lazım olan məlumatları alandan sonra qazmadan çölə çıxartdıq. Anna əsir alman zabitini görən kimi qızmış şirə döndü, cumub mənim əlimdən naqanı zorla aldı. (Naqan əsir alman zabitinin idi). - Onlar mənim oğlumu güllələyiblər, mən də bu frisi öz silahı ilə güllələyəcəm, - deyib alman zabitini güllədən keçirdi.

Generalın adına verilən attestasiya sənədi onun 1943-cü il noyabrın 21-dən 1945-ci il iyulun 4-nə qədər hərbi fəaliyyətini əhatə edir. Həmin dövrdə general Heybət Heybətov Qırmızı Bayraqlı Suvorov ordenli 416-cı Taqanroq atıcı diviziyasında komandir müavini olub. "Attestasiya" sənədi on üç bənddən ibarətdir. Onu olduğu kimi sizə təqdim edirəm:

Təvəllüdü: 1898-ci ilin sentyabrı.

Milliyyəti: azərbaycanlı.

Partiyalılığı: 1931-ci ilin avqustundan Ümumittifaq Kommunist (b) Partiyasının üzvü.

4. Təhsili; orta, səkkizinci sinfi 1922-ci ildə bitirib,

b) hərbi təhsili: 1922-ci ildə ikiillik Azərbaycan hərbi piyada məktəbini və 1929-cu ildə birillik süvari qoşunun nəzdindəki "Vıstrel" kursunu bitirib. v) siyasi təhsil almayıb.

5. Fəhlə-Kəndli Qızıl Ordu sıralarına nə vaxt qəbul olub? - 1920-ci ilin oktyabr ayında.

6. Böyük Vətən müharibəsi cəbhələrində iştirak etmə müddəti - 1941-ci il, oktyabrın 13-dən. Cəmisi üç il yeddi ay və on yeddi gün iştirak edib.

7. Döyüşən ordu zabitidir, yoxsa ehtiyatdadır? - 1922-ci ildən döyüşən ordu zabitidir.

8. Müharibə vaxtı (1941-45-ci illərdə) ilk zabit rütbəsini nə vaxt alıb? - İnqilab illərində.
9. Səhhəti: - Sağlamdır.
10. Müharibədən əvvəl xidmət etdiyi hissə və vəzifəsi: - Şimali Qafqaz hava Dairəsində 55-ci atıcı diviziyasının, 641-ci atıcı polkunun komandiri.
11. Təltifləri: - İki Qırmızı Bayraq ordeni, ikinci dərəcəli Suvorov ordeni, ikinci dərəcəli Kutuzov ordeni, ikinci dərəcəli Boqdan Xmelnitski ordeni, birinci dərəcəli Böyük Vətən müharibəsi ordeni və "Qafqazın müdafiəsinə görə" medalı ilə[17].

12. Müharibə vaxtı yaralanıb, kontuziya olubmu? - Üç dəfə yüngül yaralanıb və üç dəfə də yüngül kontuziya olub.
13. Nə vaxtdan diviziya komandirinin müavini olub? - 1943-cü il noyabrın iyirmi birindən.

1941-ci ildə Vətən ağır günlər keçirəndə xalqımızın sayseçmə oğullarından milli diviziyalar təşkil olundu. Həmin il oktyabrın on səkkizində qırx altıncı ordunun yüz altmış səkkizinci ehtiyat polku nəzdində 223-cü atıcı diviziyasının təşkilinə başlandı. Əsasən azərbaycanlılardan ibarət olan bu birləşmə 1942-ci ilin iyulunadək hazırlıq keçdi. Diviziyanın siyasi rəhbəri, komissar və komandirləri xalqımızın qabaqcıl ziyalıları idi.

İki yüz iyirmi üçüncü diviziyanın ilk komandiri polkovnik Heybət Heybətov təyin olundu.

Baxış Mehdiyev: - 1942-ci ilin sentyabrında döyüşə tam hazır olan diviziya Buynakskda dayanmışdı. Mir Cəfər Bağırov diviziyanın əsgərləri ilə görüşə gəldi. Elə sıraların qarşısında kinayə ilə Zuvanova - Heybətova dedi ki, bu milli birləşmədir, komandiri də Azərbaycan millətinin nümayəndəsi olmalıdır. Familini gərək dəyişəsən...

Polkovnikin qəzəbdən gözləri böyüdü. Sərkərdələrə məxsus sərt sifəti qayış kimi dartılıb qaraldı. Zabitlər, əsgərlər ürək ağrısı ilə sevimli komandirlərinə heyfsiləndilər ki, cəllad əlinə keçdi. Həmin günü Bağırov qonşu diviziyada bir neçə" fərarilərin özlərinə qəbir qazdırıb içində güllələtmişdi... Ona görə də o, çox hirsliydi.

Polkovnikin heç kəsin gözləmədiyi cavabı Bağırovu sarsıtdı:

- Mən, - dedi, - Azərbaycan xalqının əsgəriyəm. Xalqıma sidq ürəklə xidmət edirəm, son nəfəsiməcən də edəcəyəm. O ki qaldı familiya məsələsinə, bu mənim şəxsi işimdir. Bunun mətləbə dəxli yoxdur. Ən başlıcası bütün varlığımla, ürəyimlə azərbaycanlıyam. Vaxtilə mənə ata əvəzi olmuş insana nankor çıxmaq istəmirəm. Müqəddəs Quranda da deyilir ki, səni xoşbəxt edən adama sadiq qalmaq borcundur.

Ta Xarkova qədər Heybətov bizim diviziyanın komandiri oldu.. 1943-cü ilin iyun ayı idi. Dyaçkino stansiyası uğrunda vuruşurduq. Əmr gəldi ki, general-mayor Heybətov 416-cı diviziyaya komandir müavini göndərilir. Əlbəttə, belə gözəl, mahir komandir üçün müavinlik aşağı vəzifə idi. Ən dözülməzi də o idi ki, general Heybətovu polkovnik Sızranova müavin təyin etmişdilər. Bağırov ondan heyfini belə çıxdı.

1943-cü ilin iyunundan 416-cı atıcı diviziyanın komandir müavini təyin olunan general Heybətovu döyüşçülər ürəkdən sevir və ona dərin hörmət bəsləyirdilər.

General-mayor Heybətov - Zuvanovla Qafqazdan Berlinədək döyüş yolu keçən yazıçı Məmməd Aranlının "Cəbhə gündəliyi"ndən:

"9 mart 1944-cü il... Bizimkilər hücuma keçmişdilər. Çox-qanlı vuruşmalar getdi. Nəhayət, faşistlər qaçmağa məcbur oldu.. Bəxtiyar Əfəndiyevlə uzun-uzadı dərdləşdik. Diviziyanın tarixi haqqında düşünürdük.

General-mayor Zuvanov bizə gəldi. O, keçirdiyi günlər haqqında danışırdı. Xüsusilə Səfər Məmmədovun adını tez-tez çəkirdi. Səfər öz məsləhətləri ilə bir çox hərbi əməliyyatlarda generala kömək etmişdi. General Zuvanov çox sadə, təvazökar və baməzə adamdır. Familinin rus olmasına baxmayaraq, tipik bir azərbaycanlıdır. Söhbəti çox sevir. Yaşayışı da çox qəribədir.. Yağ, ət yeməz..."

17 General Heybət Heybətov döyüş xidmətlərinə görə Lenin ordeni ilə də təltif olunmuşdur

Döyüşçü yazıçı Məmməd Aranlının gündəliyində adı çəkilən Bəxtiyar Əfəndiyevi axtardım. Öyrəndim ki, istefada olan kapitan 416-cı diviziyanın veteranı, hazırda Nərimanov rayonundakı otuz doqquz nömrəli beynəlmiləl orta məktəbin direktorudur.. General Heybətovla qələbəni Berlində qarşılayan Bəxtiyar müəllim döyüş dostu haqqında xoş xatirələr söylədi:

- Polkovnik Sızranov general Heybətovun ona müavin göndərilməsini ədalətsizlik kimi qəbul edirdi. Ona görə də generala hədsiz dərəcədə hörmət və məhəbbət göstərirdi. Bir dəfə diviziyanın siyasi şöbə rəisi polkovnik Rəşid Məcidova dedi:

- Hiss edirəm ki, general sıxıntı keçirir. Çox nahaq. Mən yaxşı bilirəm ki, onun vəzifəsini niyə aşağı salıblar. Heybətov gözəl sərkərdədir. Onu Bağırovun tapşırığı ilə gözüm - çıxdıya salıblar. Şəxsən mən general Heybətova mərd bir azərbaycanlı kimi baxıram. O, mənə burada çox lazımdır. Çünki əsgərlərin dilini və xasiyyətini ondan yaxşı bilən yoxdur.

Doğrudan da, general Heybətov diviziyaya gələn gündən sadəliyi və qayğıkeşliyi ilə əsgərlərin, zabitlərin hörmət və məhəbbətini qazandı. O, hər bir döyüşçüyə atalıq qayğısı göstərərdi. Azərbaycan dilində o qədər şirin söhbətlər edər və atalar məsəllərini elə yerli-yerində işlədərdi ki, əsgərlər təəccüblənərdilər: görəsən, generalın özü azərbaycanlı ola-ola bəs, ad-famili niyə başqadır? Mən də zarafata salıb deyərdim, tale belə gətirib, deyirlər, cavanlığında sevgi oduna yanıb.

Beşinci zərbə ordusu hərbi şurasının keçmiş üzvü, ehtiyatda olan general-leytenant Fyodor Yefimoviç Bakovun xatirələrindən:

"1945-ci ilin iyirmi bir aprel günü Beşinci zərbə ordusu, o cümlədən dörd yüz on altıncı diviziya üçün unudulmaz gün idi. Dörd yüz on altıncı diviziya Berlinin xarici və daxili müdafiə xətlərini yararaq aprelin iyirmi birində şəhər uğrunda döyüşə girişdi. Diviziya komandirinin müavini, Azərbaycan xalqının mərd oğlu general-mayor Heybətovun rəhbərliyi altında min üç yüz yetmiş üçüncü polk hamıdan əvvəl şəhərə daxil oldu. General Heybətov döyüşdə həlak olmuş polk komandiri podpolkovnik Z.Səidbatalovu müvəqqəti əvəz edirdi. General Heybətov diviziyanın və qoşunların əməliyyat zolağındakı vəziyyəti haqqında ətraflı məlumat verdi.

Min üç yüz yetmiş üçüncü polkun qarşısında saraya, sonra isə Berlinin əsas küçəsi olan Unter-den Linden küçəsi ilə Brandenburq darvazası istiqamətində hücum etmək vəzifəsi qoyulmuşdu. Diviziya Şpreye çayı üzərindəki körpüdə döyüşə başladı.

Mən döyüşü müşahidə edirdim. General Heybətov və onun döyüşçülərinə demək istəyirdim: "Siz xoşbəxt adamlarsınız! Sizə Almaniyanın ürəyi olan Berlinin özündə çox mühüm dövlət və hərbi obyektlərə hücum etmək şərəfi nəsib olmuşdur".

Böyük Vətən müharibəsinin ağır günlərində vəfalı dostum general Heybətovla yüzlərlə hadisənin şahidi olmuşam. Onlardan sizə yalnız birini qısaca nəql etdim. Hələ siz görəydiniz ki, Brandenburq darvazası önündə tankın üstünə qalxan general Heybətov necə alovlu bir nitq söylədi. İnanıram ki, general Heybətovun həmin çıxışı azərbaycanlı dostlarımın hələ də yadından çıxmayıb. Döyüşçü həmyerlilərinin misilsiz qələbəsinə sevinən general deyirdi:

- Mən xoşbəxtəm ki, bu tarixi qələbə günündə Azərbaycanın mərd oğulları ilə çiyin-çiyinə vuruşaraq, oddan-alovdan keçib gəlmiş azərbaycanlı qızlarını da Berlin torpağında salamlayıram. Böyükxanım Mircavadova, Rəşidə Qasımzadə, Zəhra Səlimova, Tahirə Dadaşova ulu Azərbaycanımızın qarşısında müqəddəs borclarını kişi qeyrəti ilə yerinə yetirdilər. Bu sinəsi orden-medallı qızlar ulu nənələri Məhsətinin, Natəvanın, Həcər xanımın, Nigar xanım Şıxlinskayanın döyüş xidmətlərini qeyrətlə davam etdirdilər. Bu gün Berlin uğrunda tarixi vuruşmalar gedərkən son atəşi Brandenburq darvazası önündə məhz dörd yüz on altıncı Azərbaycan atıcı diviziyasının igidləri açdılar. Yer üzünü fəlakətə düçar etmək istəyən faşist Almaniyasının məğlub olmasında mərd Azərbaycan oğullarının da misilsiz döyüş xidmətləri olduğuna biz hədsiz dərəcədə sevinirik. Biz o tarixi hücumun iştirakçıları və müharibənin necə qurtarmasının şahidləriyik. Qafqazdan Berlinədək döyüş yollarında canlarından keçmiş igidlərimizin xatirəsi hər zaman qəlbimizdə yaşayacaqdır.

1985-ci il sazaqlı fevral ayının yarıdan çoxunu "hünər" verilişinin çəkiliş qrupu Kuban torpağında ezamiyyətdə keçirdi. Məqsədimiz general Heybət Heybətovun komandir olduğu iki yüz iyirmi üçüncü Azərbaycan atıcı diviziyasının döyüş yolundan silsilə verilişlər hazırlamaq idi.

Diviziyanın min otuz doqquzuncu atıcı polkunun mərmi bölməsinin komandiri, istefada olan mayor Əbdüləli Mürsəlov da bizimlə birgə keçmiş döyüş yerlərinə səfərə çıxmışdı. O vaxtdan qırx ildən çox keçsə də uğrunda vuruşduğu Ust-Labinskin, Nekrasovskayanın, Stebilyevskayanın, Krasnoarmeyskin, Temirqoyevskin və Kurqansk yaşayış məntəqələrinin hər cığır və yolunu yaxşı xatırlayırdı. Diviziya Kuban torpağı uğrunda döyüşərək bu yerləri düşməndən azad etmişdi.

Hara gedirdiksə igid eloğlularımızın əsgəri rəşadətindən, döyüş məharətindən minnətdarlıqla söhbət açırdılar. Bir azərbaycanlı kimi iftixar hissi keçirirdik ki, qəhrəman həmyerlilərimizin igidliyi kubanlıların xatirəsindən silinməyib.

Əbdüləli müəllim bizi Krasnodar Diyar Veteranlar Şurasının sədri, general-mayor Aleksey İvanoviç Kabanovun da görüşünə apardı. Bizi səmimiyyətlə qarşılayan general sevinclə:

- Sizə general dostum Heybətovun igidlərindən danışa bilərəm, - dedi. General Heybətovun özünü mən daha yaxşı tanıyırdım. Biz tez-tez beşinci zərbə ordusunun hərbi şurasında görüşərdik. İki yüz iyirmi üçüncü diviziyanın igid döyüşçülərini, onun mərd komandiri general Heybət Heybətovu biz kubanlıların unutmağa haqqı yoxdur. Azərbaycanlılar bizim torpağımızın azadlığı uğrunda yüzlərlə oğlunu qurban verib, misilsiz igidliklər göstəriblər.

... 1943-cü il martın doqquzunda general Heybətovun diviziyası partizan dəstəsi ilə birləşərək Krasnoarmeyski azad etdi. İlk dəfə diviziyanın min qırx birinci polku bizim torpaqda, Azərbaycan SSR Ali Sovetinin Keçici Qırmızı Bayrağı ilə təltif olundu. Bayrağı məşhur şair Səməd Vurğun general Heybət Heybətova təqdim etdi. Bu bayraq Vyanaya qədər döyüş yollarında azərbaycanlı igidləri yeni qələbələrə ruhlandırdı. Üzərində Suvorov və Kutuzov ordenləri olan həmin bayraq indi Moskvada - Sovet Ordusunun Mərkəzi Muzeyində saxlanılır. Kuban torpağının iki guşəsində iki yüz iyirmi üçüncü Azərbaycan atıcı diviziyasının əsgər və zabitlərinin döyüş yolunu əks etdirən muzey təşkil etmişik. Kuban torpağının azadlığı uğrunda canından keçən hər bir azərbaycanlı əsgərin xatirəsi bizim üçün əzizdir.

... "Attestasiya" sənədi hər bir zabitin keçdiyi həyat yolunun, döyüş və hərb yolunun güzgüsüdür. Hərbçinin fəaliyyətini öyrənmək üçün hər bir tədqiqatçı-yurnalist onu mütləq diqqətlə oxuyub öyrənməlidir. Xatirələrdə, yazılan hər hansı publisist və bədii əsərlərdə müəllif istədiyi kimi artıq-əskik yaza bilər. Amma "attestasiya" kimi rəsmi sənəddə bu qeyri-mümkündür. Ona görə də general-mayor Heybət Heybətova verilən "attestasiya"nın mətnini burada tam verməyə ehtiyac duyuruq.

"İşində Lenin-Stalin partiyasına və sosialist vətəninə sədaqətlidir. Yoldaş general-mayor Heybətov 1943-cü ilin noyabrından (416-cı diviziyadakı xidməti nəzərdə tutulur. - Ş.N.) indiyədək böyük döyüş yolu keçmiş və Dnestr, Külstrin, Oder, Berlin ətrafında faşist işğalçıları ilə döyüşlərdə, düşmənin Visladan Berlinə kimi təqib edilməsində, hərbi hissələrə rəhbərlik işində fəal iştirak etmişdir. Özünü mahir sərkərdə, bacarıqlı döyüşçü kimi göstərmişdir. Taktiki şəraitdən tez baş aça bilir, xüsusi əməliyyatları ümumi əməliyyatlara görə uyğunlaşdırmağı yaxşı bacarır. Həm də qoşun növlərinin qarşılıqlı hərəkətini təşkil etmək vərdişinə malikdir. Təlim şəraitində hissələrin öyrədilməsinin zəruri vaxtını bilir. Qoşunların öyrədilməsində təşkilati vərdişlərə malikdir.

Döyüş və təlimlərdə qoşunların idarəsinin təşkili məsəlsini düzgün qiymətləndirir, idarə işini təşkil etməyi bacarır. Arxa cəbhə xidmətini və döyüşdə arxa cəbhənin rolunu bilir. Yurüşlərdə dözümlüdür, ancaq son vaxtlar tez-tez sağlamlığından şikayət edir. Xaraktercə möhkəmdir, general kimi mədənidir, icraçıdır, mərd və qorxmazdır, cəsarətli və qətiyyətlidir. Mənəvi cəhətcə yenilmzədir, unsiyyətlidir, xüsusi heyətin arasında nüfuzludur, söhbətlrində sadədir. Siyasi cəhətcə savadlıdır. İdeoloji cəhətcə təmkinlidir. Yaralı olsa da heç vaxt döyüşdən yarımçıq çıxmayıb, axıra kimi əməliyyatlarda fəal iştirak edib.

Ç I X A R I Ş: - Nizami hissə komandirinin müavini vəzifəsinə layiqdir.
- Hərbi təlim məktəblərinin istifadə etmək olar.

Otuz ikinci Suvorov ordenli atıcı korpusun komandiri, Sovet İttifaqı Qəhrəmanı, qvardiya general-leytenantı Jerebin. Beşinci zərbə ordusunun komandanı, general-polkovnik. Berzarin.

Hərbi Şuranın üzvü, general-leytenant Bokov.

12 uyun 1945-ci il.

General Heybətov haqqında çox düşünmüşəm. Bəzən bu kəşməkəşli həyat yolu keçmiş generalın taleyinə acımışam. Elə olub ki, onun haqqında yazdığım bu qeydlər günlərlə yazı stolumun üstündə qalıb. Bundan sonra nə yazım, oxucuya nə deyim? - sualı mənə əzab verib. Dişünmüşəm ki, yəqin ad-famili dəyişmək sonralar - ahıl yaşına çatanda generalın özünə də mənəvi əzab verib, el-oba arasında sıxıntı keçirib. Əgər elə olmasaydı öz azərbaycanlıları arasında dostu-tanışı azlıq təşkil etməzdi. Belə anlarda Baxış Mehdiyevin danışdığı bir epizod: mənim fikirlərimi alt-üst edib, generalı Azərbaycan xalqına doğmalaşdırıb.

1944-cü ildə Dnestr çayı uğrunda döyüşlər gedirdi. Dörd yüz on altıncı diviziya da bizim iki yüz iyirmi üçüncü diviziya ilə yanaşı, çiyin-çiyinə vuruşurdu. Platsdarmda növbəti döyüş fasiləsi idi. Xəbər gəldi ki, general Heybətov bir qrup döyüşçü ilə mühasirəyə düşüb, vəziyyəti çox ağırdır, bəlkə də düşmən onları məhv edib.

Mən cəsur döyüşçülərdən götürübköməyə getdim. Dörd saata qədər vuruşub onları mühasirədən azad etdik. General Heybətov yaralanmışdı. Özümü yetirib onu bərk-bərk qucaqladım. O, boynuma sarıldı. Kövrəldi: - yenə öz millətim köməyimə gəldi, yenə öz eloğlum məni ölümdən, dardan qurtardı...

Onda mənə kortikini[18] bağışladı. Sonralar üstündə belə yazdırdı:

"İgid kəşfiyyatçı Baxış Mehdiyevə!

Düşmən arxasına keçərək, alman ober-leytenantını əlbəyaxa döyüşdə tərk-silah edərkən göstərdiyi igidliyə görə xüsusi silahla mükafatlandırılır.

General-mayor Heybətov. 5 yanvar 1944-cü il".

... O kortiki Baxış Mehdiyev indi də saxlayır.

Görəsən, bu dar macalda onu ölümdən xilas edən eloğlusunu qucaqlayıb öpərək, - yenə öz millətim məni xilas elədi, - deyək Heybətov həmin anlarda nə fikirləşirmiş?

Həmin ilin həmin ayında cəbhəçi-yazıçı Məmməd Aranlı gündəliyində yazmışdır:

"İyirmi bir may 1944-cü il, Bu gün axşam son dərəcə kədərləndirici bir xəbər eşitdim. Mayor Məmmədov xəbər gətirdi ki, general-mayor Heybət Heybətov 223-cü diviziyaya gedən günün səhərisi həlak olub. Bəzi xəbərlərə görə meyidi tapılmayıb".

...Yazıçı İbrahim Novruzov isə generalın insani keyfiyyətləri və general rəşadəti haqqında yazan ən yaxşı müəllifdir desək, mübaliğə olmazdı.

"Mən general Heybətovu otuzuncu illərin ortalarından tanıyırdım. Yanında əsgər olmuşdum. O vaxt mayor rütbəsində olan Heybətov yetmiş yeddinci diviziyanın qərargahının operativ şöbəsinin rəisi idi. Bir ilin içərisində o, əvvəlcə qərargah rəisi, sonra da diviziya komandiri oldu. O vaxtdan keçən müddət ərzində demək olar ki, zahirən onda heç bir dəyişiklik əmələ gəlməmişdi. Əvvəlki kimi o, yenə də qıvraq, geyimində səliqəli, yerişində cəld, baxışlarında iti idi. Danışığında da maştağalılara məxsus şivəni saxlamışdı... Ruslar onu "Batya" çağırardılar, azərbaycanlılar ona "ata" deyərdilər.

O, həqiqətən diviziyadakılara ata idi. Onlara yoldaş, silahdaş və sirdaş idi.

Onun müsahiblərinə axır öyüdü bu olurdu: - Əsgər gərək rəşadət göstərə! General Heybətov özü çox rəşid adam idi.

... Düşmən yuvası Berlinə də general Heybətov diviziyanın önündə girdi.

Mizrab sarı simləri titrədəndə, generalın pərdə-pərdə muğamat dediyini eşidən əsgər dostları bu dəfə də onun Almaniyanın paytaxtında, Unter-den Linden ştrassedə, Brandenburq

---

18 Komandirlərə verilən gödək qılınc.

darvazası qarşısında çəpik çalıb "Qaytağı" oynadığını gördülər. Dördillik döyüşlərin hesabatını verən birləşmə komandiri Azərbaycan diviziyalarından danışanda general-mayor Heybət Atamoğlan oğlu Heybətovun adını birinci çəkdi, ona cəbhə komandanı marşal Jukovun təşəkkürünü yetirdi.

General bu tərifə, bu təşəkkürə layiq əsgər idi". Bilmirəm, bütün bunlardan sonra general Heybətova - xalqına dönük çıxıb demək mümkündürmü?

Əlbəttə, yox. Mən inanmırdım və indi də inanmıram ki, hardasa ad-familini dəyişməklə, general Heybətov öz elinə, obasına, xalqına dönük çıxıb, ondan üz döndərib. Bu addımın səbəbkarı yalnız ehtiyac olub. Tanrı heç kəsin bəxtini, döndərib, xurcununu əyməsin. Əyəndə insan yerişini də itirir... Müdrik Səməd Vurğun demişkən ehtiyac qul eylər qəhrəmanı da. Əgər atası Atamoğlan kişi 1918-ci ildən nədən bir erməni daşnakının, namərd gülləsinin qurbanı omasaydı, Heybət bu səhv addımı atardımı? Ana Heybət adlı oğlundan keçərdimi? Əlbəttə yox!

İbrahim Novruzovun "Yaşıdlarım" kitabındakı balaca bir epizodu oxuyanda qeyri-ixtiyari kövrəldim.

"Bir səhər qəzetlər general Heybətovun Kiyevdə uzun sürən xəstəlikdən sonra vəfat etdiyini xəbər verdilər.

Deyirlər ki, general Heybətov canını tapşırmamışdan qabaq bayatı çağırmışdır, "Ölməyə Vətən yaxşıdır" söyləyərək, cənazəsinin Odlar yurdunda dəfn olunmasını vəsiyyət etmişdi...". Qədirbilən xalqımız general oğlunun vəsiyyətinə əməl etdi. O, Fəxri xiyabanda dəfn olundu. Doğma kəndi Maştağada abad bir küçə onun adını daşıyır.

Əziz oxucu! İndi özün düşün, özün saf-çürük elə. Kimdir general Heybətov? Onunla fəxr eləmək olarmı? Bu suala özün cavab ver!

## GENERAL ƏJDƏR XASPOLADOV

Ədliyyə generalı Əjdər Xaspoladovun azərbaycanlı olması haqqında ilk dəfə jurnalist dostum Cavad Xaspoladovdan eşitdim. Onun general haqqında cəmi bir neçə məlumatı vardı: göyçaylı olub, Moskvada yaşayıb, Orta Asiyada işləyib. Duzü, inanmadım ki, bizim günlərdə yaşayan generaldan, bizim xalqın xəbəri olmaya. Bəlkə də mənim bu inamsızlığımı duyan qələm dostum səhərisi generalın balaca bir şəklini də gətirdi və məsləhət gördü ki, Bakı Dövlət Universitetinin professoru Əziz Əsədovu tapım. O, vaxtilə general Əjdər Xaspoladovla görüşüb.

Professor Əziz Əsədovu çoxdan tanıyırdım. Respublika mətbuatında maraqlı yazılarını çox oxumuşdum. Bizim "Hünər" verilişində müharibə veteranı kimi çıxış eləmişdi.

Qırmızı Bayraqlı, Suvorov ordenli 416-cı Taqanroq diviziyasında hərbi prokuror olan Əziz müəllimin Böyük Vətən müharibəsi illərində sosialist qanunçuluğunun təbliğ edilməsi sahəsində böyük xidmətləri var. Ağır oturub, təmkinlə danışan bir ağsaqqal kimi hamımız ona hörmət edərdik. Danışdığı döyüş epizodlarında heç vaxt "mən, mən" deməyən Əziz müəlim odlu səngərlərdə gənc yaşlarında el-oba yolunda həlak olan silah dostlarını xatırlar, onların qəhrəmanlığını bugünkü gənclərə şirin bir dillə nəql edərdi.

Qəfil görüşünə gəlməyim hiss elədim ki, onu təəccübləndirdi. Xoş-beşdən sonra mətləbi açdım. Gülümsünüb dedi:

- Səməd Vurğun doğru deyib ki, könüldən-könülə yollar görünür. İki-üç gündü sənin telefonunu axtarıram. General Əjdər Xaspoladov haqqında özüm sənə məlumat vermək istəyirdim. Gəlişin lap yerinə düşüb...

* * *

... Yadımdadır, - deyib professor qırx səkkiz il əvvəl olan görüşünü xatırlayır. - 1940-cı ilin yayında Litvanın Olitus şəhərinin azad edilməsində bilavasitə iştirak edirdim. Məni xüsusi tapşırıqla Daşkəndə göndərdilər. Orta Asiya hərbi Dairəsi hərbi tribunalı sədrinin yanına getməli

oldum. Sədrin qəbul otağına girərkən, otaqdan başına kəlağayı örtmüş bir azərbaycanlı qadın çıxdı. Bu qadın Orta Asiya hərbi Dairəsi hərbi tribunalının sədri, briqada hərbi hüquqşünası Əjdər Mahmud oğlu Xaspoladovun bacısı idi. Sədr məni mehribanlıqla qəbul etdi. Xidməti söhbətlərimiz qurtarandan sonra, ondan özü haqqında danışmasını xahiş etdim. O, yalnız "azərbaycanlıyam, göyçaydanam" - deməklə kifayətləndi. Şəxsi söhbətimiz və görüşümüz bununla bitdi. 1941-ci ilin axırlarında cəbhə qəzetlərində oxudum ki, Əjdər Xaspoladov ədliyyə general-mayorudur. Müharibə illərində general Əjdər Xaspoladov əlli altıncı ordunun hərbi tribunalının sədri kimi çox məsul bir vəzifədə çalışırdı.

Müharibə qurtarandan sonra 1984-cü ildə bir məclisdə generallardan söhbət düşmüşdü. Mən istər-istəməz general Əjdər Xaspoladovu xatırladım. İş elə gətirdi ki, bir neçə ay sonra Moskvada ezamiyyətdə oldum. SSRİ Ədliyyə Nazirliyinə gedib generalın ad-familini söylədim. Xahiş etdim ki, onun ünvanını mənə versinlər. İstəyirdim mətbuatda çıxış edib, bu naməlum generalımızı xalqımıza tanıdım. Əvvəlcə evinə zəng eləyib 40-cı ildəki görüşümüzü xatırlatdım, çətinliklə də olsa görüşməyə razılıq verdi. Məni evinə çağırdı. Xeyli söhbət etdik, haqqında yazmaq istədiyimi biləndə razılıq vermədi. Olmaz, - dedi mənim haqqımda yazmağa icazə verilmir.

Məndən Göyçayı soruşdu. - Neçədi, - dedi, - abadlaşıbmı? Ən çox yadımda qalan Şamaxıdır, ona görə ki, Şamaxı o vaxtlar qəza mərkəzi idi, uşaqlığım, ilk gəncliyim mənə xəyal kimi gəlir. Onda ürəkaçan heç nə yoxdu, aclıq, səfalət, bir də ehtiyac o vaxt məni bərk yaxalamışdı. Orda qalsam, bəlkə də ölüb-itmişdim. Ömrüm boyu Nəriman Nərimanova rəhmət oxumalıyam. 1919-cu ildə o məni Moskvaya oxumağa göndərməsəydi kim bilsin, yetim taleyimə harda nöqtə qoyulacaqdı. Ona görə də o kişinin Kremlin həyətindəki məzarını tez-tez ziyarət edirəm. Uşaqlıqda nənəmin öyrətdiyi surəni o müqəddəs insanın məzarı önündə dayanıb oxuyuram.

Ayrılanda soruşdum ki, bəlkə sizə Vətəndən bir şey lazımdır. Çəkinməyin, yoldaş general, nə lazımsa deyin, göndərərəm.. Duruxdu. Utancaq bir təbəssümlə üzümə baxıb:

- Əgər mənə Mirzə Ələkbər Sabirin "Hophopnamə"sini ərəb əlifbasında göndərə bilsəydiniz, sizə ömrüm boyu minnətdar olardım. Şairlərdən ən çox yadımda qalan Sabirdir. Qəribədir ki, son illər yuxuda onun şerlərini oxuyuram. Gündüzlər yaddaşıma zor verib onlardan xatırladıqlarımı əzbərləyirəm. Atam, anam, yoxsul dünyam gözüm önündə durur, istər-istəməz kövrəlirəm.

Bakıya qayıdanda kitab mağazalarını ələk-vələk elədim. "Hophopnamə" tapılmadı. Məcbur olub professor dostum Abbas Zamanova müraciət etdim. Kitabı Abbas müəllimdən alıb göndərdim. Bir il sonra general Əjdər Xaspoladovdan bir bağlama aldım. Kitabı geri göndərmişdi. Səmimi, kövrək bir məktub yazmışdı. Yazırdı ki, mən "Hophopnamə"dən özümə lazım olan, xalqımla bağlı qidanı aldım, mənimsədim. Hazırda gözləri tutulub, ömrümün son günlərini yaşayıram. İstəmirəm ki, xalqımın bu misilsiz milli sərvəti yad əllərə keçsin, ona görə də böyük minnətdarlıq hissi ilə kitabı geri qaytarıram.

* * *

- Əziz müəllim, general haqqında daha ətraflı məlumat almaq üçün ailə üzvlərini görmək istəyirəm. Bəlkə sizdə onların ünvanı qalıb?

- Hazırda general Əjdər Xaspoladovun qızı Kamilla xanım Moskvada yaşayır. O, hüquq elmləri namizədidir. Moskva Dövlət Universitetində dərs deyir. Sənətdə atasının yolu ilə gedir. Hər dəfə Moskvaya gedəndə onunla görüşürəm. Məndə ev ünvanı da var, telefonu da.

Əziz müəllimdən Kamilla xanımın ünvanını və telefon nömrəsini aldım.

Həmin günü generalın qızı Kamilla Xaspoladovaya zəng etdim. Aradan bir ay keçər-keçməz Kamilla xanımdan məktub və iki şəkil aldım.

Məktubdan sətirlər: Mənim atam ədliyyə general-mayoru Əjdər Mahmud oğlu Xaspoladov inqilabdan doğulmuş, ömrü boyu Leninin xatirəsinə və ideyalarına sadiq, vətənpərvər birşəxs idi.

Atamın özünəməxsus qəribə taleyi vardı. O, 1901-ci il fevralın 22-də Göyçayda kasıb kəndli ailəsində anadan olmuşdu. Çox erkən yaşlarında atasını itirmişdi. Acından ölməmək üçün rus keşişinin evində qulluqçuluq edir, samovar qaynadır, ev yığışdırır və başqa xırda-para işlərlə məşğul olur. Atam keşiş evində rus dilini öyrənərək ibtidai təhsil alır. Anasının vəfatından bir qədər sonra o, Bakıya gedir, işə düzəlir və gənclərin inqilabi hərəkatında fəal iştirak edir.

1919-cu ilin payızında o bir qrup qabaqcıl gənclə oxumaq üçün Moskvaya - Leninin yanına göndərilir. Onlar Moskvaya vətəndaş müharibəsi cəbhələrindən keçərək sınıq-salxaq vaqonlarda, uzun müddət yollarda ləngiyə-ləngiyə birtəhər gəlib çıxırlar. Yolda hər şeyi, o cümlədən Leninə hədiyyə apardıqları alma, üzüm və başqa meyvələri oğurlamışdılar. Onlar Moskvaya qışın lap sərt vaxtı cırıq-cındır paltarda, papaqsız, nazik geyimdə gəlib çatırlar. Güc-bəla ilə Kremli tapıb M.İ.Kalininin yanında olurlar. Kalinin onları əsgər kazarmalarında yerləşdirir və paltarla, yeməklə təmin etdirərək “Şərq zəhmətkeşləri universitetinə” qəbul etdirir.

1920-ci ildə atam təhsilini davam etdirərək Qızıl Ordunun Şərq və Qafqaz xalqlarının nümayəndələrindən təşkil olunmuş polkunda qulluq edir. 1921-ci ildə o, Fəhlə-Kəndli bolşevik partiyasının üzvlüyünə qəbul olunur.

Moskvada xidmət edən atam dəfələrlə Lenini görmüş və onun çıxışlarını dinləmişdir. 1924-cü ilin kədər dolu yanvar günlərində atam V.İ.Leninin tabutu önündə fəxri qarovulda dayanmışdı.

Ağır uşaqlıq və gənclik illəri, məsul vəzifələr atamın xasiyyətində öz əksini tapmışdı: o, sərt, amma olduqca ədalətli və azdanışan adam idi. Atam öz işi və həyatı barədə çox nadir hallarda söhbət salardı. Məsələn, bilirəm ki, o, iyirminci illərdə Moskva, Daşkənd və Buxarada bir sıra mühüm partiya tapşırıqlarını yerinə yetirmişdi. Amma həmin tapşırıqların məğzinin və atamın yerinə yetirdiyi vəzifənin nədən ibarət olduğu haqqında dəqiq heç bir şey deyə bilmərəm.

Atam 1924-cü ildə Ukrayna hərbi dairəsindən Perekop atıcı diviziyasının altıncı korpusuna hərbi tribunalın üzvü kimi işə göndərilmişdir. 1926-cı ildə isə SSRİ Ali Məhkəməsinin hərbi heyətinin sərəncamı ilə üçüncü Türkustan atıcı diviziyasının hərbi tribunalının heyət üzvlüyünə dəyişdirilmişdir. Atamın bir neçə Şərq dillərini bilməsi, vicdanla işləməsi, yüksək siyasi hazırlığı, prinsipiallığı, dəfələrlə dairə komandanlığı, SSRİ Ali Məhkəməsi və Özbəkistan SSR Ali Soveti Rəyasət Heyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Otuzuncu illərin əvvəllərində atam Orta Asiya hərbi Dairəsi üzrə hərbi Tribunalın sədri təyin edilmiş və o, ilk ədliyyə general-mayoru rütbəsi alanlardan biri olmuşdur.

Atam hər vaxt öyrənər, özünün ümumi və hüquqi bilik səviyyəsini artırmağa çalışardı. O, xüsusi Ali Hüquq İnstitutunu bitirmişdi. Orta Asiyada vəziyyət mürəkkəb olduğundan onun, işi həmişə çox olardı. Atam həyatın bütün ağır sınaqlarını - aclığı, soyuğu, ağır xəstəlikləri, vaxtsız ölən oğul itkisini görmüşdü. Türküstan atıcı diviziyasında o, basmaçılara qarşı vuruşmuş, Sovet döyüşçülərinin tərkibində İranda olmuş, Böyük Vətən müharibəsi illərində cəbhələrdə vuruşmuşdu.

Dövlət sərhədlərinin qorunmasında və Sovet İttifaqının müdafiə qüdrətinin güclənməsindəki xidmətlərinə görə atam dəfələrlə Özbəkistan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif olunmuşdu. O, həm də Lenin ordeninə, iki Qırmızı Bayraq ordeninə, Böyük Vətən müharibəsi ordeninə, bir sıra medallara və Sovet İttifaqı Kommunist Partiyasının təsis etdiyi veteranlara məxsus qızıl döş nişanına layiq görülmüşdür.

İyirminci illərdə Moskvada oxuyanda, Ukrayna və Orta Asiyada hərbi xidmətdə olanda atam bir sıra görkəmli inqilab xadimlərini, İttifaq fövqəladə komitəsinin və hərbi tribunalların təşkilatçılarını yaxından tanımışdı. Biz uşaqlar və sonralar isə nəvələri üçün onun Q.İ.Kotovski, A.V.Lunaçarski, M.İ.Kalinin, İ.Y.Petrov haqqında söhbətlərinə qulaq asmaq çox maraqlı idi. Vladimir İliç Lenin haqqında xatirələri isə onun üçün hər şeydən əziz və maraqlı idi. Atam çox sadə geyinər, ancaq ən vacib əşyaları saxlar, bərbəzəkli əşyaları isə meşşanlıq sayardı. Uşaqların tərbiyəsində ciddi və tələbkar idi. Körpələri də öz həyat tərzinə uyğun - özünün uşaqlığında olduğu kimi tərbiyə edirdi.

1919-cu ildən sonra atam bir dəfə də olsun öz Vətəni Azərbaycanda olmamışdı. 1956-cı ildə o, hərbi xidmətdən istefaya çıxdı. Daşkənddən Moskvaya köçdü və burada hərbi vətənpərvərlik işində fəal çalışdı.

Ömrünün son illərində tez-tez Vətəni Azərbaycanı xatırlar, ata-anasından, ağır uşaqlıq illərindən qəmli əhvalatlar söylərdi. Durub-oturub xəstəlikdən şikayət edərdi. Azərbaycana gedə bilməməyinin səbəbi də xəstəliyi idi. Vaxtilə keçdiyi nəmli səngərlər, yuxusuz narahat gecələr atamın sağlamlığını əlindən almışdı.

Ağır xəstəlikdən sonra atam Əjdər Xaspoladov 1986-cı ildə vəfat etdi və Kuntsevo qəbiristanlığında dəfn edildi.

Atamla işləyən hər bir şəxs onu həddən ziyadə təmiz, düzgün və sərt, amma ədalətli xasiyyətə malik bir adam kimi xatırlayır. İndi onun işi bir sıra hərbi hüquqşünaslara nümunədir. Özünün səksən beş illik ömründə atam iki dəfə evlənmişdi. İkinci dəfə o, həyat yoldaşının vəfatından sonra 1956-cı ildə evlənmişdi. Onun üç övladı - bir oğlu, iki qızı olmuşdur. Oğlu 1941-ci ildə ağır xəstəlikdən vəfat etmişdir.

Qızı və qadını Moskvada yaşayır. Üç nəvəsi var. Onların ikisi oğlan, biri isə qızdır.

İndiyədək demək olar ki, adı heç kəsə bəlli olmayan, haqqında tədqiqat aparılmayan xalqımızın bir general oğlu da sərkərdələrimizin sırasına qayıtdı. Onun haqqında qısa da olsa oxuculara məlumat verdik. Əlbəttə, bununla da ilk ədliyyə generalımız Əjdər Xaspoladov barədə tədqiqatı dayandırmayacağıq. Moskvaya və Orta Asiya respublikalarına yolumuz düşəndə onun ailəsi ilə yaxından görüşəcəyik. Vaxtilə Böyük Vətən müharibəsi illərində birgə vuruşduğu, işlədiyi dostlarını axtarıb tapacağıq, oxuculara daha ətraflı məlumat verəcəyik.

İnanırıq ki, bundan sonra Azərbaycan tarixində və Azərbaycan Sovet Ensiklopediyasının sonrakı nəşrində general-mayor Əjdər Xaspoladovun həyat və fəaliyyəti işıqlandırılacaq.

## GENERAL KAMİL MƏMMƏDOV

Mart ayında çəkiliş qrupumuz Qubaya getmişdi. On iki yaşlı müharibə veteranı Maqsud Musabəyov haqqında televiziya oçerki hazırlayırdıq. Söhbət azərbaycanlı generallardan düşdü. Praporşik Firidun Cəfərov dedi ki, mənim orta məktəb yoldaşım Kamil iyirmi ildən çoxdur ki, orduda xidmət edir. Hazırda Moskvada Baş Qərargah Akademiyasında işləyir, deyirlər artıq general rütbəsi alıb. Praporşikdən Kamilin ünvanını, telefonunu aldım. Bakıya qayıdanda Moskvaya zəng elədim. Həyat yoldaşı dedi ki, hazırda general vəzifəsindədir. Rütbə isə bu yaxınlarda verilməlidir. Təltif olunan kimi sizə telefonla xəbər verəcəyik.

Şad xəbər gətirəcək telefon zəngini çox gözlədim. Hər dəfə xəttin o başından "Darıxmayın, şad xəbər olan kimi özümüz bildirəcəyik" - deyirdilər. Nigarançılıq yaman şeydi. Adam min cür fikrə düşür. Mərkəzin bizə münasibəti məlum olduğundan inamımı itirmişdim. Tez-tez öz-özümə düşünürdüm təki bu xəbər düz olaydı. Ancaq doğrusunu deyim ki, ürəyimin dərinliklərində bir şübhə vardı və bu şübhə mənə rahatlıq vermirdi. Nədənsə eloğlumuza general rütbəsinin veriləcəyinə tam əmin ola bilmirdim.

Nəhayət, səkkiz aydan sonra bu şad xəbər mənə Moskvadan yox, Qubadan çatdı. Rayon qəzetinin əməkdaşı Nazim Əhmədov zəng elədi ki, həmyerlimiz Kamil Məmmədov general-mayor rütbəsi ilə təltif olunub. İkicə günlüyə anası Hökumə xanımı görməyə gəlib. Ehtiyat yaxşı şeydi. Ehtiyatlı oğulun anası ağlamaz, deyiblər. Fikirləşdim ki, Nazim jurnalistdir, birdən hərbi rütbələri səhv sala bilər. Ona görə də bir daha dəqiqləşdirmək üçün Quba rayon hərbi komissarlığı ilə - praporşik Firidun Cəfərovla əlaqə saxladım. Firidundan soruşanda ki, öz gözlərinlə Kamilin poqonunda general ulduzunu görmüsənmi? O, uşaq sadəlövhlüyü ilə, - bəli, - dedi, elə indi təbrik edib gəlmişəm, hərbçi sözünə şəkk-şübhə etmədən təcili Qubaya yola düşdüm.

Generalı evdə tapmadım. Anası Hökumə xanıma gözaydınlığa gələnlərə qoşulub mən də təbrik etdim. "Bəs generalın özü hanı" sualıma ana şad bir təbəssümlə: - ay oğul, Tahir gözümdən oğurlayıb apardı, - dedi, - uşaqlıq dostu, qonşumuz Mövsüm kişinin oğlu Tahiri

deyirəm. Saqqalı ağarmış, qoymur uşağımla doyunca söhbət edəm. - Oğullar nə qədər böyüsə də, general yox, lap marşal da olsa, yenə anaların gözündə uşaqdı ki, uşaqdı... Ana sevinclə - aha, budur gəldilər, - dedi.

İçəri boy-buxunlu iki nəfər daxil oldu. General Kamil Məmmədov və dostu Tahir Məmmədov. İki gün qonağı olduğum dostların səmimiyyətindən belə hiss etdim ki, onları bir-birindən fərqləndirən təkcə hərbi geyimdir. Hökumə ana ərklə Tahiri danladı. General isə onun boynunu qucaqlayıb:

- Ay ana, bilirsən bu gün...

- Bilirəm, - dedi, - çox yaxşı bilirəm. Bu gün Tahirin ad, günüdür, əlli yaşı tamam olur. Sən Rusiyyətdə ola-ola bilirsən, biz yox. Ona görə də Tahirin xətrinə dəymirəm. Sən burada olmayanda dostlarından ən çox məni yoxlayan, halımdan xəbər tutan Tahirdir. Onu görüm yüz yaşasın...

Xoş-beşdən sonra Kamil İsmayıl oğlu Məmmədovu sorğu-suala tutdum. İyirmi altı il ordu sıralarında xidmət edən eloğlumuz ana dilimizin saflığını qoruyub saxlaya bilib. O, danışdıqca qeyri-ixtiyari iki il orduda xidmət edib qayıdan bəzi gəncləri xatırlayırdım. Belələri ordudan qayıdandan sonra tez-tez rus kəlmələri işlədirlər. Soruşanda ki, niyə belə danışırsan, cavabı da bu olur ki, bizim hissədə azərbaycanlı əsgərlər az idi. Ona görə də dilimi yadırğamışam.

Amma Kamil danışanda Qubadan elə bil bu gün çıxıb. Hər iki dildə səlis və savadlı danışıq qabiliyyətinə malikdir. Kaş bütün gənclərimiz doğma ana dilimizə belə hörmətlə yanaşaydı. “Gənc” deyirəm, ona görə ki, general Kamilin cəmi-cümlətanı, qırx altı yaşı var. Bu gün bu yaşda general kimi yüksək rütbəyə layiq görülmək böyük hadisədir. Elə generala da ilk sualım bu mövzuda oldu.

- Yoldaş general, iyirmi altı il ordu heyətində qulluq etmək az müddət deyil. Bu illər ərzində Azərbaycanda xidmətdə olmamısınız. Xidmət etdiyiniz yerlərin coğrafiyası az da olsa mənə məlumdur. Brest, Leninqrad, Ukrayna, Almaniya Demokratik Respublikası, Əfqanıstan Demokratik Respublikası, indi isə Moskvadasınız. Necə oldu ki, danışığınızda ana dilimizin saflığını qoruyub saxlaya bildiniz?

- Əvvəla onu deyim ki, tez-tez məktəb yoldaşlarımla, anamla, qardaşlarımla məktublaşıram. Mənə belə gəlir ki, bir dili mükəmməl öyrənmək istəyirsənsə, o dildə yazmaq əsas şərtdir. Hiss edirdim ki, bəzi sözləri unuduram. Onda öz-özümlə ana dilimdə danışırdım. Bəzən də oturub dostum Tahirə, Firdovsiyə, Rafiqə uzun-uzadı məktublar yazırdım. Bu məktubların mövzusu əsasən gənclik macəralarımızdan ibarət olurdu. Bir də görürsən, gecənin bir vaxtı yuxudan oyanıram, yata bilmirəm, yuxu məni tutana kimi Qubanı xatırlayır, ayrı-ayrı dostlarımla təklikdə söhbət edirəm. Belə hallar məndə ən çox Əfqanıstanda, Almaniyada qulluq edəndə olurdu. Bir də hara gedirəmsə, Azərbaycan dilində olan kitablar mənimlə “xidmətdə” olur. Onlar çox deyil, əsasən klassiklərimizin əsərlərindən ibarətdir. Lüğət də ki, öz yerində. Axı mən harada oluramsa fəxrlə “azərbaycanlıyam” deyirəm. Bəzən rus dilində səlis danışdığımı görən müsahibim mənə sual verir ki, öz dilində də belə təmiz danışa bilirsənmi? Onda elə bilirəm məni təhqir edirlər, necə ola bilər ki, insan öz ana dilini unutsun. Zənnimcə, bundan böyük nadanlıq ola bilməz, ana dilini unutmaq elinə-obasına arxa çevirməkdir.

- Mart ayında Qubada olanda gənclik dostumuz Firidundan bioqrafiyanızdan bəzi faktları öyrənə bildim. Onda rütbəniz polkovnik olsa da mənim üçün Siz artıq general idiniz. Biz bir az tələsmişdik. İndi özünüzdən, daha ətraflı eşitmək istərdik. Nə vaxt, harada anadan olmusunuz?

- 1942-ci il fevralın dördündə Quba şəhərində Müxtədir küçəsindəki qırx beş nömrəli evdə anadan olmuşam. Bir nömrəli şəhər orta məktəbini bitirmişəm. 1959-cu ildə Qubadakı kənd təsərrüfat texnikumuna daxil olub tərəvəzçi ixtisası almışam.

1963-cü il noyabrın on ikisində növbəti hərbi xidmətə çağrılmışam. Üç il Brest şəhərindəki artilleriya alayında qulluq etmişəm. Üçillik Tambov şəhərindəki hərbi artilleriya məktəbini, 1967-ci ildə leytenant rütbəsində qurtarmışam. Hərbi məktəbi əla qiymətlərlə bitirdiyimə görə məni Almaniya Demokratik Respublikasına göndərdilər.

1973-cü ilə kimi orada xidmət etdim. Həmin ili baş leytenant rütbəsində baş qərargahın Arxa cəbhə və Nəqliyyat Akademiyasına imtahan verib qəbul olundum.

1976-cı ildə akademiyanı mayor rütbəsində bitirib Ukraynaya diviziya komandirinin müavini vəzifəsinə göndərildim.

1979-cu ildə mənə podpolkovnik rütbəsi verildi.

1982-1983-cü ildə Orta Asiyada korpus komandirinin müavini işlədim.

1983-cü il oktyabrın 19-da Əfqanıstana korpus komandirinin məsləhətçisi göndərdilər. İki il iki ay dörd gün Əfqanıstanda xidmət etdim.

1986-ci ilin yanvarında xidmət yerimi Leninqrada dəyişdilər. Məni Leninqrad hərbi dairəsində ordu komandanının müavini təyin etdilər. Bu ilin yanvarından isə Baş Qərargah Akademiyasında çalışıram.

- Bəs general fəxri rütbəsinə nə vaxt layiq görüldünüz?

- SSRİ Nazirlər Sovetinin 1989-cu il bir noyabr tarixli qərarı ilə general-mayor rütbəsi ilə təltif olundum.

- Nəslinizdə, ya da ailənizdə sizdən başqa hərbçi varmı?

- Atam İsmayıl Məmmədtağı oğlu dəmirçi idi. Ömrünün axırına kimi "Kommunizm yolu" kolxozunda dəmirçi işləyib, halal zəhmətilə ailəmizin on bir baş üzvünü saxladı. Nə nəslimizdə, nə də ailəmizdə hərbçi yoxdur.

- Necə oldu ki, hərb sənətini seçdiniz? Bu təsadüfdür, yoxsa bir səbəbi var? Aqranomından birdən-birə hərbi işə keçmək... Bu sənətlər arasında qohumluq əlaqəsi demək olar ki, yoxdur...

- Bir gün belə aqranom işləməmişəm. Bu sənət ürəyimcə deyildi. Ora bir təsadüfdən düşmüşdüm. Hərb sənətini sevməkdə orta məktəbdə riyaziyyat müəllimim olmuş mərhum Arzuman Paşayevə borcluyam. Məktəbdə mən onun ən sevimli şagirdi olmuşam. Ona görə ki, riyaziyyatı əla bilirdim. Tambov hərbi məktəbini, Baş Qərargah Akademiyasını əla qiymətlərlə bitirdiyimə görə Arzuman müəllimi ömrüm boyu minnətdarlıqla xatırlayacam. Arzuman müəllimin ikicə pencəyi vardı. Biri ilə dərsə gələr, o birini isə həyət-bacada geyinərdi. O, çox səmimi insan idi və əsl pedaqoq kimi nümunəvi dərs keçərdi. Brestdə sıravi əsgər kimi xidmət edəndə məzuniyyətə gəlmişdim. Qohumum Yusif Eldarov məni evinə apardı. Müharibə vaxtı odun-alovun içində aldığı "Qırmızı ulduz" ordenilə onu otuz ildən sonra təltif etmişdilər. Yusif əmi böyük fəxrlə mənə orden və medallarını göstərib, hərb sənətindən, özünün döyüş yolundan maraqlı söhbət etdi. Bax, onda Yusif əmi uşaqlıqdan qəlbimdə sevib bəslədiyim hərb sənətinə getməyimə tam təkan verdi. Heç kəs mənə demədi ki, get hərbçi ol, mən özüm hiss elədim ki, məndə hərbi istedad var.

- Əgər uşaqlıqdan hərb sənətinə maraq göstərmisinizsə, demək azərbaycanlı generallardan, hərbçilərdən kiminsə döyüş yolunu öyrənmisiniz, hansı hərbçiyəsə oxşamaq istəmisiniz. Bu gün tarixi sənədlər, araşdırmalar hökm verir ki, səksəndən çox azərbaycanlı generalımız var. Bunların hansı biri haqqında daha çox məlumata maliksiniz?

- Ən çox sevdiyim, həyatını addım-addım öyrəndiyim Həzi Aslanov olub. Necə deyərlər, onun havasına uçurdum. Onun haqqında harda, nə çap olunurdusa toplayırdım. Azərbaycanlı Sovet İttifaqı Qəhrəmanları İsrafil Məmmədovun, Həbibulla Hüseynovun, Qafur Məmmədovun, Mehdi Hüseynzadənin ömür yolunun mənim hərbçi olmağımda çox böyük xidmətləri olub. Artilleriya generalı Əliağa Şıxlinski haqqında balaca bir yazını oxuyanda düzü xalqımın nələrə qadir olduğuna heyran qaldım. Qoy oxucular məni bağışlasın, təvazökarlıqdan uzaq da olsa deməliyəm, ki, onda qət elədim ki, general olacam. Mənzilin uzaqlığını, hərb sənətinin ağırlığını çox gözəl bilirdim. Axı, mən sıravi əsgərdən başlamışam. Ona görə də hərb sənətinin sirlərinə yaxşı bələdəm. Hər yerdə də riyaziyyat köməyimə gəlib. Nizam-intizam da öz yerində. Ona tam əməl eləməyən əsgərdən, zabitdən general ola bilməz.

- Bu gün siz Sovet Ordusunun "beyni" adlandırılan Baş Qərargah hərbi Akademiyasında çalışırsınız. İşinizin mahiyyəti və tutduğunuz vəzifə nədən ibarətdir?

- Maddi və texniki təchizat üzrə Lenin və Suvorov ordenli K.Y.Voroşilov adına hərbi Akademiyada Baş Qərargah rəisinin müaviniyəm. Bu vəzifəyə məni yalnız işimə görə təyin

ediblər. Vətən Sovet Ordusu sıralarında yerimi müəyyənləşdirib. Hərbin öz sirləri var, bir hərbçi kimi mən də onu qorumalıyam.

- Hazırda respublikamızda milli ordu yaratmaq haqqında söhbət və müzakirələr gedir. Əgər milli Azərbaycan ordusu yaradılsa və sizi də ona komandirlik etməyə dəvət etsələr gələrsinizmi?

- Mən Vətənin əsgəriyəm. O hara əmr etsə, ora da məmnuniyyətlə getməyə hazıram. Bu vəzifəni, yüksək rütbəni nə özüm, nə də ailəm üçün qazanmamışam. Məhz doğma Azərbaycanımın xatirinə, onun adının ucalığı naminə hərbin sərt və dönməz qanunlarına dözmüşəm. O elm, o bacarıq ki, Vətən yolunda sərf olunmur, zənnimcə, o şəxs özündə ağır və havayı yük gəzdirir.

- Həyatda ən çox nəyi sevirsiniz?

- Sərt və doğruçu olmağı. Amma bu sərtlikdə ədalət də olmaq şərtilə.

- Yoldaş general, unutmuşam, bilmirəm fransız hərbçilərindədir, yoxsa ruslarda belə bir zərb-məsəl var: "hər bir əsgər yürüş çantasında marşal poqonları gəzdirir". Bu məsələyə necə baxırsınız?

- İcazə verin, mən də sizə böyük sərkərdə Suvorovun sözlərilə cavab verim: "General olmaq arzusunda olmayan əsgər, əsgər deyil". Lap elə elm, istehsalat sahəsini götürək. Hansı elmi işçi professor, ya da akademik olmaq arzusuyla yaşamır? Hansı mühəndis rəis olmaq arzusunda deyil? Mənə görə, nə olursan ol, yaxşısından ol. Xalqın, elin-oban səninlə fəxr etsin. Yaxşı mütəxəssis olmaq çox çətindir. Özünü əsl vətəndaş sayan hərbi mütəxəssis buna səy göstərməlidir. Onda generallığa yox, marşallığa da nail ola bilər. Əgər istəyi ilə bərabər zəhmət də çəksə.

- Ailə tərkibiniz?

Bircə oğlum var. Elmar Məmmədov, səkkizinci sinfi əla qiymətlərlə qurtardıqdan sonra Moskvadakı Suvorov adına hərbi məktəbə qəbul olundu.

1982-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirib, RSFSR adına Ali hərbi məktəbə daxil oldu. 1986-cı ildə leytenant rütbəsində ən uzaq N. qarnizonuna xidmətə göndərildi. Hazırda kapitandır, ümumqoşun hissəsində xidmət edir. Həyat yoldaşım isə Petrozavodsk Dövlət Universitetinin beşinci kursunda, iqtisadiyyat fakultəsində oxuyur.

- Ən çox sevindiyiniz və xatırladığınız gün?

- Noyabrın iyirmi dördü. Bu gündə oğlum Elmar, dostum Tahir Məmmədov anadan olub. Təsadüfə bax ki, böyük sərkərdə Suvorov da həmin tarixdə anadan olub. Və biz də sizinlə 1989-cu il, noyabrın iyirmi dördündə ilk dəfə görüşüb tanış oluruq.

- İyirmi altı illik hərb yolunda xidmətləriniz hansı təltifatlara layiq görülüb?

- Üçüncü dərəcəli "SSRİ-də Vətənə xidmətə görə" kavaler, Əfqanıstanda "İgidliyə görə" ordenləri və on üç medalla təltif olunmuşam.

İllərlə araşdırdığım tarixi sənədlər təsdiq edir ki, inqilabdan əvvəl və sonra səksən beş azərbaycanlı general olmuşdur. Kamil Məmmədovun general-mayor rütbəsi ilə təltif olunması bu rəqəmi səksən altı elədi. Əlbəttə, sülh və əmin-amanlıq dövründə qırx yeddi yaşında belə bir ali rütbəyə layiq görülmək böyük hadisədir. İnanırıq ki, Sovet Ordusunda nümunəvi xidmət edən eloğlumuz Kamil Məmmədov özünün hərbi fitri istedadı ilə daha ali rütbəyə layiq görüləcək, daha yüksək zirvələr fəth edəcək.

# DÜŞDÜ QILINC KİMİ ORTADAN ARAZ

**Bizim ki, atamız, anamız birdir,**
**Qəlbimiz, eşqimiz ayrı deyildir.**
**Düşdü qılınc kimi ortadan Araz...**
**Fəqət yaman günün ömrü çox olmaz**

**Səməd Vurğun**

## GENERAL CƏFƏR MƏMMƏDZADƏ

İllərlə azadlığa çıxmaq üçün dönmədən mübarizə aparan o taylı qardaşlarımız 1945-ci il dekabrın on ikisində Azərbaycan Milli hökuməti yaratdılar. Xalqı, ölkəni müdafiə edən zabitlər məktəbi açıldı. Fədai dəstələri yenicə yaradılan Xalq Qoşunları ilə birləşdi. Azərbaycan Milli Hökumətinin Xalq Qoşunları nazirliyi yarandı. Xalq Qoşunlarına böyük fədakarlıq və bacarıqla başçılıq edən igid zabitlərin bir neçəsi - Əbülqasım Əzimi, Möhsün Milani, Azər Əbdülrza, Nəvai Abdini, Mahmud Pənahi, Qulam Yəhya, Mirzə Rəbi Kəbiri və Cəfər Məmmədzadə general kimi yüksək rütbəyə layiq görüldülər.

Bu yazımızda hələlik onlardan yalnız biri - general Cəfər Kavian haqqında danışacağıq.

Ata qulluqdan çox gec qayıtdı. Çaydan bir-iki qurtum alıb yorğun halda yerinə girdi. Son vaxtlar ingilis və Amerika casusları ilə aparılan mübarizə gücləndirilsə də ayrı-ayrı fədailərə edilən sui-qəsdlər yenə də azalmırdı. Ona görə də nə geçəsi vardı, nə də gündüzü. Azadlığa çıxmış Cənubi Azərbaycan xalqını Amerikanın muzdlu nökərləri yenidən şah üsuli-idarəsinə qaytarmaq, qanı bahasına qazanılan azadlığı boğmaq iddiasında idilər. Qapının sağ yanındakı taxt cırıldadı. Generalın böyük oğlu Gavə də yata bilmirdi. Son günlər milli hökumətin üstünü alan təhlükə onun rahatlığını pozub, yuxusunu ərşə çəkmişdi. Oğul da azadlıq ordusunun fədailərindən idi.

Ata qayğı ilə soruşdu:

- Hələ yatmamısan?

- Yuxum gəlmir, ata, elə bil ərşə çəkilib.

- Niyə, sənə nə olub? İdarənizdə vəziyyət necədir?

- Necə olacaq, ata, bütün şəhəri ağzına alan şayiələr bizdə də danışılır. Deyirlər, tiryəki acanlar Sultan Əli Şəqaqi, Seyfulla Bağmeşəli, Mirşərif baqqal Hacıələkbər "şah azadlığı" sevdasına düşüblər. Bizim Demokrat partiyamızı devirməyə hazırlaşırlar. Xaricdən silah, əsgər alıblar ki, fədailəri qılıncdan keçirsinlər.

Ata yorğun səslə, bikef halda:

- Eşit, - dedi, - inanma, belə xəbərləri bizə də çatdırıblar. suyu bulandıran Amerikadır. Onların arxası Amerikadırsa, bizim də dostumuz sovetlərdir.

- Azadlıq pərisi iki dəfə xalqımızın başına qonub, ata. Onu əyiblər, amma sındıra bilməyiblər. Mütləqiyyətin zülmü, zorakalığı azadlığımızı boğub. Deyəsən bu dəfə də...

Ata hirslə yorğanı üstündən atıb, yerində oturdu:

- Nə demək istəyirsən, bu dəfə nə olacaq? Gavə ehtiyatla:

- Mən... mən demirəm... bütün şəhər danışır ki, Sovet ordusunun İrandan çıxarılması haqqında o tayda - şuralarda fərman imzalanıb, Sovet ordusu burdan çıxıb getsə, bizim milli hökumət Səttarxan və Xiyabani hərəkatı kimi...

Gavənin dili gəlmədi desin ki, məhv olacaq.

Bu bəd xəbər ataya məlum idi. Ona görə də son günlər əsəbi adi. Oğlunu ruhdan salmamaq üçün dərindən nəfəs alıb kədərlə:

- Bu çox böyük namərdlik olar, - dedi.

Gecədən xeyli keçənə kimi general yata bilmədi. Qaranlıq otaqda fikri fikrə caladı...

... Cəfər Məmmədzadə Cənubi Azərbaycan milli hökumətinin müdafiə naziri idi. Xalqının azadlığı uğrunda çalışan general çətin və mürəkkəb həyat yolu keçmişdi. İlk gəncliyindən gizli inqilabi işə qoşulduğundan o, iki adla fəaliyyət göstərmişdir. Gəncliyində onun gizli adı Məşədi idi, Cənubi Azərbaycan milli hökumətinin milli qoşunlar vəziri olanda isə general Cəfər Gavian kimi tanınmışdı. Onun atası Təbriz yaxınlığındakı Səhlan kəndindən idi. Yoxsul kəndli olan Məhəmmədəli kişini ağır həyat dözümlü və iradəli etmişdi. Kəndli həyatının sərt güzəranı, ağa torpağı becərmək onu cana doydurmuşdu. Əsrin əvvəllərində Səttarxan hərəkatı başlananda savalanlı Məhəmmədəli kişi böyük qardaşı İsrafillə mücahidlərin sırasına qoşuldu. Dəmir iradə və şəxsi bacarıq onu siyasi cəhətdən şüurlu bir fədaiyə çevirdi, o, oxumaq, yazmaq öyrəndi. Xalq qəhrəmanı Səttarxanın tanınmış mücahidlərindən biri və gizli inqilabi hərəkatın məşvərətçisi oldu. Səttarxan 1910-cu il aprelin on beşində Tehranda böyük təntənə ilə qarşılananda mücahidlərlə birgə çəkdirdiyi şəkildə - ön cərgədə savalanlı Məhəmmədəli kişi də vardı. Həmin tarixi şəklin əsli indn də nəvəsi Marksda saxlanılır.

Səttarxanın azadlıq hərəkatı mürtəce İran hakimləri tərəfindən yatırıldıqda, savalanlı Məhəmmədəli də həbsə alındı. Həbsdən azad olandan bir az sonra çəkdiyi işgəncələrdən vəfat etdi.

Məhəmmədəli Səhlanlının obrazı Makulu Pənahinin "Səttarxan" romanında öz əksini tapmışdır. General Cəfər Məmmədzadənin böyük qardaşı İsrafil də inqilabi işdə fəal çalışan fədailərdən idi. O, Azərbaycanın şanlı oğlu Heydər Əmioğlunun mübarizə yoldaşı olmuşdur.

... General 1974-cü ildə öz dəst-xətti ilə yazdığı tərcümeyi halında qeyd edir ki, inqilabi fəaliyyətə 1908-ci ildən, on üç yaşında gənc bir fədai kimi Səttarxan hərəkatından başlamışam. O vaxta qədər Təbrizdə dini təhsil almışam.

İnqilab məğlubiyyətə uğrayanda, o, qardaşı İsrafillə şah təzyiqindən qaçıb Bakıya pənah gətirir. İki il Bakıda dərzilik edən Məşədi Cəfər yenidən Təbrizə qayıdır. Qulamhüseyn xan Rzazadənin evində təşkil olunmuş İran sosial-demokrat firqəsinin beşinci hövzə iclasında iştirak edir. Şeyx Məhəmməd Xiyabani hərəkatında fədai başçılarından biri olur.

İftixarla demək olar ki, general Cəfər Məmmədzadə çox zəngin və kəşməkəşli inqilabi həyat yolu keçib. Onun həmin dövrdəki gizli fəaliyyəti Əkrəm Səlimzadənin və Rzabala Nurəliyevin məşhur çekist İslam Əliyev haqqında yazdıqları "Son döyüş" kitabçasında təsvir olunub:

"İslam Təbrizdə Məşədi ilə görüşdü. Söhbət zamanı Məşədi dedi:

- Partiyamızın növbəti ikinci qurultayına hazırlıq görülür, Mərkəzi Komitə belə məsləhət görür ki, sizi Təbrizə çağıraq. İndi burada daha ciddi işlər gedir. Siz bu işlərdə bizə daha yaxşı kömək edə bilərsiniz.

- Nə işdə? - deyə İslam soyuqqanlılıqla soruşdu.

- Silahlı dəstələrimiz var. Onlara rəhbərliyi sənə tapşıracağıq.

İslam etiraz etmədi.

O, Mərənddən Təbrizə köçdü.

... 1922-ci ilin fevral ayının ilk günlərində Təbriz çox narahat idi. Küçələrdə tez-tez nümayişlər olurdu. Şah istibdadından cana doymuş xalq ajanları döyür, hökumət idarələrini tanımaq istəmirdi. Həmin ayın doqquzunda Məşədinin gizli şəraitdə yaşadığı evinə bir neçə adam toplaşmışdı. Onların arasında Məşədi, İslam, şair Lahuti, doktor Rəhim xan, Tağı Şərqi,

Bürhani və başqaları var idi. Onlar kiçik müşavirə keçirdilər. Tez də dağılışdılar. Bu hadisədən bir - iki saat sonra Təbrizin müxtəlif məhəllələrində atışma başlandı, bütün gecəni davam etdi. Səhər isə hökumət artıq xalq fədailərinin əlində idi".

Xalqımızın azadlığı uğrunda özünü oda-közə vuran Məşədi Cəfər 1922-ci ildə məşhur şair Əbülqasım Lahuti hərəkatında yaxından iştirak edərək fədai başçısı olur. Bir az sonra şahlıq rejiminin ağırlığı nəticəsində bu hərəkat da yatırılır. Məşədi Cəfər ikinci dəfə doğma Bakıya pənah gətirir, təhsilini artırmaq üçün partiya kursuna daxil olur.

1924-cü ildə Azərbaycan Kommunist Partiyasının sərəncamı ilə Məşədi Cəfər Naxçıvandakı dağ-mədən fəhlə həmkarlar ittifaqının sədri vəzifəsinə işə göndərilir. Üç il sonra üçüncü Kominternin tapşırığı ilə yenidən İrana göndərilən Məşədi Cəfər Təbrizdə, Rəştdə, Mazandaranda və Tehranda gizli inqilabi iş aparır.

1930-cu ilin sonlarında ajanlar onu həbs edir. Məhkəmənin 3472/14 nömrəli qərarının surəti oğlu Marksda qalır. Onun mətni belədir: "Cəfər Kavian ona görə məsuliyyətə alınır ki, Bir may münasibətilə intibahnamələr nəşr etdirib Tehranda yayırmış. O, Kommunist Partiyasına mənsubdur. İrandakı və xaricdəki kommunistlərlə yaxından əlaqə saxlayır. İran məmləkətinə və onun istiqlaliyyətinə zidd bir adamdır. Ona görə də Cəfər Kavianın yoldaşları İran qanun məcəlləsinin iyirmi yeddinci maddəsi ilə, Kavianın özü isə həmin qanunun iyirmi səkkizinci maddəsi ilə mücazat olunub həbs olunurlar. Hökm yerinə yetirilir."

Altı il yeddi ay Qəsri-Qacar zindanının uça və qalın divarları, dəmir qapıları mərd Azərbaycan oğlu Cəfər Kavianın mübarizə əzmini qıra bilmir. Qəddar Rza şah hakimiyyəti həbsdən sonra onu Zəncan şəhərinə sürgün edir. O, Sovet ordusu İrana gəldikdən sonra, 1941-ci ildə sürgündən azad olunur.

1945-ci il dekabrın on ikisində Cənubi Azərbaycanda silahlı üsyan nəticəsində xalq Azərbaycan Demokratik firqəsinin banisi Seyid Cəfər Pişəvərini milli hökumətin baş naziri təyin etdi. O taylı qardaşlarımız çoxdan arzuladıqları günə çatdılar. Onlar İran çərçivəsində milli muxtariyyət aldılar. Azərbaycan dili rəsmi dövlət dili oldu. Ana dilimizdə orta və ali məktəblər açıldı. Səkkiz saatlıq iş günü bərpa olundu. Səttarxana və Bağırxana heykəl ucaldıldı. Azərbaycanlıların həyatında tamam yeni bir yüksəliş dövrü başlandı. Həmin gün tarixə "21 Azər hərəkatı" kimi daxil oldu.

Fədailər Azərbaycanın şəhər və kəndlərini istilaçı İran qoşunlarından təmizlədilər. Fövqəladə bacarığa və hərbi məharətə malik olan Cəfər Kavian Azərbaycan Milli hökumətinin qərarı ilə general-mayor rütbəsi ilə təltif olunub, müdafiə naziri təyin edildi.

Həmin ili "Nəcate-İran" qəzeti yazırdı:

"General Kavan hal-hazırda Azərbaycanın həm qoşun hissəsinə, həm də Azərbaycan milis idarələrinə başçılıq edir. Bu şəxs qədim mübariz İran azadxahlarından biri olub və Azərbaycan Demokratik hərəkatında, eyni halda İran Demokratik hərəkatında iyirmi beş il qabaqdan ta indiyə kimi iştirak edibdir.

O, Rza şah dövründə illərlə həbsdə olmuş və həyatının çox dövrünü zindanda keçirmişdir. "21 Azər hərəkatı"nda Cəfər Kavian canfəşan fədai olmuş və Azərbaycanın bütün fədai dəstələrinin rəhbərliyini öz əlinə almış, gözəçarpan dərəcədə fədakarlıq göstərmişdir. Ona görə də Azərbaycan Demokratik hökuməti Cəfər Kavianı hərbi vüzarətxananın vəziri təyin etdi. O, öz silahdaşları - azadxah Seyid Cəfər Pişəvəri, Şəbüstəri, doktor Cavid və başqaları ilə Azərbaycan Demokrat Partiyasını, milli hökumətin fəaliyyətini yüksəklərə qaldıraraq mürtəce irticanı çıxılmaz vəziyyətdə qoymuşdur".

Azərbaycan Demokrat Partiyası və milli hökuməti Cəfər Kavianın xalq qarşısındakı xidmətlərini yüksək qiymətləndirmişdir. S.C.Pişəvərinin imzası ilə Mərkəzi Komitənin 1946-cı ilin sentyabr tarixli əmrində deyilir ki, ağaye general Cəfər Kavian, xalq qarşısında əməyinizə və əncam verdiyiniz xidmətlərə görə Mərkəzi Komitənin təsvibi üzrə siz Səttarxan ordeni ilə təltif olunursunuz.

General Cəfər həm də hökumətin yeni təsis etdiyi "21 Azər" medalı ilə təltif olunmuşdur.

Generalın şəxsi işləri arasında diqqətimizi bir sənəd xüsusilə cəlb etdi. O tayın burulğanından keçib gələn bu qiymətli sənədi general-mayor Cəfər Kavian öz dəst-xətti ilə yazıb.

**“Azərbaycan Xalq Qoşunları vəzirinin bir nömrəli fərmanı.**
**Azərbaycanın milli mənafeyini və müqəddəratını müdafiə etmək üçün Azərbaycanda rəsmi xalq qoşunu təşkil olunur.**
**Azərbaycan xalq qoşunu vaqeyi bir milli qoşundur. Hər bir azərbaycanlı sinif və məzhəbindən asılı olmayaraq bu qoşunda xidmət etməyə borcludur. Bu qoşunda xidmət edən hər bir namuslu şəxsin müqəddəs vəzifəsi Vətəni yadlardan qorumaqdan ibarət olmalıdır...**

**Azərbaycan Xalq Qoşunları vəziri**
**Cəfər Kavian**

1946-cı il noyabrın axırlarında Amerika imperializminin köməyi ilə İran hökuməti iyun müqaviləsini pozdu. Cənubi Azərbaycanı yenidən fəth etmək üçün onun üzərinə hücum etdi. Qoşun yeridib fədailərin azadlığını vəhşicəsinə boğdu. Zəncanda, Sərabda, Ərdəbildə, Təbriz və başqa şəhərlərdə “fatehlər” qanlı cinayətlər törətdilər. Azadxahları işgəncə ilə öldürən vəhşilər onların uşaqlarını belə dara çəkdilər.

Dekabrda mürtəce idarə üsulu bərpa olundu. İranın baş naziri Qəvamülsəltənə ilə Stalin, Azərbaycanın milli mənafeyini sarsıdan təkliflər irəli sürdülər. Bu böyük azadlıq hərəkatını qanla suvardılar. Canilər, müstəmləkəçilər böhtan atırdılar ki, Azərbaycan İrandan ayrılmaq və onun torpağına sahib olmaq istəyir. Əslində isə Cənubi Azərbaycanda az müddətdə böyük mübarizə ilə qazanılmış azadlığı fədailər bütün İranda həyata keçirmək istəyirdilər.

İstibdad kabusu o taylı Azərbaycan xalqına qanlı divanlar tutdu. Azadxahların başında duranlardan biri, igid general Əbdülqasım Əzimi güllələndi. O, son nəfəsində qürurla demişdi:

- Xatircəm olun, hər bir azadxah azərbaycanlı sabah bir general Əzimi olacaqdır. Xalqın intiqamını gözləyin! Tökdüyünüz qanlara, etdiyiniz vəhşiliklərə görə gələcək nəsil sizdən intiqam alacaq!

Sərdari milli Səttarxanın və salari milli Bağırxanın heykəlləri uçuruldu. General Mirzərəhbini Kəbiri, Əzimi, mayor Raşitin Məmmədəli oğlu, polkovnik Mürtəzəvi, Qazi, Cövdətü Dəbirniya, Zəhiri, Ehsani, Şeyxi kimi mərd oğullar ölümü vüqarla qəbul etdilər.

Vəziyyətin ağırlığından bir çox fədailər kimi general Cəfər Kavian da Sovet Azərbaycanına pənah gətirdi. Ömrünün axırınadək - 1975-ci ilədək o taylı Vətənin həsrətilə yaşadı.

Generalın üç oğlu və üç qızı Bakıda yaşayır. Marks Cəfər oğlu atasının o tay Azərbaycanımızdan çox çətinliklə gətirdiyi tarixi əhəmiyyətə malik sənəd və şəkilləri ən əziz, ən müqəddəs yadigar kimi hifz edib saxlayır. Bunların arasında xalqımızın mətin oğlu Seyid Cəfər Pişəvərinin, general Cəfər Kaviana yazdığı məktublar, sənədlər, əmr və nizamnamələrin surəti, Səttarxanla babası Məhəmmədəlinin birgə çəkilmiş nadir fotoşəkli var.

General Cəfər Kavianın ölumündən bir ay sonra Hizbi-Tudeyi İranın - Azərbaycan Demokrat Partiyasının orqanı “Azərbaycan” qəzeti 1975-ci il, iyirmi səkkiz fevral tarixli nömrəsində şəkli ilə birgə onun haqqında nekroloq vermişdir. Azərbaycan oğlunun azadlıq yolunda çəkdiyi əziyyətlər qəzetdəki bu yazıda da öz əksini tapıb:

**“Cəfər Kavian gənc yaşlarından ölkənin əsarətdə olmasını və xalqın məşəqqətli həyatını müşahidə etmiş, minlərlə gözüaçıq Azərbaycan oğlu kimi mübarizəyə qoşulmuşdur. O, Azərbaycan Demokrat firqəsinin müəssisələrindən biri idi. Xalq**

**nehzətinə xidmətin və azadlıq yolunda fəaliyyətini nəzərə alaraq Azərbaycan milli məclisi, milli hökuməti Kaviana generallıq dərəcəsi verərək onu xalq qoşunları vəziri təyin etmişdir. "21 Azər" nehzətinin nailiyyətlərini qoruyub saxlamaq uğrunda geniş mübarizədə Cəfər Kavianın da böyük xidmətləri vardır.**

**Azərbaycanda milli demokratik hərəkat qan dəryasında boğulduğu zaman minlərlə demokrat və fədai kimi Cəfər Kavian da mühacirət etməyə məcbur olub. Lakin mühacirat illərində də Kavianın bütün, fikri Vətənin və xalqın həyatı ilə bağlı, olmuşdur. O, xalqın qalib gələcəyinə, azad, xoşbəxt İranın yaranacağına dərin inam bəsləyirdi. Bu yolda da inamla mübarizə aparırdı. Kavianın ölümü ilə azadlıq nehzəti və İran zəhmətkeşləri sabiqədal yoldaşlarımızdan birini itirdi".**

Generalın şəxsi sənədləri arasından dörd bəndlik şer yazılmış bir vərəq də çıxdı. Şerin müəllifi onun mübarizə yoldaşı şair Məhəmməd Biriyadır. Müəllif "Yadigar" adlı şerinin ithaf yerində öz dəst-xətti ilə belə yazmışdır:

**"Məhəmməd Biriyadan öz tarixi dostu, milli qoşunların şanlı vəziri Ağayi Cəfər Kaviana yadigar. Bakı, 19 oktyabr, 1969-cu il".**

Xalqımın uğrunda illərdən bəri,
Döyüşdən, vuruşdan dönmədin geri.
Vətən iftixarı, elin əsgəri,
Ürəkli, hünərli rəşid Kavian,
Tarixin səsini eşit, Kavian.

Ana yurdumuzun iftixarısan,
Şərəfi, şöhrəti etibarısan.
Milli hökumətin yadigarısan,
Düşmənə verməyən aman, Kavian,
Bizi ayırmasın zaman, Kavian.

# İGİDİ QILINC YOX, QEYRƏT YAŞADAR

**Məşhur Qafqaz qaçağı Kərəm İsgəndər oğlu demşidir ki, igidi qılınç yox, qeyrət yaşadır. İlk təyyarəçilərimiz Fərrux ağa Qayıbov, Teymur Mustafayev, müqəddəs Georgi ordeninin bütün dörd dərəcəsinə layiq görülmüş Sayad Zeynalov, qvardiya polkovniki Kərim bəy Novruzov, Sovet İttifaqı Qəhrəmanı qvardiya mayoru Müseyib Allahverdiyev hərbin çətin yollarında qeyrətlə addımladılar.**

**Bu igid oğullarımızın ömür yolunu araşdıranda istər-istəməz belə qənaətə gəlirsən ki, ali rütbə daşımaq heç də şərt deyilmiş. Saf toxum daşda da cücərib boy atan kimi, qəhrəmanlığa da hər yerdə meydan varmış.**

**Əziz oxucu! Bu fəsildə generallara bərabər xidməti və igidliyi olan oğullarımızın ömüryolu ilə ilk dəfə tanış olacaqsan.**

## İKİ SƏRKƏRDƏ

Polkovnik Kərimbəy Novruzovun adına ilk dəfə süvari generalı Aleksey Alekseyeviç Brusilovun "Mənim xatirələrim" kitabında rast gəldim.

A.A.Brusilov inqilabdan əvvəl rus süvari ordusunun ən məşhur sərkərdələrindən biridir. 1916-cı ildə Cənub-qərb cəbhəsinin baş komandanı və "Brusilov cəbhəsi"nin müvəffəqiyyətli hücumunun təşkilatçısı olub. 1917-ci ilin may-iyun aylarında Ali Baş komandan olan Brusilov 1920-ci ildə könüllü olaraq Qızıl Ordu sıralarına keçmişdir. O, ömrünün axırınadək (1926) Sovet hökumətinə sədaqətlə xidmət etmişdir. Hərbi tarixçilər Birinci dünya müharibəsindən yazanda "Brusilov cəbhəsi"ndəki müvəffəqiyyətli əməliyyatlardan iftixarla söhbət açırlar.

Belə bir şöhrətli sərkərdə həmyerlimiz, polkovnik Kərimbəy Novruzov haqqında məhəbbət və ehtiramla danışır.

Fərəhləndirici bir faktı da oxucuların nəzərinə çatdırmaq istərdim. 1877-78-ci illərdə rus-türk müharibəsi zamanı poruçik A.A.Brusilov polkovnik Kərimbəy Novruzovun yavəri olmuşdur. Bu barədə Brusilov yazır:

"Mən atla öz komandirimdən on addım arxada gedirdim. Qəflətən düşmən mərmisi dəhşətli uğultu ilə mənimlə komandirimin arasında yerə düşüb partladı. Polkovnik Novruzovun atı bərk sıçrayışla bütün cilovları qıraraq üçüncü eskadrona soxuldu. Orada onu tutdular. Mənim atım isə qorxudan dalı üstə yıxıldı, mən də onunla birlikdə yerə dəydim. Dərhal at qalxıb götürüldü. Bu vaxt bizim atlı dəstə löhrəm yerişlə çapdı. Mən əsir düşməmək üçün döyüş meydançası ilə qaçmağa başladım.

Atımı tutmuş şeypurçumuzu görəndə hədsiz dərəcədə sevindim və tez atı minib öz komandirim polkovnik Novruzova çatmağa çəhd göstərdim...".

1980-ci ildə "Molodaya qvardiya" nəşriyyatı Sergey Semanovun "Brusklov" kitabını "Görkəmli adamların həyatı" seriyasından nəşr etmişdir. Müəllif Semanov generalın xatirələrinə əsaslanaraq həmyerlimiz haqqında və onun döyüş fəaliyyəti barədə geniş məlumat verir. Lakin müəllif kitabının 49-53-cü səhifələrində polkovnik Novruzovun familiyasını səhvən "Nevrozov" kimi vermişdir.

Sergey Semanov kitabının qırx doqquzuncu səhifəsində yazır:

“Stolun yuxarı başında parlaq epoletli və sinəsini ordenlər bəzəyən polkovnik Novruzov əyləşmişdi. Yüksək əhval-ruhiyyəli polk komandirinin yanında iki qadın var idi. Biri onun həyat yoldaşı, digəri isə böyük qızı idi.

... Polkovnik Novruzov əlini qaldırdı, böyük yumruğu içərisində üzəri gümüşlə işlənmiş Qafqaz buynuzu demək olar ki, görünməz oldu. Məclisi sükut bürüdü. Novruzovun da əksər hərbçilər kimi gur səsi olsa da çox danışmağı sevməzdi. Elə bu gur səslə də o, Vətən və əlahəzrət imperator haqqında bir neçə dəyərli söz deyəndən sonra sanki çiynindən ağır yük götürülmüş kimi “ura” qışqırdı. Zabitlər hamılıqla onun səsinə səs verdilər. Sonra isə komandirin, komandir xanımının və qızının sağlığına badə qaldırıldı.

Başqa bir səhifədə isə S.Semanov yazır: “Polkovnik Novruzovun döyüş vaxtı əsəbləri gərildi. O, elə qızardı ki, üzünün rəngi yaxasındakı müqəddəs Anna ordeninin parıltısı ilə həmahəng oldu. Dərhal onun gur səsi eşidildi. O, komanda verdi:

- Şeypurçular irəli çıxsınlar, siqnal versinlər!”

Rus-türk müharibəsi başlananda polkovnik Kərimbəy Novruzov ikinci Nijeqorod süvari divizionunun komandiri olmuşdur. 1877-ci il mayın on səkkizində Bəyliəhməd kəndi yaxınlığında gedən odlu döyüşlərdə Kərimbəyin divizionu düşmənin beş minlik qoşununu pərən-pərən salmış, onların iki topunu ələ keçirmişdir. Sağ cinahdan gələn əlavə qüvvə isə qəfil zərbə endirərək Kərimbəyin divizionunu mühasirədə məhv etmək istəmişdir. Lakin qorxmaz komandir özünü itirməmiş, güclü qüvvə ilə irəliləyən düşməni süngü döyüşü ilə geri oturtmuşdur. Polkovnik Novruzovun divizionu səhərə yaxın təqib etdiyi düşməndən çoxlu qənimət və dörd top ələ keçirmişdir. Bu döyüşdə göstərdiyi qeyri-adi qəhrəmanlığa görə polkovnik Kərimbəy Novruzov “Müqəddəs Georgi ordeni” ilə təltif olunmuşdur. Komandan general-leytenant Kondukov isə Kərimbəyi bu rəşadətinə görə brilyantla bəzədilmiş qılıncla mükafatlandırmışdır.

1913-cü ildə Tiflisdə ali zabitlər üçün buraxılmış “Sorğu kitabçası”nın yüz altmış dördüncü səhifəsində igid həmyerlimiz haqqında belə bir qısa qeydə rast gəldik. “Qvardiya polkovniki Kərimbəy Novruzov bir müddət Yelizavetpol quberniyasında məhkəmə rəisi vəzifəsində işləmişdir. Hazırda istefada olan polkovnikdir”.

Süvari generalı A.Brusilovun 1923-ci ildə qələmə aldığı “Mənim xatirələrim” kitabında bir general həmyerlimiz haqqında da məlumat var. Maraqlıdır ki, indiyədək Azərbaycan hərb tarixində general-mayor Ağasıbəy Avşarovun adına heç yerdə rast gəlməmişik. Nə tarixi, nə də bədii əsərlərdə general Avşarovun adı belə çəkilmir.

1897-ci ildə general-mayor Ağasıbəy Avşarov Peterburq Süvari Məktəbinin rəisi vəzifəsinə təyin olunur. Həmin ildən də polkovnik A.Brusilov həmyerlimizin müavini işləmişdir. A.Brusilov xatirələrində, S.Semanov isə general Brusilov haqqında yazdığı kitabında həmyerlimizin hərbi fəaliyyəti barədə bəzi tənqidi fikirlər söyləsələr də, onun ordudakı xidmətlərini dana bilməmişlər. S.Semanov “Brusilov” kitabının altmış səkkizinci səhifəsində yazır:

“1897-ci ildə general-mayor Ağasıbəy Avşarov Peterburq suvari məktəbinin rəisi təyin olundu. O, Azərbaycanın kübar nəslinin nümayəndəsi idi. Azərbaycan Rusiya tərkibinə daxil olduqdan sonra onun ulu babaları bütün yerli nəcabətli kübar ailələri kimi - islam dinini saxlamaq şərtilə rus dvoryanları ilə eyni hüquqa malik idilər. Azərbaycanlıların əksəriyyəti orduda, xüsusilə də suvari alaylarında şərəflə qulluq edirdiləp General Avşarov geniş ürəyə malik, hərbi işi yaxşı bilən bir sərkərdə idi. Amma onda asiyalılara məxsus hiyləgərlik və bir az da tənbəllik vardı.

1902-ci il fevralın 3-də general-mayor Ağasıbəy Avşarovu Peterburq Süvari Məktəbinin rəisi vəzifəsindən azad edib qərargahda süvari ordunun baş müfəttişi təyin etdilər”.

Təəssüf ki, adı çəkilən müəlliflərin heç biri nə general-mayor Ağasıbəy Avşarovun, nə də qvardiya polkovniki Kərimbəy Novruzovun sonrakı taleyindən məlumat verirlər. Şübhəsiz ki, respublikamızda iki şöhrətli sərkərdənin nəvə-nəticələri yaşayır. Və əgər yaşayanlar varsa, hərb tariximizin səhifələrini zənginləşdirmək xatirinə bizə yazmağı unutmasınlar.

## PORT-ARTUR QƏHRƏMANLARI

Gecə keçirdi, istirahət etməyə hazırlaşırdım. Birdən telefon zəng çaldı. "Belə bivaxt, kimdi görəsən?" - deyə fikirləşib dəstəyi qaldırdım. Zərif səsli bir qadın üzrxahlıq edib:

- Mənə filankəs lazımdır, - dedi.

- Mənəm, eşidirəm sizi...

- Geç olduğu uçün bağışlayın, sizi narahat edən Qalina Semyonovna Səfərovadır. Telefonunuzun nömrəsini indicə çətinliklə öyrənə bildim. Tərtib etdiyiniz general-leytenant Əliağa Şıxlinskinin "Xatirələrim" kitabını mən də maraqla oxudum, Bilirsiniz, sizi niyə narahat elədim? Bizdə 1905-ci ildə nəşr olunmuş "Niva" jurnalı saxlanılır. Orda Əliağa Şıxlinski və Səmədbəy Mehmandarov haqqında yazılar var, şəkilləri də dərc olunub. Amma nədənsə Şıxlinskinin kitabına yazdığınız "İzahlar və qeydlər" bölməsində bu barədə oxuculara heç bir məlumat verməmisiniz.

Qalina Semyonovna, - dedim, - mənim o mənbədən xəbərim yoxdur. Çox sağ olun ki, bu barədə məlumat verdiniz. Günü sabah kitabxanaya gedib...

- Kitabxanaya niyə, - deyə Qalina Semyonovna etiraz etdi, - məmnuniyyətlə jurnalı müvəqqəti istifadə üçün sizə verə bilərəm.

Ertəsi gün Q.Səfərovanın Şors küçəsindəki mənzilində görüşüb jurnalı birgə vərəqlədik.

"Niva" jurnalı 1905-ci il dördüncü nömrəsinin yetmişinci səhifəsində Əliağa Şıxlinskinin altı nəfər döyüşçü zabit və iki qadınla birgə çəkilmiş şəklini dərc edib. Şəkilaltı yazıda oxuyuruq:

"Port-Artur müdafiəsinin igid artilleriya komandiri Əliağa Şıxlinski Suişin kəndi yaxınlığındakı Drakonovıy Xrebet dağına atəş açaraq yaponların hücumunu dəf etmişdir. Podpolkovnik Şıxlinski göstərdiyi rəşadətə görə "Müqəddəs Georgi" ordeninə təqdim edilmişdir.

Üçüncü istehkamda olan bu hadisəni neçə illər keçəndən sonra Əliağa Şıxlinski belə xatırlamışdır:

"Tamamilə açıqda duran toplarımın atəşi, hücum edən yapon piyada qoşununu geriyə oturtdu. Atışma səsini eşidən polkovnik Mehmandarov general Nadeinin yeraltı qazmasından çıxaraq yanıma gəldi. Fikirləşdim ki, ehtiyatsızlığıma görə hirslənəcəkdir. Vəziyyətlə tanış olduqdan sonra dedi:

- Yaxşı eləmisiniz. Birinci batareyanın bir vzvodunu da sizə köməyə göndərərəm.

Mehmandarov tədbir və sərəncamlarımı bəyəndiyini söyləyib, öz məntəqəsinə qayıtdı. Bu əməliyyata görə mən, köhnə orduda qəhrəmanlıq ordeni olan Georgi Pobedonessov ordeninə təqdim edildim".

Jurnalın həmin səhifəsində həmyerlimiz Səməd bəy Mehmandarovun da şəkli verilib. Haqqında isə belə bir məlumat yazılıb:

"Yeddinci Şərqi Sibir artilleriya briqadasının general-mayoru Səməd bəy Sadıq bəy oğlu Mehmandarov Port-Artur müdafiəsindəki qəhrəmanlığına görə dörduncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunub".

Onu da xatırladaq ki, Port-Arturda Ə.Şıxlinski və S.Mehmandarovdan başqa da yapon samuraylarına qarşı döyüşən həmyerlilərimiz olmuşdur. General-mayor Mirkazımbəy Talışxanov, Hüseynxan Naxçıvanski, İbrahimağa Usubov, Firidunbəy Vəzirov, qvardiya polkovniki Kərimbəy Novruzov, polkovnik Həsənbəy Yadigarov, Səmədbəy Qasımlı, poruçik Ağababa Sadıqov və hələ adını bilmədiyimiz onlarca başqaları.

Dövrdən, quruluşdan asılı olmayaraq oğullar həmişə Vətənin əsgəridirlər. Vətən nə vaxt təhlükə qarşısında olsa, igidlər bir səslə silaha sarılmağa hazırdırlar. İyirminci əsr tarixə "nəfəsindən" barıt püskürəndə igidlərimiz də ayağa qalxıb Vətənin müdafiəsinə gediblər.

Ötən əsrin ortalarında Qarabağ igidlərinin, Şirvan alayının, Kəngərli döyüşçülərinin, Qazax süvari dəstələrinin yadellilərə qarşı qeyri-adi qəhrəmanlıqlarının şahidi olan xalqımızın böyuk oğlu M.F.Axundov fəxrlə deyirdi: "doğmamış Qafqazda analar qorxaq".

Hələ bir az da əvvəl (1828-ci ildə) məşhur rus tarixçisi Platon Zubov "Gürcüstan və Qafqaz haqqında altı məktub" əsərində yazırdı:

"Bu alaylar haqqında mühakimə yurütmək üçün onları döyüşdə görmək lazımdır: bunlar şimşəyi xatırladır, bunlar qəzəblənmiş allahın birdən-birə düşmənlər içərisinə düşərək ölüm və dəhşət saçan oduna bənzəyirdi. Müsəlman alaylarının gözlərim önündə törətdikləri igidlik xariqələrini hələ də heyrətlə yad edirəm... Onlar silahdan çox böyük bir məharətlə istifadə edərək, qorxmaz və cəsur süvari kimi döyüşürdülər".

Əgər oxucu Aleksandr Stepanovun "Port-Artur", ya da Trofim Borisovun "Port-arturçular" romanlarını mütaliə edərsə, onda görər ki, 1904-cü il dekabrın on altısında komandan Stessel qalanı yaponlara danışıqsız təslim etmək istəyəndə polkovnik S.Mehmandarov və onun zabit heyəti qəti etiraz edərək necə əsəbiləşmişdilər. Onlar inad edirdilər ki, qalanı son nəfəsə qədər mudafiə etmək lazımdır. Heç kəs biabırçı vəziyyətdə Rusiyaya qayıtmaq istəmirdi.

- Kapitan, sizin kimi zabitlərə orduda qulluq etmək yaramaz, - Mehmandarov onun üstünə qışqırdı. - Siz bizim adımızı korlayırsınız, - deyib yumruğunu havada oynatdı.

- Əlahəzrət, xahiş edirəm, məni təhqirlərdən qoruyasınız, - kapitan Vamenzon hirsindən pörtmüş halda Stesselə müraciət etdi.

- Hər şeydən qabaq sakit olmaq lazımdır, cənablar! Polkovnik Mehmandarov, sizi qayda qanuna riayət etməyə dəvət edirəm.

Qızğın mübahisələr başlandı, zabitlər iki hissəyə bölündülər: bir neçəsi kapitan Vamenzonu, qalanları isə polkovnik Mehmandarovu müdafiə edirdilər (A.Stepanov. "Port-Artur". səh. 777-778).

Aleksandr Stepanovun "Port-Artur" və Trofim Borisovun "Port-arturçular" romanlarında bir azərbaycanlı familiyasına da rast gəldik - poruçik Sadıqov. Hər iki əsərdə poruçik Sadıqovun döyüş yolu yazıçılar tərəfindən maraqla izlənilir. Bütün döyüşlərdə mətanətlə vuruşan Sadıqov odlu döyüşlərdə qəhrəmanlıqla həlak olur. Poruçik Sadıqov kimdir?

Bu barədə "Kommunist" qəzetinin doqquz sentyabr 1984-cü il tarixli nömrəsində dərc edilən yazıdan sonra respublikamızın ayrı-ayrı guşələrindən xeyli məktub aldıq. Hamı Sadıqov familiyalı poruçikin onun qohumu olduğunu yazırdı. Lakin Böyükağa Sadıqovun gətirdiyi faktlar, sənədlər və fotoşəkillər sübut elədi ki, poruçik Ağababa Hacıbaba oğlu Sadıqov onun əmisidir. Poruçik Ağababa Sadıqov 1875-ci ildə Şamaxının Ərdəbilli məhəlləsində anadan olub. 1903-cü ildə Peterburqdakı Mixaylov topçuluq məktəbini bitirib. 1905-ci ilin əvvəllərində poruçik Ağababa Sadıqovun həlak olması haqqında qara kağız alınıb.

Port-Artur döyüşləri haqqında onlarca əsərlər yazılıb, kabardin və çeçen igidlərinin Port-Arturdakı fəaliyyətləri haqqında Əhmədxan Naloyevin "Dan üzunün atlıları" tarixi romanı, Vikenti Veresayevin "Yapon müharibəsi haqqında hekayələr" silsiləsi, yazıçının irihəcmli gündəlik və yol qeydləri, Sergey Senskinin "Susima", N.A.Levitskinin "1904-1905-ci illərdə rus-yapon müharibəsi" maraqla oxunan əsərlərdəndir.

"Niva" jurnalının 1905-ci il iyirmi beşinci nömrəsinin 496-cı səhifəsində bir həmyerlimizin də adına və şəklinə rast gəldik. Onun haqqında ancaq bu sözlər yazılmışdı: "Otuz üçüncü Şərqi Sibir atıcı polkunun poruçiki Zülfüqar Mirzə Ələkbər oğlu Bağırbəyov fevral döyüşlərində igidliklə vuruşub kontuziya oldu".

Adından, atasının adından və familiyasından poruçik Zülfüqar Bağırbəyovun azərbaycanlı olması şübhəsizdir. Görəsən, Vətənimizin Uzaq Şərq sərhədləri uğrunda igidliklə vuruşan poruçik Zülfüqar Bağırbəyovun qohum-qardaşlarından qalan varmı? Səksən ildən çoxdu bu tərlan baxışlı igid həmyerlimizin şəkli "Niva" jurnalının səhifələrində saralıb solur.

Bəs bizim igidlərin qəhrəmanlığını kim qələmə alacaq, nə vaxt alacaq? Təəssüf ki, eloğlularımızın Port-Artur döyüşlərində göstərdikləri qeyri-adi qəhrəmanlıqları indiyədək öz yazıçısını, öz tədqiqatçısını gözləyir.

Unutmaq lazım deyil ki, hərb tarixində misilsiz xidmətlərinə görə rus artilleriyasının "allahı" sayılan general-leytenant Əliağa Şıxlinski fəxrlə yazırdı ki, Port-Artur epopeyasının iştirakçısı olduğumu həmişə iftixarla yad edirəm[19].

---

19 Bu məqalə "Bakı" qəzetinin yeddi aprel 1987-ci il nömrəsində dərc olunandan sonra redaksiyadan mənə zəng elədilər ki, səni bir ağsaqqal axtarır. Məmməd Cavad oğlu Bağırov bildirdi ki, "Niva" jurnalından şəklini götürüb dərc etdirdiyiniz poruçik Zülfüqar Mirzə Ələkbər oğlu Bağırbəyov mənim doğma əmimdir. Əmim Zülfüqar 1874-cü

# İLK SƏMA ŞAHİNİMİZ

Qazaxdakı məşhur və qocaman qovaq ağacından yüz-yüz əlli metr aralıda bir təyyarə heykəli var. Bu dəmir qartalın şahin qanadları ucsuz-bucaqsız səmaya açılıb.

Heykəlin yanından dəfələrlə ötüb keçmişəm. Ötən yaz maraq məni postament üzərindəki yazını oxumağa məcbur etdi: "Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə". Düzü nə qədər fikirləşdimsə bu rayondan Böyük Vətən müharibəsi illərində elə bir qeyri-adi şücaət göstərib həlak olan təyyarəçi adını xatırlaya bilmədim.

Rayon partiya komitəsində heykəlin niyə məhz təyyarəçilərin xatirəsinə ucaldıldığını soruşduqda dedilər:

- Düzdür, 1941- 45-ci illərdə igidliklə vuruşan Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyev, topçu Əmrah Əhmədov, Şöhrət ordenli Şəmsi Hacıyev, Həsən Həsənov, Müseyib Dilbazi başqalarının qəhrəmanlığı elimizə-obamıza şan-şöhrət gətirib. Lakin onların heç biri təyyarəçi olmayıb. Bu təyyarə abidəsi Birinci dünya müharibəsinin iştirakçısı, ilk azərbaycanlı təyyarəçi, həmyerlimiz Fərrux Qayıbovun xatirəsinə ucaldılıb. Hətta Bakıdan heykəl-təyyarə ilə birgə Fərrux Qayıbovun adına olan lövhə də gətirilmişdi.

Dünyaya gələn hər körpə bir nəslin artımı, davamıdı. Həm də ata-ananın sonsuz sevinci və fərəhidir.

Fərrux da Məmmədkərim kişinin ailəsinə ilk oğul sevinci gətirdi. Bu şad xəbəri eşidən Qayıbovlar nəslinin ağsaqqalı Mirzə Hüseyn uşağa böyük bir arzuyla Fərrux (ərəbcə mübarək, uğurlu deməkdir) adı qoydu. Uzaqgörənliklə verilən bu ad sahibi təkcə bir ailə üçün yox, bütün Azərbaycan xalqı üçün uğurlu oldu.

Mənə, Azərbaycan Dövlət Tarixi Muzeyində yeni tarix dövrünün şöbə müdiri, tarix elmləri namizədi Nərmin xanım Tahirzadəyə müraciət etməyi məsləhət gördülər.

Nərmin xanım məni "İnqilab zalı"ndakı bir guşə ilə tanış etdi. Guşədə Birinci dünya müharibəsində iştirak etmiş cəsur oğullarımızdan rus artilleriyasının "allahı", general-leytenant Əliağa Şıxlinskinin, Səməd bəy Mehmandarovun, XX əsrin əvvəllərində rus ordusunda xidmət edən, topoqraf general İbrahim ağa Paşa ağa oğlu Vəkilovun və ilk təyyarəçi Fərrux Qayıbovun fotoşəkilləri, şəxsi əşyaları saxlanılır.

General Vəkilovun portretinə diqqətlə baxdığımı görən Nərmin xanım dedi:

- Xalq şairi Səməd Vurğuna oxşadırsınızmı, qohumudur, atasının əmisi oğludur.

Əsrin əvvəllərində Peterburq hərbi topoqrafiya məktəbində İbrahim ağa Vəkilov bir topoqraf kimi çox məşhur olub. O, Qafqazın, Krımın topoqrafik coğrafi xəritəsini tərtib edib.

1885-ci ildə rus-İran ölkələrinin Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədini dəqiqləşdirən komissiyadakı fəaliyyətinə görə general-mayor Vəkilov İran hökumətinin ən yüksək mükafatlarından birilə - "Şire-Xorşid" ordenilə təltif olunub.

1920-ci ildə Azərbaycanın ilk coğrafi xəritəsinin müəllifi və respublikamızda topoqrafiya məktəbinin yaradıcısı da general-mayor İbrahim ağa Vəkilov olmuşdur.

- İndi gəlin yenidən üçüncü mərtəbəyə qayıdaq. Fərruxun elmi arxivdə saxlanılan şəxsi işi ilə sizi tanış edim.

Biz yenidən Nərmin xanımla üçüncü mərtəbəyə qayıdırıq.

Ömrünün iyirmi ildən çoxunu doğma xalqının tarixini öyrənməklə məşğul olan bu ağsaçlı qadın saysız-hesabsız qovluqların arasından 31 nömrəli işi asanlıqla tapıb mənə verir.

Mavi cildli qovluğu açıram. Burda illərin saralıb-soldurduğu on bir ədəd şəklə və təyyarəçinin qəhrəmanlığından bəhs olunan bir vərəq kağıza rast gəlirəm.

---

ildə Şuşada anadan olub. Port-Artur döyüşlərindən sağ-salamat qayıdan əmim 1908-ci ildən 1914-cü ilə qədər Bakı şəhərinda hərbi komendant işləyib, rütbəsi mayor idi. Birinci dünya müharibəsi illərində Avstriya və Rumıniya cəbhələrində iştirak edib, 1916-cı ildə isə Qərb cəbhəsində vuruşan Zülfüqar əmim qəfil top partlayışından həlak olub.

Qərb cəbhəsinin aviasiya general-mayoru Şidlovskinin, hərbi təyyarəçi ştabs-kapitan Sabelnikovun və baş zabit, kapitan Lazarevin imzası ilə təsdiq olunmuş, əski rus əlifbası ilə yazılı iri bir vərəqdə iyirmi üç yaşında qəhrəmanlıqla həlak olan təyyarəçinin göstərdiyi hünərdən danışılır.

... On altıncı hava gəmisinin artilleriya zabiti poruçik Qayıbov Qərb cəbhəsi qərargahının tapşırığı ilə 1916-cı il sentyabrın 12-də Borunıya hücum etmiş, intendant və artilleriya anbarlarını, aerodromu, 89-cu alman ehtiyat diviziyasını bombardman etmişdir.

Qayıbova düşməni havadan bomba və pulemyot atəşinə tutmaq, həm də düşmən mövqeyinin şəklini çəkmək kimi mühüm hərbi tapşırıq verilmişdi. O, elə ilk uçuşunda strateji cəhətdən çox vacib olan Neman üzərindəki nəhəng körpünü partladıb, alman qoşunlarının və döyüş sursatlarının daşınmasının qarşısını almışdır.

Zenit batareyalarının atəşinə baxmayaraq Qayıbov böyük cəsarətlə Borunıda rəqibin nəzərdə tutulmuş anbar və qərargahını dağıdıb külə döndərmişdir.

Vilen istiqamətindəki bombardman vaxtı onun təyyarəsinə eyni zamanda dörd düşmən qırıcı təyyarəsi hücum etmişdir. Bunların ikisi “Albatros”, ikisi isə “Fokker” tipli idi. Qeyri-bərabər döyüş zamanı igid şahin düşmənin üç qırıcı təyyarəsini vurmuş, özü isə aldığı ciddi zədədən təyyarəsi ilə bərabər yerə düşərək həlak olmuşdur.

Səhərisi gün düşmən təyyarəçilərinin atdığı kağızlarda yazılırdı ki, qəhrəmancasına vuruşaraq, həlak olduğu üçün poruçik Qayıbovu hətta almanlar özləri əsgəri qaydada dəfn etdilər.

Ölümlə nəticələnən misilsiz qəhrəmanlığına görə, poruçik Qayıbov ikinci dəfə dördüncü dərəcəli müqəddəs Georgi ordenilə təltif olunub.

Vaxtsız ölüm Fərruxun qısa ömrünə əbədiyyət gətirdi. Adı xalqının tarix kitabına zərli hərflərlə yazıldı. Bu cəsur şahin haqqında “Azərbaycan tarixi” kitabının ikinci cildində ürəkaçan sətirlər var: “Birinci dünya müharibəsi illərində ilk azərbaycanlı hərbi təyyarəçi poruçik Fərrux Qayıbov da müqəddəs Georgi ordenilə təltif olunmuşdu. On altı nömrəli “İlya Muromets” təyyarəsində uçan Fərrux Qayıbov düşmən istehkamlarını dağıdır, hava döyüşlərində alman təyyarələrini pulemyot atəşinə tutur, havadan düşmən mövqelərinin şəklini çəkirdi. 1916-cı ilin sentyabrında Qayıbov rus hava donanmasının Volnada olan hərbi məntəqələrə hücumunda iştirak etmişdi. Şəhər üzərində şiddətli hava döyüşü olmuşdu. On altı nömrəli “İlya Muromets” öz üzərinə gələn dörd düşmən təyyarəsinin hücumunu bir saat müddətinə dəf etmiş, onlardan üçünü vurmuş, nəhayət özü də yandırılmışdı. Ekipajla birlikdə Fərrux Qayıbov da həlak olmuşdu”.

Kür qırağında bir yaşılbaş sonanın ahından səmada durna qatarı pozuldu. Bu səs ucsuz-bucaqsız Rusiya çöllərində bir qartal məzarını diksindirdi. Taleyin hökmünə bax, Kür sahilində böyüyən bir gənc Neman uğrunda vuruşaraq iyirmi üç yaşında əbədiyyətə qovuşdu.

Şəkillərə baxıram: mavi gözlü, qalın bığlı bir gənc təlim vaxtı, dostlarıyla istirahət zamanı deyib-gülür, komandirlə söhbət edir, döyüş dostları ilə təkərli top yanında...

Şəkillərdən biri diqqətimi xüsusilə cəlb edir; geniş və səması tərtəmiz təyyarə meydanı, Fərrux hərbi libasda təyyarədən düşüb gülə-gülə dostlarına tərəf gəlir. Görünür, növbəti uçuşdan zəfərlə qayıdıb.

Qovluqda yaşıl rəngli bir karton parçasına 6 balaca şəkil səliqəylə yapışdırılıb. Şəkillərin altında qara rənglə rus dilində yazılıb: “8 sentyabr 1916-cı ildə güclü döyüş zamanı qəhrəmanlıqla həlak oldular. Ekipajın heyəti aşağıdakılardan ibarətdi: komandir - poruçik Dmitri Dmitriyeviç Makşev, komandir köməkçisi, poruçik Mitrofon Aleks Raxmin, artilleriya zabiti poruçik Fərrux ağa Qayıbov və nəzarətçi poruçik Oleq Sergeyeviç Karpov”.

Yaşıl kartonun o biri üzündəki şəkildə isə səliqəli bir otağın küncündə qoyulmuş stolun üstündə şamlar yanır. Şəklin aşağısındakı yazını zorla oxumaq olur. “Qrafinya Uspenskayanın evində mərdliklə həlak olmuş təyyarəçilərin yas mərasimi, 22 sentyabr 1916-cı il”.

Qovluqdakı sənəd və şəkillərlə tanış olub qurtardıqdan sonra Nərmin xanıma belə bir sualla müraciət edirəm:

- Bəlkə Fərruxun yaxın adamlarından birini tanıyasınız?

- Bu sənədləri bizə Fərruxun gəncədə yaşayan mərhum bacısı Dilrüba təqdim etmişdi. İndi Qayıbovlar nəslindən Bakıda yaşayanı çoxdur. Siz isə birinci növbədə Zülfüqar müəllimi görməlisiniz. O, bizim muzeyə Qayıbovlar haqqında çox qiymətli sənəd və şəkillər təqdim edib.

Hələlik Zülfüqar Qayıbovun ünvanını tapa bilmədiyimdən arabir muzeyə baş çəkirdim. Bəlkə muzey işçiləri mənim sorğumdan sonra Fərrux haqqında yeni bir sənəd tapıblar fikriylə bir gün yenə muzeyə getdim. Nərmin xanımı soruşdum. "Məzuniyyətdədir" - dedilər. Geri qayıtmaq istəyəndə:

- Bir dəqiqə ayaq saxlayın, - deyə işçilərdən biri məni çağırdı. - Səhv etmirəmsə siz təyyarəçi Fərrux Qayıbovla maraqlanırsınız, eləmi?

- Bəli, - dedim.

- Bir azca gözləyin, təyyarəçiyə məxsus yeni bir eksponat tapmışıq.

Bir azdan Sara Cavanşirova ipək bir yaylıqla qayıdır. Üstündə Peterburqdakı Pavlova teatrının afişası olan bu zərif yaylığı illərin sınağı zərrəcə soldurmayıb.

Yaylıqda 5 noyabr 1912-ci ildə verilmiş iyirmi birinci konsert-balın proqramı əski rus əlifbası ilə həkk olunub. Konsert-bal sözlərinin altında: "Kasıb azərbaycanlı - müsəlman tələbələrinin nəfinə" yazılıb.

Konsert-balın proqramı üç şöbədən ibarətdir. Birinci və ikinci şöbələrdə rus, Avropa bəstəkarlarının əsərləri, operalardan parçalar verilib. Uçüncü şöbədə isə Azərbaycan milli rəqslərindən "Uzundərə", "Qaytağı", və "Cəngi" rəqslərinin oynanıldığı göstərilir.

Konsertin baş himayədarı tələbə İslambəy Hacıbəylinskidir. Məsul təşkilatçısı Gəray Cabağıyevdir.

Yaylıq bu günlərdə general-leytenant Əliağa Şıxlinskinin şəxsi əşyalarının arasından tapılıb.

Bu ipək yaylıq zərfə qoyulub üstündə belə yazılmışdı: "İlk tayyarəçi Fərrux Qayıbova məxsusdur".

## "CANLI TARİX"LƏ SÖHBƏT

"Canlı tarix" olan adamlar haqqında çox eşitmişdim. Lakin beləlariylə görüşmək hələlik mənə nəsib olmamışdı. Onunla söhbətimdən sonra elin bu sözü nahaqdan işlətmədiyinə bir daha əmin oldum.

Zülfüqar Həmid oğlu Qayıbov əslində biologiya üzrə mütəxəssis olsa da, ədəbiyyat və tarixi də yaxşı bilir.

O, 1537-ci ildən başlayan igid bir nəslin "canlı tarixi" - dir. Onun öz əliylə tərtib etdiyi "Qayıbovlar nəslinin tarixi" xəritəsində ilk azarbaycanlı hərbi təyyarəçi poruçik Fərrux Məmmədkərim oğlu Qayıbovun adını çətinliklə tapdıq. Xəritədə Qayıbovlar nəslinin anadan olduğu il, sənəti, keçdiyi həyat yolu və ölüm tarixi öz əksini tapıb. Bu nəsil rus artilleriyasının "allahı" general-leytenant Əliağa Şıxlinskini, XIX əsrin görkəmli şairləri Mirzə Nəbi Qayıbovu, Abbasağa Naziri, Fədai Mirzə Məhəmməd Qayıb oğlunu, XIX əsrin görkəmli riyaziyyatçısı Əbdülkərim Qayıbovu, ilk hərbi şəfqət bacısı Nigar xanım Qayıbovanı (Şıxlinskaya) və başqa görkəmli şəxsiyyətləri tərbiyə edib yetişdirmişdir.

Fərrux Qayıbov 1893-cü ildə Qazax qəzasının Qıraq Salahlı kəndində anadan olub. Atasını çox erkən itirən Fərrux, əmisi Səmədağa Qayıbovun himayəsində böyüyüb. Maarifpərvər Səmədağa da o dövrün tanınmış ziyalısı olmuş, böyük demokrat-yazıçı Cəlil Məmmədquluzadə ilə bir müddət "Şərqi-Rus" qəzetində işləmişdir. Balaca Fərrux doğma kəndində görkəmli pedaqoq Əhmədağa Mustafayevin 1874-çü ildə təşkil etdiyi beşsinifli "Rus-tatar məktəbi"ni bitirdikdən sonra Tiflis kadet korpusuna daxil olmuşdur.

- Yadımdadır, o vaxt kəndimizin camaatı, xüsusilə yaxın qohumlarımız Əliağa Şıxlinskinin qarasınca deyinirdi ki, uşağı yoldan çıxarıb apardı. Sonralar qocalardan və Əliağa Şıxlinskinin özündən eşitdim ki, Fərruxun hərbi işə çox marağı varmış. Hətta Ə.Şıxlinski rus dilində "İlk azərbaycanlı təyyarəçi Qayıbov" adlı hərbi memuar da yazmışdır. Memuarda deyilir

ki, 1914-18-ci illərin dünya müharibəsində iştirak edən üç min azərbaycanlı içərisindən çıxmış ilk hərbi təyyarəçi Fərrux Qayıbov idi. Doğrudan da Fərruxun hərbi işə marağı olmasaydı, o, 1910-cu ildə Tiflis kadet korpusunu on iki balla (o vaxt bu rəqəm əla qiymət sayılırmış, Ə.Şıxlinski özü də həmin korpusu on iki balla bitirib - Ş.N.) qurtardıqdan sonra könüllü olaraq, Peterburqdakı üçillik Mixaylovsk topçuluq məktəbinə getməzdi.

Zülfüqar muəllimdə olan sənədlər göstərir ki, Fərrux üç illik Mixaylovsk topçuluq məktəbində iti zehninə, gözlə dəqiq ölçmə qabiliyyətinə, xüsusilə topdan bacarıqla atəş açdığına görə birinci dərəcəli mükafat almışdır. Həmin mükafat İsveçrənin "Pavel-Bure" firmasında hazırlanan qızıl saatdır" Saatın üzərində "Yunker Fərrux ağa Qayıbova, 1913-cü il" sözləri yazılıb.

Sinəsi ötən günlərin xatirələrilə dolu olan Zülfuqar Qayıbovun zəngin şəxsi arxivi var. O, səliqəylə saxladığı bağlamadan balaca bir gümüş papiros qutusu çıxarır. Papiros qutusu dramaturq M.F.Axundova məxsusdur. M.F.Axundovla Fərruxun əmisi Hüseyn Əfəndi Qayıbov yaxın dost olublar.

Əliağa Şıxlinski 1944-cü ildə çap olunmuş "Xatirələrim" kitabında yazır: "Mirzə Hüseyn Qayıbov, Mirzə Fətəli Axundovun çox yaxın dostu idi. O, ərəbcə kitab və təzkirələri oxumaqda Mirzə Fətəliyə kömək edərdi, çünki ərəbcəni o, Mirzə Fətəlidən daha yaxşı bilirdi".

Ərəb və fars dillərində gözəl təhsilə malik olan M.H.Qayıbov bir müddət Tiflisdə ruhani idarəsinin müsəlman mədrəsəsində şəriət müəllimi olmuş, Qori müəllimlər seminariyasında Azərbaycan şöbəsinin açılması üçün M.F.Axundovla birgə fəaliyyət göstərmişdir. Lakin bu təşəbbüs böyük dramaturqun ölümündən bir il sonra həyata keçirilir. Qori müəllimlər seminariyasının nəzdində Azərbaycan şöbəsi açılır. M.Qayıbov 1879-cu ildən həmin seminariyada Azərbaycan və Şərq dilləri müəllimi işləyir. O, kasıb tələbələr üçün dövlətdən min manat vəsait alır və dolanacağı ağır olan tələbələrdən qırx üç nəfərinə kömək edir. 1881-ci ildə Zaqafqaziya müftisi vəzifəsinə seçilərkən Mirzə Hüseyn demişdir: "Mən heç bir vaxt ruhani olmamışam və heç bir dini ayin icra etməmişəm və bundan sonra da etməyəcəyəm, lakin mənə təklif edilən vəzifəni qəbul edirəm, çünki bu vəzifədə xalqıma daha böyük fayda verə biləcəyimi güman edirəm".

Müsəlman qızlarının təhsil alması, onların azad edilməsi və çadralarının atılması uğrunda mübarizə edən Qayıbov öz yazılarında sübut etmişdir ki, heç bir şəriət qızın və ya qadının təhsil almasını qadağan etmir, edə də bilməz. Şəriətin qara qanunlarının hökm sürdüyü belə ağır bir vaxtda o, öz həyat yoldaşı Səadət xanıma "Qafqaz qadınlarının xeyriyyə cəmiyyəti"ndə iştirak etməyə icazə vermiş, qızları Nigar və Gövhəri Tiflisdə rus dilindəki Nücabə Qızlar İnstitutunda oxutmuşdur. Həmin institutu 1889-cu ildə Nigar, 1903-cü ildə isə Gövhər qızıl medalla bitirmişdir.

Ömrünün sonuna kimi müfti vəzifəsində çalışan xeyirxah Mirzə Hüseyn Qayıbov yüzlərlə azərbaycanlı gəncin savadlanmasında fəal iştirak edib.

Böyük Azərbaycan şairi Seyid Əzim Şirvani 1879-cu ildə "siyasi etibarsızlığ"a görə işdən çıxarılanda böyük şairin müəllimliyə qaytarmasına şəxsən M.H.Qayıbov kömək etmişdir. Şirvani - yaxın dostu və məsləkdaşı Qayıbova həsr etdiyi səksən dörd misralıq qəsidəsində onu ilk dəfə məktəb bina edən peyğəmbər adlandırmışdır.

## İKİNCİ AZƏRBAYCAN TƏYYARƏÇİSİ

On birinci ordu Azərbaycana gələndən sonra Azərbaycan milli diviziyasının tərkibində aviodəstələr təşkil olunmuşdu. Bu aviodəstələrdə azərbaycanlı gənclərdən də təyyarəçilər hazırlanırdı. Hələ 1918-ci il mayın iyirmi səkkizində Vladimir İliç Lenin göstəriş vermişdi ki, Bakının müdafiəsi üçün aviasiya divizionu təşkil olunsun. Respublikada aclıq və dağıntının hökm sürdüyü bir vaxtda - 1920-ci il mayın iyirmi dördündə Bakıda hərbi Dəniz Aviasiya məktəbi açıldı.

1923-cü ildə Azərbaycan zəhmətkeşləri milli hərbi hava donanması cəmiyyəti yaratmaq təşəbbüsünü irəli sürdülər. Bir çox şəhər və qəza mərkəzlərində bu cəmiyyətə yardım fondu təşkil olundu. Respublikanın müxtəlif idarə və müəssisələri təyyarə düzəltmək üçün könüllü olaraq bu cəmiyyətə pul keçirdilər. Hətta məşhur yazıçı-dramaturq Cəlil Məmmədquluzadə yazıçı və şairlərdən pul toplayaraq həmin pulla "Molla Nəsrəddin" adlı təyyarə düzəldilməsini təklif edirdi.

1923-cü il avqustun iyirmi səkkizində "Kommunist" qəzetində (№193) Ruhulla Axundov "Molla Nəsrəddin aeroplanı" adlı məqaləsində yazırdı:

"...Mən var qüvvəmlə butün qələm arkadaşlarımı, firqə məsləkdaşlarımı və ümumi əmələ və kəndli yoldaşları dəvət edirəm ki, Azərbaycan zəhmətkeşlərinin mədəniyyəti uğrunda can çəkişmiş mübarizlərin adını əbədi surətdə qeyd etmək üçün "Molla Nəsrəddin aeroplanı"na ianə toplamağa başlasınlar". Qəzetin çağırışı ilə C.Məmmədquluzadə məvacibinin onda bir hissəsini (o vaxtkı pulla iki milyardını) "Molla Nəsrəddin aeroplanı nəfinə verib, Ağamalıoğlunu, Mirbəşir Qasımovu, Salman Mümtazı, Əli Səbrini ianə verməyə dəvət edir. Bu təşəbbüsə Abdulla Şaiq, Əbdürrəhimbəy Haqverdiyev, Süleyman bəy Axundov kimi məşhur Azərbaycan ədibləri də qoşulmuşlar.

Ziyalıların topladığı ianəyə bir təyyarə də alınır. Amma adını "Molla Nəsrəddin" qoymurlar.

1924 - 1926-cı illərdə ilk dəfə olaraq Bakı - Tiflis, Bakı - Pyatiqorsk, Bakı-Yevlax hava marşrutları açılır. Belə bir vaxtda "M-52" və "M-92" təyyarələri respublika səmasında cövlan edirdi.

Bu hava gəmisini idarə edənlərdən biri də ikinci Azərbaycan təyyarəçisi Teymur Mustafayev olmuşdur.

Teymur 1896-cı ildə Bakıda dülgər ailəsində anadan olub. On dörd yaşlı Teymur peşə məktəbini bitirdikdən sonra 1920-ci il mayın 24-də açılan Bakı hərbi dəniz təyyarəçilik məktəbinə daxil olur. 1922-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirən T.Mustafayev hərbi-dəniz təyyarəçisi rütbəsi alır. O, birinci Azərbaycan diviziyasının aviodivizionunda Xəzər dənizində neft yataqlarının kəşfi sahəsində təyyarəçi-instruktor kimi xidmət edir. Əlaçı pilot Teymur 1922-ci il noyabrın on dördündə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin yüz səksən nömrəli əmri ilə respublikanın Qırmızı Bayraq ordeni ilə təltif olunur.

Həmin il aprelin iyirmisində Respublika Hərbi-Dəniz Komissarlığının yüz otuz iki nömrəli əmrilə Teymur uçuşda qazandığı müvəffəqiyyətlərə görə üstü yazılı qızıl saatla mükafatlandırılır.

Təyyarəçi Teymur Mustafayev 1924-cü ildə Xəzərin üstü ilə beş yüz-altı yüz metr məsafədən uçarkən dəniz səthinin bir sahəsində yağlı neft ləkələri müşahidə edir. O, bu barədə neft təsərrüfatı nazirliyinə məlumat verir. Həmin illərdə respublikamızda hərbi xidmətdə olan, sonralar Sovet İttifaqı marşalı, Sovet İttifaqı Qəhrəmanı Stepan Akimoviç Krasovski yazır ki, Xəzərdə ilk dəfə neftin olmasını azərbacanlı təyyarəçi Teymur Mustafayev kəşf etmişdir desək, yanılmarıq.

"Hünər" verilişində ilk azərbaycanlı təyyarəçi Fərrux ağa Qayıbovun hərbi fəaliyyətindən və 1916-cı ildə Qərb cəbhəsində dörd alman təyyarəsinə qarşı vuruşaraq qeyri-adi bir qəhrəmanlıqla həlak olmasından söhbət açmışdıq. Verilişdən bir neçə gün sonra redaksiyamıza bir ağsaqqal gəldi. İsrafil Mustafayev dedi ki, mənim qardaşım Teymur Mustafayev də təyyarəçi olub. Lakin 1926-cı ildən adı heç yerdə çəkilmir, onun haqqında heç bir azərbaycanlı gəncin məlumatı yoxdur.

İsrafil müəllim qardaşı Teymura məxsus müxtəlif sənəd və şəkillər də gətirmişdi. Onların arasında bir şəkil diqqətimizi xüsusilə cəlb etdi. Biz bu şəkli Əliheydər Qarayevdən və komissar Heydər Vəzirovdan danışanda dönə-dönə verilişlərimizdə göstərmişdik. Bu on dörd nəfərin təsvir olunduğu şəkildən indiyədək üç şəxsi tanıyırdıq. Məlum oldu ki, arxa cərgədə soldan üçüncü-təyyarəçi Teymur Rəsul oğlu Mustafayevdir. Şəkil 1922- ci ildə çəkilib.

İyirminci illərin sonunda ölkəmizdə ilk siyasi proseslərdən birinə başlandı, Gizli antisovet təşkilat olan "prom-partiya" (sənaye partiya) ittiham edilirdi. Guya bu təşkilat burjua-texniki

ziyalılardan ibarət yuxarı təbəqənin bir hissəsini birləşdirir və sərhədin o tayının köməyinə, digər əksinqilabi qüvvələrin yardımına arxalanaraq SSRİ-nin sənaye və nəqliyyat sahələrində pozucu fəaliyyət göstərirmiş. Həmin iş üzrə bir çox məşhur aviasiya konstruktorları, təyyarəçi və mühəndislər həbs edildilər.

İkinci azərbaycanlı təyyarəçi Teymur Mustafayev də guya "sərhədin o tayının köməyinə" gələnlərdən biri olub. Yalan və haqsızlığın qurbanı olan Teymur 1926-cı ildə həbs edilib, Qazaxıstanın Qaraqanda şəhərinə sürgün edilir. Şəxsiyyətə pərəstiş dövrunün ilk qurbanlarından olan həmyerlimiz burda da fəaliyyətini dayandırmır. O, Qaraqandada yenicə açılan daş kömür mədənlərinin inkişafında yaxından iştirak edir. "Qaraqandakömür" mədənlərində müxtəlif məsul vəzifələrdə çalışan T.Mustafayev qaz generatorları qurğusunun hazırlanmasında və Böyük Vətən müharibəsi illərində cəbhə üçün avtomobillərin əsaslı təmirində böyük əmək sərf etmişdir.

Dövlət onun müharibə illərindəki və müharibədən sonrakı xidmətlərini nəzərə alaraq "Böyük Vətən müharibəsində fədakar əməyinə görə", "Əməkdə fərqlənməyə görə" və "Xam torpaqların istifadəyə verilməsinə görə" medalları ilə təltif etmişdir. Həmyerlimiz həm də üçüncü dərəcəli dağ mühəndisi fəxri adına layiq görülmüşdür.

Ömrünün axırına kimi vətəndən uzaqlarda yaşayıb işləyən Teymur Mustafayevin 1976-cı ildə Qaraqanda ictimaiyyəti səksən illik yubileyini keçirmişdir. V.Jilkin familiyalı müəllif "İndustrialnaya Qaraqanda" qəzetinin 27 oktyabr 1976-cı il tarixli nömrəsində "Yaxşı insan" haqqında" məqaləsində yazır:

"Ucaboy, çevik və həmişə gülümsər sifətli T.Mustafayevi mədənçilər şəhərində hamı qayğıkeş bir adam kimi tanıyır. O, kiməsə xeyirxah məsləhəti ilə, kiməsə də mənzil və məişət məsələlərinin həllində kömək edir. Artıq uzun illərdir ki, Teymur şəhər sovetinin xalq nəzarəti şöbəsində ictimai müfəttişdir. O, həm də rayon icraiyyə komitəsində mənzil-məişət komissiyasının üzvudür. Bizim şəhərdə o, demək olar ki, yarım əsrdir yaşayır və işləyir.

1930-cu ildə Qazaxıstanda daş kömür sənayesinin əsası qoyuldu. Bu sahədəki ilk və fəal çalışanlardan biri də Teymur Mustafayev idi. Böyük Vətən müharibəsi illərində o, yük avtomobillərini təmir edib cəbhəyə göndərən sexin rəisi idi. Onun təşəbbüsü ilə yük avtomobillərinin mühərrikləri qaz generatorları ilə işləməyə uyğunlaşdırılmışdır. Bu təşəbbüs cəbhənin ehtiyaclarını ödəmək üçün yüz tonlarla benzin yanacağına qənaət etməyə imkan vermişdir.

Müharibədən sonra Teymur Mustafayev Tixonovski, Novomaykudski, Prişaxtinski avtobazalarının və avtotəmir emalatxanalarının tikintisinə rəhbərlik etmişdir".

Heç bir günahı olmadan sevimli təyyarəçilik sənətindən ayrılıb, doğma Azərbaycandan uzaqda yaşayan xalqımızın ikinci təyyarəçisi Teymur Mustafayev yetmişinci illərdə bir neçə dəfə öz vətəninə qonaq kimi gəlib qayıtmışdır.

1981-ci ildə vəfat edən Teymur Mustafayevin hazırda Qaraqanda şəhərində iki oğlu yaşayır. Böyük oğlu Yusif dağ mühəndisidir, kiçiyi İsgəndər isə atanın ilk gəncliyində yarımçıq qalmış arzusunu davam etdirir. O, təyyarəçidir.

## İNTİZARIN SONU

Payız girirdi. Artıq köç bayatıları eşidilirdi. Duman binələrin ətrafında cövlan eləyirdi. Tez-tez çiskin yağış yağır, qara buludlar aşağılara enir, buralardan çəkilmək istəmirdi. Bəylər nərmə-nazik xanımlarını arana köçürdüklərindən yurd yerləri qaralırdı.

Sayadgilin sürüsü Atan dərəsini bulud kimi tutmuşdu. O üz bu üzə yayılan qoyunlar şirin yaylaq otunu acgözlüklə qırpırdı. Sayad sağ qılıncda çarıq tikirdi. Məhər isə zümzümə eləyə-eləyə sürünün arxasında keşik çəkirdi. Dərənin girəcəyindən zəif səs eşidildi. Sayad başını qaldırdı. Aran yolundan yedəkli bir atlı gəlirdi. Yaxınlaşan atlı sürüyə baxa-baxa əl eləyib qılında oturan Sayadı çağırdı. Hava duman olsa da Sayad onu səsindən tanıdı. Bu, Eminlərin nökəri çolaq İdris idi. Fikirləşdi ki, xeyir ola, ağam nə yaxşı buna iki at verib yaylağa göndərib. Yəqin kiməsə vacib iş üçün arana aparacaq. Axı, dağda bəylərdən, ağalardan heç kəs qalmamışdı.

Sağmal qoyun artıq yola düşüb, bir neçə günə biz də qısırları otara-otara aşağılara endirəcəyik. Bəlkə, görücü yenə ağamızı qorxudub ki, dağlarda bərk çovğun gözlənilir. İdrisi xəbərə göndərib ki, uşaqlara deyinən sürünü tez aşağıya endirsinlər.

Dərənin bu tayından o tayına enib atlıya çatana kimi Sayad bunları fikrində götür-qoy elədi. Amma ürəyinə nəsə şübhə düşmüşdü. İdrislə soyuq görüşüb:

- Əyə, ölmüş, bu zaman nə yaxşı gəlibsən, xeyirdimi?

İdris irişdi. Tay gözü ilə yekəxana-yekəxana sürüyə nəzər saldı. Ağasının tapşırığını xatırlayıb özünü daha ciddi tutdu. - Ağam səni ismarlayıb dedi ki, tez arana qayıtsın, vacib işim var onnan.

Sayad zənlə onun üzünə baxdı. İdrisin at üstündəki görkəmi peyinlikdə oturan qarğanı xatırladırdı. Başqa vaxt olsaydı, deyərdi ki, ayə, get ağlına dua yazdır, ağa hara, mən hara, onun mənnən nə vacib işi ola bilər. Mənimki də sənin kimi nökərçilikdi, onu da eləyirəm. Bircə fərqi var ki, sən qapı nökərisən, mən çöl. Emin ağa ildə iki cüt çarığa, iki ildə bir dəst paltara, bir qarın çörəyə səni də işlədir, məni də. Mənim dabanlarımı çöldə köşə kəsir, yorğan-döşək əvəzinə bir həsirdə yatıram.

Sayad heç vaxt özünü çoban saymırdı. Çoban da, deyirdi, nökər kimi bir şeydi. Fərqi odu ki, ağa qapısında yox, yataq qapısında nökərçiliyini başa vurur. İnişil Qıraq Kəsəmənli çoban Əfqanın, Məşədi qızı Gülnazın toyunda yanıqlı-yanıqlı oxuduğu bu sözlər Sayadın nə şad dəqiqələrində, nə də kədərli vaxtlarında dilindən düşmürdü.

Bu necə əyyamdı, necə zamandı?
Ürəklər qan ağlar, allah, amandı!
İşləyən rəiyyət, kef çəkən xandı,
Ağlayana bir inayət görünmür.

Çoban Əfqan yazır dastan, a dostlar!
Bax bu qəmdən, bax bu yasdan, a dostlar!
Hardadı şir, bir də aslan, a dostlar?!
Onda olan zor, şücaət görünmür.

O gecə toydakı ağalar cilov gəmirmişdilər. Bu sözlərə görə çoban Əfqanı öldürmək istəyirdilər. Çomaqların şaqqıltısı eşidiləndən sonra ağaların dişi qamaşdı. Dinəni, əl-ayaq atanı olmadı.

- Binəyə qayıdaqmı, yoxsa elə burdan gedək? - Kal səslə Sayad soruşdu.

- Binəyə gedib vaxtı niyə itirirsən. Bir də binədə nə var. Hayıf olub bəylik paltarın orda qalıb? - İdris yersiz-yersiz elə irişdi ki, qarğıdalı dənəsinə bənzər saralmış eybəcər dişləri göründü. - Çağır, qoyunu Məhərə tapşır, elə burdan da geri qayıdaq. Ağam dedi, çatan kimi də qayıdın.

Sayad əl eləyib Məhəri yanına çağırdı. Sürünü ona bərk-bərk tapşırdı. İdris çoxdan bozarmış çəp gözünü yumub seyrək dişlərini ağardaraq:

- Məhər, mənə bir toğlu versənə, aparıb kənddə yeyəm.

Məhər az qala gözünü örtən saçaqlı papağı başından götürüb:

- Nə deyirsən, - dedi, - əyə?

- Qağa, mamaoğlu-dayıoğlu döylükmü, neçə ildə bir dəfə - atüstü qonağınam, bir balaca quzu ver, aparım uşaqlarım...

Məhərin aranda gündən, dağda borandan yanmış üzünə sərt, amansız bir ifadə çökdü. Hirslə papağı başına basdı. Çomağını qaldırıb dişlərini qıcadı:

- Maman da ölsün, onun oğlu da, şuğul oğlu şuğul, quzu sənnən ötrü qarpız kələyi-zaddı? Yoxdu mənim quzum, yolun altından gəlibsən, üstündən də cəhənnəm ol, ket, Göyçə küçüyü, get kimə xəbərçilik eləyirsən, o da sənə quzu versin.

Məhərin İdrisə acıqlanmağı təsadüfi deyildi. Üç il qabaq Məhərin qardaşı Mədədi də bu qarğıdalıdiş çağırıb aparmışdı ki, ağam səni arana ot biçininə çağırır. Mədəd o gedən oldu. Onu iki ay Gəncə qalasında saxlayıb, birbaşa Sibirə göndərdilər. Adını da qoydular ki, yaylaqda

qaçaq Cahangirə çörək verib. Bu obada hamı bilirdi ki, İdris kimi çağırdı, onun işi xeyirliyə olmaz. Emin ağanın üç-dörd qapı nökəri vardı. Belə vacib buyruqları ancaq İdris yerinə yetirərdi. Ağa özü deyirdi ki, başqa nökər-naib belə mühum işin öhdəsindən gələ bilməz, İdrisin ağa qulluğuna çağırdığı adam gedər-gəlməz olardı, ya da başına min oyun açılardı.

Atlılar geri, arana tərpəndi. Məhər yerində quruyub qalmışdı. Acığı hələ soyumamışdı. Çomağını qaldırıb hirslə yerə çırpdı, öz-özünə:

- Əlimə yaxşı girəvə düşmüşdü, - dedi, nahaq öldürmədim o qapı küçüyünü. Mədədin hayıfını gərək onda qoymayaydım. İt oğlunu görəndə qan beynimə sıçradı, Sayadnan öpüşüb ayrılmağı da unutdum.

Yerində quruyub qalan Məhərin iri ala gözlərini yaş yandırdı. Mədəd yadından çıxmırdı. Onu da belə tələsik aparmışdılar. Şər vaxtı qoyun-quzu əmişdirməkdən gec qayıdan Məhər gəlib onu bir daha görmədi. Doluxsunmuş Məhərin sinəsinə elə bil qızmar dəmir basırdılar. Nəfəsi qarala-qarala:

- Yaxşı yol, ay Sayad, yaxşı... - çomağı da, əli də havadan asılı qaldı. Sayad atın başını geri döndərib:

- Məhər, ay Məhər, qoyunu Cavadnan otar, onun yaxşı yoldaşlığı var. Mustafagil onu yola vermir. Onu öz yanına gətir.

- Yaxşı, yaxşı, arxayın ol... - Məhər qəhərləndi.

Tüstü burulğanına düşmüş adam kimi səsi zorla çıxırdı. Əlindəki köşəliyi cibinə soxub, gözünün yaşını sildi. Bu kədərli mənzərəyə qoyunların bir parası duruxub mələşirdi. Məhərin ürəyinin başı daha da göynədi:

- Hey, hey, - eləyib sürünün ağzını binəyə tərəf döndərdi. Ağlaya-ağlaya dağlara baxıb oxudu:

Bürüyüb hər yeri bəylərin malı,
Qazaxda qurulur cahi-cəlalı,
Əfqan, yaman keçir ellərin halı,
Düşüb yandığımız nar kiminkidi

* * *

Xanbulaqdan tərpənən atlılar bütün gecəni yol gəlib dan ağaranda Ağköynək kəndinin üstündəki Qaracalar yalına çatdılar. Emin ağa həmişəkindən də tez durmuşdu. Gözünə yuxu getmirdi. Üç gün idi aldığı xəbər onu fikirdən-fikrə salırdı. Əlindəki zərli təsbehi də əsəbi-əsəbi oynadırdı. Arvadı Cavahir xanım ağlamaqdan başağrısı tapmışdı.

- Çoban-çoluq, nökər-naib mənim varımı yeyib yatacaq, hələ bir daldada atamın goruna da söyəcək. Yox, mən buna dözə bilmərəm, yetim-yesir üçün qazanmışam bu cah-calalı, gözümün ağı-qarası Cəlilim getsin qayıtmasın? - Kişi bunları fikirləşəndə dəli olurdu. "Bu köpəkoğlunun nemsəsi də farağat durmur. Dava eləməyə vaxt tapdı. Lap razıyam mənim adıma oğul kimi yazsınlar, ancaq davaya Sayad getsin".

Darvazanın arxasında at kişnədi. Emin ağa atın kişnərtisini tanıdı. Alapaçanın adəti idi, darvazaya çatanda iki-üç dəfə kəsik-kəsik kişnərdi. Böyük darvazanın balaca qapısı açıldı. İdris quyruq bulayan məhəllə iti kimi iki qatlanıb:

- Ağam, sabahın xeyir, - qəddini düzəldib fəxrlə, - gətirmişəm. - dedi.

Emin ağa qulaqlarına inanmadı. İdrisi göndərəndə elə bilirdi ki, Sayad gəlməyəcək. Eşitsə ki, ağası onu oğlunun əvəzində əsgər göndərir, ilim-ilim itib dağlara çəkiləcək. Ona görə nökərə dönə-dönə tapşırmışdı ki, Sayad səni döyüb öldürsə də onu niyə çağırdığımı deməzsən.

Emin ağa sevincindən, şad xəbərin təsirindən qabağa yeridi. İdrislə üzbəüz dayandı. "Nökəri qarşılamağa gedirəm, mən lap başımı itirmişəm. Yox, qoy o mənim üstümə gəlsin, gədəni duyuq salaram. Köpək oğlu razı olmasa, it kimi gəbərdərəm".

İdris ağasını fikirli görüb yerində qurumuşdu. Emin ağa təsbehli əlini darvazaya doğru uzadıb:

- Darvazanı aç, qoy Alapaça içəri girsin, at tərlidimi?

- Bəli, ağa, heç binələrə getmədim, sürünün yanından gətirdim. Dedim birdən binədəkilər öyrədib eləyər.

- Davanın başlanmağını bilirmi?

- Yox, ağa, o barədə yolda heç söhbət olmadı. Nə soruşdu, çoxusuna - bilmirəm - dedim. Məncə xəbəri yoxdu. Hardan bilsin, on-on beş gündü yaylağa gedib-gələn yoxdu.

- Yaxşı, get Alapaçanı içəri burax, çox tərlidirsə, yəhərini alma, qayışını boşalt, atı yaxşı bağla, birdən gedib su-zad içər.

Bir göz qırpımında darvaza açıldı. Emin ağa sağa dönüb qızılgüllüyün arasında yavaş-yavaş gəzişdi. Bir az gedib ürək döyüntüsü ilə geri qayıtdı. Gözaltı ona tərəf gələn ucaboy, enlikürək Sayada baxdı. Ürəyində: “Mənim var-dövlətimi yeyib gör nə boyda olub. Mənə nökər duranda arıq, cüllüt bir uşaq idi. İnsafdımı bu köpək oğlu dura-dura, mənim bircə Cəlilim qızıl güllə qabağına getsin. Dünyanı dağıdaram getməsə, nəslini yer üzündən qazıdıb turp əkdirərəm” - dedi.

Amma onun ürəyində bir səksəkə, bir qorxu da vardı. “Birdən doğrudan getməz, hədə-qorxu lazım deyil, zırın biridi, tərslikdə nəsliynən məşhurdur. Birdən qabağımdan qayıdar, ilim-ilim itər, Salahlı qaçaq Cahangir kimi dağlara çəkilib qaçaqlıq eləyər. Çoban Əfqanın sözlərini oxuyan nökərdən nə desən gözləmək olar. Yox, bunun bircə yolu var, o da qılığına girməkdi. Pul nə qədər istəsə verəcəm, lap evimi satıb... Nə evimi? Əşşi onun dilini iki yüz-üç yüz manat da bağlayar. Tarix boyu nəsli bu qədər pul görməyib”.

Sayad ədəb-ərkanla salam verdi. Emin ağa lap yaxına gəldi. Yalandan üz-gözü gülür, ona mehriban-mehriban baxırdı.

- Xoş gəlibsən, oğul, - dedi, - Sayadla həyatında ilk dəfə əl verib görüşdü.

Sayad nə gözünə inandı, nə də eşitdiyinə. Düz səkkiz il idi Emin ağanın çobanı idi. İlk dəfə idi ki, ağası ona “xoş gəlibsən, oğul” deyirdi. Sayad çaşıb qalmışdı, bilmirdi nə desin, necə cavab versin. Gecdən-gec:

- Sağ olun, yaxşıyam, - dedi.

Araya sükut çökdü. Bayaqdan öz-özünə asıb-kəsən ağa indi danışmağa söz tapmırdı. Dan üzünün bu sakitliyində ağanın təsbehi çaylaq daşı kimi şaqqıldayırdı.

- Dağlarda yağarlıq başlayıbmı? Sürü necədi, salamatdımı? Ölüb-itəni yoxdu ki?..

- Yağış hələ azdı, sürü də sağ-salamatdı, Məhərə tapşırıb gəlmişəm.

Ağa susdu. Nə qədər elədi əsas məsələnin üstünə gələ bilmədi. Ehtiyat elədi. Geri dönüb:

- İdris, ay İdris, bu kişi çöldən gəlib, buna çay-çörək ver yesin. Aynabənddə oturun, mən də gəlirəm, - sonra üzünü Sayada tutub: - get, oğul, yoldan gəlibsən, bir qismət çörək kəs, dincini al, sənnən işim var, ürəyinə başqa şey gəlməsin, xeyirdi, - dedi.

Sayad taxta pilləkənləri çıxdıqca fikirləşirdi ki, görəsən bu nə işdi ağa mənimlə belə mehriban danışır. Səkkiz ildə ilk dəfə məni evinə dəvət eləyir. Hələ çörək də yedizdirir. Görəsən, yazıq Mədədi də beləmi eləyiblər. Nəsə boynuma qoyacaqlar. Yox, rəhmətlik atam Zeynalabdin deyərdi ki, ağalar, bəylər rəiyyəti heç vaxt xeyirliyə çağırmazlar. Ağa nökəri çağırdısa, ya Bakıya nöyüdə, ya da Naxçıvana duza göndərəcək.

Cavahir xanım istədi çay-çörəyi Sayada özü aparsın. Emin ağa onun üstünə elə qışqırdı ki, evdə lampa yansaydı bu zəhmdən sönərdi.

- Qarıxmısan, ay arvad, istəyirsən gedənin biri ayağını qaldırıb başımıza qoysun?

- Neyləyim, ay kişi, bircə Cəlilimin xatirinə, o gözümdən getsə, dünyam dağılar.

Emin ağa Sayadın yanına xeyli sonra gəldi. Süfrəyə göz gəzdirib dilucu:

- Niyə çörək yemirsən, utanırsan, nədi? - dedi. - Utanma, əməlli-başlı çörək ye.

Sayad:

- Sağ ol, ağa, allah artıq eləsin, ac döyüləm, özümnən yola çörək...

- A gədə, İdris, it özünü öldürür, karsanmı, çıx gör kimdi, bəlkə qonaq-zad gəlir?

Ağa qəsdən İdrisi rədd elədi ki, söhbəti eşitməsin. İdrisin onun evinin sirrini heç yerdə danışmadığına arxayın idi. Yenə də ehtiyat elədi. Oxumağa hazırlaşan müğənni kimi bir-iki dəfə öskürüb boğazını arıtladı.

- Oğul, - dedi, - bilirsən səni niyə çağırmışam? Sənin əsgərliyə verdiyin vergini hökumət qəbul eləmir. - Ağa başını yuxarı qaldırmırdı. Sözləri yalan olduğuna görə cəsarəti çatmırdı ki, Sayadın üzünə baxsın. Öz-özünə: - "Bu Zeynal uşağının görücülüyü var, birdən gözümdən oxuyar ki, yalan danışıram. Bu zalım uşağı özündən çıxdı, qabağında durmaq çətindi". - Deyirlər, cavandı, qoçaqdı, gərək özü əsgər getsin. Bilirsən, məsələ belədi ki, hökumət ildə bizim Qazax mahalından bir cavanın vergisini almır, özünü əsgər aparır. Padşahın əmri belədi.

Sayad ovcunun içi kimi bilirdi ki, ağası onu aldadır. Böyük padşahın qanunu vardı ki, əsgərliyə ancaq xan, bəy, ağa uşaqları çağrılmalıdır. Bunu ona çoban Əfqan başa salmışdı. Sayad ona inanırdı. Əfqan heç vaxt yalan danışmazdı. Sayad fikirləşirdi ki, gecə-gündüz yağışda, sızaqda qoyun otarmaqdansa, əsgər getmək yaxşıdı. Günü-güzəranı bir qara qəpiyə dəyməzdi. Yayda arxaclarda, qışda isə mal damında yatardı. Nə yorğan görərdi, nə də döşək tanıyardı. Ancaq qarşısında bir çıxılmaz yol vardı.

- Ağa, özün bilirsən ki, bacı-qardaşlarımın hamısı körpədi. Onları mən saxlayıram. Bəs mən getsəm onların dolanacağı necə olar?

- Oğul, Sayad, məgər mən ölmüşəm? Qoymaram onları korluq çəkməyə. Məni pristav çağırıb tapşırdı. - Emin ağa qoltuq cibindən bir xeyli pul çıxardıb Sayadın qabağına qoydu. - Bax, bu da pristavla mənim sənə bəxşeyişim. - Ağa yaxşı bilirdi ki, Sayad gedib pristavdan soruşmayacaq ki, mənim ailəmə pulu doğrudanmı, sən veribsən. Sayad heç pristavın qapısını tanımırdı. - İki-üç il uşaqlara bəsdi. Mən özüm də buradayam, qoymaram uşaqlar ac-yalavac qalsın.

- Yaxşı, nə deyirəm, məsləhət bilirsinizsə gedərəm.

Emin ağanın sevincinin həddi-hüdudu yox idi. Elə bil üstündən ağır dəyirman daşı götürüldü. Ürəyində, - allah sənə şükür, bircə Cəlilim qızıl güllədən xilas oldu, - dedi.

Sayadı yola salandan bir neçə gün sonra Emin ağanın evində böyük şadyanalıq vardı. Çiyni zər poqonlu, boynuyoğun, turpsifət pristav deyirdi:

- Cənab Emin ağa, içirəm sənin o bir və pir balan Cəlil bəyin sağlığına, qoy həmişə qızıl güllələr Cəlil kimi mərdlərdən qorxub yan keçsin. - Sərxoş pristav yerində səndirlədi. Stəkandan daşan araq yerə damcılayırdı. - Qoy o güllələr çoban-çoluğa, gədə-güdəyə dəysin. Pristav ha, ha... eləyib bərkdən güldü. Emin ağanın qaşqabağı açılmır, dinib-danışmırdı. Özü də bilmirdi ona nə olub. Yuxusuz adamlar kimi tez-tez əsnəyir, nəzərləri bir nöqtədə ilişib qalırdı. Pristav gur səslə: - Cənablar, Kayzer Almaniyası sərhədlərimizdə dəhşətlər törədir. Sizin o bədbəxt çoban Sayad indi haradasa ölüb-itdi, əl-ayaq altında qaldı.

Pristav elə danışırdı ki, sanki qalibiyyət qazanmış ordu komandanını alqışlayırdı. O, məclisdəki ağalara göz gəzdirdi. Heç kəs ona baxmırdı. Donquldana-donquldana oturdu.

Canab pristavın əl-ayaqda ölüb-itmiş hesab elədiyi Sayad Zeynalabdin oğlu Birinci dünya müharibəsindən zəfərlə qayıtdı. O, cəbhədə göstərdiyi şücaətlərə görə müqəddəs Georgi ordeninin dörd dərəcəsilə təltif olunmuşdu. Bu yaxınlarda SSRİ Mərkəzi Dövlət hərbi arxivindən aldığımız bir sənəd bunu bir daha təsdiq edir:

"Sizin sorğunuza cavab olaraq bildiririk ki, arxiv materiallarında tatar süvari polkunun yunkeri, praporşik - Sayad Zeynalovun xidmət dəftərcəsi saxlanılır. Sənəddə deyilir ki, o, 30 avqust 1886-cı ildə anadan olub. Yelizavetpol quberniyasındakı Qazax qəzasının vətəndaşıdır. 1914-cü ildə könüllü olaraq tatar süvari polkuna daxil olub. 1915-ci ildə uryadnik, 1917-ci ildə praporşik, sonra isə yunker rütbəsi alıb.

1914-cü il sentyabrın 20-dən Avstriya-Macarıstan və Almaniya döyüşlərinin iştirakçısı olub. Georgi ordeninin bütün dörd dərəcəsilə təltif edilib.

Müqəddəs Georgi ordeni qədim rus ordenlərindəndir. Onun dörd dərəcəsi vardı. Birinci dərəcəli orden də yuksək hesab olunurdu. Ordenin devizi belə idi – "əla xidmət və cəsurluğa görə". Odur ki, müqəddəs Georgi ordeninin bütün dərəcəsinə yalnız "fövqəladə dərəcədə fərqlənən, xüsusi rəşadət, mərdlik, əla əsgəri qəhrəmanlıq göstərən hərbi qulluqçular layiq görülürdülər".

Sayad müharibədən qayıdanda yeni bir "cəbhədə" vuruşmalı oldu: Qarayazı meşəsində, Naltökən və Avey dağlarında gənc sovet hökumətini bəyənməyən, qınına çəkilmiş qaçaqlara, quldurlara qarşı.

Qazax qırmızı partizan dəstəsində mətanətlə vuruşan, Gəncə qiyamının darmadağın edilməsində fəal iştirak edən Sayad Zeynalov Azərbaycan kəndlərində kolxoz yaradılmasında fəal iştirak edirdi.

Birinci dünya müharibəsində göstərdiyi igidliyə görə müqəddəs Georgi ordeninin bütün dərəcəsinə layiq görülən yeganə azərbaycanlı Sayad Zeynalov sovet hakimiyyəti illərində Qazax milis şöbəsinin rəisi, el yardımı komitəsinin sədri və Gəncə milis idarəsinin rəisi kimi məsul vəzifələrdə çalışmışdır.

Otuz yeddinin acı tufanı Sayad Zeynalabdinoğlunun da qapısını döydü. Günahı da o olub ki, niyə çar zabiti olmusan? O, 1942-ci ildə sürgündə həlak olub. İgid döyüşçünün həm də şairlik təbi varmış. Çox təssüf ki, onun bütöv bir şeri tapılmadı. Otuz yeddinin qara gecəsində gələn "üçlük" onun yazı-pozusunu da aparıb məhv etdi. Ağköynəkli ağsaqqalların yaddaşında Sayadın 1915-ci ildə Sarıqamışdan yazdığı şerindən bircə bənd yadigar qalıb:

Sarıqamış altında olduq nəzərdə,
Yuyürdük irəli, qalmadıq gerdə.
Tatar polkunun adı söyləndi dildə,
Qürbət elə düşdü yolum neyləyim.

## YANLIŞ DA BİR NAXIŞDIR.

Füsunkar Krıma səfərimin son günü idi. Sağollaşmaq üçün jurnalist dostum Valeri Kotinevə zəng vurdum.

- İnanmıram bu gün yola düşə biləsən, - deyə həyəcanla bildirdi, - çünki qəhrəman həmyerlinlə çiyin-çiyinə vuruşan veteranlardan biri xahiş edib ki, onu səninlə tanış edim. Vaxtı itirmədən veteranlar komitəsinə gəl, mən də oraya gedirəm.

...Axtardığımız adamı veteranlar komitəsində tapmadıq. Bir-başa onun evinə yollandıq. Mərkəzi meydandan keçib Leonov küçəsindəki otuz üç nömrəli evin darvazasını döydük. Həyətdə ucaboylu bir kişi göründü. Bizi görən kimi qapını açdı. Valerini qabağa buraxıb diqqətlə məni süzdü:

- Salam, oğul, - deyib məni qucaqladı. On günlük səfərim zamanı ilk dəfə qocanın dilindən doğma sözləri eşidərkən özümü saxlaya bilmədim, mən də onu qucaqladım. O, ana dilimizdə bu iki kəlməni çox şirin və aydın dedi. Elə güman etdim ki, bu adam həmyerlimizdir, müharibədən sonra burada məskən salıb. Qoca bir daha diqqətlə mənə baxıb:

- Cavan oğlan, - dedi. - Müseyib Allahverdiyevi tanıyırdınızmı?

- Şəxsən tanımırdım, - dedim, - amma bir qəhrəman kimi haqqında çox eşitmişəm.

- Bax, belə bir qəhrəmanı nəinki şəxsən tanımaq, hətta onunla çiyin-çiyinə vuruşmaq mənə qismət olub, - deyə veteran fəxrlə bildirdi.

Bizi evə dəvət elədi. Pəncərəsi günçıxana baxan otaq geniş və işıqlı idi.

Ötən illərin xatirələri yavaş-yavaş vərəqləndi.

İstefada olan polkovnik Orlov Yakob Matveyeviç Sovet İttifaqı Qəhrəmanı, qvardiya mayoru, həmyerlimiz Müseyib Allahverdiyevlə Volqa sahillərindən Berlinə qədər dördüncü qvardiya ordusunun yüz on doqquzuncu qvardiya atıcı polkunda şərəfli döyüş yolu keçib.

- Müseyib mənim polkumda ikinci batalyonun komandiri idi, - deyə Yakob Matveyeviç igid həmyerlimizlə döyüş dostluğundan söhbət açdı, - onunla hələ Moskva yaxınlığında gedən ölüm-dirim vuruşmalarında dostlaşmışdıq. Polkumuzda yeganə komandir idi ki, milli papaqda gəzərdi. O, muharibədən əvvəl süvari dəstəsində xidmət etmişdi. Ən qızğın döyüşlərdə belə onun səsini eşidərdim. Nə döyüşdən qabaq, nə də döyüş ərəfəsində onu qanıqara görməzdik. Bu nikbin

komandirdən döyüş zamanı öz dilində alovlu sözlər eşidərdim. Bir dəfə istirahət zamanı soruşdum:

- Allahverdiyev, döyüş vaxtı sənin dilindən başa düşmədiyim sözlər eşidirəm. Onları bizə də başa sal, görək nə deyirsən?

Onun qarabuğdayı sifətinə xoş bir təbəssüm qondu, gülümsündü:

- Hə, - dedi, - mən bəzən qızışanda ana dilində "haydı əsgərlərim, yeriyin düşmən üstünə" - deməkdən özümü saxlaya bilmirəm. Bu sözlər mənim deyil, vaxtilə Azərbaycanı istilaçılardan qorumuş milli qəhrəmanımız Koroğlunundur.

O gün Müseyib mənə Azərbaycan dilində iki söz öyrətdi: "Salam" və "oğul" sözlərini. O gündən sonra komandir dostumu "oğul" deyə çağırmağa başladım. Görüşümüz zamanı bu sözləri eşidəndə təəccübləndiyinizi hiss etdim. Amma üstünü vurmadım. Bax, o vaxtdan, o tufanlı illərdən bu iki kəlməni hafizəmdə xatirə kimi saxlayıram, oğul, - deyib müsahibim gülümsünür. Sonra ayağa durub kitab rəfindən sarı cildli "Volqa çöllərindən Avstriya dağlarına qədər" adlı kitabı gətirdi. Vərəqləyib yüz iyirmi altıncı səhifəni tapdı. Orada yüz on doqquzuncu polkun döyüş yolundan bəhs olunurdu.

... Dunayın ucsuz-bucaqsız sahillərinə qardan ağ yorğan sərilmişdi. Dan yeri ağardıqca, səmadakı qatı duman qərbə doğru çəkilir, çöllər yavaş-yavaş işıqlanırdı. Batalyonun əsgərləri döyüşə hazır dayanmışdılar. Kapitan Allahverdiyev balaca bir dikdirdə uzanıb qarla örtülü çöllərə baxır, doğma Qarayazını, Kür qırağını xatırlayırdı. Ceyrançöl düzünu də qar beləcə örtəndə yataqlara gediş-gəliş azalır, yollar, cığırlar itirdi. Yalnız xırda təpələrdə ac canavarlar və azğın küləklər ulaşırdı. İndi Dunayın o tayında soyuqdan ulaşan frislər kimi... Onun qəlbi müqəddəs Vətənimizə soxulmaq istəyən düşmənə qarşı acı bir kinlə dolmuşdu...

Dağlar qartalı üç ay sonra Budapeşt yaxınlığında daha cəsarətlə vuruşaraq düşmənin yeddi yüz əsgər və zabitini əsir aldı. - Yakov Orlov həyəcanla və fəxrlə ağır gün dostunun qəhrəmanlığından danışır - Budapeştdə bizim üçün, şəxsən mənim üçün böyük bayram idi. Burada qollarımı geniş açıb "oğlumu" doğma balam kimi sinəmə sıxdım. Müseyib Allahverdiyev SSRİ Ali Soveti Rəyasət heyətinin min doqquz yüz qırx beşinci il iyirmi dörd mart tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı kimi şərəfli ada layiq görülmüşdü.

- Bu yaxınlarda məni Xmelnitsk şəhərinə əsgərlərlə görüşə dəvət etmişdilər. Vaxtilə Müseyiblə bu şəhər uğrunda çiyin-çiyinə vuruşmuşuq. Şəhərin "Döyüş şöhrəti" muzeyində "oğlum" haqqında ayrıca guşə var. Xmelnitskidəki on beş nömrəli orta məktəbin pioner dəstələrindən biri Müseyib Allahverdiyevin adını daşıyır.

Krım veteranı "M.Allahverdiyev" adına dəstənin pionerlərilə birgə çəkdirdiyi şəkilləri bir-bir mənə göstərir.

- Yakob Matveyeviç, "oğlunuzun" ailəsilə necə, görüşürsünüzmü?

- Biz Müseyiblə çox gec əlaqə saxlaya bildik. Min doqquz yüz altmış yeddinci ildə qəfildən ondan bir məktub aldım. O neçə illərdi ki, məni axtardığını yazırdı. Bir xeyli məktublaşdıq. Həmişə də bu yaxınlarda görüşmək üçün vədələşirdik, amma imkan olmurdu. Düzü qəhrəman dostumun ölümünü eşidəndə böyük Marksın müdrik kəlamlarını xatırladım: "Qəhrəmanların ölümü günəşin batmasına bənzəyir". Bir müddət mənə elə gəldi ki, doğrudan da bu füsunkar Krımda günəş doğmur. Sonralar oğlu Abdulla ilə görüşüm mənə ən yaxşı təsəlli oldu. Ata oğula necə də oxşarmış. Qəribə də olsa mən indi Abdullanı da "oğlum" deyə çağırıram. Sağ olsun, o hər il mənim görüşümə gəlir. Havalar xoş olan kimi Abdullanın dəvətilə Qazağa gedib, "böyük oğlumun" məzarını ziyarət edəcəyəm.

Qəhrəmanın oğlu polkovnik Abdulla Allahverdiyev:

- Atam Dağkəsəməndə yoxsul kəndli ailəsində anadan olub. Otuz birinci ildə könüllülər sırasında ordu sıralarına gedib. Bir müddət Bakıdakı milli Azərbaycan diviziyasında xidmət edir.

Özü danışırdı ki, o vaxt general Əliağa Şıxlinski tez-tez bizim diviziyaya gəlib artilleriyadan, süvari qoşun növündən, hərbi döyüş taktikasından mühazirələr oxuyar və təlim məşqlərə nəzarət edərdi. Bir dəfə dörd nəfər əsgəri müşahidə məntəqəsinə çağırdılar. Onların arasında mən də vardım. General bizim hər birimizlə ayrılıqda söhbət elədi, sonra isə bizə: "balalarım, - dedi, - sizi Tbilisidəki üçillik Zaqafqaziya Hərbi-Siyasi məktəbinə oxumağa

göndərməyi qərara almışıq. Bacarıqlı və cəsur olun, bizə, xalqımıza milli hərbi mütəxəssislər çox lazımdır. Unutmayın, bir millətin ki, silah tutan oğlu, milli ordusu yoxdur, onun torpağına da təcavüz edərlər, ana və bacısının namusuna da toxunarlar.

Atam general Əliağa Şıxlinskinin xeyir-duası ilə min doqquz yüz otuz altıncı ildə hərbi məktəbi baş leytenant rütbəsində bitirir. Bundan sonra bütün şüurlu həyatını hərbi işə həsr edir.

Qazax şəhərinin mərkəzində bir küçə var. - General Əliağa Şıxlinski küçəsi... Bu küçənin lap başlanğıcında isə Sovet İttifaqı Qəhrəmanı, qvardiya mayoru Müseyib Allahverdiyevin tunc büstü qoyulub. Bilmək olmur, bu kimin səhvidir. Bəlkədə küçəyə ad verənin, ya da büstü məhz burda qoyanın vaxtilə Şıxlinskinin iyirmi bir yaşlı Müseyib Allahverdiyevə verdiyi xeyir-duadan, ata qayğısından xəbəri varmış. Ata Şıxlinski oğul Müseyibə qonaq gəlib. Hər halda yanlış da bir naxışdır.

Üzü Göyəzənə, Avey dağlarına baxan tunc heykəlin gözlərində döyüşdən qalib qayıtmış əsgər məğrurluğu var...

Nəşriyyatın direktoru Ə.T.Əliyev.
Mətbəənin direktoru A.Ş.Quliyev.

Rəssamı F.Əfəndiyev
Bədii redaktoru N.Rəhimov
Texniki redaktoru N.Şərifova
Korrektoru A.Abasova
İB № 2594.